

Professor Fikrət Seyidov 1930-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1946-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xarici Dillər fakültəsinə daxil olmuş və 1950-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Orta məktəbdə və daha sonra APİ-də müəllim işləmişdir. 1962-ci ildən Xarici Dillər İnstitutunda fəaliyyət göstərir. İşlədiyi dövrdə iki illik Xarici Dillər Kursunun ilk direktoru, Xarici DİllƏr İnstitutunun ingilis dili fakültəsinin dekan müavini, dekanı və kafedra müdüri vəzifələrində çalışmışdır.

2-ci ildən elmlər namizədi, dosent, 1987-ci ildən Pedaqogika ədrasının professorudur. Professor Fikrət Seyidov 100-dən elmi metodiki əsərlərin müəllifidir.

n "Azərbaycan müəllimlərinin hazırlanmasında Qori seminasının rolu", "Qori seminariyası və onun məzunları", "Qazax inariyası və onun məzunları" , "Türk xalqlarının tərbiyə və təb tarixinə dair", "Azərbaycan Pedaqoji fikir tarixindən rələr", "Aslanbəylidən başlanan xatirələr" monoqrafiyaları aqoji fikir tarixini öyrənmək, soy kökümüzə qayıtma və gənc lin tərbiyəsi baxımından son dərəcə faydalı əsərlərdir. fessor Fikrət Seyidov C.Məmmədquluzadə, F.Köçərli, Üzeyir ıbəyov, R.Əfəndiyev, M.Kaşkari, Yusif Xas Hacib, N.Tusi və bir başqa görkəmli şəxslərin pedaqoji görüşlərini araşdırmışdır.

fessor Fikrət Seyidovun baza təhsili ingilis dili müəllimi oldudan o, bu sahədə də xeyli iş görmüşdür. Azərbaycan ktəbləri üçün ilk proqramların hazırlanmasında yaxından rak etmiş və V, VI, VII, VIII siniflər üçün ingilis dili sliklərinin və Avropa standartlarına müvafiq 2002-ci ildə dan çıxmış 6-cı sinif üçün dərsliyin və müəllim üçün vəsaitin əlliflərindən biridir. Professor Seyidov eləcə də Azərbaycanda ici dil üzrə ilk texniki vasitələr mövzusunda "Xarici dil slərində diafilm", "Texniki vasitələr və şifahi nitqin inkişafı arı" əsərlərin müəllifi, eləcə də 8 illik məktəbdə "Xarici dillərin risi metodikası" kitabının müəlliflərindən biridir. Professor rət Seyidov Ümumdünya dərsliklər probleminə həsr olunmuş ninarın iştirakçısı olmuş, London, Moskva, Alma-Ata, Tbilisi və çox başqa ölkələrdə elmi məruzələrlə çıxış etmişdir.

**Fìkrət Seyìdov**

# Dədə Qorquddan Şəhriyara qədər: Güney Azərbaycanda pedaqoji fikir





**FİKRƏT SEYİDOV**

# DƏDƏ QORQUDDAN ŞƏHRİYARA QƏDƏR: GÜNEY AZƏRBAYCANDA PEDAQOJİ FİKİR

**IV KİTAB**

**BAKI - 2003**

*Elmi redaktor:* ped.e.n.dos., yazıçı-publisist
**Allahverdi Eminov**

*Rəyçilər:* Gürcüstan Pedaqoji Elmlər Akademiyasınm
müxbir üzvü pedaqoji elmlər doktoru, professor
**Əmrulla Paşayev**
Pedaqoji elmlər doktoru, əməkdar müəllim,
professor **Əjdər Ağayev**
Pedaqoji elmlər namizədi dosent **Vidadi Bəşirov**

*Korrektor:* **Yusifova Sədaqət** Hacıbala qızı

*Üz qabığının tərtibçisi:* doktor A**ristotelis Papaioannou**

Əsər Azərbaycan Dillər Universitetinin elmi şurasının
27 noyabr 2002-ci il tarixli 9№-li iclasında
müzakirə edilmişdir.

# MÜNDƏRİCAT

Güney Azərbaycanına məhəbbətlə . . . . . . . . . . . . . . . . . . . .5
Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən bir neçə söz . 12
"Dədə Qorqud"da tərbiyə məsələləri . . . . . . . . . . . . . . . .24
Nəsrəddin Tusinin tərbiyə haqqında fikirləri . . . . . . . . . .41
Hacı Mirzə Həsən Rüşdiyyənin həyatı,
fəaliyyəti və pedaqoji ideyaları. . . . . . . . . . . . . . . . . . . 47
H.M.Həsən Rüşdiyyənin "Vətən Dili" kitabının quruluşu 52
Rüşdiyyənin "Vətən dili" dərsliyindəki
mətnlərin tərbiyəvi əhəmiyyət . . . . . . . . . . . . . . . . . . . 55
Rüşdiyyənin "Vətən Dili" dərsliyindən nümunələr . . . . .58
Mir Mehdi Etimadın (Natiqi) tərbiyə haqqında fikirləri . .63
Mir Mehdi Etimatın əsərlərindən nümunələr . . . . . . . . . .71
Həbib Sahirin tərbiyə haqqında fikirləri . . . . . . . . . . . . . .77
Həbib Sahirin şerlərindən bir neçə nümunə . . . . . . . . . . .86
İrəc Mirzənin tərbiyə haqqında fikirləri . . . . . . . . . . . . . .94
İrəc Mirzənin əsərlərindən nümunələr . . . . . . . . . . . . . . .98
Seyid Rza Sabir təlim və tərbiyə haqqında . . . . . . . . . . .103
Seyid Rza Sabirin əsərlərindən bir nümunə . . . . . . . . . .105
Məhəmməd Hidəcin pedaqoji fikirləri . . . . . . . . . . . . . .108
Məhəmməd Hidəcin əsərlərindən nümunələr . . . . . . . . .113
Mirzə Kazım Qazi Əsgərzadə Mətlənin
tərbiyə haqqında fifikləri . . . . . . . . . . . . . . . . . . . . . . .118
Mir Mehti Çavuşinin tərbiyə haqqında fikirləri . . . . . . . .121
Mirzə Əbdürrəhim Talıbovun tərbiyə haqqında fikirləri 126
Məhəmməd Bağır Xalxalinin tərbiyə haqqında fikirləri 135
Məhəmməd Bağır Xalxalinin "Tülkünamə"
əsərindən parçalar. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 140
Məhəmməd Hüseyn Şəhriyarın pedaqoji görüşləri
Məhəmməd Hüseyn Şəhriyarın həyatı . . . . . . . . . . . . . .147
Məhəmməd Hüseyn Şəhriyarın dünyagörüşü . . . . . . . . .155

-6746-
3. OYU-
KİTABXANA

Məhəmməd Hüseyn Şəhriyar
insan şəxsiyyətinin təşəkkülü haqqında . . . . . . . . . . . . 166
Məhəmməd Hüseyn Şəhriyar tərbiyə və elm haqqında 169
Məhəmməd Hüseyn Şəhriyar əxlaq tərbiyəsi haqqında 183
Məhəmməd Hüseyn Şəhriyar əmək tərbiyəsi haqqında 188
Məhəmməd Hüseyn Şəhriyar estetik tərbiyə haqqında 191
Məhəmməd Hüseyn Şəhriyar ana dili haqqında . . . . . .202
Məhəmməd Hüseyn Şəhriyar ailə tərbiyəsi haqqında . . .208
Məhəmməd Hüseyn Şəhriyar xalq maarifi haqqında . . . .214
Məhəmməd Hüseyn Şəhriyar müəllim haqqında . . . . . . .216
Məhəmməd Hüseyn Şəhriyar qadın
azadlığı və qadın təhsili haqqında . . . . . . . . . . . . . . . . .223
Məhəmməd Hüseyn Şəhriyar ekoloji tərbiyə haqqında 228
Summari . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .231
İstifadə olunmuş ədəbiyyat . . . . . . . . . . . . . . . . . . . . . .233

## GÜNEY AZƏRBAYCANINA MƏHƏBBƏTLƏ

Mən hələ pedaqoji institutda oxuyurdum; Cənubi Azərbaycandan, onun tarixindən və ədəbiyyatından söz düşəndə bir giley, təəssüf hissi oxunurdu. O müəllimlərin dilindən ki: məşhur tarixçilər, ədəbiyyatşünaslar və pedaqoqlardı. Bəlkə də biz tələbələrə elə gəlirdi bu alimlər ya ideologiyadan çəkinirlər, ya da mənbələrdən xəbərsizdilər, əllərində lazımi material yoxdur. Axı, müqtədir mütəxəssizlərdən Cəfər İbrahimov, Sədi Əfəndiyev, Feyzulla Qasımzadə, Əhməd Seyidov məlumatsızdılar?!

O vaxt sualın real cavabını axtarmağa mənəvi haqqımız yoxuydu, amma məntiqlə bu, mümkündü. Sən demə, əslində hər iki səbəbin rolu varmış. Ən önəmlisisə məhz Sovet ideologiyasının siyasət qılıncıydı ki, eyni qardaşları - milləti parçalasın və onların fiziki - mənəvi gücünü zəiflətsin, bəlkə də yox eləsin. Və buna da nail olmuşdu. Səksəninci və doxsanıncı illərin ab - havası hər şeyə aydınlıq gətirdi, o cümlədən milli soykökümüzə qayıdış, türkçülüyümüzə etimad, xaricə səpələnmiş görkəmli şəxsiyyətlərimizi arayıb - axtarmaq inadı. Və nəhayət, Cənubi (Güney) Azərbaycanımızın taleyi. Ayrılıq həsrətinin bədii ifadəsi. Və oda qəribəydi ki, bu parçalanmış məmləkəti xatırlayanda dilimizə "ayrılıq" elegiyası gəlir və səslənirdi. Sağ olsun Yaqub Zorufçu ki, məşhur "Ayrılıq" mahnısını Güney Azərbaycamımızdan ayırmadan bizə əmanət verdi. Müstəqilliyimiz isə qovuşma, ünsiyyət ovqatımıza şirinliyə bələnmiş ovqat qatdı. Alimlərimiz, ədəbiyyatçılarımız, şairlərimiz əbədi mövzuya qayıtdılar. Tarixçilərimiz onlardan geri qalmadı, qaynaqları aşkara çıxardılar. Bircə... Bircə pedaqoqlar qaldılar kənarda. Bu pedaqoqlar bilməm niyə hər şeydə ədəbiyyatçılara uduzurlar? Bunu

yazılarımda etiraf eləyəndə mənə irad tuturlar. Yox, elə deyil, axı! Güney Azərbaycanından söz açırıqsa, orada da istedadlı şairlər, maarifçilər, publisistlər yetişmişdir ki, onların zəngin yaradıcılığı mücrüdə qalmaqdadır; bu xəzinəni açıb mirvariləri xalqına verməк lazımdır. Hərçənd, bir neçə məqalələrdə məsələyə toxunulmuşdursa, ortaya pedaqoji fikrimizin qaynaqları qoyulmamışdır. Halbuki Güney Azərbaycanımızda hikmətə çağıran sərvətlər istənilən saydadır...

Professor Fikrət Seyidov bir neçə ildə ortaya üç samballı monoqrafiya qoydu! Bu "nida" leksika xatirinə yazılmadı. Bir alim gücünün potensialından çox üstün yazılan və xalqın ixtiyarına verilən bu kitabları vərəq-vərəq oxumuşam, saatlarla təsirinə çapılmışam. Məni hətta sərt üslublu, amma təptəzə faktla yüklənmiş elmi əsərdə təusirləndirirlər. Axı, bu da yaradıcı istedadın məhsuludur, axtarışın əbədiləşmiş dəyəridir, Fikrət Seyidov hər bir əsərində ona çalışır ki, döyənək mövzulardan qaçsın (Bu mənada pedaqogika elmində özünü çətinə salmayan, ənənəvi mövzularla ənənəvi yanaşan, yaradıcılıq fərdiliyindən uzaq pedaqoq - alimlərin sayı artmaqdadır). Belə olmasaydı, "Maarifimizin təkrarsız xəzinəsi" (2001), "Azərbaycan pedaqoji fikir tarixindən səhifələr" (2002), "Qoriyskaya seminariya i yeye vıpusniki" (2002) kitabları bizlə "dil" tapmazdı. Və hər dəfə onunla görüşəndə, yaradıcılıq söhbətinə qoşulanda, daha doğrusu "yerimizi" təyin eləyəndə dənizkənarı bulvarı məsləhət bilir. Mən əvvəllər bunda bir məna axtarmırdım. Evi dənizə yaxındır və dənizin havası təmizdir, Fikrət müəllimdə sağlamdır. Sonralar ürəyimdən keçdi ki, yox, belə də deyil: Dənizdə təmizlik var, təmiz adamlarsa həmişə dənizi xoşlayar, tribunanı yox. Bu sonuncuya meyillilər dənizin qiymətini bilməzlər. Və həm də Fikrət müəllimdə şairlik, yazıçılıq vərdişi olmasa da, poetik təhkiyəsi, lakonik dili vardır. Xüsusilə, onun "Aslanbəylidən başlanan xatirələr" memuranı oxuyanda bunun şahidinə çevrildim. Sosial faktın

publisist şərhi və orijinal ifadəetmə tərzi. Sən demə, dəniz Fikrət müəllim üçün yaddaşda ələk-vələk elədiyi faktların, mühakimələrin "taym-aut" götürmə vaxtı imiş.

Dəniz dəniz kimi təmiz qəlbli adamlarındı. Bu dəfə də dəniz qırağında görüşdük. Yorğun deyildi, amma ürəyi doluydu və bu hissləri həmfikir axtarırdı.

-Allahverdi, - dedi. - Əlyazması hələlik səliqəsizdir, bir - iki günə hazırdır. - Qəzetə bükülmüş yazılmış ağ vərəqləri çıxardı. - Cənubi Azərbaycanda pedaqoji fikir tarixindəndir.

Yadıma 5-6 ay əvvəl mənə dediyi: "Cənubi Azərbaycan məni yaman tutub", - sözləri düşdü. İstədim soruşam ki, Fikrət müəllim, bu doğma Diyarın nəyi sizi tutub, - ehtiyatlandım və müəllimimə bu sual verməyə cəsarətim çatmadı. Həm də Firkət müəllim ürəyi kövrək, tez təsirlənən, həssas adamdı və hissə qapılmaq mümkün işdi.

"Dədə Qorqud" dastanlarından başladım. - Sözləri xəyalımı qırdı və özümü müsahibimə topladım. - Bu xalq xəzinəsi elə Güney Azərbaycanımızda da oxunub, yayılıb və doğma sərvətə çevrilibdir. Onu ayırmağa ehtiyac qalmır.

Artıq əlyazmaları vərəqləyirdim. Qeydlər, düzəlişlər təmkinlə aparılmışdı. Vərəqlərin solunda başqa rənglə yazılmış cümlələr də yox deyildi. Ürəyimdən keçdi ki, o, öz yaradıcı əməyinə qarşı nə qədər səmimi və amansızdır. Bu iki amil yoxdursa... Allah oxucuları o müəllifə tuş gətirməsin!

Nəhayət, kitabda verilmiş mənbələrin sırasına göz gəzdirdim və heyrətləndim. Bir daha qətiləşdirdim ki, Fikrət Seyidov atası Əhməd Seyidovdan keçmə yazı məsuliyyətinə malikdir, öncə oxucularına qarşı cavabdehdir.

Kitabda yazdığı "Bir neçə söz"də təmkinlə məqsədini açıqlayır, ədəbiyyat mətnlərinə, müəlliflərin özünə münasibətini bildirir.

...Biz xeyli gəzdik, gəlib - gedənlərin simasını almış qayğıya laqeyd qalmadıq. Ziyalılarla salamlaşdıq. Xüsusilə, Fikrət

müəllimi tanıyanlar dərhal ayaq saxlayır, əl verir, əhval tutur, sonra yoluna davam eləyirdilər. Bu, onun elitar mühitdə böyük nüfuz sahibi olduğunu göstərirdi. Ümumiyyətlə, professor F.Seyidov Azərbaycan pedaqoji elminin mübaliğəsiz bir nömrəli alimidir; bu qiyməti münasibətimə görə xatırlatmıram. Alimin işıq üzü görmüş bütün kitablarını ya redaktor məsuliyyətiylə oxumuşam, ya "Ön söz" yazmışam, ya da oxucu marağı ilə. Onun nədən və necə yazdığım sanki özüm "yaşamışam". Bu qeydləri oxuyanlarda qısqanclıq hissi yaranmasın; onsuz da bu ovqat bəzi pedaqoqları içərisindən didib - parçalayır və xəstəliyə tutulurlar. Vallah, necə yazmaq Allah payıdır, bu dəyərə qisməti düşməyənlər niyə inciyirlər? Hərdən bir məqalə, bir kitab çap elətdirir ki, oxucu yaddaşından çıxmayasan. Onsuz da əksər müəllif - oxucu zövqü o qədər aşağı səviyyəyə düşübdür ki, məzmuna - formaya, dilə - üsluba qiymət verməkdə subyektivdilər. Onları imzaların kəmiyyəti fərəhləndirir. Mən bu gün lap yaşlı pedaqoqları xatırlayıram ki, "klassik nüfuzlarında" və "professor" rütbələrində gizlənməkdədilər. Ədəbiyyatçılar söz düşəndə miyanə "xalq şairlərinə" Füzulini, Sabiri nümunə gətirirlər! Axı, onlar rəsmi "Xalq şairi" deyildilərsə, xalqın şairiydilər. Fikrət Seyidov nə "Əməkdar elm xadimidir", nə də "Akademikdir" müqabilində görkəmli pedaqoq - alimdir və bunu bir tədqiqat İnstitutunun 5-10 ilə bigə apardığı elmi - tədqiqatla müqayisə edərdim. Budur, hələlik sonuncu əsəri: Cənubi (Güney) Azərbaycan pedaqoji fikrinə dair oçerklərin toplusu. Tədqiqatdan bu günə qədər kənarda qalan şəxsiyyətlərin yaradıcılığının araşdırılması. N.Tusinin, Hacı Mirzə Həsən Rüşdiyyənin, Mir Mehdi Etimadın (Natiqin), Həbib Sahirin, İrəc Mirzənin, Seyid Rza Sabirin, Məhəmməd Hidəcin, Mirzə Kazım Qazi Əsgərzadənin, Mir Mehdi Çavuşinin, Mirzə Əbdürrəhim Talıbovun, Məhəmməd Bağır Xalxalinin və nəhayət Məhəmməd Hüseyn Şəhriyarın təlim - tərbiyəyə aid fikirləri, maarifçilik missiyaları və həyatlarından fraqmentlər.

Çağdaş pedaqoqlar mənimlə razılaşar ki, ilk dəfə olaraq onları professor Fikrət Seyidov tədqiqata cəlb etmiş, gərgin yaradıcı əməyindən qorxmamışdır. Sonuncunu "özünü əziyyətə salmamaq" sözləriylə də əvəz etmək olardı... Şəhriyara qədər bu simalar bizə məlum deyildi və biz bu cür oğullarımızı tanımırdıq. Ali məktəblərin "Pedaqogika tarixi" dərsliklərində, digər əsərlərdə gənc nəslə bəlli deyildi. Onlar daha öz xələflərinin fəaliyyətiylə yaxından tanış olacaqlar.

Mən "M.H.Şəhriyarın pedaqoji görüşləri" oçerkini həvəslə, təmkinlə oxudum. Bəllidir ki, bu görkəmli şair Sələfi Füzulidən sonra ikinci simadır ki, üç dildə şerlər qələmə almışdır. Farslar da xüsusilə, Şəhriyarı poeziyanın bütü saymaqdadılar və onun layiqli qiymətini vermişlər. Bunun üçün biz fars zövqünə təşəkkürümüzü bildirməyə borcluyuq. "İgidlərin İran üçün şəhid olub" əvəzində -"Dərd almısan, qəm almısan sən İrandan Azərbaycan" - deyən bir cəsarətli şair.

Şəhriyar həmişə milli azadlıq hərəkatını izləmiş, ona laqeyd qalmamışdır. Səttərxan və Şeyx Məhəmməd Xiyabaninin fədakarlığını yüksək qiymətləndirmişdir.

Müəllif oçerkində Şəhriyarın həyat və fəaliyyətindən irəli gələn ictimai - sosial və mənəvi proseslərə münasibətini təhlil etmiş, xüsusilə, şairin dünyagörüşünü qabarıq vermişdir. Və yaradıcılığının 4 mərhələsi fonunda dünyagörüşünün müsbət və çatışmayan cəhətlərini yaşadığı mühitlə əlaqələndirmişdir.

F.Seyidov Şəhriyarın gənc nəslin təlim - tərbiyəsi işində öz poeziyası ilə xidmətini ayrıca vurğulamışdır. Şəhriyarın insan şəxsiyyətinin təşəkkülü barədə fikirlərinə aydınlıq gətirmiş, onlarla şerində bu fikirləri axtarmışdır. Şəhriyara görə, əgər tərbiyə üçün lazımi şərait olmayıbsa, narahat olmaq lazım deyil, həyat yel kimidir. Bu gün şərait olmasa da, sabah o gələcək:

Hədər getmiş isə gənclik əzizim, qəlbini sıxma
Həyat yeldir, qəmə batma, şirin cana qıyan bülbül.

Oçerkdə şairin elm, əmək, estetik, ekoloji, ailə tərbiyəsi haqqında fikirləri müəllif tərəfindən sistem halında araşdırılmışdır. Eləcə də ailə tərbiyəsi, qadın bardə, ana dili, maarifçilik kimi vacib məsələlər oçerkdə təhlilini tapmışdır. Şəhriyar insanlığı, bir kəşfin, ixtiranın məhz ölümə deyil, yaşamağa, həyata xidmətini qiymətləndirərək deyirdi ki, əfsus Eynşteyn kimi dahi bir ixtiraçının elminin nəticələri insanlığın rifahına deyil, ölümünə səbəb olmuşdur. Xeyirxah bir iş, böyük bir ixtira bəd əməlli adamların əlində insanlığı məhvə apara bilər, insanlıq arasında vəhşilik baş verər, ortadan rəhm, dəyanət, səadət, məhəbbət qalxa bilər.

"Heydərbabaya salam" məşhur poeması Fikrət Seyidovun da diqqətindən kənarda qalmamışdır. Belə ki, poemanın tərbiyəvi tərəflərini təhlil etmiş uşaqların psixologiyasını açmış, uşaqlıq xatirələrin məktəblilərdə yüksək insani duyğular, təmiz hiss və həyəcan oyatdığını vurğulamışdır. Poemada uşaqların müstəqilliyi, yaradıcı qabiliyyəti, zəhmətkeşliyi və s. vermişdir.

Qarı nənə gecə qapı döyəndə,
Külək qalxıb qapı-bacanı döyəndə,
Qurd keçinin Şəngülümünü yeyəndə,
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gün açıb ondan sonra solaydım.

Poemada təbiət təsvirlərinə diqqətli yanaşan F.Seyidov kövrək təhkiyə ilə gənc nəslin ekoloji tərbiyəsindəki rolunu qeyd edir və maraqlı nümunələrlə fikrini əsaslandırır.

Maraqlı cəhətdir ki, professor "M.H.Şəhriyar əxlaq tərbiyəsi haqqında", "M.H.Şəhriyar estetik tərbiyə haqqında", "M.H.Şəhriyar ana dili haqqında", "M.H.Şəhriyar ailə tərbiyəsi haqqında", "M.H.Şəhriyar xalq maarifi haqqında" və digər bölmələrdə qüdrətli sənətkarın pedaqoji fikirləri əhatəli təhlil olunmuşdur. Və yəqin ki, maraqlı oxucular çox şeyi əxz edəcəkdir. Yuxarıda adlarını çəkdiyim güneyli ziyalılarımızın, maarifçilərimizin həyatlarından maraqlı faktları gətirir, onların

elmi və bədii əsərlərindəki pedaqoji məsələləri araşdırır. Ən duyğulu nümunələri verməklə, həm də oxucunu yorumdan qurtarır. Eyni zamanda həmən misallardan istifadə etmək də məqsədəuyğun olardı...

Güney Azərbaycanda pedaqoji fikrin təhlilini və ayrıca kitab halında nəşrini mübaliğəsiz sensasiya hesab edirəm. Bu ağır və şərəfli işin öhdəsindən məharətlə gələn böyük alimimiz, professor Fikrət Seyidov xeyirxah bir addım atmışdır. Şübhəsiz, yeni yazarlarımız - pedaqoqlarımız bu qaranquş addımı daha da genişləndirəcəklər. Amma tarix "sözündə" israrlıdır: "Güney Azərbaycanda pedaqoji fikrin ilk tədqiqatçısı professor Fikrət Seyidov!" Tamamilə haqlı qiymətdir.

Mən əlyazmanı sonadək oxudum. Və hər vərəqdə qürurlanırdım ki, nə qədər zəngin Məmləkətik və nə qədər istedadlı Xalqıq. Həm araşdırılan maarifçi - ziyalılarımıza görə, həm də bunu araşdıran Müəllifə görə! Burda da haqlı qiymətdir.

Mən bir də onun üçün qürurlanıram ki, bu günə kimi Güney Azərbaycan barədə bir məqalə də olsun yazmamışam, yaxud hansısa əsərin redaktoru olmamışam. Bu, haradasa yaradıcılığımda boşluqdur. Lakin bəxtim gətirdi ki, müəllimimin kitabını oxumaq və ona nəsə ürək sözümü yazmaq mənim qismətimə düşdü. Hərçənd, daha bitkin və geniş yazmaq mümkündü: nədənsə bu yolu tutmadım. Bəlkə də ehtiyatlandım ağır işin öhdəsindən gəlməkdə. Yox, qoy çox nüanslar oxucu ixtiyarında qalsın. Və bir də professor Fikrət Seyidovun qələmindən neçə-neçə əsər çıxacaq, məni Dəniz qırağına çağıracaq, oturub müəllim-tələbə söhbəti edəcəyik. Buna heç kəsin şübhəsi qalmasın.

Mən müəllifə güney dolu məhəbbəti üçün "Çox sağ olun, professor", deyirəm və bu payız günü məqaləmə imzamı və son nöqtəmi yazıram.

***Allahverdi Eminov***
***Yazıçı və jurnalist, dosent***
***06.10.2002.***

*Unudulmaz müəllimim Qulam Kərim oğlu Məmmədovun,*
*və əvəzsiz xidmət göstərmiş bütün Azərbaycan*
*müəllimlərinin əziz xatirəsinə ithaf edirəm.*

# AZƏRBAYCANDA PEDAQOJİ FİKRİN İNKİŞAFI TARİXİNDƏN BİR NEÇƏ SÖZ

Bu gün Azərbaycanda Demokratik inkişaf dönməz xarakter alıb. Tarixi yolların qovuşmasında yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması, həm Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir. Biz ümumi Avropa dəyirləri xazinəsinə öz tövhəmizi gətirməliyik. Bu tövhə Avropada Demokratik sabitliyi möhkəmlətməklə yanaşı, avropalıların şərq xalqlarının tarixinə, o cümlədən pedaqoji fikir tarixinə, daha dərindən bələd olmasına kömək edəcəkdir.

Azərbaycan Respublikasının yenidən müstəqillik əldə etməsi, bütün sahələrdə olduğu kimi, pedaqoji fikirin tədqiqi və inkişafı üçün də geniş imkan yaratmışdır. Ölkəmizin, müxtəlif elm sahələrində olduğu kimi, pedaqoji fikrin inkişafı sahəsində də zənqin tarixi var.

Azərbaycan xalqının folklorunda olan zəngin tərbiyə motivləri bunun parlaq misalıdır. Onun müdrik atalar sözü və zərb məsələləri, nağıl, epos və dastanları, azərbaycan xalq pedaqoqikasının ilk müjdəçisi olmuşlar. Böyük rus pedaqoqu K.D.Uşinski bu barədə yazırdı: "Mən guman etmirəm ki, xalq pedaqogikasının dühası ilə mubahisə etməyə kimsə qadir ola"[1]. Azərbaycan xalqının bu dahiyanə xalq pedaqoji yaradıcılığı doğma torpağa, incəsənətə, biliəyə, elmə, fiziki kamilliyə hörmət və məhəbbət kimi gözəl və xeyirxah keyfiyyət tərbiyə etmişdir. Bu müdrik kəlamlar ruhunda tərbiyə olunan nəslimiz həmişə ölümü qul kimi yaşamaqdan üstün tutmuşlar. Xalq

1 K.D.Uşinski. Seçilmiş əsərləri. Azərnəşr, 1953.

folklorundan və türk xalqmın tarixindən gənc nəslin tərbiyəsinə keçmiş, bu gözəl və nəcib ənənələr azərbaycan klassiklərinin və maarifpərvərlərinin yaradıcılığında, bədii əsərlərində dərin məzmunla daha yüksək formada ifadə olunmuşdur. Xalq pedaqogikasının irəli sürdüyü pedaqoji fikirlər içərisində diqqətə layiq olan və indi də özünün əhəmiyyətini itirtmiyən məsələlər az deyil. Bu fikirlər pedaqogika tarixini öyrənmək və onları sistemə salmaq üçün böyük əhəmiyyət kəsb edir. Bu vəzifənin öhdəsindən ləyaqətlə qəlmək üçün ayrı-ayrı türk xalqlarınm pedaqoji fikirlərinin inkişafı tarixini öyrənmək lazımdır. Bir neçə misal gətirək. Hələ çox uzaq keçmişdə İmam Qazali tərbiyə məsələlərinin bütün sahələrinə toxunaraq uşaqların təbiətindən pis keyfiyyətləri çıxarıb yaxşıları onların həyatı tələbatına çevirməyi lazım bilirdi. O sübut edirdi ki, uşaqlarda onları məhvə aparan pis keyfiyytlərlə yanaşı, onları xoşbəxtliyə aparan yaxşıları da var. İnsan şəxsiyyətinin formalaşmasında tərbiyənin böyük rolunu görən Qəzali uşhaqları pis vərdişlərdən uzaqlaşdırmaq üçün onlara təlim-tərbiyə verməyi, lüzumsuz biliklərdən qaçmaqı, əxlaqı pozan zinət şeylərindən uzaq olmaqı öyrədərkən, onlara həya hissi, mədəni vərdişlər aşılamağı, doğru və yalan şeylər üçün and içməməyi, uşaqları dözümlü mətin tərbiyə etməyi lazım bilirdi. Eləcə də başqa bir türk mütəfəkkiri İbn Qafil "Təbiət insanı"adlı əsərində özündən əvvəlki ədib və tərbiyəçilərdən bir azda irəli gedərək tərbiyə prosesində uşaqları inkişaf etdirməyi irəli sürürdü. Onun pedaqoji ideyaları şərqdə o qədər geniş yayılmışdı ki, həttə əsərləri inqilis, alman dillərinə tərcümə edilərək dünya pedaqoji fikrinin inkişafına təkan vermişdir. İbn Qafil ilk dəfə təlimdə marağın yaradılması və şagirdlərin müstəqil düşüncə tərzinə malik olması kimi o zaman yeni olan pedaqoji müddəaları irəli sürdü. Avropa onun əsərlərinldən bəhrələndi. Fransız pedaqoqu və filosofu Jan Jak Russo azad tərbiyə nəzəriyyəsini, Daniel Defo "Robinzon Kruzo" əsərində müstəqil düşünmə,

hər bir şeyə insanın özünün müstəqil qənaətə gəlməsi ideyasını İbn Qəfildən əxz etdi. Alman pedaqoqu Karl Şmidt "Tərbiyə tarixi" əsərində İbn Qafili Auvropanın Rusosu adlandırmışdır. Halbuki, Russodan çox-çox qabaq yaşayan və orijinal fikirlər söyləyən İbn Qafili yüksək qiymətdləndirməmək insafsızlıq olardı. Belə demək lazımdır: "Russo Avropanın İbn Qafildir". Avropalılar Şərqdən orijinal fikir və ideyaları götürdükləri halda şərqi gerilik, avamlıq kimi qələmə vermişlər. Fransız alimi Albert Çamplor, "Səlahəddin islam qəhramanlarının möhtəşəmi" adlı əsərində Avropanm şərq mədəniyyətindən dərs aldığını yazırdı. Bir az da keçmiş tarixə nüfuz etsək görərik ki, islamı qəbul edən ilk türk dövlətlərində tərbiyə nöqteyi nəzərindən olduğça qiymətli əsərlər olmuşdur. Məsələn: Türk müsülmanların tərbiyə və əxlaqı haqqında məlumat verən "Altun kitab", "Günəş kitab", "Satun Buğra haqqında", Orxon Yenisey yazıları və “Manas” dastanlarını misal gətirmək olar. Daha sonra Qarxanlı və Səlcuq dövlətlərində tərbiyə və əxlaq nöqteyi nəzərindən çox böyük əhəmiyyət kəsb edən Mahmud Kaşqarının "Divani Lüğəti-it-Türk". Yusif Xas Hacibin "Kudatku bilik", Əhməd Yuqnakinin "Əqibətül həqayıq", Əhməd Yasəvinin "Divani Hikmət" əsərləri yazılmışdır.

Elmə, tərbiyəyə, təhsilə və mədəniyyətə böyük əhəmiyyət verən Səlcuqlar dünyanm ən məşhur ilk "Nizamiyyə" universitetini yaratmışlar. Bu Universitet o qədər şöhrət tapmışdır ki, həttə Şərq və Qərbdə açılan Ali Təhsil müəssisələri "Nizamiyyə"ni özləri üçün model götürmüşlər. Biz Şərqin tarixini dərindən tədqiq etmədiyimiz və ona biqanə qaldığımız üçün pedaqogika tarixində dərs sinif sistemini, məktəbin qanunlarını Y.A.Komenskinin adı ilə bağlamışlar. Halbuki, 500 il Komenskidən əvvəl "Nizami-mülk" Universitetində dərs sinif sistemi, sinifdən sinifə keçid imtahanı, dərs ilinin eyni vaxtda başlayıb qurtarması kimi pedaqoji məsələlər mövcud olmuşdur. Belə bir faktı N.Tusi ixtiraları barədə də deyə bilərik. Onun "Əxlaqı

nasiri" və digər elmi nəzəri əsərləri ilə tanış olan bir amerikan alimi yazırdı ki, Avropa alimləri Nəsrəddin Tusinin ixtiraları ilə tanış olsa idilər onlar öz kəşflərini yenilik hesab etməzdilər. Bütün bunlar XV-XVII əsrlərdə Azərbaycan mədəniyyəti və elminin inkişafına əsaslı təsir göstərdi.

Bir daha deməliyik ki, XIV-XV əsrlərdə Avropa maarifpərvərlərinin təlim tərbiyə sayəsində irəli sürdükləri ideyaları XII-XIII əsrlərdə Şərqin, xüsusən də Türk bölgələrinin, böyük şair və alimləri tərəfindən daha geniş, daha dərin şəkildə ifadə edilmişdir. Deyiz adlı bir qərb tarixçisi "İslam xalqlarının mədəniyyəti" adlı əsərində Səlcuq türklərinin yüksək mədəniyyətə mənsub olduğunu və onların qərb ölkələrinə təsirini belə təsvir edir: "Türk islam sənət əsərlərinin, bəzək şeylərinin şimalı Avropaya təsiri və orada yayılmasının əhəmiyyəti uzun müddət gizli qalmışdır…" İslam türk sənət üslubunun Avropada haraya qədər yayındığına bu gün Vladimir və Suzdal kimi qədim kilsələrin fasadları şahid ola bilər [1]. Halbuki bir sıra Avropa və rus tədqiqatçıları, hətta rus bolşevik imperiyası dövründə öz tədqiqatçılarımızın bir qismidə türklərin mədəniyyətini, pedaqoji tarixini ancaq gerilik, avamlıq və cəhalət kimi qələmə vermişlər.

Əvvəlki əsrlərdəki, mədəniyyət və elmin inkişafı XV-XVI əsrdə Azərbaycan maarif və mədəniyyətinin inkişafına əsaslı təsir göstərdi. Məs: Ş.İ.Xətai Azərbaycan dilinin rolunu artırdı və onun dövlət dili olmasını irəli sürdü. Təbriz, Ərdəbil və Azərbaycanın digər iri şəhərlərində çoxlu şagirdləri əhatə edən məktəb və tədris müəssisələri əmələ gəldi. Bu məktəblərdə tarix, coqrafiya, etika, fəlsəfə üzrə dəyərli əsərlər yazıldı. Elmin və ədəbiyyatın müxtəlif qolları üzrə tərcümə əsərləri meydana gəldi. Təbrizdə təsviri incəsənət üzrə ali məktəb açıldı. Xətainin təşəbbüsü ilə rəssamların əsərlərindən ibarət

---

1 Deiz-Msoam xalqlarının tarixi. Heydər Bammat - Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı, 1994.

kitabxana təşkil edildi. Azərbaycanın mədəni həyatında irəliyə doğru atılan addım XVII-XVIII əsrlərdə vaxtaşırı başlanan muharibələr nəticəsində zəifləsə də Qarabağ, Tərtəbasar, Şuşada Azərbaycan maarifpərvərlərinin səyi nəticəsində yeni məktəblər açılmağa başladı. XIX əsrin əvvələrində "Mənfur Qülüstan", "Türkmənçay" muqavilələrinə əsasən Azərbaycanın Şimal hissəsi Russiyanın, cənub hissəsi isə İranın tərkibinə daxil oldu. Azərbaycanın 2 yerə bölünməsi onun hər cəhətdən, mədəni, maarif, tarixi nöqteyi nəzərindən inkişafina mənfi təsir göstərdi. Azərbaycanın şimal hissəsinin Russiyaya birləşməsi onun şərq ölkələri ilə çox əsrlik mədəni, tarixi əlaqələrini zəiflətdi. Azərbaycanın islam ölkəsi kimi formalaşmasına ciddi mənfi təsir göstərdi və onun mütərəqqi türk dünyası ilə əlaqəsini kəsərək, nəhayət Azərbaycan xalqının yadelli işğalçılara qarşı mubarizə əzmini qırdı. Şimaldakilar ruslaşmağa, cənubdakılar isə farslaşmağa başladılar. Yeni yaranan Azərbaycan ziyalı mütəffəkirlərindən İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir, Abasqulu ağa Bakixanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, Seyid Əzim Şirvani və başqaları insanın mənəvi cəhətdən formalaşmasında elmin tərbiyənin əhəmiyyəti xüsusi qeyd etdilər.

XIX əsrin II yarsında Şimali Azərbaycanda siyasi hadisələr, neft sənayesinin sürətlə inkişafı, millətlərin öz hüquqlarını anlaması, müsəlmanların mütəşəkkil çıxışları, maarifpərvər yazıçılarmızın milli ruhlu bədii əsərləri maarif və məktəb işlərinə müsbət təsir göstərdi. Belə bir oyanmadan qorxan çar höküməẗi məcburiyyət qarşısında qalıb, azərbaycanlılar üçün Qori seminariyası və onun daxilində azərbaycan şöbəsi açdı. O, bu şöbəni açarkən bir tərəfdən guya müsəlmanlara xeyirxahlıq etdiyini göstərməyə çalışır, digər tərəfdən isə özünün ruslaşdırma siyasətini həyata keçirirdi. İkinci onun əsas məqsədi olsa da çar höküməẗi buna nail ola bilmədi. Qori seminariyasının mütərəqqi müəllimlərinin xeyirxah fəaliyyəti

nəticəsində oradan dövrün geriliyinin ilk zərbəsini öz üzərinə götürən onlarla yazıçı, aktyor, şair, pedaqoq və s kimi Azərbaycan xalqının iftixarı olan Ü.Hacıbəyov, M.Maqomayev, C.Məmmədquluzadə, H.Sanlı, S.S.Axundov, Divanbəyoqlu kimi şəxslər çıxdı. Azərbaycan maarifpərvərləri xalqın savadlanması uğrunda mubarizə aparatkən yeni məktəblərin açılmasına çalışdılar. S.M.Qanizadə və M.Mahmudbəyovun başçılığı ilə, H.Zərdabi, H.Şaxtaxtinski, Məmməd Rza Ağa Vəkilov və Şəmsi Əsədullayevın iştirakı ilə Bakıda 10-a qədər rus-tatar məktəbləri açıldı və onların direktorları məşhur pedaqoq və yazıçılardan M.Mahmudbəyov, Əlicabbar İsmayılov, Bababəy Səfərəlibəyov, Suleyman Sani Axundov və digərləri oldular. Azərbaycan maarifpərvərləri eləcə də xalqın iqtisadi, siyasi və mədəni inkişafını yüksəltmək üçün qazet çıxartmaq, teatro yaratmaq, aktyor truppası toplamaq, məktəb binası tikdirmək, kitabxana və s bu kimi mədəni mərkəzlər təşkil etmək uğrunda da mubarizə aparırdılar. Dövlətdən heç bir yardımın olmayacağını duyan maarifpərvərlərimiz, xeyriyyə cəmiyyətlərinin yaranmasını zəruri hesab etdilər.

Bu işdə millətimizin fəxri Həsənbəy Zərdabinin rolu böyük oldu. Şərq, rus və Avropa mədəniyyəti, pedaqoji fikri ilə yaxından tanış olan Həsən bəy böyük çətinliklərə baxmayaraq "Əkinçi" qazetini təsis etdi (1875), xeyriyyə cəmiyyətini yaratdı. O "Əkinci" qazetinin birinci nömrəsində yazırdı: "Dövrümüzdə elmsiz yaşamaq olmaz, xüsusiilə bizim qonşular elmə yiyələnərək günü-gündən irəliyə gedir və mali-mülkümüzün sahibi olurlar". Zərdabi "Əkinci" qəzeti vasitəsiilə təbliqatım gücləndirib, dövrün ziyalılarını, vari-dövlət sahibi olanları xeyriyyə cəmiyyətlərində iştirak etməyə çağırdı. 1906-cı ildə Zərdabi və Mahmudbəyovun təşəbbusu ilə "Nicat" cəmiyyəti, onun ardınca "Nəşri maarif", "Səfa", "Səadət" cəmiyyətləri yarandı. Bu, cəmiyyətlər neçə illər çar russiyanın həyata keçirmədiyi işləri gördü. Cəmiyyət dram əsərlərini səhnəyə çıxardı.



-OYU-
KİTABXANA

Sabirin "Hop-Hopnamə" və digər şairlərin əsərlərini nəşr etdi. Məktəblər tikdirdi, müəllim kadrlarının hazırlığına yardım göstərdi, qabiliyyətli uşaqların təhsilinə maddi yardım etdi. Azərbaycan maarifpərvərlərinin XIX əsrdə məktəb, təhsil, tərbiyyə və pedaqoji fikir, müəllim hazırlığı, qazet-jurnal nəşr etmək sahəsində apardığları, gərgin işlər pedaqoji fikrin sonraki inkişafına əsaslı təsir göstərdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində təlim, tərbiyə sahəsində yeni ideyalar təbliğ olunmağa başladı. Müsəlman, məktəb və mədrəsələrində peşələr öyrənildi, avropa dilləri, sənayeyə dair biliklər, coğrafiya, dünya tarixi və anatomiya fənləri tədris edilməyə başladı.

Azərbaycanda İsmayılbəy Qaspirinskinin yaratmış olduğu "Üsuli cədid" cərəyam geniş vüsət aldı. Bu cərəyan təlim, tərbiyyə sahəsində, məktəb sistemində əsrlər boyu davam edən köhnəliyə qarşı çıxdı. Bu ideyaların Azərbaycanda yayılmasında və azərbaycan məktəblərinin Avropa standartlarına uyğunlaşmasında Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşovun xidmətləri böyük oldu. Azərbaycanda islahat aparmaq istəyən və yenilik tərəfdarı olan M.Mahmudbəyov, N.Nərimanov, F.Köçərli, C.Məmmədquluzadə, N.Vəzirov, R.Əfəndiyev, S.M.Qənizadə, Azərbaycan xalqının milli şüurunun yüksəlməsinə çalışaraq fəaliyyətlərini günü-gündən artırdılar.

Onlar pedaqoji əsərlər yazır, dərslik və dərs vəsaiti tərtib edir, ərəb əlifbasımn islahatına çalışır, məktəb işinin məzmun və metodunu yaxşılaşdırır, təlimin ana dilində olması, qız məktəblərinin açılması, uşaq ədəbiyyatının yaranması, pedaqoji jurnal və qəzetlərin nəşr edilməsi məsələləri uğrunda da dönmədən mubarizə aparırdılar. Qeyd etmək lazımdır ki, XX əsrin əvvəli böyük içtimai-siyasi hadisələrlə səciyyələndi. Kapitalizmin yaranması, neft emalı sənayesinin sürətlə inkişafı həm Cənubi, həm də Şimali Azərbaycanda patriarxal qaydaların çürüməsinə, siyasi mübarizənin genişlənməsinə və dövrün

tələbinə müvafiq yeni fikirlərin yaranmasına səbəb oldu. 1905-ci il inqilabının yüksəlişindən istifadə edərək rus imperiyasında yaşayan türk xalqları ilk dəfə birgə hərəkət etməyə, bir-birilə əlaqə yaratmağa başladılar. Bu yüksəliş müsəlman məktəblərinin açılmasına şərait yaratdı. 1905-ci ildə Nijninovqorodda müsəlman türklərinin qurultayı çağırıldı. Bu təsirin nəticəsində 1906-1907-ci illərdə Azərbaycandada müsəlman müəllimlərinin qurultayı çağırıldı. Bu qurultaylar ana dilində dərsliklərin yazılmasından başlamış məktəbin xırda təşkilatı işlərinə qədər məsələləri müzakirə etdi. Qurultay eləcə də çar hökümətinin ruslaşdırma siyasətinə qarşı mubarizə aparmağı irəli sürdü. Qurultayın işinə diqqətlə nəzər saldıqda görürük ki, N.Nərimanov, Ü.Hacıbəyov başda olmaqla, onun təşkilatçılarının 90% Qori seminariyasının məzunları olmuşlar. Çünki onlar Rus və Avropa pedaqoji fikrinə yaxından bələd olub, məktəb, təlim, tiərbiyə məsələlərinə daha dərindən nüfuz edə bilirdilər. Ona görə də qurultayın işi demokratik xarakter aldı və qurultayda irəli sürülən məsələləri həyata keçirmək üçün N.Nərimanov, A.Ağayev, C.Məmmədquluzadə, M.Mahmudbəyov, S.S.Axundov və digərləri mətbuatda əsər, məqalə və felyetonlarla çıxış edib milli hüququmuzu, mədəniyyətimizi qorumaq üçün ana dilini ön plana çəkdilər. Ana dili ətrafında mərkəzləşmiş tədris planı hazırlamağı vacib hesab etdilər. Eləcə də onlar xalqın yaradıcı quvvəsinə inam tezisini rəhbər götürüb Vaqif, Vidadi, Nəbati, S.Ə.Şirvani, Q.Zakir kimi xalq şairlərinin şerlərini çap etdirdilər. "Dəbistan", "Rəhbər", "Məktəb" adlı pedaqoji məsələləri şərh edən jurnallar yaratdılar. "1-ci il", "2-ci il", "Yeni məktəb" və s. kimi bir çox dərsliklər yazdılar.

1905-ci ildəki, bu dirçəliş "Stolıpin islahatı" və Dünya müharibəsi nəticəsində dayandı. Lakin 1917-ci ildə vəziyyət yenidən gərginləşdi. Ölkədə olan aclıq çara qarşı nifrəti artırdı. Siyasi partiyalar fəallaşdı və nəhayət çar üsul idarəsi devrildi.

Müvvəqəti hökümət yarandı. Russiyada əmələ gələn demokratiya rus imperiyasında yaşayan müsəlman türklərinin yenidən canlanmasına səbəb oldu. Krım türk tatarları nümayışlar keçirdilər. Səid Səlim Səddad, yazıçı-tarixçi Əbdül Xaliqin təşəbbüsü ilə Simferopolda müsəlmanların I və II konqresi, 1917-ci il aprel ayında Daşkəndə Türküstan xalqlarınm, Orenburqda Qazax xalqlarının qurultayları çağrıldı. Bu qurultayda müsəlmanlar üçün ibtidai məktəblərin ümumi icbari pulsuz olması, orta və ali təhsil problemləri, qadın azadlığı və təhsili məsələləri geniş müzakirə olundu. Bü müzakirələrdə Ə.M.Topçubaşov çıxış etdi və qadınların içtimai-siyasi həyata qoşulmalarının vacibliyini vurğuladı. Bu qurultay da qadınlarda çıxış edərək göstərdilər ki, millət ananın tərbiyə etdiyi uşaqlarla irəli gedir. Əgər qadınlara qarşı ədalətli münasibət olmazsa, şərəflə qaldırılan bayraq aşağı düşməlidir. Rusiya müsəlmanları arasında əmələ gəlmiş bu oyanmanm təsiri 1917-ci ildə Azərbaycanda da özünü birüzə verdi. Belə ki, Bakıda Məmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifzadə və Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Qafqaz müsəlmanlarının qurultayı çağrıldı. Qurultayda siyası məsələlərilə yanaşı maarif məsələləri də müzakirə edildi və orada Azərbaycan dilində ümumi icbari və pulsuz təhsilin həyata keçirilməsi, müəllim kadrlarının hazırlanması, Universitetin yaranması barədə qərar qəbul edildi. 1918-ci ildə istiqlaliyyət elan edildikdən sonra ADR hökümət maarif sahəsində Azərbaycanın rus dövlətinin tərkibində uzun illər əldə edə bilmədiyi məsələləri həyata keçirməyə başladı. O, mətbuatı dirçəltdi. Ana dilini dövlət səviyyəsinə qaldırdı. Təcili milliləşmə apardı. Müəllim kadrlarının hazırlığı, dərslik, dərs vəsaiti yaratmağı günün ən vacib məsələsi kimi irəli sürdü. ADR hökümət müəllim hazırlığını genişləndirmək məqsədilə Qori seminariyasmın Azərbaycan şöbəsini F.Köçərlinin başçılığı ilə Qazaxa köçürdü. Bu Şərqdə ilk pedaqoji kadr hazırlayan müəssisiə oldu və onun divarları

arasında 3000-ə yaxın müəllim hazırlandı. ADR hökuməti Azərbaycan maarifinin dirçəlməsi, savadsızlığın aradan qaldırılması və gənclərin elmi dünyagörünüşünə malik olması üçün dərsliklərin hazırlanmasma diqqəti artırdı və 1918-ci ildə Maarif Nazirliyi müəllim seminariyası, xalq maarif inspektorları və ali ibtidai məktəb müdirlərinin qurultayını çağırdı. Bu qurultayda H.Şaxtaxtinski, Azad Əmirov, S.M.Qənizadə, A.Əfəndiyev, R.Əfəndiyev, Ç.Cuvarlı, Əli Mustafayev çıxış edərək dərslik problemini həll etmək üçün 3 nəfərdən - S.M.Qənizadə, R.Əfəndiyev, H.Nərimanbəyovdan ibarət komissiya yaradılmasını təklif etdilər. Bu komissiya müəlliflər kollektivi yaratmalı və yeni dərsliklər yaranana qədər, keçmişdən qalan milli ruhumuza uyğun olan, hansı dərsliklərdən müvəqqəti istifadəni müəyyənləşdirməli və yeni dərsliklərin yazılması üçün müəlliflər kollektivi yaratmalı idilər. Qurultay eləcə də maarifpərvər yazıçı və şairlərə, sinifdənxaric oxu materialı yaratmaq üçün müraciət qəbul etdi. Bu müraciət nəticəsiz qalmadı. Dövrü, mətbuatda indi də özünün gözəlliyini itirməyən S.S.Axundov, R.Əfəndiyev, Sanllı, N.Nərimanov, Sabir, A.Şaiq, A.Səhhət və bir çox yazıçı maarifpərvərlərin bir-birinin ardınca şer və hekayələri çap olundu. Azərbaycan maarifinə xüsusi diqqətlə yanaşan ADR hökuməti kiçik yaşlı uşaqlar, xalq kütlələri və yaşlılar üçün 3 pedaqoji jurnalın açılması barədə də qərar verdi. ADR dövründə Azərbaycan maarifpərvərlərinin saysız çətin, şərəfli fəaliyyəti pedaqoji elmlər namizədi A.Qəhramanovanın disertasiyasında geniş şərh olunmuşdur, təəsüf ki, bu əsər indiyə qədər çap olunmamışdır.

Bütün bu dediklərmizdən aydın olur ki, Azərbaycan xalqının çox zənqin məzmunlu pedaqoji fikir tarixi var. Sovet hakimiyyəti illərində onlarla tədqiqatçı pedaqoq alimlər yetişmişdir. Hələ 1906-07-ci illərdə 1-ci və 2-ci müəllimlər qurultayında bütün sahələr üzrə məruzəçi olduğu halda, pedaqogika üzrə məruzəçi tapılmamışdır. Azərbaycanda ilk

pedaqoji elmlər namizədi və elmlər doktoru Qori seminariyası məzunu Ə.Seyidov bu sahədə ilk cığır açaraq 70-ə qədər alim pedaqoq hazırladı və pedaqoji fikir tarixi sahəsində yeni məktəb yaratdı. Onun davamçılarından akademik H.Əhmədov, Ə.Tağıyev, Ə.Həşimov, A.Eminov, Ə.Ağayev, Y.Talıbov və bir çox başqaları bu gün də pedaqoji fikrin tədqiqi sahəsində çox dəyərli işlər görmüşlər.

İndi pedaqogika sahəsində Nürəddin Kazımov, Əmrulla Paşayev, Həmzə Əliyev, Fərahim Sadıqov, Sabir Şəfiyev, Sərdar Quliyev, Vidadi Bəşirov, Fərrux Rüstəmov, Oktay Abbasov, İsa Musayev, Ramin İsayev, Kərim Məmmədov, Mircəfər Həsənov, Akif Abbasov, Rəfiqə Mustafayeva, Sərdar Quliyev, Rüfət Hüseynzadə, kimi qabiliyyətli tədqiqatçılar yetişmişlər.

Yuxarıda qeyd etdiymiz kimi Türkmənçay və Gülüstan müqavilələri nəticəsində Azərbaycan iki hissəyə bölündü. Şimal hissəsi Rusların, cənub hissəsi isə farsların təsir dairəsində qaldı. Bu imperialist ölkələr müstəmləkəçilik siyasəti yeridərək Azərbaycanı onun övladlarına tam mənimsətmək hüququ vermədi.

Şimal və cənubda yaşayan Azərbaycanlıların hər biri öz daxilində, öz qabında bişməyə başladı. Əmələ gəlmiş sərhədlər birinin o birindən xəbər tutmasına imkan vermədi. Bu səbəbdən də cənubi Azərbaycan pedaqoji fikri tədqiqat obyektimizdən kənarda qaldı.

Cənubi Azərbaycan haqqında balaca məlumat üzə çıxarmaq təxribat, Sovet ideoloqiyasının əleyhinə çıxmaq kimi qiymətləndirilərək, belə adamlara xalq düşməni damğası vurulurdu. İndi müstəqillik qazandığımız bir vaxtda, Cənubi Azərbaycanla sərhədlərimiz səffaflandığı bir dövrdə bizim ən ümdə vəzifəmiz otaylı, bu taylı mütəfəkkirlərimizi, maarif, içtimai xadim, şair və yazıçılarımızın tərbiyə haqqında fikirlərini tədqiq etmək olmalıdır. Cənubi Azərbaycanda tərbiyə baxımmdan, soy kökümüzə qayıtmaq yolunda o qədər qiymətli əsərlər var

ki, onları tədqiq etməmək və onları bu günkü nəslə çatdırmamaq böyük günah olardı. Bu cəhətdən Məhəmməd Hüseyn Şəhriyarın, Rüşdiyənin, Hidəc Mirzənin, Seyid Rzanın, Həbib Sahir və digərlərinin həyatı, əsərləri, pedaqoji fəaliyyətləri və tərbiyyə haqqında söylədikləri pedaqoji fikirləri xüsusi əhəmiyyət kəsb edir. Bu dühaların nəzm və nəsr əsərləri ilə tanışlıq göstərir ki, bizim xalqın nə qədər böyük qiymətli, dəyərli keçmişi və gənc nəslin tərbiyəsi üçün əvəzsiz nəsihətləri vardır. Elə bunu demək kifayətdir ki, N.Tusinin "Əxlaqi Nasiri" əsəri yeddi yüz il əxlaq dərsliyi kimi istifadə edilmişdir.

Təəsüflə qeyd etməliyik ki, pedaqoji fikir tarixi sahəsində, digər qonşu ölkələrdən nə qədər irəli getmiş olsaq da, pedaqoji ictimaiyyətimiz Azərbaycanın xəritəsini tam əhatə edə bilməmişdir. Ə.Yaqubi istisna olmaqla, 25 millionluq Cənubi Azərbaycan pedaqoji fikri tədqiqat obyektimizdən tam kənarda qalmışdır. Biz, bu gün müstəqil Respublikamızın yaranması fürsətindən istifadə edib soy kökümüzün ən möhtəşəm abidələrdən olan Dədə Qorqud, Tusi ilə yanaşı Cənubi Azərbaycanın bir sıra görkəmli maarifpərvərlərin tərbiyə haqqında fikirlərini tədqiq etməyə çalışmışıq.

***prof. F.Ə.Seyidov.***

# DƏDƏ QORQUDDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ



Bu yaxınlarda televiziya vasitəsilə bir Amerikan mütəxəssisi Novruz bayramını görüb təəccübləndi və dedi:

"Çox qəribədir. Gör siz necə böyük xalqsınız ki, 70 il Sovet diktaturası şəraitində öz milli heysiyyatınızı, milli qürur, adət və ənənələrinizi unutmamısınız". Bu amerikanlı başa düşə bilmir ki, biz türklərin qədim tarixi, ənənələri var və onlar zamandan, ictimai quruluşdan, siyasi hadisələrdən asılı olmayaraq öz adət və ənənələrini dəyişməmişlər. Bir də ki, qədim türklərin bizə yadigar qoyub getdikləri dastanlar, folklor nümunələri, xalq pedaqogikası incilərində elə qiymətli tərbiyə məqamları var ki, onlar bu gün də özünün əhəmiyyətini itirməmişdir. İlk türk qəbilələrində gənc nəslin tərbiyəsi, əmək alətləri düzəltmək böyüklərin nümunəsini təqlid etməklə başlamışdır. Sonrakı dövrlərdə tərbiyə daha planlı səciyyə daşımış və tərbiyə işi ilə xüsusi adamlar məşğul olmuşlar. Bu prosesdə şifahi xalq ədəbiyyatının dastan, nağıl, əfsanə kimi nümunələrindən geniş istifadə edilmişdir. Bu ədəbiyyat gənc nəslin qəhrəmanlıq, vətənpərvərlik, humanizm kimi yüksək əxlaqi sifətlərdə tərbiyə etməklə yanaşı, uşaqlara həm də qədim türk adəti, mənşəyi, dövlət üsul-idarəsi haqqında da geniş məlumat vermişdir. Belə türk dastanlarından "Oğuz xaqan", "Manas", "Alp ər Tunqa" və "Dədə Qorqud"u misal gətirmək olar. Bu dastanlar içərisində "Kitabi-Dədə Qorqud" dastanı gənc nəslin tərbiyəsində olduqca böyük əhəmiyyətə malikdir.

"Dədə Qorqud" dastanları köçəri patriarxal qəbilələrin dağıldığı və feodal münasibətlərin yarandığı bir dövrə təsadüf edir. "Dədə Qorqud" dastanlarında bu dünyanın müvəqqəti və o biri əbədi dünyanm olması ideyası vurğulanır.Dastanda deyilir ki, bu dünya karvan kimi bir şeydir, gəldi, getdi. Əcəl öldürdü, yer gizlədi, fani dünya yenə qaldı. Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya-deyilir. Lakin Dədə Qorqud insanlara bu fani dünyada əl-ayağını üzadıb axirət dünyasını gözləməyi deyil, fəal olan əqli və yüksək əxlaqi sifətlərə malik olan insanların tərbiyə olunmasını söyləyir.

Əbədi dünya haqqında danışan Dədə Qorqud mal-dövləti artırmaq, Vətəni qorumaq, doğma torpağını mühafizə etmək, şərəfli yaşamaq, yaşadığı həyatı namusla başa vurmaq, insanlar üçün xeyirxah işlər qoyub getmək kimi bu dünya üçün lazım olan fəal, çalışqan, əməksevər adamların tərbiyə olunmasını lazım bilirdi. "Dədə Qoqud"da real həyatı təcəssüm etdirən "Çıxan can geri gəlməz", "Ölən adam dirilməz" kimi kəlamlarla yanaşı, and içmə və dualar da insanları axirət dünyasına tabe edən ifadələr olmayıb, adamları qəhrəmanlığa, torpağı müqəddəsləşdirməyə, zəfərləri uğurlu etməyə vurğulayan ifadələrdir. Məsələn: "qılıncımla doğranım ki", "sağ gəlib çıxmayım ki", "uğurun açıq olsun", "qarlı dağlardan aşanda, yolun açıq olsun", "hayqıran sulardan keçəndə sənə yol verilsin", "çaparkən boz atın büdrəməsin" və i. a. Dədə Qoqud allahın yaratmış olduğu ölümə qarşı çıxır. Əsərdə Domrul Əzrailə üsyan edən, onun hökmünə tabe olmayan bir şəxs kimi təsvir edilir: "Mərə, Əzrayıl dediyiniz nə kişidir ki, adamın canını alır? Göstərin! Savaşım, çəkişim, dirəşim, yaxşı igidin canını qutarım. Bir də yaxşı igidlərin canını almasın"[1]. Bir tərəfdən allahın varlığına inanan Dədə Qorqud, digər tərəfədən, bir sensualist kimi hissi idrakla dərk etməyin mümkünlüyünü vurğulayaraq deyirdi:

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 85.

Ucalardan ucasan,
Kimsə bilməz necəsən.
Körklü tanrı,
Neçə cahillər səni,
Göydə axtardı,
Yerdə istədi.

Bü əsərdə daha çox yerli köçərilərin həyatından, sadə adamların mənəvi aləmindən məlumat verilir. Əsərin əsas qəhrəmam Qazan xandan və dastandakı başqa oğuz bəyləri: Bozatlı Beyrək, Dirsə xan oğlu Buğac kimi igidlərdən danışıhr.

Dədə Qorqud dastanında əxlaq tərbiyəsinin tərkib hissəsi olan vətənpərvərlik əsərin başlıca ideyasıdır. Bu ideya qədim türklərdən süzülüb gəlmişdir.

Bu dastanda qəhrəmanlıq ruhu vətən məhəbbəti ilə vəhdət təşkil edir. "Dədə Qorqud"da olan türk tayfaları gənc nəsildə vətənə məhəbbət və hörmət tərbiyə etmək üçün Vətəndə hər nə yaxşı varsa, onu gənc nəslə göstərməyə, Vətənin dağları, bulaqları, al-əlvan çəmənləri, onun əzəmətli qala və abidələrini sevdirməyə çalışmışlar. Məsələn, Dastanda həyata can verən, təbiəti yaşadan su haqqında belə deyilir:

"Şırıl-şırıl qayalardan axan su, böyük-böyük ağacları yerindən oynadan su, bağ və bostanm zinəti su. Ağ qoyunlar, dəvələr çöhrəsidə yatdığı su". Və yaxud dağlar haqqında: Ağaclı dağlar, gözəl dağlar, gün doğan dağlar, qara dağlar, otlu-yaylaqlı uca dağlar-deyə onu vəsf edərkən mərd, qoçaq, qəhrəman, namus, qeyrət sahibi olan oğulları bu təmiz su və dağlarla müqayisə edərək "Dağın yüksəyi oğul", "suyun daşqını oğul" demişlər. Dastanda bu dağları qorumaq, onun əzəmətinə sığınmaq, onun gözəlliyini müdafiə etmək üçün deyilir:

Qarşı yatan qarlı dağını aşmağa gəlmişəm,
Axıntılı, qorxulu suyunu içməyə gəlmişəm.
Gen ətəyinə, dar qoltuğuna sığınmağa gəlmişəm.

Türklər vətənə məhəbbət təzahürünü "Vətəni gedənin, imanı da gedər, inamı da", "Vətənin qara torpağı da kəfəndir", "Vətən üçün əziləni vətən əzizlər", "Vətənsiz ölən kəfənsiz ölər", "Vətənin bir günü-qəribliyin min günü" kimi ifadə etmişlər.

"Kitabi-Dədə Qorqud" dastanlarında Qədim Azərbaycanın yaşayış yerləri olan Dərbənd, Gəncə, Bərdə, Əlincə qalası, Şərur və s. yerlərin adı çəkilir. Bu yerlər oğuz qəhrəmanlarının doğma vətəni, yurdu olduğundan onlar bu torpaqlar uğrunda daxili və xarici düşmənlərə qarşı mübarizə aparmışlar. "Dədə Qorqud" dastanlarında türk anaları Vətəni müdafiə edən oğullarını tərbiyə edərək deyirdilər: Oğul dağdan uçmasın, oğul suda axmasın. Oğul azğın düşmənə əsir düşməsin[1]. Ümumiyyətlə bu fikir türk dastanlarının hamısına xasdır. Məsələn, "Bilqamıs" dastanında əsir düşmək ən dəhşətli rüsvayçılıq, ölümə bərabər olan bir hadisə kimi səciyyələnir.

Ölüyə bənzəmirmi, söylə, əsir olanlar,
Ölümün sifətini məgər göstərmir onlar?

"Kitabi-Dədə Qorqud"da Qaraca çobanın döyüş meydanı belə təsvir olunur: Onun sapandının içi üç yaşar dana dərisindən toxunmuşdu. Hər atanda 12 batman daş atır, atdığı daş yerə düşmür, düşəndə toz kimi ovulur, daş düşən yerdə üç il ot bitmir. Qaraca çoban ağasınm malını, sürüsünü düşməndən qoruduğunu Qazan xana belə deyir: "İki qardaşım şəhid oldu, 300 kafir öldürdüm, üç yerdən yaralandım, tək qaldım, ancaq sənin bir arıq toğlunu da düşmənə vermədim. İndi qonur atı, qalxanını, polad qılıncını ox və yayını mənə ver ki, düşmənin üstunə gedib, onu öldürüm və sənin uğrunda ölüm"[2]. Qədim türk tayfaları uşaqlarını dözümlü, qüvvətli tərbiyə etmək üçün onlara güclü adamların, qorxmaz, cəngavər qəhrəmanların

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 76.
2 Yenə orada, səh. 34.

obrazını nümunə göstərməyə və ondarı təqlid etməyə çalışmışlar. Məsələn, "Dədə Qorqud" dastanlarında Qanlı qoca oğlu Qanturalı evlənmək istərkən üç vəhşi heyvanla vuruşmalı idi. Əgər onlara qalib gəlsə, sevdiyi qızı ona verəcəklər, ölsə şəhiddir. Əsərdə Qanturalı qalib gəlir.

"Dədə Qorqud" dastanlarında uşaqlarım dərin məhəbbətlə sevən, övladlarmı dağların yüksəyi, belinin gücü, qüvvəti, canı hesab edən Oğuz bəyləri döyüş meydanında yoldaşını tənha qoyub qaçan oğullarını öldürməkdən belə imtina etməmişlər. Məsələn, Qazan xan oğlunun döyüş meydanmdan qaçdığım zənn edib deyir: "Onu altı bölük edib, altı yolun ayrıcına tullayacam ki, bir kimsə döyüşdə yoldaşını qoyub qaçmasın"[1]. Bəli əgər xan öz uşağına belə tələbkarlıqla yanaşırsa, xalq balalarından on qat artıq tələb etməyə haqqı vardır. Oğuz bəyləri öz uşaqlarını Vətən naminə, vətən yolunda başqalarından seçmədiyi üçün türk yaşayıb, doğma torpaqlarını qoruyub və bu gün də onu saxlaya bilmişdir. "Dədə Qorqud dastanlarında qəhrəmanlar dəvə kimi kükrəyən, aslan kimi nərildəyən, nərə çəkib hayqıran, qalxanını qaldırıb ölümün gözünə düz baxan, düşmənə qılınc çalan kimi təsvir olunmuşdur:[2] Oğuz bəyləri vətəni qoruyarkən təhlükədən qaçmaq üçün ehtiyatlı, sayıq olmağı məsləhət bilərək deyirdilər: "İgidə nə bəla gəlsə, yuxudan gələr"[3]. Oğuz bəylərinin ən məziyyətli cəhətlərindən biri də humanizmdir. "Dədə Qorqud"da "Qazan bəy qaçanı qovmadı, aman deyəni öldürmədi" kimi gözəl məqam vardır.

Türk xalqları özlərinin dövlət başçılarının ancaq ağıllı, tədbirli olması ilə kifayətlənməmiş, həm də onları qüvvətli, cəsarətli, ordunun birinci cərgəsində dayanıb düşmənə həmlə edəcək qəhrəman kimi təsəvvür etmişlər. Dədə Qorqud

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 74.
2 Yenə orada, səh. 8.
3 Yenə orada, səh. 10.

dastanında bu münasibətlə çox maraqlı bir məqam vardır. Qazan xanın oğlu 16 yaşına çatdıqda atası ona deyir: "Oğlan yeməklə böyüməz. O, həm də qılınc oynatmağı, ox atmağı, düşmənə qalib gəlməyi bacarmalıdır. Sən isə heç ox atmağı, qan tökməyi, yay çəkməyi bilmirsən? Qorxuram öləm, taxtı-tacı idarə etməyi sənə verməyələr". Oğlu cavabında deyir: "Ata! Oğul hünəri atadan öyrənər, yoxsa atalar oğuldan?" Qazan xan bu cavabdan razı qalıb oğlunu düşmənlə vuruş meydanına aparır. Düşmən Qazan xana hücum çəkərkən oğlu deyir:"Ata qorxma, ətrafda erkək quzu qurban üçün, baba oğul qazanar ad üçün, oğul da qılınc vurar baba qeyrəti üçün"[1].

Dədə Qorqud dastanında qadınlar da kişilər qədər mübarizdirlər. Dastanda Beyrəyin evlənmək vaxtı çatdıqda deyir ki, "Ata, mənə elə qız al ki, mən yerimdən durmamış o dursun, mən atıma minməmiş o minmiş olsun. Mən düşmənin üstünə gedənə qədər, o mənə baş gətirsin". Dastanda qadınlar əxlaqlı, namuslu, ismətini qoruyan, cəsur, qorxmaz, kişilər qədər hünərli, at minib silah işlədən şəxslər kimi təsvir olünmuşlar.

Qazan xanın arvadı oğlunun ovdan geri dönmədiyini gördükdə atını minir, qırx qızla axtarışa çıxır, yaralanmış oğlunu tapır. Və yaxud Qazanın oğlu Uruz əsir düşdükdə Burla xatun silahlanır, oğlunu qurtarmaq üçün döyüşə yollanır. Selcan xatun əri ilə birlikdə vuruşarkən, "yağının bir ucu sənin, bir ucu mənim"[2] deyib yaralanmış ərini ölümdən xilas edir. Banıçiçək gələcək nişanlısı Beyrəyin cürətini sınamaq üçün özünü başqa adla təqdim edərək "Gəl səninlə ova çıxaq, əgər sənin atın mənim atımı keçsə, ox atsaq, məndən yaxşı atsan, səninlə güləşək, məni yıxsan onda Banıçiçəyi sənə alaram". Dədə Qorqud dastanında qızlar ancaq qəhrəman kimi deyil, həm də evin dirəyi, nəsli artıran, incə, məlahətli, nəvazişli, yüksək mənəviyyatlı adamlar kimi təsvir edilmişdir. Orada deyilir:

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 72-73.
2 Yenə orada, səh. 103.

Evdən çıxıb yüyürəndə sərv boylum.
Topuğuna sallanan qara saçlım!
Qurulu yaya bənzər çatma qaşlım.
Qoşa badam sığmayan dar ağızlım!
Payız almasına bənzər al yanaqlım!
Qadınım, dirəyim, soyum.

Dastanlarda qadın tərbiyəsini səciyyələndirən dörd qadın obrazı verilir.

Birincisi solduran soydur.
Birisi doyduran toydur.
Birisi evin dayağıdır.
Birisi, necə söylərsən, bayağıdır.

Bunlardan birincisi solduran, yəni nəsli zay edən, ikincisi evində otura bilməyən, qapıları gəzib qiybət edən, üçüncüsü evin dayağı, ailəsinin qayğısı ilə yaşayan, qonaqpərvər, evdar, Ayişə və Fatimə kökündən yaranmış, dördüncüsü isə ərinə məhəl qoymayan, qonaq yanında onu rüsvay edən həyasız kimi təsvir edilir.

Bu çox ibrətamiz türk ailə tərbiyəsinin nümunəsidir. Qızları ailəyə bağlı, ədalətli, zəhmətkeş, söz- söhbətdən və qapı-qapı gəzib qiybətdən uzaq adamlar kimi, türk mentalitetinə müvafiq tərbiyə etmək Dədə Qorqud dastanının əsas ideyasıdır.

Qeyd etmək lazımdır ki, türk xalqlarının bütün dastanlarında qadın tərbiyəsinə xüsusi diqqət yetirilir. Onlara kişilərlə birlikdə üzüaçıq işləyib çalışmalarına, birgə fəaliyyət göstərmələrinə icazə verilməsinə baxmayaraq, türk qadınları heç vaxt əxlaqi pozğunluğa yol verməmişlər. Türk xalqlının Tomris, Nigar, Telli, Ruqiyyə, Məhbubə, Həcər kimi bu gün təqlid edilə biləcək, ağıllı, tədbirli, yüksək mənəviyyalı qadın obrazları olmuşdur.

Dədə Qorqud üzünü ana qədri bilməyən, anasına ehtiramsız yanaşan övladlara tütüb deyirdi: "Ana rəhmi ilə doğulana

qədər, doğulmasa yaxşıdır". Yəni hələ siz həyata gəlməmişdən əvvəl, ananızın sizə rəhmi gəldi ki, siz bu həyatın gözəlliyini duyasız, ancaq siz bu hörmət və ehtirama layiq deyilsiniz.

Dədə Qorqud tələbi yalnız övladlar qarşısında deyil, həm də qadınlara analıq borcunu yerinə yetirərkən də riayət etməyi lazım bilərək deyirdi: "Ac südünü doya əmizdirsə, ana körklü". Yəni südünü doyunca əmdiyin qadın yalnız doğma ana ola bilər.

Dastanda "mərd" sözü kişi, adam, insan, igid, qəhrəman mənasında işlənir. Bu mənalar içərisində bu gün də tərbiyə işimiz və elmimiz üçün çox vacib olan səxavətli olmaq, dostluğu bacarmaq, qarşıya qoyulmuş məqsədə nail olmaq üğrunda çalışmaq, əqidəsindən dönməmək, gözü tox, süfrəsi açıq, könlü geniş, ürəyi təmiz olmaq kimi tərbiyəvi məsələlər var. Bu barədə Dədə Qorqud dastanlarında deyilir:

Ölümdən qorxmasan, mərdlik yaxşıdır,
Bərk yüyürən ata namərd minə bilməz.
Çalıb-kəsən iti qılınc müxənnətə qalınca
Qalmasa yaxşıdır[1].

•Dədə Qoqud dastanlrında mərdliyi səciyyələndirən sifətlərdən biri də əqidəsinə sadiq olmaqdır. Bu dastanda təsvir olunan adamların əsas xüsusiyyəti öz andlarına, verdiyi sözə, məhəbbətlərinə və sevgilərinə sadiq qalmaları, əzab-əziyyətə düçar olarkən, dara düşərkən əqidələrindən dönməməlidir.

Məsələn: Düşmən Qaraca çobana öldürməyəcəyini və ya ona bəylik verəcəyini vəd edib tabe olmasını təklif edərkən Qaraca çoban deyir:

Boş-boş danışma, mənim itim kafir!
İtimlə bir yalaqda yuyunan, yal içən kafir!
Mindiyin alaşa atını nə öyərsən?,

---

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 12.

Bu gün alaçıqlarda qalmış qaçqınlarımıza bəzi imkanlı adamların münasibətini gördükdə soy-kökümüzdəki mərdlik nişanəsi olan səxavətlilik məfhümünü yaddan çıxardığımızın şahidi oluruq. Bu böyük hissdir və bu günkü gənclərimizə bu hissi aşılamalıyıq. Görün, Dədə Qorqudda səxavəti göstərən nə gözəl məqam var. "Qazan xanın adəti idi, üç ildə bir evini talan (yağma) etdirərdi. Təkcə arvadının (halalının) əlindən tutub evdən çıxar, nəyi varsa, malını, xəzinəsini talan edib aparardılar.

Dədə Qorqud dastanlarında övlad ailənin möhkəmliyinin rəhni kimi qiymətləndirilir. Ümumiyyətlə, türk xalqlarında uşaqsızlıq, övladı olmamaq ən böyük bəla, dərd hesab edilirdi. Türklərdə nə qədər çox uşaq olsa, onu bir o qədər xoşbəxtlik hesab etmişlər. Türklər özlərini başqalarında yaşatmağı, özündən sonra övlad qoyub getməyi şərəf, şan, şöhrət bilmişlər. Ona görə də türk bu gün də yaşayıb artır. Mərdlik türk xalqlarının əxlaq tərbiyəsinin ayrılmaz hissəsi olmuşdur. Türk qəhrəmanlarının hansı birinin mübarizə yoluna diqqət yetirsək, onların tarixdə kişilik, mərdlik ənənəsi qoyub getdiyinin şahidi oluruq. Onlar döyüşü üzbəüz, mərdi-mərdanə, hiyləsiz döyüş kimi təsəvvür etmişlər. Türklər tələ qurmağı, hiylə yolu ilə qələbə qazanmağı namərdlik, kişiliyə sığmayan bir iş hesab etdiklərindən, Türk sərkərdəsi və başçısı Alp ər Tunqanın xəyanətlə ölümünü ağır qəbul edərək ağlayıb onun haqqında ağılar söylətmişlər. Məsələn:

Uçmağa varınca ol ulu Xaqan
Yıxıldı göylərdən üstünə zindan.
Xalqı adət üzrə dəfn etdi onu,
Göz yaşı selinin yox idi sonu.

Mərdlik nişanəsi "Bilqamıs" dastanının da əsas məğzidir. Dədə Qorqudda övladı olmayan, "qara qayğılar" içərisində qəhərlənən Baybura deyirdi: "Qorxuram bir gün olar, düşəm

öləm, yerimdə-yurdumda kimsə qalmaya. Və yaxud Dirsə xanın arvadı ərinə belə deyir: "ac görsən doydur, çılpaq görsən geyindir, borclunu borcundan qurtar. Təpə kimi ət yağdır, göl kimi qımız sağdır, bəlkə ağzı dualının alqışı ilə allah bizə bir övlad verə".

"Kitabi-Dədə Qoqud"da ailə tərbiyəsinə böyük yer verilir. Türk dastanlarında ailə üzvlərinin hər birinin öz mövqeyi və həmin mövqe ilə uzlaşan nüfuzu, hörməti vardır. Bayburanın oturduğu mərəkədə tacirlərdən biri atanın yanında oğlunun əlindən öpdüyünü gördükdə ata deyir: "əbləh oğlu , məgər ata durarkən, oğul əlini öpərlərmi?"

Qədim türklərin ailə əxlaqı, gözəllik, ədəb, böyüklərə hörmət, sözünü yerinə yetirmək, sədaqət, igidlik, mərdlik kimi sifətlər olmuşdur. Türk ataları uşaqlarım tərbiyə edərkən, sizə ancaq atanızın malı deyil, həm də onun şərəf və ləyaqəti qalır" demişlər. Türklərdə ata uşaqları üçün namus, qeyrət, cürət və gözəllik nümunəsi olmuşlar. Ona görə də, onların uşaqları atalarına layiq olmağa, onların adını əbədiləşdirməyə çalışmışlar. Dədə Qorqudda deyilir: "Ata qazanar ad üçün, oğul da çalışar-vuruşar ata qeyrəti üçün".

Qədim türk ailələrində ata nüfuzu nə qədər böyuk olsa da, heç vaxt ana haqqı tapdalanmamışdır. Ailə ənənəsini nəsildən-nəslə tərbiyə edib saxlamağa çalışmışlar. Bu münasibətlə Dədə Qorqudda deyilir: "Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə salmaz".

Və yaxud analar uşaqlarını əzizləyərkən, layla çalarkən, müraciət edərkən mərdlik, qoçaqlıq, qəhrəmanlıq kimi ən yüksək əxlaqi sifətləri aşılamağa çalışmışlar. "Kitabi-Dədə Qorqud"da Burla xatun oğluna deyirdi:

Oğul, ortağım oğul,
Başımda tacım oğul,

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 12.

Qarşı yatan dağım,
Gül yaraşığım oğul!
Qaralan gözlərimin
Nuru, işığı oğul.

Türk anaları uşaqlarını tərbiyə edərkən lovğa olmamağı, zəfərdə, döyüşdə qazandıqları adla, xeyirxah əməlləri ilə yüksəlməyi lazım bilirdilər. Dədə Qorqudda Selcan xatun deyirdi: "Öyünərsə ər (qəhrəman) öyünsün, aslandır. Öyünməlik övrətlərə böhtandır. Öyünməklə övrət ər olmaz"[1].

Türk ailələri tərbiyə prosesində uşaqlara ad verib, vətəndaşlıq hüququnu almağa hazırlamışlar. Bu vətəndaşlıq hüququnu almaq üçün gənclər bir qəhrəmanlıq nümunəsi göstərməli və bu hüququ onlara ağsaqqallar verməli idi. Dədə Qorqudda belə bir məqam var. Bir gün Dirsə xanın oğlu uşaqlarla meydanda oynayırmış. Birdən zəncirli, acıxmış bir buğanı dəvə ilə vuruşmaq üçün meydana buraxırlar. Uşaqlar qaçır, amma Dirsə xanın oğlu qaçmır. Buğa oğlanın üstünə cumduqda oğlan yumruğu ilə buğanın alnına zərbə endirib geri oturdur. Bu hadisə bir neçə dəfə təkrar olunur. Və nəhayət, Dirsə xanın oğlu buğaya elə zərbə endirir ki, buğa yıxılır. Uşaq bıçağını çıxarıb buğanın boğazını kəsir. Bu işdən fərəhlənən Oğuz bəyləri oğlanın yanına gəlib onu mədh edirlər. Onlar Dədə Qorqudu oğlana ad vermək üçün çağırırlar. O, belə tərif söyləyir: "Dirsə xanın oğluna bəylik, hünərli olduğu üçün taxt, boynu uzun cins at verirəm, minsin, çünki hünərlidir".

Dədə Qorqud dastanlarında türk qəbilələrində olan kimi, ailələrdə uşaqlara yüksək insani hiss, vəfa, qeyrət, ailə namusunu qorumaq, doğruçul olmaq kiimi əxlaqi keyfiyyətlər aşılanırdı. Bu prosesdə anaya məhəbbət tərbiyəsi ən müqəddəs iş hesab edilirdi. Çox qəribədir, tərbiyə kitablarında yazılır ki, İsveçrə pedaqoqu Pestolotsinin pedaqoji müddəalarınm əsasını

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 104.

uşağın anaya məhəbbəti təşkil edir. halbuki bu fikir Pestalotsidən 10 əsr öncə" Dədə Qorqud"da daha dolğun şəkildə ifadə olunmuşdur. Lap kiçik yaşlarından anaya məhəbbət ruhunda tərbiyə olunan Qazan xan düşmənə deyir: "Tövlə dolusu atları gətirmisən, sənin olsun, qatar-qatar dəvələri gətirmisən, sənin olsun, anadan dünyada əziz nə var ki? Anamı qaytar!"/ Dastanda ananın oğula, oğulun anaya məhəbbəti ilə əlaqədar olduqca çoxlu maraqlı məqamlar var. Məsələn: Qazan xanın oğlu Uruz və qırx qızla anası düşmən əsirliyinə düşərkən düşmən ələ keçirdiyi qırx qızdan hansının Qazan xanın arvadı olduğunu soruşur.

Qızların hamısı "Mənəm" deyir. Düzgün cavab almayacağını yəqin edən düşmən Qazan xanın oğlunu öldürüb ondan kabab çəkdirib qızlara yedirtməyi qərarar alır. Belə düşünür ki, ana yeməyəcək. Hadisədən xəbərdar olan ana ağlayır və ölümə məhkum olmaması üçün Qazan xanın arvadı olduğunu etiraf edəcəyini oğluna dedikdə oğlu hirslənib: "Sən belə namussuz sözü danışma!.. Qadın anam! Mən ölərsəm düşmən yanında mənim üstümə gəlmə, mənim üçün ağlama. Qoy məni kabab etsinlər. Sizə mənim ətimi verəndə qızlar bir yeyəndə sən iki ye ki, düşmən yatağına düşməyəsən. Atam Qazanın namusunu itirməyəsən. Qadın anam! Ağlama, ürəyimi dağlama, keçmişimi yada salma", "Ay ana, məgər ərəb atları olan yerdə bir qulunun (dayça) ölumu nədir ki? Qızıl dəvələr olan yerdə, bir dəvə balasının nə qiyməti ola bilər? Tağ qoyunlar olan yerdə bir quzunun nə dəyəri ola bilər? Təki sən sağ ol. Mənim qadın anam, atam sağ olan yerdə mənim kimi bir oğulun ölümü nədir ki?" Belə yüksək insani sifətə, mənəvi yüksəkliyə, namus və fədakarlığa ancaq və ancaq türk dastanlarında türk tərbiyə sistemində rast gəlmək olur./

"Dədə Qorqud" dastanlarında tərbiyə məsələləri üçün çox vacib əhəmiyyət kəsb edən bir məsələyə də toxunmaq istərdik. Bu, dostluqdur.

Dastanda uşaqların bir-biri ilə dost olmalarına, qonşularla dostluq münasibəti yarada bilməsinə xüsusi diqqət yetirilir. Dastanda uşaqların dostluğunun hörmətə, ideya birliyinə, mənafe ümumiliyinə, qarşılıqlı yardıma əsaslanması tərbiyə edilir. Dədə Qorqud dostluğu yalnız güc göstərməkdə deyil, yüksək insanlıqda, mənəvi paklıqda, sədaqətdə, qədir bilməkdə görürdü.

Dastanda deyilir:

Mən Qazanın nemətini çox yemişəm.
Bilməzsəm, gözünə dursun.
Onun atını minmişəm,
Bilməzsəm, mənə ölüm olsun.

Və yaxud düşmən Bamsı Beyrəyi ölümlə hədələdikdə o deyir:

Dönmərəm Qazandan, bunu bəlli bil!
Çörəyi tapdamaq kişilik deyil.

Dədə Qorqud bu nəcib keyfiyyətləri sədaqət və xoşbəxtliyin açarı, insn üçün böyük var-dövlət hesab edirdi. Dastanda deyilir:

Doğrucul adamlar yüz yaşasa yaxşıdır,
Yalan söz bu dünyada olunca olmasa yaxşıdır.

"Dədə Qorqud" dastanlarında insanı yüksəldən, onu nəcibləşdirən sadəlik və təvazökarlıq kimi keyfiyyətlər də mədh edilir. Dastanda özünü aparmaq, çox bilmək, mənəvi zənginlik yüksyk qiymətləndirildiyi halda, mənəmlik iddiası, axmaqlıq, ikiüzlülük, xəbərçilik, lovğalıq mənəvi şikəstlik kimi qələmə verilir. Bu münasibətlə "Dədə Qorqudd"da oxuyuruq:

Təkəbbürlük eləyəni tanrı sevməz,
Özünü uca tutan lovğa adamda ağıl olmaz.

Qeyd etmək lazımdır ki, türk xalqları uşaqlarının əqli tərbiyəsində qılıncla alına bilməyəcək şeylərin çoxunu tədbirlə, biliklə əldə etmək, başqalarının səhvindən özü üçün düzgün nəticə çıxarmaq, çətin işlərini düşüncə ilə tapmağa xüsusi diqqət yetirmişlər. Hələ vaxtı ilə türk alimlərinin görkəmli nümayəndəsi Yusif xas Hacib "Kudatku Bilik" əsərində yazırdı.

Harda idrak olsa, orda ululuq olar,
Kimdə bilik olsa, o, böyük olar.

Türklər "Dədə Qorqud" dastanında bir az da irəli gedərək deyirdilər:

Ağıllı oğul olsa, ocağın gözüdür,
Ağılsız oğul olsa ocağın külüdür,
Ağılsız adamın şərindən Allah saxlasın[1].

"Kitabi-Dədə Qorqud"da "ağıl" dövlət mənasında işlədilmişdir. Məsələn: "Baba malından nə fayda, başda dövlət olmasa".

"Dədə Qorqud"da göstərilir ki, çətin dəqiqələrdə ağıla müraciət etmək lazımdır. Çünki doğru tədbiri ancaq ağıl yarada bilər. Dastanda Qaraca çoban düşmən mühasirəsində qalarkən, oradan necə çıxmaq, düşmənə qalib gəlmək üçün deyir: "Ağılın qapısını möhkəmlətmək lazımdır".

Yəni düşünmək lazımdır. "Dədə Qorqud" dastanlarında hər işi ağılla görmək, qüvvətli şeyləri ağılla sındırmaq, paltarları zinətləndirməkdənsə, ağılı zinətləndirmək fikri qırmızı xətlə keçir.

"Dədə Qorqud" dastanlarında əmək tərbiyəsinə də xüsusi diqqət yetirilir. Burada əqli tərbiyə ilə əmək tərbiyəsi paralel gedir. Əmək Dədə Qorqud personajlarının həyatının, məişətinin ayrılmaz hissəsini təşkil edir.

1 Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 12.

Əsərdə Salur Qazan səhərdən-axşama kimi yeyib-içən, kef məclisi quran bəylərə zəhmət çəkməyi lazım bilərək deyir: "Yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurudu. Gedək ov ovlayaq, ceyran vuraq qayıdaq"[1]. Dastanda göstərilir ki, əmək insanı yüksəldir, nəcibləşdirir, zəhmət adamlarına hörmət və məhəbbət tərbiyə edir. Zəhmətin qədrini zəhmət çəkənlər bilir. Məsələn:

Ağır yüklər zəhmin qatır bilir.
İnsanın hansı yeri sızlayırsa, onu çəkən bilir[2].

Dastanda deyilir: "Zəhmət çəkməyənin yaşayışı yoxdur". "Bir xeyirli iş görməsən, zaman keçər ölüb gedərsən". Yəni mənasız həyat sürərsən. "Dədə Qorqud" dastanlarında görürük ki, türk xalqları zəhmət, əməlləri hesabına bağçılıq, üzümçülük, əkinçilik, şərabçılıqla məşğul olmuşlar. Dastanda deyilir:

Ol dağlarımızda bağlarımız olur,
Ol bağlarım qara salxımları, üzümü olur.
Ol üzümü sıxarlar, al şərabı olur[3].

Türk xalqları iqtisadi çətinliyə düşüb başqasına əl açmamaq üçün mal, qoyun, dəvə, at saxlamış, onların əsas yeməkləri qovurma, kabab, süd, qatıq olmuşdur. Onlar yaxşı maldar olmaqla fəxr etmişlər. "Dədə Qorqud"da belə deyilir:

Qaranlıq axşam olanda qayğılı çoban!
Qar, yağış yağanda, çaxmaqlı çoban!
Südü, pendiri bol, qaymaqlı çoban!

Əmək, ümumiyyətlə, türkün əsas keyfiyyəti olduğu üçün o, bütün dünya xalqları içərisində zəhmətkeş xalq kimi səciyyələnir. Əcnəbilər türklər haqqında deyirlər ki, türkün hər

---

1 Kitabi-Dədə Qorqud". Bakı, 1962, səh.28
2 Yenə orada, səh. 13.
3 Yenə orada, səh. 86.

biri özlüyündə birləşərkən eyni türk həm döyüşçü, həm mehtər, həm dəmirçi, həm nalbənd, həm çoban, həm əkinçi, həm də maldardır. Əməyi yüksək qiymətləndirən Dədə Qorqud nəsihətlərində deyilir: "Ata malından nə fayda, başda ağıl olmasa".

"Dədə Qorqud" dastanlarmda estetik tərbiyə ilə əlaqədar çoxlu məqamlar var. Bu dastanlarda "sərv boylu", "al yanaqlı", "badam dodaqlı", "çatma qaşlı" kimi ifadələr qadın gözəlliyi, Vətənin əsrarəngiz guşələri, onun göz yaşı kimi duru çeşmələri, güllü-çiçəkli ormanları, möhtəşəm qayaları, yaşıl meşələri, durnaları, turac və kəklikləri vəsf olunur və gənc nəsli bu gözəlliyin nümunəsində tərbiyə etməyin zəruriliyi vurğulanır. "Dədə Qorqud"da bu gün də çox zəruri olan ekoloji tərbiyə məsələsinə də xüsusi diqqət yetirilir. Dastanda Vətənin torpağını, suyunu, dağlarını, onun füsünkar gözəlliyini qorumaq belə ifadə olunur:

Yerli qara dağlarınız yıxılmasın,
Kölgəlicə ağaclarınız kəsilməsin,
Axıntılı coşğun sularımz qurumasın.

Çox təəssüf ki, türk xalqlarının məhəbbətlə sevdiyi və onu qoruyub bizim nəsillərə çatdırdığı bu təbiəti biz qoruyub saxlaya bilmədiyimizdən iqtisadi qıtlıq, vaxtsız ölüm, müalicəsiz xəstəliklər əmələ gəlir.

Türk xalqlarınm möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud"da görürük ki, oğuz elinin ən yaxşı ağsaqqalı olan Dədə Qorqud türk xalqları içərisində ozan, başbilən, yol göstərən, keçmişdən və gələcəkdən xəbər verən elə müdrik adam olmuşdur ki, onun kəlamları xalqın tərbiyə məktəbi, məsləhət yeri kimi səciyyələnmişdir. Dastanlardan aydın olur ki, hər nə iş olsa, Dədə Qorquda danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa, qəbul edilərdi, sözünü tutub tamam edərdilər[1]

---

1Kitabi Dədə Qorqud. Bakı, 1962, səh. 11.

Fikrimizi tamamlayarkən, qeyd etməliyik ki, bu gün soy kökümüzə qayıtmaq, milli, mənəvi, mədəni və bəşəri dəyərlərə dərindən yiyələnmək və türk xalqlarının tarixində vətənpərvərlik, insanpərvərlik, ədalətli olmaq, mərdlik, doğruçuluq, təvazökarlıq, əməksevərlik kimi xüsusiyyətləri mənimsəməkdə türk dastanlarının, xüsusən də, "Dədə Qorqud" dastanlarının rolu böyükdür.

Mən belə hesab edirəm ki, bu gün müstəqillik əldə etdiyimiz bir zamanda biz, tərbiyə nəzəriyyəmizi türk xalqlarının yaratmış olduğu "Dədə Qorqud" və digər bu kimi dastanlarımız üzərində kökləməliyik. Türk dastanlarının hər birində tərbiyənin prinsiplərini, üsullarını, onun mahiyyət, məqsəd və məzmununu zənginləşdirmək mümkündür. Bu dastanlardakı mütərəqqi pedaqoji ideyalar Qərbin alimləri tərəfindən götürülüb və qərbin məhsulu kimi də qələmə verilib. Bu pedaqoji zinətimizi qaytarmaq bizim müqəddəs borcumuz olmalıdır.

# NƏSRƏDDİN TUSİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ



Azərbaycanın tərbiyə, məktəb və mədəniyyət tarixindən danışarkən XIII əsrdə yaşamış, dünyəvi şöhrətə malik olan Nəsrəddin Tusi haqqında danışmamaq olmaz. Onun Marağada yaratmış olduğu rəsədxana Şərq təhsil ocağı və mədəniyyətinin ən əzəmətli abidələrindən biridir. Rəvayətə görə Tusi Hülaki xana münəccimlərindən daha ağıllı məsləhət verib xanı döyüşdə qələbəyə çıxartmışdır. Bunun əvəzində o, Hülaki xandan Marağa rəsədxanasının tikilməsi üçün lazımi vəsait ala bilmişdir. Rəsədxananın layihəsi və rəsədxana üçün lazım olan dəqiq cizahlar Tusi tərəfindən hazırlanıb quraşdırılmışdır. Rəsədxanaya lazım olan elmi və texniki kadrları bilavasitə Tusi özü hazırlamışdır. Nəsrəddin Tusinin elm sahəsi olduqca rəngarəngdir. O, nücum, tibb, həndəsə, riyaziyyat, fəlsəfə, ədəbiyyat, psixologiya, iqtisadiyyat və s. kimi elm sahələri ilə yanaşı, tərbiyə məsələləri ilə də dərindən məşğul olmuşdur. Onun "Əxlaqi-Nasiri" əsəri yaratmış olduğu Marağa rəsədxanası kimi dünyada məşhur olmuşdur. Bu əsərin yaranma tarixini şərh edən Tusi göstərirdi ki, İsmayilli hökmdarı Nasir əxlaq, fəlsəfə, məntiq məsələləri ilə maraqlandığından Tusini yanına çağıraraq Əbu-Əli-Əhməd İbn Məhəmməd ibn Yaqub ibn Misgəvihin "Ət-Təharə" adlı əxlaq kitabını fars dilinə tərcümə etməyi ona təklif edir. Lakin geniş dünya görüşünə və dərin elmi biliklərə sahib olan Tusi bu kitabı tərcümə etməkdən imtina edir və özü orijinal, "Ət-Təharə" kitabında olmayan "Əxlaqın saflaşdırılması", ilə bağlı olan "Ev qurmaq"

və "şəhərlər salmaq haqqında" kimi fəsilləri əlavə etməklə orijinal "Əxlaqi-Nasiri"[1] kitabını yazıb tamamlayır. Bu kitab 700 ildən artıq müddətdə orta və yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi istifadə edilmişdir. N.Tusi bu kitabla özünün mahir müəllim, nəzəriyyəçi pedaqoq, Ustad olduğunu sübut etdi.

N.Tusi "Əxlaqi-Nasiri" əsərində nəzəriyyə ilə təcrübənin, elmlə əməlin əlaqəsindən danışaraq göstərir ki, elm varlıqların həqiqətən necə olduqlrını düzgün müəyyən etmək, insanın yaradıcı ağlı və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir. Əməl (metod) isə gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənət üçün göstərilən fəaliyyətdir. Bu şərtlə ki, o bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun. N.Tusi belə hesab edirdi ki, əgər bu fəzilətin hər ikisi kimdə varsa, o ən müdrik insan, ən kamil alimdir[1]. Belə adamın yeri bəşər övladının tuta biləcəyi ən yüksək mövqedə durmahdır. Tusi elmlə əməlin qarşıhqlı əlaqəsi və onların birgə inkişafı nəticəsində insanın kamilləşməsindən danışarkən o, əbədi dünyada eyş-işrətdə yaşamaq ümidi ilə səhərdən axşama kimi ibadətlə məşğul olanlrı "Az şey verib çox şey istəyən" alverçilərlə müqayisə edirdi.

Tusinin "Əxlaqi-Nasiri" əsəri bu günkü pedaqoji elmimiz üçün çox faydalı və lazımlıdır. Əsərdə uşaqlarımıza əməli aşılaya bilmədiyimiz bir sıra məsələlər elə dolğun və pedaqoji baxımdan səriştəli şəkildə verilmişdir ki, onlardan bu günkü pedaqogika dərsliyində istifadə etməklə gənclərimizin əxlaq tərbiyəsini həyata keçirmək olar. "Əxlaqi-Nasiri" əsərinin "məqsədlər bölməsi" əxlaqı saflaşdırmaq baxımından olduqca maraqlıdır. Bu bölmədə uşaqların fitri qabiliyyət və istedadları, təcrübə vasitəsi ilə əldə olunan peşə və sənətlərdən, mühitin və şəraitin, uşaqlıq və gənclik dövründəki təsirindən, insanın formalaşmasında təlim və tərbiyənin böyük rol oynadığından

1 Xacə Nəsrəddin Tusi "Əxlaqi Nasiri". Bakı, 1980. səh. 35.

danışılır[1]. Kitabda olan müdrik söhbətlər həyatı misallarla nümayiş etdirilir. İnsan xarakterinin, iradəsinin müxtəlif dövrlərdə dəyişdiyini qəbul edən N.Tusi gənc nəslin yetişməsində təlim və tərbiyənin həlledici əhəmiyyətini elmi cəhətdən əsaslandıraraq, bu vacib məsələdə valideyn, tərbiyəçi, müəllim və ictimaiyyətin böyük məsuliyyət daşıdığını xüsusi qeyd etmişdir. Tərbiyə prosesində mənəvi təmizliyə, əxlaq saflığına, vicdan aydınlığına son dərəcə yüksək qiymət verən Tusi bu keyfiyyətləri uşaqlara kiçik yaşlarından aşılmağı lazım bilirdi. Tusi uşaqların əxlaq tərbiyəsində danlamaq, döyülmək də daxil olmaqla cəza, tərif, alqışlamaq, mükafat və şirnikləndirmə kimi rəğbətləndirmə vasitələrinə də xüsusi yer ayırırdı[2]. Tusi əxlaqı saflaşdırma sənətini alçağı yüksəltmək, insanları səadətə çatdırmaq kimi başa düşürdü. Tusi "Əxlaqi-Nasiri" əsərində "Nəfsin sağlamlığı", "Nəfsi xəstəliklərin aradan qaldırılması" kimi tərbiyə elmi üçün çox vacib olan fəsillərə də yer ayırmışdır. Tusi bu bölmədə uşaqların pis hərəkətlərinin səbəbini aşkara çıxarıb onları islah etdikdən sonra, tərbiyənin öz məqsədinə nail ola biləcəyini söyləyib yazırdı: "Boyaqçı paltarı çirkdən təmizləməyincə, o lazım olan rəngi tutmaz"[3]. Bu bölmədə Tusi nəfsi sağlamlığı qorumaq üçün özünə bərabər həyat yoldaşı seçmək, sağlam ruhlu, tərbyəli, namuslu, istedadlı, nəzakətli dostlarla oturub durmağı məsləhət görürdü. Tusi eləcə də nəfsi pak saxlamaq üçün bədxah adamlardan qaçmağı, insan əxlaqını pozan şer, hekayələrə qulaq asmamağı məsləhət görürdü. O insan nəfsini sağlamlaşdırmaq üçün, faydalı əməyi əsas şərt hesab edirdi[4]. Tusi yazırdı ki, faydalı əməyi sevməyən, adam gez-tez fəlakətlə üzləşməlidir. Tusi "Əxlaqi Nasiri"nin "Nəfsi xəstəliklərin müalicəsi" bölməsində tənbəl adamları ruhi və psixi xəstə adamlar adlandırırdı.

---

1 Xacə Nəsrəddin Tusi "Əxlaqi Nasiri". səh. 79, Bakı, 1980.
2 Yenə orada. səh. 80.
3 Yenə orada. səh. 55.
4 Yenə orada. səh. 52.

"Əxlaqi-Nasiri" əsərində ailənin quruluş məsələsinə də xüsusi diqqət yetirilir. Qeyd etmək lazımdır ki, bizim tərbiyə kitablarımızda, gələcəkdə ailə başçısı olacaq gənclərə nə nəzəri, nə də əməli fəaliyyət üzrə məsləhət, göstəriş verilmir. Ona görə də cavanlar arasında çoxlu boşanma halları, günü-gündən mürəkkəbləşən valideyn-uşaq münasibətləri, böyüklərə ehtiramsızlıq halları baş alıb gedir. Tusi ailəni tam bir bədənə bənzədirdi. Ailə dolandırmaq sənətini isə bədəni sağlam saxlamaq istəyən həkimlik sənəti ilə müqayisə edirdi. O, göstərirdi ki, bədənin ayrı-ayrı hissələri ağrıdıqda, bütün bədən laxladığı kimi, ailə üzvlərinin də birinin tərbiyəsindəki naqislik bütün ailəni tar-mar edə bilər. Ona görə də Tusi ailə üzvlərinin hamısına eyni münasibət göstərmək, heç birinə üstünlük verməmək, onların arasında düzgün əmək bölgüsü aparmaq, ailədə möhkəm nizam-intizam yaratmağı vacib hesab edirdi. Tusi ideal tərbiyəli ailə yaratmaq üçün ev yeri seçməyi, ev tikdirməyi, ailəni saxlamaq üçün mal toplamağı, qənaətcil olmağı, evi idarə etmək qanunlarım bilməyi, qazandığı pulları simiclik etmədən, ehtiyatla xərcləməyi gənclərə öyrətməyi vacib hesab edirdi.

Tusi "Əxlaqi-Nasiri"də övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında da fəsil vermişdir[1]. O, uşağın tərbiyəsində ən birinci cəhət kimi onda həya hissini oyatmağı görürdü[2]. Tusi uşaqlarm tərbiyəsindən danışarkən onlara pul verməyi, maddi şeylərlə şirnikləşdirməyi qorxulu hal hesab edirdi. Tusi tərbiyə üsulu kimi uşaqların şüuruna, idrakına təsir edən məntiqli söhbətlər aparmağı, tələbkarlıq və mehribanlıq göstərməyi, məhəbbət doğuran motivlərdən istifdə etməyi vacib hesab edirdi. Tusi uşaqlara zorla yemək verməyi, bahalı paltar geydirməyi tənqid edərək yazırdı ki, sadə geyim uşaqların həqiqi vəziyyətlərini göstərmək üçün əsas şərtdir. Tərbiyə məsələlərindən danışarkən Tusi uşaqlarm gün rejiminə, səhiyyə qaydlarına

1 Xacə Nəsrəddin Tusi "Əxlaqi Nasiri". səh. 156-157, Bakı, 1980.
2 Yenə orada. səh. 157.

riayət etmələrinə də xüsusi diqqət verirdi. O, hafizəni öldürən, bədəni laxladan, insanı məst edən çox yatmağı, yayda sərin sərdabədə, qışda isə isti otaqda olmağı və qalın kürklərə bürünməyi, barmağına üzük taxmağı zərərli hesab edirdi. O, müəllim və tərbiyəçilərdən uşaqların səliqəli və təmiz geyinməsinə, çox hərəkət etməsinə, fikir verməlvarini lazım bilirdi. Tusi at minmək, müxtəlif çətinliklərə dözmək kimi tərbiyə nöqteyi nəzərindən çox vacib olan məsələləri öyrətməyi də tələb edirdi. Tusi belə hesab edirdi ki, uşaqlara elə tərbiyə vermək lazımdır ki, onlar ata-babalarından qalan var-dövlətlə lovğalanmasınlar, zəiflərə əl qaldırıb, güclülərə boyun əyməsinlər, tay-tuşlarına paxıllıq etməsinlər. Tusiyə görə tərbiyənin ən müqəddəs vəzifəsi yalan danışmağın qabağını almaq, istər yalandan, istərsə də doğruan and içməyə yol verməməkdir. And içməyi, ümumiyyətlə, pis adət hesab edən Tusi yazırdı "bəlkə də böyüklərin yalan danışmağa ehtiyacı olsun, lakin uşaqların buna qətiyyən ehtiyacı yoxdur".

Tusi tərbiyə prosesində elmlərin insan əxlaqına müsbət təsir göstərdiyini yazarkən onların hərtərəfli öyrənilməsinə xüsusi diqqət yetirməyi vacib hesab edirdi. Tusiyə görə elm sahəsində mütəxəsis olmaq istəyən hər bir şəxs xəttatlığı, natiqliyi, mirzəliyi, katibliyi bilməli, gözəl şer oxumalı, rəvan, duzlu, nağıl, hekayə, lətifə damşmağı bacarmalıdır. Tusi elm adamlarından elmlərin hamısına nüfuz etmələrini tələb edərək yazırdı: "Bilik öyrənməkdə laqeydlik ən murdar və ən təhlükəli xasiyyətdir". Təlim və tərbiyə prosesində uşaqların peşəyönümünə xüsusi diqqət yetirən Tusi yazırdı ki, uşaqda bir sənəti qavramaq qabiliyyəti tapılmayıbsa, ona həmin peşəni öyrənməyə məcbur etməyin. Tusi uşaqları peşələrə öyrədərkən peşənin həm nəzəri, həm də əməli cəhətdən əsaslı öyrənilməsini vacib hesab edirdi. O, uşaqlara peşələri öyrədərkən diqqətli, səbrli, əməksevər və ardıcıl olmalarını lazım bilirdi. Tusi göstərirdi ki, peşəsiz adamların əlində nə qədər var-dövlət olsa da, onlar dünya dəyişdikdə yoxsullaşır,

əziyyətə düçar olur, dost-düşmən məzəmmətinə məruz qalır. Tusi belə hesab edirdi ki, gənclər ancaq bir peşəyə sahib olduqdan sonra evlənib müstəqil həyat qura bilər.

Tüsi tərbiyənin lap kiçik yaşlarından başlanmasını lazım bilərək yazırdı: "Həkim Sokratdan soruşurlar: Sən nə üçün həmişə yeni-yetmələrlə həmsöhbət olursan, - deyir: Ona görə ki, nazik tər budaqları düzəltmək asandır, təravəti getmiş, qabığı qurumuş, üzü bərkimiş ağacı düzəltmək isə mümkün deyildir".

Tusi "Əxlaqi Nasiri" əsərində qızların tərbiyəsindən danışarkən onlara evdarlıq işlərini öyrətməyi, yaşınmaq, vüqarlı olmaq, iffət, həya kimi xüsusiyyətləri tərbiyə etməyi vacib hesab edirdi. Tusi qızlara cinsinə müvafiq faydalı peşələrin öyrədilməsini, onlara təhsil verilməsini lazım bilirdi. Tusi qızların bir ana kimi yetişməsi üçün onlara lazım olan bütün keyfiyyətləri öyrətməyi, ailənin şərəfini gözləməyi tərbiyə etməyi vacib hesab edirdi[1]. Təəssüflə qeyd etmək lazımdır ki, bu günkü tərbiyə kitablarımızda qızların gələcək ana kimi yetişməsi üçün heç bir göstəriş, məsləhət yoxdur. Biz qadınların ictimai həyatda iştirakına xüsusi fikir veririk, ancaq onlara analıq borclarını yerinə yetirmək, ev saxlamaq, uşağa baxmaq, ərinə qulluq etmək, gələn qonaqları qəbul edib, yola salmaq, evin təmizliyinə diqqət yetirmək kimi ümdə məsələləri öyrətmirik. Bu isə həyatda ailə faciələrinin baş verməsi ilə nəticələnir. Tusi tərbiyə məsələlərinin həllində əsas sima müəllim və tərbiyəçiləri hesab edir, ona görə də müəllim və tərbiyəcilərin yüksək təhsilli, elmli, əxlaqlı, tələbkar, mərhəmətli, şirin danışıqlı və ehtiramlı olmasını vacib hesab edirdi.

---

1 Xacə Nəsrəddin Tusi "Əxlaqi Nasiri". səh. 162, Bakı, 1980.

# HACI MİRZƏ HƏSƏN RÜŞDİYYƏNİN HƏYATI, FƏALİYYƏTİ VƏ PEDAQOJİ İDEYALARI



XIX əsrin II yarısında İranda Milli burjaziyanın yaranması ölkədə savadlı kadroların hazırlanması problemini bütün kəsikliyi ilə irəli sürdü. Bu problemi tam həll etmək mümkün olmasa da, "Mollaxana", "məktəbdarlarda", "müdərris" məktəblərində xeyli savadlı adamlar hazırlandı. Lakin burada ancaq Quran, Qurandan surələr, yazı öyrənildiyindən, bu məktəblər artmaqda, inkişaf etməkdə olan milli burjuaziyanın kadr hazırlığına olan ehtiyacını ödəyə bilməzdi. Ölkənin bu ehtiyaclarını ödəmək üçün mütərəqqi ziyalılar, qabaqcıl maarif xadimləri məktəb sahəsində islahat aparmaq uğrunda təşəbbüs göstərdilər. Məsələn, 1858-ci ildə görkəmli dövlət xadimi Mirzə Tağı Xan Həmid Bəkir Tehranda "Darilüfün" adlanan real məktəb açdı. Bir real məktəbin açılması ilə İranda təhsil sahəsində reformanın başa çatması ilə razılaşa bilməyən dövrün görkəmli ziyalılarından Mirzə Mülküm Xan, Hacı Zeynalabdın Marağaye, Mirzə Əbdül Rəhim Talıbov Təbrizi və digərləri ölkədə real məktəblərin çoxalması, əlifba sahəsində islahat aparıb onu dəyişdirməyi, təlim-tərbiyə üsullarını müasirləşdirməyi irəli sürdülər. 1876-cı ildə Təbrizdə real məktəbin açılması bu tələb və təkidin nəticəsi idi. Mətbuat sahələrində açılan bu məktəb "Mədrəsəyi-dövləti ye Təbriz", "Mədrəsəyi-Müzəffəriyyə" və yaxud adicə darülfun adlandırıldı. Bu məktəbin açılmasından ruhlanan cənubi Azərbaycan ziyalıları maarif sahəsində geniş islahat aparmaq məsələsini irəli surərkən, bu işdə umumxalq

yardımını onun idarəsi və müasir üsullarla dərs keçiriləcək yeni-yeni məktəblərin açılmasını təkidlə tələb etdilər.

Təhsilin zənginliyi barədə bu ziyalılar geniş təbliğat işi apardılar. Bu pedaqoji hərəkatın içərisində nəzəri və əməli fəaliyyəti ilə mühüm rol oynayanlardan biri də Mirzə Həsən Rüşdiyyə oldu.

Hacı Mirzə Həsən Mehdi oğlu Rüşdiyyə 1851-ci ilin dekabrında anadan olmuş və 1944-cü ildə Qum şəhərində dünyasını dəyişmişdir. Rüşdiyyə ərəb və fars dillərini mükəməl bilən dövrünün görkəmli ziyalılarından olan Molla Mehdidən ilk təhsilini almışdır. Rüşdiyyə ilk təhsilini Təbrizdə tamamladıqdan sonra Beyrut - Darüllmüəlliminə daxil olmuşdur. Rüşdiyyə hələ tələbəlik illərində üsuli-cədid məktəbinin təsisi və idarə olunması ilə maraqlanmışdır. Təhsilini Beyrudda tamamladıqdan sonra dövrün mütərəqqi pedaqoji ideyalarını və görkəmli pedaqoqların tərbiyə haqqında fikirlərini öyrənib onları cənubi Azərbaycanda yaymağa çalışır. XIX əsrin II yarısında kapitalizmin inkişafı ilə əlaqədar Bakıda texniki tərəqqi başladı ki, bu da Azərbaycanın ictimai həyatında və ictimai fikrinin inkişafmda böyük dönüş yaratdı. Bu təsir özünün ifadəsini təkcə Azərbaycana deyil bütün Zaqafqaziyaya göstərdi. Bu zaman Zaqafqaziyada şəhər və kəndlərdə patriarxal qaydalar çürüyür və dağılırdı.

Kəndli ixtişaşları artır, sinfi mübarizə kəskinləşirdi. Vaxtilə M.F.Axundovun səpdiyi toxumun səmərəli nəticəsi, "Əkinçi", "Ziyayi Qafqaziyyə" kimi qəzetlərin nəşri, Seyid Əzimin "Üsuli Cədid" məktəbi, N.Nərimanov, C.Məmmədquluzadə, M.Mahmudbəyov, F.Köçərli, N.Vəzirov, R.Əfəndiyev, S.M.Qənizadə və bir çox başqa mütərəqqi ziyalıların maarifçilik, xəlqilik meyli, demokratizim elementləri o zamanki maarif işçilərinin əqli inkişafına ciddi təsir göstərdi. İctimai fikirdə yaranan bu dönüş xalq maarifnin bütün sahələrində özünü biruzə verdi. Zaqafqaziyada yaranan "Üsuli-Cədid" cərəyanı yeni bir hal kimi cənubi Azərbaycanda da özünü biruzə verdi.

Zaqafqaziyada olan yeni üsuli-cədid məktəbləri təlim-tərbiyə sahəsində və məktəb sistemində əsrlər boyu davam edən köhnəliyə qarşı çıxdı. Bu üsul xalqı müasirlik şüarı altında yeni yaşayışa, mədəniyyətə çağırırdı: islahat aparmaq istəyən və yenilik tərəfdarı olan maarifpərvərlər fəaliyyətlərini günü-gündən artırırdılar. Zaqafqaziyada baş verən cəddidizm hərəkatı Cənubi Azərbaycan ziyalılarının da diqqətini cəlb etdi və onları əməli fəaliyyət göstərməyə yönəltdi. Bu zaman Qori seminariyasının məzunları, Azərbaycanın müxtəlif yerlərinə səpələndiyi kimi İrəvana da gəlib çıxmışdılar. İrəvan Quberniyasında cəmləşən, başda Firudin bəy Köçərli olmaqla Qori seminariyasının məzunları İrəvanda üsuli-cədid məktəblərini elə müasir təmtəraqlı şəkildə qurmuşdular ki, onun şöhrəti elə geniş yayıldı ki, bu məktəblər cənubi Azərbaycan maarifpərvərlərinin diqqətini cəlb etdi və bu məktəblərin təcrübəsini öyrənmək məqsədi ilə onlardan bir neçəsinin o cümlədən Rüşdiyyənin İrəvana gəlib çıxmasına səbəb oldu. O Zaqafqaziyada və xüsusən də İrəvan quberniyasında olan məktəblərin təcrüəbsini Cənubi Azərbaycanda yaymaq üçün İrəvana gəlir. Özünün yazdığı kimi "Təlimin yeni metodlarını, qanunu və məktəb açmaq qaydalarını öyrənmək məqsədi ilə İrandan mühacirət etdim"[1]. O zaman irəvanda toplanmış Qori məzunlarından və orada yaranan pedaqoji mühitdən bəhrələnən Rüşdiyyə nəzəri - pedaqoji biliklərini, təcrübədə sınamaq və əldə etdiyi təcrübənin nəticələrini cənubi Azərbaycana aparmaq məqsədi ilə İrəvanda məktəb açır. Bu barədə "Həblül Mətin" qəzetində 1903-cü ildə yazırdı: "Möhkəm qanunları öyrəndikdən sonra təcrübə aparmaq məqsədi ilə İrəvanda məktəb açdım. Rüşdiyyənin açdığı məktəb İrəvanda o qədər şöhrət tapır ki, Zaqafqaziyanın müxtəlif yerlərindən bu məktəbin təcrübəsini öyrənməyə gəlirlər. Rüşdiyyənin yazdığına görə bu məktəbin şöhrəti barədə məlumat almaq üçün İran Şahı Nəsrəddin də bura gəlmişdir. Qafqazda belə bir

1 "Həblul mətin" qəzeti, 1903-cü il 14 sentyabr.

mükəmməl məktəbin açılması, Qafqaz maarifpərvərlərinin və Qafqaz təlim dairəsinin nəzərindən qaçmamışdır. Rus imperiyası daxilində pedaqoji tələbləri ödəyən və rus pedaqoji fikri əsasında qurulmuş Rüşdiyyənin məktəbindən mütəssir olan rus höküməti onu pul ilə mükafatlandırmış və onun məktəbinə maddi yardım göstərmişdir. Pedaqogikanın nəzəriyyəsi ilə silahlanan və əməli pedaqoji təcrübə əldə edən Rüşdiyyə 1888-ci ildə yenidən Təbrizə qayıdır və orada "Mədrəsəyi Rüşdiyyə" adlı məktəbini açır. Lakin onun bu xeyirxah fəaliyyəti mürtəcelərin ciddi müqavimətinə rast gəlir. Mürtəce ruhanilər və onların təsiri altmda olan fanatik xalq kütləiəri müasirləşməyə, hər cür yeniliyə qarşı etiraz edərək qərb və qabaqcıl rus pedaqoji fikrinin bütün yeni təzahürlərinə qarşı çıxır, köhnəliyi müdafiə edirdilər. Onlar təkcə xalqın əqidə və şüurunu dəyişdirəcək köklü məsələlərə deyil, ən sadə yeniliklərə qarşı da narazılıqlarını bildirirdilər. Mürtəce mollalar Rüşdiyyənin səs üsulu ilə tədris etməsini və ümumiyyətlə onun məktəbindəki yenilikləri dini və milli xəyanət hesab edib məktəbi dağıdırdılar. Rüşdiyyənin özü də bu münaqişə zamanı fiziki xəsarət alır.

Cənubi Azərbaycan Demokratik Hərəkatını və ilk Azərbaycan hökümətinin başçısı Pişəvəri, Rüşdiyyənin məktəbi haqqında yazırdı: "onun təsis etdiyi məktəblər mövhumatçılar tərəfindən bağlansa da, o, öz fikrindən dönmədi[1]. Yeni məktəbdə, yeni əlifba əsasında Azərbaycan dilinin tədris işini davam etdirdi. Bir neçə dəfə yeni məktəb açmaq istəyən Rüşdiyyə müvəffəqiyyətsizliyə uğramış və nəhayət 1893-cü ildə Şeşkilan məhəlləsində yeni "Rüşdiyyeyi - Müzəffəriyyə" məktəbini açır. İstanbulda çıxan "Əxtar" qəzeti 1894-cü ildə Rüşdiyyə məktəbini təqdir edərək tədris və təlim işlərinədə həqiqətən çox yaxşı metodu və gözəl səliqəsi olduğunu yazırdı. Rüşdiyyənin Təbrizdə apardığı yeni məktəblər uğrunda təbliğat və bu təbliğatın bariz nümunəsi olan onun məktəbi o qədər geniş

1 M.C.Pişəvari. "Əsərləri". səh.135.

şöhrət qazanır ki, Rüşdiyyənin Mirzə Əhməd Müdərris, Mir Hüseyn Kamal və sairə kimi davamçıları yaranır. Bu maarifpərvər Rüşdiyyə davamçıları Təbrizdə "Kamaliyyə", "Tərbiyyat", "Loğmaniyyə" və s. kimi milli məktəblər açırlar. Buradan belə qənaətə gəlmək olur ki, Rüşdiyyə İran pedaqoji hərəkatının əsasını qoyanlardan birincisidir. Rüşdiyyə özünün Üsuli-Cədid təcrübəsi ilə xalq kütlələrinə başa sala bildi ki, əgər köhnə təlim üsulları ilə illərlə oxuyub savad almaq mümkün idisə də, Rüşdiyyə uşaqları 60 saatlıq dərs müddətində ana dilində yazıb oxuda bilir. Rüşdiyyə bir ictimai siyasi maarif xadimi kimi cənubi Azərbaycanda yaşayan yaşlılar üçün də söfti üsulla savad kurslarının açılmasının təməlini qoymuşdur. Rüşdiyyə məktəb açmaq, yeni üsullar tətbiq etməklə kifayətləməyərək daha geŋiş fəaliyyət dairəsi əldə etmək üçün 1898-ci ildə Tehranda "maarifəncumam" və "Ali maarif şurası"nı yaradır. Rüşdiyyənin görkəmli maarif, ictimai xadim kimi belə şöhrətlənməsi dindarları, dövlət strukturunda oturan şovımst farsları qane etmir. O, yenidən təqib və təhqirlərə məruz qalır. Onu Qafqazda çar hökümətindən və bir sıra xarici ölkələrdən maddi yardım alan vətən xaini olmasını vurğulayırlar.

Məlum olduğu kimi Rüşdiyyə böyük maddi çətinliklər içərisində yaşamışdır. 1895-ci ildə İstanbulda çıxan "Əxtər" qəzeti yazırdı ki, "Yazıq Rüşdiyyə məktəb açmaq üçün atasınm mülkünü satmışdır. Hal-hazırda onun nəfəsindən başqa heç bir sərvəti yoxdur. Rüşdiyyə dövlətin və dindarların yalan böhtanlarından və ittihamlarından uzaqlaşmaq üçün Məkkəyə, Şama, ikinci dəfə Qafqaza və bir sıra başqa şəhərlərə səyahət edir. 1902-ci ildə Tehrana qayıdan Rüşdiyyə ədəbi-bədii və jurnalistik fəaliyyətilə məşğul olur. Onun nəşr etdiyi "Tehran" və "Məktəb" jurnalları mövcud üsuli - idarəni tənqid edən, pedaqoji məsələləri əhatə edən, metodiki üsulları göstərən və qabaqcıl pedaqoji fikri təbliğ edən, pedaqoji istiqamətli jurnal olmuşdur. Rüşdiyyə bir yaradıcı pedaqoq kimi 1900-03-cü illərdə "Bedəyyətul - Təlim", "Təkmillətul - Sərf", "Məsləklərin

yolu və ya bəşərin birləşməsi", "Əlifba" kitabını və bir çox pedaqoji məqalələri yazır. İran ziyalılarından Rza Əmin yazırdı ki, "Bu kitablardan daha əhəmiyyətlisi onun "Əlifba" kitabıdır ki, asan tərzdə tənzim edilmiş və hüquqları söftü üsul ilə öyrənməyə imkan verir. Rüşdiyyənin ən böyük xidmətlərindən biri də qadın azadlığı və qadın təhsili uğrunda mübarizə aparıb qız məktəbi açması, korlar üçün yeni oxumaq üsulu ixtira edib onlarla məktəb təsis etməsi idi. Çox cəhətli fəaliyyəti ilə ictimai-siyasi hadisələrin ön cərgəsində gedən bu böyük vətənpərvər, müəllim, maarif xadimi haqqında Cənubi Azərbaycan hökümətinin başçısı M.C.Pişəvəri yazırdı: "100 ilə yaxın həyatını maarif və azadlıq yolunda, nadanlıq və cəhalətə qarşı mübarizəyə həsr edən qocaman müəllim Hacı Mirzə Həsən Rüşdiyyə Azərbaycan xalqının fəxr edəcəyi ən parlaq və tarixi simalardan biridir. 1933-cü ildə təqaüdə çıxan Rüşdiyyə 1944-cü ildə vəfat etmişdir. Onun son vəsiyyəti belə olmuşdur: "Məni elə yerdə dəfn edin ki, məktəblilər hər gün qəbrimin üzərindən keçərkən ruhumu şad etsinlər".

## H.M.Həsən Rüşdiyyənin "Vətən Dili" kitabının quruluşu

Hərtərəfli düşünülmüş yuksək tərbiyəvi qüvvəyə malik olan, müasir tələblərə cavab verən əlifba kitablarının yaranması dünya pedaqoji fikir nümayəndələrini daima düşündürən problem olmuşdur. Heç təsadüfi deyil ki, bu problemlə pedaqoji elmin banisi çex pedaqoqu Yan Amons Kamenski, əsərləri ilə dünyanı heyrətə gətirən Lev Nikolayeviç Tolstoy, dünya şöhrətli nəzəriyyəçi pedaqoq K.D.Uşinski və s. bir çox başqaları məşğul olmuşlar. Uşaqların ilk təhsilinin özülünü qoyan əlifba kitabını yüksək qiymətləndirən L.N.Tolstoy yazırdı ki, mən öləndən sonra özüm üçün ən böyük abidə əlifba kitabını hesab edirəm. Pedaqoji fikir nümayəndələrinin dediyinə görə,

əgər Y.A.Komenski heç bir əsər yazmayıb təkcə "Real aləm şəkillərdə" dərsliyini yazmış olsaydı belə, yenə dünya pedaqoji fikir tarixində görkəmli pedaqoq kimi qala bilərdi. Bu böyük şəxsiyyətlərin yaratdıqları "Əlifba" kitabları, özünün elmliliyi, dərin məzmünü, nəzəri çəhətdən əsaslandırıldığı üçün uzun illər xalq məktəblərində ən yaxşı dərslik kimi istifadə edilmişdir. 1860-cı illərdə K.D.Uşinski Komenskinin "Real aləm şəkillərdə" dərsliyinə istinadən "Vətən dili" dərsliyini yazdı. Bu dərslik qısa müddətdə rus və qeyri rus xalqların hüsn rəğbətini qazandı. Dərslikdə K.D.Uşinski özünün dərin, nəzəri mülahizələrini çox məharətlə tədbiq edib köhnə sxolastik təlim üsullarına, vaxtını keçirmiş hərfi heca üsuluna qarşı çıxdı. Zaqafqaziyanın qabaqcıl maarifpərvərləri bu dərsliyin təsiri altında səs üsulu ilə yeni dərsliklər yazmağa başladılar. Tezliklə Gürcüstanda, Azərbaycanda, Pribaltika ölkələrində əlifba dərslikləri yarandı. Azərbaycanda sabiq Qori seminariyasının inspektoru, Uşinskinin məsləkdaşı, Azərbaycan dilini gözəl bilən rus mənşəli A.O.Çernyayevski Azərbaycanlılar üçün "Vətən dili" dərsliyini yazdı. Çernyayevskiyə qədər Azərbaycan məktəb, mədrəsə və mollaxanalarında nə məzmun, nə də mənaca uşaqların bilik və yaş səviyyəsinə uyğun olmayan "Quran", "Çərəkənin kiçik hissələri", "Gülüstan və Büstan", "Leyli və Məcnun", "Fizuli divanı", "Cameyi-Əvvab", "Tarixi-Nadir" və s. dərslik və dərs vəsaitlərindən istifadə olunurdu. Çernyevskinin yazmış olduğu "Vətən dili" dərsliyi Azərbaycan balalarının illərlə getməli olduğu yolun məsafəsini qısaltdı və bu dərslik Şərq aləmində Orta əsrin təlim üsullarının buxovunu qırdı. Çernyayevski tərtib etdiyi "Vətən dili" dərsliyinə ayrıca metodiki "Üsul" kitabını da yazmışdı. Çenyayevskinin bu dərsliyi Azərbaycanın bütün bölgələrinə yayılmaqla yanaşı o zaman İrəvanda F.Köçərli, N.Nərimanbəyov və s. bir çox Azərbaycan ziyalılarının əlində qiymətli vəsait oldu. O zaman Cənubi Azərbaycandan İrəvana gəlmiş maarifpərvər Ruşdiyyə də İrəvan pedaqoji mühiti içərisində Çernyayevskinin "Vətən

dili" kitabı ilə tanış oldu. Bu kitab Rüşdiyyədə yeni dərslik yaratmaq meyli doğurdu. O, 1894-cü ildə eyni adlı "Vətən dili" dərsliyini yazdı və dərs dediyi məktəbdə onu təcrübədən keçirdi. Rüşdiyyə kitabını çap etdirib Cənubi Azərbaycana aparmaqla orada ilk dəfə səs üsulu ilə dərs dedi. Təbrizdə çap olunan bu kitab ilk dərslik oldu. Rüşdiyyənin özü bu barədə yazırdı:" Mübtədi şagirdlərə 6 aydan qabaq oxumaq öyrədən söftü üzrə təlim olunan " Əlifba-ye Cədidə" müstəmil bir kitabdır.

Rüşdiyyənin "Vətən dili" kitabı cəmi 110 səhifə və 2 hissədən ibarət idi. Kitabda 5-ci sinfə qədər ayrı-ayrı söz hissələri, sözlərin şəkilləri və yazı üçün çalışmalar verilmişdir. Rüşdiyyə də Çerneyevski kimi müəllimlər üçün dərsliyə metodiki gösiəriş yazmışdır. O, bu göstərişdə deyirdi:"Müəllim gərək bu xətləri şagirdin əhvalına münasib, gündə 3 ya 4, ya 5 kəlimə nöqtə nizamı ilə diqtə üzrə öyrənib təlimindən xatircəm olandan sonra şagirdə məşq vəzifəsini bildirsin. Bu kitabın 6-cı səhifəsindən 40-cı səhifəsinədək sövti üsulla əlifba təlimi 41-ci səhifədə isə əlifba cədvəli verilmişdir. 42-ci səhifədən sonra isə olduqca maraqlı tərbiyəvi qüvvəyə malik olan mətnlər verilmişdir. Dərsliyin bu hissəsində "Xain heç zaman artmaz", "Dərs oxuyan doymaz", "Sənətinə kəc baxan ac qalar" kimi nəsihətamiz ifadələr və atalar sözləri verilmişdir. Dərslikdə verilmiş mətnlər, atalar sözləri və kəlamlarda böyük məna olmaqla yanaşı, onlar şagirdləri səliqəyə, yoldaşlığa, dostlüğa, düzlüyə, dəvət edən, yalançılığın, ikiüzlülüyün, riyakarlığın, nifrətəlayiq iş olduğunu şagirdlərə göstərən tərbiyəvi mətnlərdir. Rüşdiyyə də Uşinski, Çerniyavski kimi xalqın yaradıcı qüvvəsinə inam tezisini götürüb dərsliyində xalq ədəbiyyatı, xalq folklorundan geniş istifadə etmişdir. Rüşdiyyənin "Vətən dili" kitabınm məziyyətlərindən biri də mətndən sonra "mənası budur" kimi hekayədən çıxan nəticəni uşaqlara verməkdir. Dərsliyin dili aydın, mətnlər qısa cümlələrdən ibarətdir.

## Rüşdiyyənin "Vətən dili" dərsliyindəki mətnlərin tərbiyəvi əhəmiyyəti

Rüşdiyyə uşaq psixologıyasını dərindən bilən bir mütəfəkkir pedaqoq kimi "Vətən dili" dərsliyində uşaqların başa düşəcəyi sadə Azərbaycan dilində elə oxu mətnləri verib ki, o nəinki uşaqlara ləzzət verir, böyüklərin də hədsiz marağına səbəb olur. Onun xalq ədəbiyyatından seçdiyi hər biri nümunənin yüksək təsiredici mənası var. Maraqlı burasıdır ki, Ruşdiyyə uşaqların oxu mətnlərindən düzgün nəticə çıxara bilmələri üçün hər mətnə izahat verrmişdir. Məs: "Bir aslan iki öküz" mətnində otlaqda 2 öküzə rast gələn bir aslan, öküzlərə hücum edib onları yemək istəyirsə də, güc gələ bilmir. Öküzlər baş-başa verib Aslana müqavimət göstərirlər. Aslan hiylə işlətməyi qərara alır. O öküzlərdən birinə yanaşıb deyir: Yoldaşlarından ayrılsan səni yeməyəcəyəm. Yekəbaş öküz Aslanın hiyləsinə inanıb yoldaşlarından ayrılır. Dərhal aslan fürsətdən istifadə edib öküzləri yeyir.

Rüşdiyyə bu parçada uşaqlara başa salmaq istəyirdi ki, tək əldən səs çıxmaz. El gücü sel gücüdür. Əgər insanlar bir-birinə qısılsa, istinad etsə, birgə yaşayış tərzi uğrunda mübarizə aparsa, o hər bir çətinliyə qalib gələr və yenilməz olar. Təklikdə insan tez məhv olar. Digər tərəfdən Rüşdiyyə uşaqlara başa salırdı ki, insan üçün ən böyük bəla sadəlövhlükdür. Sadəlövhlükdən insan əzab-əziyyətə düçar olub fəlakətə uğraya bilər. Hər kəs düşdüyü vəziyyəti ölçüb-biçməli, doğru nəticə çıxara bilməlidir. Öküzün başına ona görə bəla gəldi ki, o doğru yol seçə bilməyib, ancaq özünü düşünürdü.

Rüşdiyyə ikinci "Bağa ilə dovşan" hekayəsində göstərirdi ki, heç vaxt heç kəs özündən razı olmamalı, özünün qüvvəsinə güvənməməlidir. Özündən razı olanlar hər zaman, hər yerdə müvəffəqiyyətsizliyə uğrayırlar. İnsan üçün əmək, zəhmət qələbə çalmağa inam, ətrafdakılarla hesablaşmaq insanı şöhrətləndirən məsələdir. Bu hekayədə bağa ilə yarışan dovşan

ayaqlarına güvənərək tısbağanın sakit hərəkətlərinə laqeyid olub, müvəffəqiyyətsizliyə uğradı. Gərək heç vaxtı başqasının gücsüz olduğunu düşünməyəsən. Rüşdiyyə "Maral" hekayəsində yazırdı ki, bir gün maral öz surətini suda görüb ayaqlarının incə və nazik olduğundan qəmləndi. Buynuzları isə marala fərəh gətirdi. Bu dəm ovçular maralı görüb onu qovmağa başladılarsa da çata bilmədilər. Maralın xoşlamadığı nazik ayaqlar onu ölümdən xilas etdi. Maralı tuta bilməyən ovçular onu meşəyə qovdular. Meşədə maralın istəkli buynuzları onu tora saldı. Onlar ağaclara ilişib onu saxladı. Ovçular maralı tutdular. Rüşdiyyə buradan nəticəyə gəlirdi ki, kim bu dünyada haqqı nahaqq, nahaqqı haqq görürsə axmaqdır.

Rüşdiyyə "Köpəklər və tülkü" hekayəsində gücsüzlərlə yox, qüvvətlilərlə mübarizə aparanları şərəfli adamlar hesab edirdi. Hekayədə tülkü aslanın ölü dərisini parçalayır. Halbuki aslan diri olsaydı onun nərəsindən qorxub tülkü çox-çox uzaqlarda gəzərdi. "İki xoruz" hekayəsində Rüşdiyyə heç vaxt təkəbbürlü olmamağı, sadəcə bir qələbə, balaca bir müvəffəqiyyət üçün öyünməməyi məsləhət görürdü. Hekayədə göstərilirdi ki, iki döyüşən xoruzun biri qalib gəldiyi üçün yüksəklərə çıxaraq özünün qəhrəminlığını göstərmək məqsədi ilə bərkdən banlayır. Yırtıcı quşlardan biri səsi eşidib xoruzu caynağına alıb gedir.

"Köpək və qurd" hekayəsində isə göstərilirdi ki, bir it canavarı qabağına qatıb qovur. Canavar dönüb itə deyir ki, elə bilirsən mən səndən qorxuram, yox mən sənin arxanda duran adamdan qorxuram. Rüşdiyyə burada "arxalı köpək qurd basar" xalq misalından çıxış edərək uşaqlara başa salırdı ki, arxalı olmaq, insanlara dayaq durmaq böyük məziyyətdir. Arxalı adamların cürəti, qüdrəti böyük olur. O, bu xalq yaradıcılığı yolu ilə uşaqları lap kiçik yaşlarından elə, obaya, xalqa ata-anaya arxa olmaq fikrini aşılamağı vacib bilirdi. Rühdiyyənin seçdiyi "Köpək və caylan" hekayəsi də olduqca maraqlıdır. Bu hekayədə bir köpək sallaqxanadan bir parça ət qapıb qaçdığı söylənilir. İt

çaydan keçərkən öz əksini orda görüb sudakı itdən əti almaq istərkən, ağzndakı ət suya düşür. İt əti tapa bilməyib nə axmaq iş gördüm, faydasız iş dalınca qaçıb ağzımdakı əti də itirdim.

Rüşdiyyə göstərirdi ki, insan faydalı işdən yapışmalıdır. Bir əldə iki qarpız tutmaq olmaz. Faydasız işə sarı getmək insan ağlının azlığına dəlalət edir. Belə adamlar faydalı işi itirir, onun əzabını, əziyyətini çəkir və gördükləri faydasız işdən təəsüflənirlər. Rüşdiyyə uşaqlara lovğa, təkəbbürlü olmağın zərərini göstərəkən, boş danışıb şücaətini göstərməyə çalışan adamları tənqid edərkən "İnsan və aslan" hekayəsində bir nəfərin aslana şəkildə insanın aslanı necə boğduğunu göstərir. Aslan baxıb gülümsəyib istehzalı deyir: -Əgər aslan da şəkil çəkməyi bacarsa idi, onda o aslanın insanı necə boğduğunun, parçaladığının şəklini çəkərdi. Rüşdiyyə "Şir və siçan" hekayəsində göstərirdi ki, heç kəsi gücsüz, xeyirsiz hesab etmək lazım deyil. Hər kəsin özünə görə başqalarına kömək əlini uzatmaq imkanı var. Fədakarlıq göstərmək ancaq güclü olmaqla deyil. Bəzən gücsüzlər dar gündə elə fədakarlıq göstərə bilir ki, ona güclülər qadir deyil. "Şir və siçan" hekayəsi onun bariz nümunəsidir. Hekayədə göstərilir ki, bir gün siçan şirin yanından keçərkən onun pəncəsinin altına düşür. Siçan yalvarır ki, məni burax, bir gün sənə yararlı ola bilərəm. Şir gülərək siçanı buraxır və düşünür ki, barmaq boyda siçan ona nə kömək edə bilər. Günlərin birində şir tora düşür, siçan gəlib onu tordan xilas edir.

Rüşdiyyənin yazmış olduğu "Dözümsüz aslan" hekayəsi də tərbiyə baxımından olduqca maraqlıdır. Hekayədə bir aslanın üzərindən o tərəf bu tərəfə hoppanan çəyirtkə göstərilir. Aslan bərk hirslənir. Kənardan bunu müşahidə edən tülkü balaca bir həşəratın aslana güc gəldiyini görür. Aslan tülküyə deyir:-Məni əsəbləşdirən çəyirtkənin özü deyil, onun təhdidli hərəkətidir. Rüşdiyyə bu hekayə ilə uşaqlara öz hərəkəilərinə diqqət yetirməyi, öz sözü, davranışı ilə ətrafdakı adamları - ata, ana, bacı, qardaş, müəllimlərini təhqir etməməyi məsləhət görürdü.

Bu hekayədən görsəndiyi kimi Rüşdiyyənin xalq ədəbiyyatından seçdiyi uşaq ədəbiyyatı uşaq marağına doğru uyğunlaşdırıldığından bunlar Rüşdiyyənin kiçik yaşlı uşaqların psixoloji xüsusiyyətlərini bilən böyük nəzəriyyəçi və praktik pedaqoq olduğuna dəlalət edən misaldır. Biz aşağıda Rüşdiyyənin dərsliyinə daxil olan bir neçə nümunəni verməyi məsləhət görürük.

## Rüşdiyyənin "Vətən Dili" dərsliyindən nümunələr [1]

### Bir aslan ilə iki öküz

Bir aslan bir otlaqda iki öküzə rast gəldi və onları tutub yemək üçün hücum elədi. Öküzlər baş-başa verib buynuzları ilə aslana müqabilə elədilər. Aslan bunların rəfaqətini görüb məkr və hiylədən səvay bir çarə bilmədi. Öküzlərin birinə yanaşıb dedi:

-Yoldaşlarından ayrılıb onu tək və tənha qoysan əsla səninlə işim olmaz.

Yekəbaş öküz aslanın verdiyi vədələrə aldanıb köməyindən ayrıldı. Dərhal aslan fürsəti fövtə verməyib əvvəl o öküzü və sonra onun yoldaşını yırtıb yedi.

### Axmaq öküz və hiyləgər şir

Bir çəmənzar, bir gözəl otlaq,
Olmuş idi iki öküzə yataq
Otlamaq istəsə otu var, bol,
İçmək istəsə su yanında, su bol.
Aslan oldu bu haldan agah,
İstədi olsun onlara həmrah
Yəni otlaqda məqam etsin,
Onları öldürüb təam etsin.
İttifaq etdilər olub həmhal.
Şir həmlə edəndə həb ya ruz,

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1991, cild II, səh. 291-297.

Göstəriridi olar ona buynuz.
Şir gödü ki, olmayır çarə,
Hıyləyə üz çevirdi biçarə.
Yanlayıb onların birini yavaş,
Dedi: bənd olma yoldaşa, qardaş,
Otla səhranı, gəzginən tənha,
Sənə məndən olur himayətha.
Əsər etdi öküzə şir sözü,
Yağlı sözlərə axdı meyl gözü.
Oldu bu sözlə yardan tənha,
Etmədi meyl yoldaşa əsla.
Şir üçün yarı eylədi əgyar,
Tək və tək etdi onları murdar.

## Qissədən hissə

Budu məqsud qissədən hissə
Müttəfiq qöbm çəkmədi qüssə.

## Bağa ilə dovşan

Bir vaxt dovşan ilə bir bağa bəhs və mərc elədilər ki, onların hansı biri tez yüyürən olduğu məlum olsun. Bunlar bir dağı nişanlayıb birdən yüyürməyə başladılar. Dovşan öz xəfif və yüngül olmağına məğrur olub yolun ortasında yatıb yuxuya qaldı. Tısbağa özünün ağırlığını və ağır-ağır gedişini mülahizə eləyib rəvan oldu. Dovşan şirin yuxuda olduğu halda bağa mənzili başa vurub nişan elədikləri dağa çatdı.

## Maral

Maralın biri su içmək üçün bir bulaq üstünə gəldi. İçdiyi su içində öz sifətini və əksini görüb ayaqlarının qayət incə və nazikliyindən çox qəmli oldu. Sonra buynuzlarının böyük olduğunu görüb sevindi. Bu dəmdə bir neçə ovçunun onun üstünə hücum elədiyini görüb dərhal qaçmağa başladı. Ovçular onun arxasınca düşüb bir müddət səhra və biyabanı dolandılarsa da , ələ gətirə bilmədilər, naümid qaldılar.

Bu əsnada maralın yolu bir qalın meşəyə və ağaclığa düşüb şaxlı-budaqlı olan böyük buynuzları kol-kosa bənd olub qaldı və nə qədər çabalayıb vuruşdusa, yenə xilas ola bilmədi. Ovçular bu halı görüb yüyürdülər, maralı tutub tələf etdilər. Yazıq maral can verdiyi sırada buynuzları ilə ayaqlarını xatırına salıb dedi ki, həqarət gözü ilə baxıb qəmgin olduğum ayaqlarım məni səhrada düşmən əlindən qurtardı, lakin məmnun və məsruru olduğum buynuzlarım həlakimə səbəb oldu.

## Maralın əyri qıçları və gözəl buynuzları

Susamışdı maral bir çöldə,
Axtarıb tapdı suyu bir göldə.
Dum-duru ayna tək idi su,
Əksini aldı tutdu ruyi-beru.
Gördü buynuzların budaq-budaq
Şad oldu atdı iki-iki şıllaq.
Ol zaman bir də baxdı ol suyə,
Qıçların gördü bənzəyir muyə.
Görcək onu atdı bir neçə vaz,
Quş kimi uçdu, eylədi pərvaz.
Ovçu da bir kəməndə idi nəhan,
Eyləmişdi maralı seydə nişan
Hər qədər vurdu ovçu məhmiz ata,
Olmadı həddi atın ona çata,
Qorxar idi, qırıldı əndişə,
Qarşıda gördü güllü bir bişə.
Budu məlcə dedi, budur məva,
Qaçaraq girdi ona bipərva.
Atmamışdı orada iki qədəm,
Buynuzun tutdu bir ağac möhkəm,
Hər tərəf döndü, çəkdi ahü fəğan,
Axdı buynuzlarm dibindən qan,
Qəmlənib, ah edib, çəkib fəryad,
Ağladı ta yetişdi bir səyyad.
Bir də gördü gəlib çatıb səyyad,
Edəcək cismi-canını bərbad.
Süst olub qaldı, ahuva saldı,

Buynuzun, qıçların yada saldı.
Dedi qəmgin edən məni qıçlar,
Oldu səhrada cismi-canə fütad,
Qoymadı onları ola bərbad.
Şad olub fəxr qıldığım buynuz,
Ganını hifzdən çevirdi yüz.
Yəni bənd etdi, çəkdi darə məni,
Verdi ədayi-kəçmədarə məni

## Qissədən hissə

Rəsmdir bu cahanda kim axmaq,
Haqqı nahəq gördü, nahəqi həq.

## Köpəklər və tülkü

Köpəklər bir aslan dərisi tapıb və hər biri bir tərəfdən yapışıb çəkirdilər. Tülkü bunu görüb və dedi:

-Əgər aslan diri olsaydı onun dişlərini cəngalınızdan kəskinraq görərdiz.

## İki xoruz

İki xoruz bir-biri ilə döyüşürdü. Biri basılıb qaçdı və bir yerə soxulub gizləndi. Amma qalan xoruz bir daşın üstünə çıxıb öz zor və qüvvəsinə öyündü, qanadlarını şaqqıldadıb banladı. Bu zaman yırtıcı quşlardan biri şığıdı və onu qapıb getdi.

## Köpək və qurd

Bir gün çoban iti çöldə bir canavarı qabağına qatıb ora-bura qovurdu və öz-özünə də fəxr edirdi. Qurd üzünü köpəyə çevirib dedi:

-Zənn eləmə ki, səndən qorxuram. Bəlkə mən o sənə arxa durub gələn adamdan qorxuram.

## Köpək və çaylan

Köpək sallaqxanadan bir parça ət qapıb bir çay içindən keçərək ağzındakı ət parçasının əksini suda görüb onu dəxi ət bilib qapmaq istədi. Bu zaman ağzından düşən əti Çaylan qapdı

və getdi. Köpək ağzından saldığı əti dəxi tapa bilməyib öz-özünə deyirdi:-"Nə axmaq iş gördüm. Faydalı olmayan iş ardınca düşüb ağzımdakı əti də itirdim.

## İnsan və aslan

Bir adamla bir aslan yoldaş olub yol gedirdilər. Bunlardan hər biri özünün zor və qüvvətindən söhbət açıb danışırdı. Aslan öz zor və şücaətinin tərifindən mübaliğə edirdi. Bu əsnada bir divara rast gəldilər ki, onda çəkilmiş olan rəsmdə insan aslanı altına alıb boğurdu. İnsan bu şəkli aslana göstərdi və güldü. Aslan bu eyhamı anlayıb insana dedi ki, ey insan, əbəs yerə gülürsən, çünki əgər aslanlar dəxi insan oğlu təki rəsm elmini bilmiş olsaydılar o vaxt hansı bir insan aslanı boğa biləcək idi, bəlkə əksinə aslan insanı boğardı.

## Şir və siçan

Bir gun şir yatmışdı. Bir siçan onun üstündən keçəndə şir oyanıb onu tutdu. Siçan dedi:

-Gəl məni azad elə, bir vaxt olar ki, sənə gərək olaram. Şir bu sözlərə kinayə ilə gülüb onu azad etdi. Bir gün həmin aslan ovçuların toruna düşüb bağırmağa başladı. Siçan onun fəryadını eşidib gəldi. Toru dişləri ilə kəsib şiri xilas elədi.

## Dözümsüz aslan

Aslanlardan biri günəşin hərarətinə dözməyib bir mağaraya sığınmışdı. Bu zaman mağaraya gələn çəyirtkə onun üstünə qondu və yan-yörəsində dolaşmağa başladı. Çəyirtkənin belə hərəkətlərindən əsəbləşən aslan sağa və sola dönür, qəzəbindən titrəyirdi. Onu bu vəziyyətdə görən tülkü istehza ilə gülməyə başladı. Aslan tülküyə üz çevirib dedi:

-Ey tülkü, mənim belə əsməyimə kinayə eləmə, məni titrədən çəyirtkənin özü yox, onun təhqiredici hərəkət və rəftarıdır.

# MİR MEHDİ ETİMADIN (NATİQİ) TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Cənübi Azərbaycanın görkəmli maarifpərvərlərindən biri də Mir Mehdi Etimad Seyid Məhəmməb oğlu olmuşdur. O, 1900-cu ildə Təbrizdə doğulmuş və ilk təhsilini Molla məktəbində, sonra isə Mirzə Əbdül Qasım xanın "Üsuli - Cədid" məktəbində davam etdirmişdir. Daha sonralar isə Tələbə mədrəsəsində oxuyaraq Sərf - Nəhf, Fıgh, Üsul və Hikmət fənlərini öyrənib ali təhsil almışdır. Etimad dünyanın bir çox elmli, savadlı, şərəfli adamları kimi şəxsi mütaliə yolu ilə yüksələ bilmişdir. O, məktəb - mədrəsə təhsilini tamamladıqdan sonra müəllimlik fəaliyyətinə başlamışdır. Etimad o zaman Təbrizdə məşhur olan "Etimad mədrəsəsini" açmış və 15 il gənc nəslin təlim, tərbiyəsi ilə məşğul olmuşdur. Etimad İranda Rza şah rejiminin əlehidarlarından biri kimi şerləri ilə mövcud quruluşun çürüklüyünü, mənasızlığını göstərmişdir. Mir Mehdi Etimad şair olduğundan onun müəllimlik dövründə yazmış olduğu şerlərinin əksər qismi tərbiyə nöqteyi - nəzərindən yüksək əhəmiyyətə malik olmuşdur. O, şerlərində əxlaqi, ictimai, siyasi mövzulara toxunaraq, pedaqogikanın bir sıra mühüm problemlərini sistemli şəkildə şərh etmişdir. Rza şah rejiminin tüğyan etdiyi, təqib və təhqirlərin hökm sürdüyü bir dövrdə yazmış olduğu "Mənazeyi - Əbədi" adlı əxlaqi kitabı 20 dəfə, "Bədirqeyi - Əl - Səbiyan" 10 dəfə və digər "Əlifbeyi - Cədid", "Cidayətül - Kəlam", "Təxtül - Səbiyyah", "Gəlinlər bəzəyi", "Gül qönçəsi" adlı tərbiyəvi əsərləri dəfələrlə çap olunmuşdur.

Mir Mehdi Etimad fəaliyyətində və şerlərində tərbiyə məsələlərinə xüsusi diqqət yetirərək "Uşaqlar dilindən" şerində valideynlərin uşaqlarını addım-addım necə böyütdüyünü və tərbiyə verdiyini nəzm ilə bir müəllim pedaqoq kimi məharətlə aça bilmişdir. Şerdə uşağın dili ilə deyilir ki, mən

anadan oldum, məni mədh etdilər, məni bağrına basıb lalay dedilər. Gecələr mən ağlayanda səhərə kimi valideynlərimin gözü yumulmayıb, "ağlama can" deyiblər, məni güldürmək üçün "pıx - pıx" ediblər, yeriyən vaxtı qolumdan tutub bilmədiyim kəlmələri doğma dilimdə mənə öyrədiblər. Vətənimin gözəl nəğmələrini oxuyub ruhumu oxşayıblar. Məni həmişə elə mühitdə saxlayıblar ki, tək qalmayım, və öyrədiblər ki, xalqa salam verim, yoldaşlarıma hörmət edim, bacıma, qardaşıma hörmət edim, hər səhər atamın əlindən öpüm, sözüm varsa onu çəkinmmədən, şax, vüqarla üzə deyim. Möhnətə saldığım anam və atama hədsiz məhəbbət göstərmək mənim müqəddəs borcumdur. Bunları yazan və deyən Etimad əxlaq tərbiyəsinin bütün sahələrinə toxunaraq, uşaqların tərbiyəsində valideynlərin rolunu bir pedaqoq, psixoloq kimi mahiranə təsvir edə bilmişdmr. Etimad vətənpərvərliyin hər kəsin müqəddəs borcu olduğunu nəzərə alaraq uşaqları bu ruhda tərbiyə etmək məqsədilə şerlərinin əksəriyyətini vətənpərvərlik ruhunda yazmışdır.

Allah özü şahiddir vətən ölmüşüyəm mən
Heç and ilən Allah qurana yetişməz[1].

Etimad vətəni sevmək üçün, onun gözəlliyini uşaqlara mənimsətmək məqsədilə yazdığı "Azərbaycan" şerində doğma diyarın başdan-başa gül-çiçək, bağ-bağça, zəngin sərvətli, bərəkətli zəmili, flora, faunalı bir ölkə olduğunu yazırdı.

Ey, dağ-daşı gül, bağçası gül, torpağı mərcan
Ey, ay kim ulduzlar içində üzü tavan
Ey, xalqımızın şövkəti, sənsən bizə zinyət,
Sənsən verən övladına dünya boyu nemət[2].

Etimad uşaqlarm vətəni sevməsi üçün vətəndə hər nə yaxşı varsa, onu göstərməyi lazım bilirdi. O, vətənin baharım vəsf

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1991, cild III, səh. 60.
2 Yenə orada, səh. 57.

edərkən bülbüllərin oxuduğunu, bu səsin dağı, daşı gülə döndərdiyini, sünbülləri yetişdirdiyini, xəzanın yox olduğunu, çiçəklərin açdığını yazarkən bu cənnətin insanda ilham doğurduğunu yazırdı.

Ruhlar vətənin şən baharından alır ilham,
Vermiş özünə hər birisi, bir gözəl əndam[1].

Etimad vətənin hər tərəfinin bahar olduğunu, qışının da, qarının da, soyuğunun da, sazağının da, insan ruhunu oxşadığını və xoş nəğmə olduğunu söyləyirdi.

Gülzarı-vətənin hər tərəfi indi bahardır,
Hər bir tərəfində yeni bir təntənə vardır
Hər sahəsi qardır, vəli hər sahədə yaz var,
Bu yerdə ürək, sevgili, xoş nəğməli saz var[2].

Etimad "Get adamını tanı" şerində çox mühüm problem olan Azərbaycanlılarının farslaşdırılması məsələsinə toxunmuşdur. O, yazırdı ki, vətənini sevən hər bir adam məğrur, əyilməz, dönməz olmalıdır. Vətənini sevən hər bir kəsin zillətdə yaşayanları azad etməsini, ehtiyacı olanlara kömək əlini uzatmasını vacib məsələ hesab edirdi. O, yazırdı:

Həqiqət yollarından dönmə get həqqin səfasını tap,
Məcazə qalib olma, çün məcaz əhli gedər qalmaz
Əlindən tut bu xalqın, gör nədir dərdi, əlac eylə
Adi insan olan öz kütləsindən bixəbər qalmaz[3].

Etimad yazırdı ki, xalq üçün yaşayan adamlar, əzab çəkənlər şəhid olanların xidməti vətən qarşısında heç vaxt unudulmaz və əvəzsiz qalmaz.

Bacardıqca elə bu ölkədə öz xalqına xidmət,
Həqiqət qarşısında çün bu xidmət bisəmər qalmaz[4].

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1991, cild III, səh. 65.
2 Yenə orada, səh. 63.
3 Yenə orada, səh. 63.
4 Yenə orada, səh. 60.

Etimad İran şovinistlərinin tutduğu nalayiq yola, Azərbaycanlıları farslaşdırmaq cəhdlərinə etiraz əlaməti olaraq yazırdı.

Lay-lay demə millət ayılıbdır, dəxi yatmaz.
Əlləşmə belə, heç kim həyatın sənə satmaz
Mən mərd oğulam, bil ki, qanım pak və təmizdir
Bir kəs o kəsif qanına öz qanını qatmaz[1].

Vaxtilə Cəlil Məmmədquluzadə yazırdı ki, dümada dərslərin Azərbaycan dilində keçirilməsini irəli sürən Azərbaycan ziyalılarının təkidi qarşısında bəzi satqın şöhrət, mənsəb sahibi olan adamlar rus dövlətinə yaltaqlanaraq "Elə biz dərsləri rus dilində də keçə bilərik" deyə fikirlərini bəyan etmişlər. Etimad da yazırdı ki, elə adamlar var ki, balaca bir mənfəəti, qulluq sahibi olması üçün milləti ayağa verməyə hazırdır. Belələri özünü içindən yeyən qurda, qoyun dərisi geymiş canavara bənzəyirlər. Belə adamlar balaca mənfəət qazansalar da xalq içərisində nifrətə layiq adamlar kimi qarşılanır.

Hər kim ki, salar millətini dərdi-bəlaya,
Gər mənfəəti olsa başın bir də ucalmaz[2].

Etimad xalq üçün yaşamayan, onun azadlığı, çiçəklənməsi uğrunda mübarizə aparmayan adamları hissiz, həyəcansız müqəvvaya bənzədir və onların vətəndə yaşamasını lazımsız bir iş sayırdı.

Ölkəsindən xəbəri olmayan insan yaşamaz,
Ruhsuz aləmdə müsəlləmdi ki, bir can yaşamaz.
Hər kim öz ölkəsinin fikrini bişdan çıxarda,
Məhv olar, xoş günə qalmaz daha imkan, yaşamaz[3].

Məlum olduğu kimi İranda Azərbaycanlıların sayı farslardan sonra ikinci yerdə olduğu halda fars şovinistləri

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1991, cild III, səh. 58.
2 Yenə orada, səh. 58.
3 Yenə orada, səh. 67.

Azərbaycanlıların milli hüquq və ixtiyarını qəbul etməyərək farslaşma yolunu tutmuşdu. Rza şah Azərbaycan sözünü dilinə gətirənləri təqib etməklə yanaşı, Azərbaycan adını xəritədən silmək istəyirdi. Bu məqsədlə İranı vilayətlərə (Ostanlara) bölərək Azərbaycanı farsın içərisində əritməyə çalışırdı. Bu təqibə, bu bölgüyə, bu məkrli hiyləyə, bu mənfur siyasətə baxmayaraq Azərbaycan xalqı özünün qədim milli mədəniyyətini, dilini, milli mənliyini qorudu.

Hələ vaxtilə Məhəmməd Əmin Rəsulzadə Şimali Azərbaycanlıları misal gətirərək göstərirdi ki, gör bir nə böyük şərəfli xalqıq ki, iki əsr rus imperiyası daxilində öz milli dilimizi qoruyub saxlaya bilmirik. Bu sözləri eynən Cənubi Azərbaycanlılar haqqında da demək olar. Şah rejimindən cana doymuş Cənubi Azərbaycanlılar 1905/11-ci illərdə Səttar xanın rəhbərliyi ilə İran məşrutə inqilabım sevinclə qarşıladılar. Bu inqilabdan sevinən Mir Mehdi Etimad "Yeni həyatımız" şerində yazırdı:

Ümidi Nəsimi səadət verir ürəklərə can,
Zəfər qonaq gəlib əhbab üçün uzaq yoldan.
Gülümsəyir vətənin min zəfər həvəsiylə,
Gəlir tərənnümə bülbül gülün səfası ilə[1].

Etimad İran inqilablarına rəhbərlik edən Şeyx Məhəmməd Xiyabani, Səttar xan, doktor Ərani kimi Azərbiycan oğullarınm qəhrəminlıq hərəkətini yüksək qiymətləndirərək, gənc nəslə bu dərin fikirli əxlaq nümunəsi olan millət fədailərinin əməllərini təqlid etməyə çağırırdı. O yazırdı.

Ey yanğınlara, odlara öz canın atanlar,
Ey ömrü boyu qəsri qacarlarda yatanlar,
Ey xalqımızın rəhbəri, ey Şeyx Məhəmməd,
Ey fikri dərin, əqli vəzin, şəxsi-Müəyyəd,
Ey şanlı mücahirlərimiz, ey ulu sərdar,
Ey doktop Ərani, ey olan millətə salar,

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1991, cild III, səh. 70.

Ey xalqın uğrunda geyən qanlı kəfənlər,
Ey minlər ilə ğüşeyi-zindanda ölənlər,
Bu ölkə çətinliklərə hər yanda dayandı
Pərvanə kimi dövrə vurub odlara yandı[1].

Etimad Azərbaycanın qəhrəman oğullarını "Məhəmməd Əli", "Azərbaycana yetişməz", "Doğma Azərbaycan", "Səttərxan yurdu" şerlərində də məhəbbətlə vəsf etmişdir.

Qoynunda bəslədin sən Səttərxanı,
İran dağlarından kəsdin dumanı,
Oldu zəfərlərdə tarix aslanı,
Rəşid oğullara, ilham nəğməsi[2].

Mehdi Etimad gənc nəslin əxlaq tərbiyəsində bütün vasitələrdən bir müəllim, pedaqoq kimi istifadə edərkən qadın azadlığı, təhsili və ailə tərbiyəsinə də xüsusi diqqət yetrmişdir.

Qadın azadlığı və təhsilindən bəhs edən Etimad "Gəlinlər bəzəyi" kitabının "Cahilanə təəsüblər" bölməsində qızların kor-koranə ərə getməsi, oğlanın sevmədiyi, görmədiyi bir qızla həyat qurmasının zərərini şərh edərkən yazırdı ki, əgər ortada məhəbbət yoxdursa, pulun, varın, dövlətin heç bir xeyri ola bilməz.

Pul da becəhənnəm, dağılır orda bu yanda,
Oğlan ki qızı görmür, dərd ondadır, onda[3].

Etimad yazırdı ki, valideynlər, bacı, qardaş, xala, bibi, bir sürü adamlar bir-birinə dəyə-dəyə sevincək evlənəcək adamın fikrini, istəyini nəzərə almadan elçi gedirlər, onlar qadında ancaq zahiri gözəllik, ev süpürmək, qab yumaq, xörək bişirmək qabiliyyətini nəzərə alırlar. Belə qadının əsl həyat yoldaşı ola biləcəyini zənn edirlər. Qadınlar üçün mənəvi zənginliyin, təhsilin zəruriliyini vacib hesab edən Etiınad yazırdı.

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1991, cild III, səh. 71.
2 Yenə orada, səh. 61.
3 Yenə orada, səh. 215.

Förən üzüyü barmağına etdilər peyxənd,
Heç bilmədilər rəsmi-rüsumata bələddir?
Təhsili nədir, xülqü nədir, yoxsuldur, bəddir?
Əngialtı olub, ev süpürüb, tanbara salsın ..[1]

Etimad yazırdı ki, evlənmə prosesi mürəkkəb prosesdir. Burda hər kəs özünə tay, bərabər adam seçməli, bəyənməlidir ki, ömrü boyu əzab-əziyyət içində yaşamasın, ailə faciəsi baş verməsin. Uşaqlar bu dava-dalaşın içərisində nadan, tərbiyəsiz böyüməsin.

Oğlan qızı almaqla gərəkdir ola əbsər
...Beş gün sonradan çəkməyə birbollu müsibət.
...Oğlan ki, qızı bilmədi çirkindi, gözəldir
Toydan sonra işlər görürsən cəngi cədəldir[2]

...Vur-sındır, əgər olmasa, lazımdı deyişsin
Ya məxvi səbanə eləsin tərki-vilayət,
Kəndistana qaçsın eləsin canını rahət.

Etimad "Ataların öz oğluna təklifi" bölməsində isə yazırdı ki, ailə həyatı qurmaq insan üçün böyük nemətdir, vaxtında oğul-uşaq sahibi olmaq, onlara doğru tərbiyə vermək şərəfli işdir. Ona görə də oğlanın yaşı 18-ə çatdı, evləndirmək lazımdır, çünki çox subay qalmaq onu düz yoldan çəkindirə bilər, əxlaqına naqislik gətirər.

Oğlanın həmin ki, yaşı 18-ə yetdi,
Evləndir onu bəxti-tüfulliyatı getdi[3].

Müsəlman aləmində uşaqlara körpəlikdən həya hissi tərbiyə olunduğundan ata-ana ilə uşaqlar həmsöhbət olub, dərdini açıb valideynlərinə deyə bilmir. Ata-analar isə uşaqlarına böyük mal-dövlət sahibi olmasını arzu edərək yaşı

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, cild II, səh. 215.
2 Yenə orada, səh. 215.
3 Yenə orada, səh. 217.

50-yə çatana qədər evlənmək barədə söz açmaq istəmirlər. Etimad yazırdı.

Amma atanın meyli budur, mərrə başında,
Evləndirə oğlun, onu da 50 yaşında[1].

Valideynlərinin fikrinə görə əvvəlcə var-dövlət sahibi olmaq, sonra evlənmək. Onlar belə düşünür ki, var-dövlətli adam həyatın dadını yaxşı anlaya bilər. O yazırdı:

İndi o uşaqlar hələ evlənməyi neylir
Çox.. yeyiri, anlamayır, çox qələt eylir...?
...Bu şövqə düşən insana lazımdır əzəldə
Heç olmasa öz qarnının əvvəlcə düzəldə[2].

Etimad eləcə də"Gəlinlər bəzəyi" kitabının "Elçilər qızı görməsi" bölməsində müsəlman aləmində evlənmə prosesi zamanı qızların necə mənəvi təhqir olunduğunu yazırdı.

Qız anlasa ki, elçi gəlibdi qacar ordan,
Fövrən sıxılar dalda, bucaqda olur pünhan[3].

Etimada görə sevmədiyi adama getməyən qızlar döyə-döyə tanımadığı, görmədiyi ərin evinə göndərilirdi. Daha böyük müqavimət göstərənlərə isə ağır cəza verilirdi.

Başlar deyinər, deynə, görüm burda nə vardır?
Çoxdandır ki,siz tayifədən əqli-kənardır[4].

Etimad yazırdı ki, xoşbəxt o adamlardır ki, qızı görüb, qızda ədəb-ərkan nümunəsi hiss edib, zəhmətinin şahidi olub və onu sevib. Bədbəxt o adamlardır ki, həya hissi olmayan, qulluq bacarmayan, söhbət edə bilməyən, mənəvi kasıb qızla evlənə. Analar qızlarının mənəviyyatlarını nəzərə almadan gələn

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, cild II, səh. 217.
2 Yenə orada, səh. 217.
3 Yenə orada, səh. 218.
4 Yenə orada, səh. 218.

elçilərə "qız kor deyil, keçəl deyil, iş bacarandır, qızımız çox şey qanmır, varımız budur, varını verən utanmaz, istəyirsiniz alın, istəmirsiz almayın" - deyirlər. Elçilər isə qəbuldur, bizə ev qədri bilən, iş bacaran olsun, bizə içi boş quru kəllə də olsa qəbuldur. Etimad yazırdı:

Gəl fərz eyləyək, bir quru kəllə içi boşdur,
Olsa nə mənə, bil ki qəbuldur, bizə xoşdur.
Bir görmək ilə anladıq hər iş bacarandır,
Ev qədri bilən, əlləri düz yaxşı mamandır.
Bildik bu qədər, hər zada qabildir vucudu
Dur eyləsin Allah bu qıza ceşmi-bəsudu![1].

Etimadın büiün əsərlərində məktəb, təlim-tərbiyə məsələləri ilə yanaşı ailə tərbiyəsi ilə qadın azadlığı və təhsili problemlərinə də geniş yer verilmişdir. Etimad yaşadığı cəmiyyətdə minlərlə qızlar nadan valideynlərinin nadanlığı ucbatından bədbəxt, zövqsüz, məhəbbətsiz həyata atılırdılar. Bu isə onların gələcək acı həyatlarına səbəb olurdu.

## Mir Mehdi Etimatın əsərlərindən nümunələr

### Get adamını tanı

Lay-lay demə millət ayılıbdır, dəxi yatmaz.
Əlləşmə belə, heç kim həyatın sənə satmaz.
Mən mərd oğulam, bil ki qanım pak və təmizdir,
Bir kəs o kəsif qamva öz qanını qatmaz
Bihudə mənə söyləmə əl çək bu elindən,
Qeyrətli olan tayfa-təfaqın, elin atmaz.
Mən aşiqəm, öz sevgilimin eşqi yolunda,
Bir eşq bu aləmdə mənim eşqimə çatmaz.
Bu yolda çağırma,özüvü zəhmətə salma,
Bir kəs də əgər yatsa, səsin kaldır, oyatmaz
Hər kim ki, salar millətini dərdi-bəlaya,

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, cild II, səh. 219.

Gər mərifəti olsa başın bir də ucaltmaz.
Sağ-göndümə keçdikdə yedin yaxşı əlimdən,
Dünya boyu dərman ola bu dərdi sağaltmaz.
Mən Etimadın fikrin bir payədə gördüm,
Bu eşqdən özgə nə desən, beynimə batmaz.

## Uşaqlar dilindən

Nəql edirlər ki, məni doğdu anam,
Dedi:-Bəh-bəh, nə gözəldir bu balam.
Dolanıb başıma pərvanə kimi,
Çəkib ağuşuna, dürdanə kimi,
Deyib ahəngilə lay-lay sözünü,
Yummayıb çox gecə əsla gözünü.
Ağlayan vaxtı çəkiblər yanına,
Söyləyib:" Ağlama, qurban canına".
Məni güldürmək üçün pıx-pıx edib,
Çaxçaxı əldə tutub çıx-çıx edib.
Yeriyən vaxtı tutubdur əlimi,
Açıb öz doğma dilimdə dilimi.
Öyrədib bilmədiyim kəlmələri,
Ana yurdumda olan nəğmələri.
Məndən ötrü oyun əcbabı olub,
Gah gülüb, gah götürüb fişka çalıb.
Qoymayıb öz başıma tək dolanam,
Öyrədibdir ki, verəm xalqa salam,
Öyrədib: Hörmət elə yoldaşına,
Mehriban ol bacına, qardaşına.
Atanın öp əlini, samü səhər,
Düz, vüqarla de, sözün olsa əgər.
Salmışam möhnətə gərçi anamı,
Sevirəm həm anamı, həm atamı.
Deyirəm bu sözü eşq ilə hər an
"Canım olsun sənə qurban, anacan"
Etimad ölməz, həmişə diridir,
Eşq ola, xalqımızın şairidir.

## Səttarxan yurdu

Ey dağları bütün aslan məvası,
Qeyrətlilərin coşğun olan dəryası,
Şanlı, şərafətli ellər dünyası,
Axan dağ-daşından həyat çeşməsi.

Qoynunda bəslədin, sən Səttarxanı,
İran dağlarından kəsdin dumanı,
Oldu zəfərlərdə tarix aslanı
Rəşid oğullara ilham nəğməsi.

Zülümün evin yıxdın, həqqi yaratdın,
Yatmış olan xəlqi durub oyatdın,
Dönməz ordun ilə mərama çatdın,
Səs saldı dünyada vətən kəlməsi.

## Tutsun gərək öz millətimiz bu işi xoş fal

Ey yanğınlara, odlara öz canın atanlar,
Ey ömrü boyu qəsri Qacarlarda yatanlar,
Ey xalqımızın rəhbəri, ey Şeyx Məhəmməd,
Ey fikri dərin, əqli vəzin, şəxsi-müəyyəd,
Ey şanlı mücahirlərimiz, ey ulu sərdar,
Ey doktor Ərani, ey olan millətə salar,
Ey xalqının uğrunda geyən qanlı kəfənlər,
Ey minlər ilə kuşeyi-zindanda ölənlər
Bu ölkə çətinliklərə hər yanda dayandı,
Pərvanə kimi dövrə vurub odlara yandı.
Çox hadisələr gördü, vəli düşmədi rühdan,
Öz varlığım etdi vətən eşqinə qurban.
Keçdi qocalar boynuna zənciri-əsarət,
Çox qızlar, uşaqlar çəkib arazi-əziyyət
Cəlladlara diz çömədilər odda yananda,
Xainlərə yalvarmadılar böylə zamanda.
Dağtək dayanıb qorxulu sellər qabağında

Düz məqsədilə şanlı həyatın sorağında
Ruhu, ürəyi, fikri, xəyalı vətən eşqi,
Bu yerdə açan yasəmən eşqi, çəmən eşqi.
Eşq aləminə qoysa qədəm əhli-həqiqət,
Mütləq tapacaqdır vətən eşqində şərafət.
Bu eşq hamı eşqlərin tacıdır əlhəq,
Onsuz ola bilməz ola eşq əhli müvəffəq
Bu eşq təcalasında siz rəhbərimizsiz,
Azərbaycan millətinə sərvərimizsiz
İlham alıb eşqi əhali o dahi nəfəsüzdən,
Ellər ayılıb ölkədə qüdrətli səsüzdən.
Ey yurdumuzun rövnəqi bərcəstə camallar
Candan usanan, bəzl eliyən mal-mənallar.
Övladuza qayğuz çıxa bilməz yadımızdan,
Sizlərsiz həmişə vətən eşqilə verən can.
Sizlər qoyan azadlığın ehkamı düzəldi,
Getdi qara qış, tazə gəlin mövsümü gəldi
Həm məclisi-millimizin elanı vuruldu
Həm kəbeyi-amalımızın nəqşi quruldu
Təsis elədi məclisi sarsılmaz iradə,
Ondan çatalar zahir-batində muradə.
Fərmiandakı bismillahi nəqşi əzəldir,
Ol dehxudanın zinəti axırda Əlidir.
Hər kəlməsi, hər cümləsi sərmayeyi iqbal,
Tutsun gərək öz millətimiz bu işi xoşfal,
Bilsinlər hamı baği-həyatın gülüdür bu,
Mənada azadəlik oxuyan bülbülüdür bu.
Bundan sonra məzlumlara çarə qılacaqlar,
Zalımdan onun ədlilə qanın alacaqlar.
Bundan sonra qoymazlar ola xalqa təəddi,
Yainki filankəs belə kəldi, elə getdi.
Razı qalacaq xalqımız əmniyyətimizdən,
İlham alacaq kütlə bizim qüdrətimizdən.
Məhsulumuz hər yerdə böyük yer alacaqdır,

Nəfi bizim öz torpağımızda qalacaqdır.
Təhsil edəcək mədrəsədə cahil olanlar,
Hər xırda uşaqlar, qocalar tazə cavanlar.
Hər şəhrdə dair olacaq bağteyi-itfal
Üvladınm əxlaqına olsun ata xoşhal.
Məktəbdə hamı dərs alacaq doğma dilində,
Xoşbəxt edəcəkdir anasın da, həm elin də.
Təşkil olacaq milli mərizxanələr hər gün,
Olsun saralan şəxslərin surəti gülgün.
Məccani mədava olacaqdır züəfalar,
Kör qarşısına çıxmayacaq birdə kədalar.
Bikarlar üçün iş tapacaqlar, işə getsin,
Azad yaşasın, şahidi - məqsuduna yetsin,
Qoymazlar adın bir parə kəsələr latu qoysun,
Dursun kucələrdə onu soysun, bunu soysun.
Məmurlar olunmaz dahi bir kəndlini vursun,
Heç bir zadın üstündə çəkib zindana sürsün.
Şəhr icrə bu tezliklə tramvay çəkəcəklər,
Kəndlərdə traktorla yerin xalq əkəcəklər.
Asfalt olacaqdır bu xəraba xiyabanlar,
Batin olaraq gülməli bihudə planlar .
Su qisməti hər yerdə açıb kərbi bəlanı,
Köyylərdə  və yerlərdə salıb "və ətasam".
Yüzlərlə sular məxzəni yerlərdə qalibdir,
Yox bir çıxandan, xalq atəşindən saralıbdır.
Bundan sora bu qisməti təklif edəcəklər,
Hər yanda sular mənbəi təşkil edəcəklər.
Bir gün gələcək xalqımız insan olacaqdır,
Bu torpağımız rozeyi - rizvan olacaqdır,
Ellər, obalar seyrə çıxıb toy tutacaqlar,
Qəm kəlməsini dildən, ürəkdən atacaqlar.
Bülbül açacaqdır qanadın güllər önündə,
Güllər güləcək fəxri ilə bülbüllər önündə
Gülşən güləcək, gül güləcək, bağ güləcəkdir,

Torpaq güləcək, daş güləcək, dağ güləcəkdir
Min vəcdilə baş qaldıracaqdır göyə şimşad
Qumru edəcək xalqa fərəh nəğməsini yad.
Bir qövmdə kər olsa həqiqi mədəniyyət,
Lazımdır edə kütləsinə bir belə xidmət
Öz qövmunü hər kim ki, fəlakətlərə saldı,
Bilsin bunu, dünya boyu bəxri qara qaldı.
Sən də bu vətəndaşlarıva eylə himayət,
Can de, can eşit, eyləmə heç halda xəyanət.

**Vətən baharı**

Gəldi taza il, nəğməsini başladı bülbül,
Dağ-daş gülə döndü, yenə baş qovzadı sünbül.
Getdi qara qış, getdi xəzan, açdı çiçəklər,
Bağlar yenə aldı özünə şanlı bəzəklər,
Ruhlar vətənin şən baharından alır ilham,
Vermiş özünə hər, birisi, bir gözəl əndam.
Cəh-cəh səsi verdi, hamı simada təravət,
Guya açılıb yer üzünə babi-səadət.
Sanma məni divanə ki, qışda bahar olmaz.
Olmaz çiçək asari, ağaclar güləd olmaz
Gülzarı - vətən hər tərəfi indi bahardır,
Hər bir tərifində yeni bir təntənə vardır.
Hər sahəsi qaradır, vəli hər sahədə yaz var,
Bu yerdə ürək sevgili, xoş nəğməli saz var.

# HƏBİB SAHİRİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Cənubi Azərbaycanın görkəmli şair maarifpərvərlərindən biri də Həbib Sahir olmuşdur. O, 1903-cü ildə Təbrizin Şorxav məhəlləsində anadan olmuşdur. Kiçik yaşlarından atasını itirən Sahir çox acınacaqlı uşaqlıq həyatı keçirmişdir. O, ilk təhsilini doğulduğu Şorxav kəndində almışdır. Məktəb illərini, əzazil müəllim mollanı nifrətlə xatırlayan Sahir yazırdı ki, atam məni cəllad Axund Həbibin yanına oxumağa qoydu. Orada balaca bir xəta üçün, ya da dərsə hazır olmamaq üstündə haqq-nahaq ağır cəza üsulları tədbiq edilərdi. Sahir ibtidai məktəbi qurtardıqdan sonra orta təhsil verən mədrəsəyə daxil olur. İran hökumətinin Mürtəce siyasətinə qarşı Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə xalq üsyam başlayır. Milli hökumət yaranır. İyunun 22-də Xiyabaninin başçılığı ilə yaranan milli hökumət bütün sahələrdə olduğu kimi maarif sahəsində də islahat aparır. Bu islahatlardan biri də Xiyabaninin yaratdığı internat tipli mədrəsə oldu. Məktəb illərini məhəbbətlə xatırlayan Sahir yazırdı.

...Mədrəsəyə səhər, erkən gedərdik,
Xan Nazimə təzim edərdik.

...Unutmaram, soyuq qışı, dağ yayı
Qızıl günü, saf ulduzu, ağ ayı
Qacarlardan qalan, hər bir misrayı...
Biri orda, Xiyabani köçürtdü
Noğul, nabat verib, şərbət içirtdi.

...Xatırlaram mədrəsənin bağçasın
Göy asmasın, çiçəklərin, alçasın,
Gilasların, zərri tağın, taxçasın,
"Qüyyeyi-yaş" oxuyanlar yadımda,
Xəyal torn, toxuyanlar yadımda[1].

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, cild II, səh. 229.

Təhsilini Təbrizdə aldıqdan sonra Sahir 1924-cü ildə İstanbul Universitetinin Coğrafiya fakültəsinə daxil olur. 5 il türk həyatı və təhsil illəri Şahirin dünyagörüşünün formalaşmasına ciddi təsir göstərir. Geri Vətənə qayıtdıqdan sonra Zəncanda və Qəzvində müəllimlik edir. Dörd ildən sonra Təbrizə qayıdan Sahir gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olur. Sahir müəllimlik fəaliyyəti ilə yanaşı şairlik sahəsində də geniş fəaliyyət göstərdiyindən Cənubi Azərbaycan ədəbiyyatına şair kimi daxil olmuşdur. O, Təbrizdə bir sıra "Cografiya-Xəmsə", "Əfsaneyyi Şərf", "Səyahət", "Şəfayyə" adlı dərs vəsaiti və şer kitablarını yazıb nəşr etdirir.

Ancaq, qanlı Təbriz hadisələrinin ölkədəki ağır rejim, təqib, təhqir və sürgünlərin tüğyan etdiyi bir vaxtda Sahir etiraz səsini qaldıraraq "Qanlı payız" şerində ölkədəki fəlakəti mahiranə təsvir edərək, xalqın iradəsini heç bir kəsin qıra bilməyəcəyini, onun polad qolu, dönməz üzü olduğunu yazırdı.

Buludlar qalaq-qalaq,
Tökülür quru yarpaq.
Payızdır:"Qanlı payız".
El köçüb, sönüb ocaq,

Su axmaz zinə-zinə
Qan axır su yerinə.
Ellərə divan tutur,
Amansız düşmən yenə.

Ortanı zülmət basdı
Evlərdə indi yasdı,
Dan yeri ağararkən
Cəllad beş igid asdı

Göydəki rəbi qadir,
"Gölgəsi yerdə gəzir.
Əbiyun dərvişlərə",
Azəri olmuş əsir.

Tozludur Təbriz yolu
Şeytanla yurdlar dolu.
Zəncirlər dəmirdənsə.
Poladdır elin qolu

Desədə tufan-qan
Çəkinmə qaranlıqdan
Dur, qızıl məşhəl yandır.
Görsə od, qaçar şeytan[1].

Həbib Sahir irticanın qurbanı olaraq 3 il doğma Təbrizdən sürgün edilir. O, "Sürgün" şerində necə təqib və təhqir olunduğunu və İran irticasım tənqid edərək yazırdı:

Qovuldum ah vətənimdən, elimdən,
İllər boyu, nələr gördüm, nələr mən.
...Haram oldu mənə baba ocağı,
Yurdum oldu, karvansara bucağı[2].

Həbib Sahir sürgünə gedərkən yolda gördükləri kəndlərdəki dəhşətli şah rejiminin xalqı necə məşəqqətli həyata saldığını təsvir edərək yazırdı:

Gördüm sönüb xalqın odu-ocağı...
...Yox kəndlinin nə çörəyi, nə əti,
Kəndli haqqın istəyəndə, mülkədar
Divan tutar ona, həm də şər atar.
Bəslədiyi bağdan ona pay verməz.
İşlədərək çörək verməz, çay verməz
Bəhsi kimi kəndli yaşar nikbətdə,
Qovularkən canı çıxar qürbətdə[3].

Həbib Sahir belə dəhşətli güzarandan, əzab əziyyətdən pessimizmə qanılmayaraq sürgün illərində haqqın səsinin

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1988, cild III, səh. 86-87.
2 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1983, cild II, səh.226.
3 Yenə orada, səh. 227.

batmayacağına böyük inam bəsləyirdi. O, belə hesab edirdi ki, hər gecənin bir gündüzü olduğu kimi, qan soranların, insan əzablarına susayanların da sonu olacaqdır. O, yazırdı:

Burax bayquş xarabada banlasın,
Xalqı düşmən soyub-soyub danlasın.
Lakin zaman dəyişməzdir, mədarın,
Qurumazdız qızıl qanı əhrarın.
...Boz buludlar günün onun tutamaz
Özgə oymaq yurdumuzu udammaz[1].

Həbib Sahir harada yaşamasından, fəaliyyət göstərməsindən asılı olmayaraq heç zaman vətəni yaddan çıxarmamışdır. O, da böyük türk yazıçısı Nazim Hikmət kimi belə hesab edirdi ki, əgər hər kəs vətən üçün yanmasa o, vətəndə yaşaya bilməz. Sahir də vətən naminə əlindən gələni əsirgəmədən onun inkişafı və azadlığı, rifahı üçün qorxu bilmədən çalışmış vətən üçün alovlanmağı hər bir Azərbaycanlının müqəddəs borcu hesab etmişdir. Bu münasibətlə yazırdı:

Gəlin dostlar, biz yaxından danışaq!
Doğma şerin rəvasında çalışaq,
Elimizin atəşiylə alışaq..
Karvan keçər, yol üzrə kol qalar,
Bağça bağdan çiçək qalar, gül qalar[2].

Həbib Sahir də bir çox başqa pedaqoqlar kimi tərbiyədə ananın roluna yüksək qiymət verib uşaqları xanım-xatın, deyib-gülən həyalı, nurlu, xoş xasiyyətli, məhəbbətlə bağrına basıb nağıl söyləyən, layla çalan bir şəxs kimi səciyyələndirib, uşaqları onların nümunəsində tərbiyə etməyi və anaya Bayat soy kökünün ilahi bir varlıq kimi baxmağı, öyrətməyi lazım bilərək yazırdı:

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1983, cild II, səh. 229.
2 Yenə orada, səh.230.

Anam mənim orta boylu bir xanım,
Siyah saçlı,"Boyat" soylu bir xanım,
Deyir,gülür, haylı, huylu bir xanım.
Zəncirəli gülməcələr deyərdi,
"Nuşafərin" nağılmı deyərdi[1].

Sahir yazırdı ki, Ana təkcə uşaq bəsləyən, onu yedirən, nazı ilə oynayan mələykə qadın deyil, o, həm də insana yaradıcılıq ilhamı verən, yeni-yeni qələbələrə ruhlandıran ilahi varlıqdır. O, yazırdı:

Anadır ki, yardım edər şairə,
Naxış vurar, soyuq qara bir yerə,
İlham verən bəlkə odur Sahirə.
Anaların qucaqları cənnətdir
Bu dünyada doğma ana nemətdir[2].

Həbib Sahir şöhrətə, mənsəbə yad olan bir şair olmuşdur. O, öz həyatını misal gətirərək gənc nəsildə yüksək əqidə, mənlik, qürur tərbiyə etməyi vacib sayaraq balaca bir mükafat, mənsəb, şöhrət üçün vətəni satmamağı, onu ayaqlara salmamağı yazır, mənsəb üçün yaşayanlar xalqa mənsub olmayan adamlardır, - deyirdi.

Mən yurdumu özgələrə satmadım,
Xələf olub öz elimi atmadım,
Məxmər, ipək yatax üzrə yatmadım…

Sahir gənc nəslin tərbiyəsində çox vacib olan xalqla bir olmaq, xalqın sevinci ilə yaşamağa qadir olan adamlar yetirilməsini söyləyərkən yalnız özü üçün yaşayanları bədbəxt hesab edir və yazırdı ki, belə adamlar nə qədər çalışsalar, var-dövlət yığsalar da məhv olmalıdırlar. Xalq içərisindən çıxmış, xalqla yaşayan, onun sevincli-acılı həyatına şərik olan Sahir xalqı birliyə çağıraraq yazırdı:

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1983, cild II, səh. 230.
2 Yenə orada, səh.235.

Bəxtiyarlıq təkbaşına olarmı?
Xalqın könlü sevinc ilə dolarmı?
Cəhənnəmdə açan güllər solarmı?
Yalnız əkən, yalnız biçən məhv olar
Özü töküb, özü biçən məhv olar[1].

Məlum olduğu kimi, Rza şahın dövründə və ümumiyyətlə İranda Azərbaycanlılar və Azərbaycan dili təhqir və təqiblərə məruz qalmışdır. Belə vəziyyətlə barışa bilməyən Cənubi Azərbaycanın görkəmli ədibləri, maarifaərvərləri, ictimai-siyasi xadimləri ana dilini, onun təmizliyini gözləmək uğrunda mübarizə aparmışlar. Heç nahaq deyildir ki, məşhur şair Şəhriyar Azərbaycan dilinə və xalqına "eşşək türk" deyən fars şovinistlərinə qarşı çıxaraq, "eşşək sənmisən, yoxsa mən, a Tehranlı?" poemasında belələrini damğalamışdı. Dilimizi qorumaq uğrunda mübarizə aparan belə fədakar şairlərdən biri də Həbib Sahir olmuşdur. O, yazırdı:

Nə qədər də qara olsa günümüz
Bu beş günlük qısa həyat şirindir.
Qaranlıqsa gecə, səhər işıqdır
Fikir darsa, mavi dəniz əngindir.

Türkcə yazdım, şirinləşdi sözlərim
Gözlük taxdım, aydınlaşdı gözlərim[2].

Həbib Sahir Ana kəlməsini bəzən ana dili ilə bağlayarkən yazırdı ki, ilk sözləri, ilk kəlmələri anamızın dilindən eşitdiyimiz üçün onu müqəddəs bir varlıq kimi qorumalıyıq. Ana, vətən və dil ayrımlaz qardaşlardır. O, ana dilini elmi biliklərinin açarı hesab edib, yazırdı:

Ana səsi Asimani bir səsdir,
Axar sudur, təranədir cərəsdir,

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1983, cild II, səh. 235.
2 Yenə orada, səh.237.

O səs ilə dərinləşir rüyalar
O səs ilə xəyal göyə yüksəlir
Ana dili parlaq qızıl açardır
Elmlərin xəzinəsi açardır[1].

Və yaxud, Sahir "Məktəb xatirələrim" şerində türk dilində yazan şair Rüfəti mədh edərkən Təbriz əhlini ana dili-Turk dilini qorumağa çağırırdı. Rüfət kimi ana dilində, türk dilində yazan bir çox maarifpərvər şairlər mübarizələrini başa vura bilməsələr də onu davam etdirməyi hər bir Azərbaycanlının müqəddəs borcu hesab etmişlər.

Öylə şair yoxmuş Azər elində ,
Cavahirmiş şeri türki dilində .
Mərifət yox, yazıq Təbriz əhlində
Bu gün zülmət bizim yurdu bürümüş!
Bir çox Rüfət torpaq içirə çürümüş![2]

Sahirin yaradıcılığında əmək tərbiyəsi də xüsusi yer tutur. Özü zəhmət adamı olan Sahir əməyin insan həyatı üçün nə qədər qiymətli olduğunu yazarkən, əməklə güllərin açıldığını, sünbüllərin yetişdiyini, əmək sahəsində daxmalarda böyüyən qızların qara torpağı gülzara çevirdiklərini, çöldə otlar, çəməndə süsən, zanbağı yetirən dünyanı bəzəyən də əməkdir. Onun "Mahnı" şeri əmək tərbiyəsinin zəruriyyətini göstərən bariz nümunədir.

Əkinci əli ilə dağ ətəyində
Payızda əkilən, cavan gilanar,
Baharda bəslər bar ağ çiçəyin də,
Yayda meyvə verər qırmızı gilənar

Çəkilən əməklə açılar güllər
Dalğalanar çöldə sarı sünbüllər

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1988, cild III, səh. 87.
2 Yenə orada, Bakı 1983, cild II, səh.230.

Bağlarda göyərən ətirli güllər,
Aydınladıb, gözü, könülü oxşar[1].

Sahir "Salam" şerində də əməkçi adamları unutmayaraq yazırdı:

Salam məndən Təbrizə,
Bağda açan Nərgizə.
Əkinçiyə işçiyə,
Yurdsuzlara, yersizə.

Sahirin uşaqlar üçün yazdıqları şer və mahnılar göstərir ki, o mahir şair olmaqla yanaşı, uşaq psixologiyasını dərindən bilən bir pedaqoq olmuşdur. Şerlərində vətənpərvərlik, zəhmət, əmək, düzlük, doğruluq, qayğı, böyüklərə hörmət və yoldaşlıq kimi əxlaq tərbiyəsinin müxtəlif tərəfləri əks olunmuşdur. Onun uşaq şerləri maraqlı, məzmunlu, fikir dolğunluğu ilə uşaqları mənəviyyatlandıran şerlərdir. Sahirin uşaq şerləri o zaman Təbriz məktəblərində sinifdənxaric oxu üçün çox az olan material kimi boşluğu doldurmaqda da böyük rol oynamışdır. O, yazırdı.

Çıx dağardından qızıl gün,
Yurdsuz qalanı bir düşün!
Dünyanı qızdır, ərit qar,
Qoyma körpələr üşüsün!
Daşma çay! Daşma, bir çəkin,
Yol üstündə var bağ,əkin.
Daşma kəndləri yıxma sən!
Xalq itirməsin əməyin[2].

və yaxud"Arazın suyu" şerində yazırdı.

Arazın suyu qızıl,
Parıldayır pırıl-pırıl.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1983, cild II, səh. 238.
2 Yenə orada, səh.239.

Muğanlar güllənibdir,
Gəl gözəl, tamaşa qıl

***

Göy atım polad nalın,
Buraxma yolda qalım.
Dan yeri işıqlanır,
Yel əsir salxım-salxım[1].

Həbib Sahirin qadın azadlığı ilə əlaqədar yazılmış poeması da əxlaq tərbiyəsi baxımından olduqca qiymətli bir əsərdir.

Poemada göstərilir ki, Nərgiz adlı bir qız dağlarda çiçəkotu, kəkotu, dağtərəsi yığmaq üçün getməyə icazə istəyir. Ana qızının arzusunun əleyhinə getməyərək onu buraxır və evə tez qayıtmasını söyləyir. Qız dağda güllüklər içində gəzib dolanarkən ayağına tikan batır. Hündür bir yerə çıxıb ayağından tikanı çıxararkən, yaşı 60-dan çox olan kəndin xanı onu görür və qızı götürüb qaçır. Namusunu qorumaq üçün yol axtararkən o xanı öldürməyi qərarar alır. Qız nəhayət son məqamda onu rüsvay etmək istəyən xanı öldürüb evə qayıdır.

Sahir bü poemada sadə xalq qızlarının necə yüksək mənəviyyata malik olduqlarını, əxlaq nümunəsi göstərdiyini yazarkən ən ali ülvi sifətlərin xalqda olduğunu və körpə qızlarımızı xalqın belə şücaətli, belə igid, qorxmaz, namuslu qızlarının nümunəsində tərbiyə etməyi lazım bilirdi.

Sahir "Nərgiz" poeması ilə göstərmək istəyirdi ki, xalqı təqib və təhqir edən qızlarımızın namusuna toxunan xan və bəylərin sonu gələcək, qızlarımız, ana və bacılarımız azad olacaq. Geniş açılacaq qapı və pəncərələrimizdən azadlıq yeli evlərimizə dolacaq, qaranlıq yox olacaq. O, yazırdı:

Ey mənim şanlı elim, həm vətənim, al günəşim,
Ayna tək parla üfüq, dərya təkin çərx əsir

Ey qadınlar, ey analar, bircə açın pəncərəni,
Sübh açılmaqdadır, sübhün yeli dağlarından əsir[2].

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. B. 1983, cild II, səh. 238.
2 Yenə orada, Bakı 1988, cild. III. səh. 84.

## Həbib Sahirin şerlərindən bir neçə nümunə [1]

### Həyat şirindir

Nə qədər də qara olsa günümüz,
Bu beş günlük qısa həyat şirindir.
Qaranlıqsa gecə, səhər işıqdır,
Fikir darsa, mavi dəniz əngindir.

Türkcə yazdım, şirinləşdi sözlərim,
Gözlük taxdım, aydınlaşdı gözlərim,
Gündən-günə soldu yazıq ürəyim,
Dağ yolunda itdi ayaq izlərim.

### Səhəndə sarı

Səhər yoldan keçərkən
Salam verdik bərəyə
Gün batarkən o axşam,
Çatdıq qumludərəyə

Uzaqlardan baxanda,
Gölgələrə göründük.
Qaranquya çatarkən,
Sərinliyə büründük.

İkinci gun dağ ardı,
Sönür ikən yorğun gün.
Obalara yanaşdıq,
Gördük vardır, toy, düyün.

Güllər ətir saçarkən,
Sel suları duruldu.
Kilim, xalça döşənib,
Od, ocaqlar quruldu.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1988, cild III, səh. 229-243.

Güllənərkən bağçalar,
Bala dolur pətəklər.
Qız-gəlinlər oynarkən,
Dalğalanar ətəklər.

Xoş-beş etdik ellələ,
İçdik sərin ayranlar.
Eşitdik ki, talayır,
Obaları soltanlar.

## Məktəb xatirələri

O günlər ki, gün buludu sökərdi,
Yel yollara badam gülü tökərdi,
Şair olan dəftərini bükərdi
Mədrəsəyə, səhər erkən gedərdik
Xan Nazimə tikri, təzim edərdi

Unutmaram, soyuq qışı, dağ yayı,
Qızıl günü, saf ulduzu, ağ ayı
Qocalardan qalan hər bir misrayı..
Bizi ora Xiyabani köçürdü,
Noğul, nabat verib, şərbət içirdi.

Orda günəş pəncərəni bəzərdi,
Gözəllərin kölgələri gəzərdi
Aynalardan şer, xəyal süzərdi,
Yazıq olsun o yaldızlı evlərə!
Lənət olsun onu pozan divlərə!

Xatırlaram mədrəsənin bağçasın,
Göy asmasın, çiçəklənən alçasın,
Gilasların zərrin tağın, taxçasın,
"Ayeyi-yas" oxuyanlar yadımda
Xəyal toru toxuyanlar yadımda.

Cavanlıq ah, nə xoş gümüş, nə nemət,
Yadımdadır o məntiqlər və hikmət

Cami-cəmlə nakam olan gənc Rüfət
Əski ədəb xarabaykən quru yer
Tərvic etdi o ilk dəfə yeni şer.

O əkdiyi ağac el oymağında
Çiçək açar bu gün Şiraz bağında
Yeni şerin lap güllənən çağında
Kimsə deməz Təqi Rüfət kim imiş?
Şer yazan dərin hikmət kim imiş?

Yeni şer bar verərkən xəzanda
Xorasanda, İsfəhanda, Tehranda,
Anmaz onu kimsə bütün İranda
Kimsə ona mərmər türbə tikdirməz!
Torpağını qucaqlamaz yasıl rəz.

Öylə şair yoxmuş azər elində,
Cavahirmiş şeri türkü dilində
Mərifət yox, yazıq Təbriz əhlində
Bu gün zülmət bizim yurdu bürümüş!
Bir çox Rüfət torpaq içrə çürümüş!

Atam mənim bədəviymiş, köçəri,
Darvazadan bir gün girib içəri,
Bağdan sovub atlanarkən çəpəri,
Qızılsular məhləsində kök salmış
Dəvəçidən gözəl, göyçək qız almış!

Anam mənim orta boylu bir xanım
Siyah saçlı, "Bayat" soylu bir xanım,
Deyir, gülür, haylı, huylu bir xanım
Zəncir əli küləcələr geyərdi
"Nuşafərin" nağılını deyərdi.

Hər söz başı xumar baxıb gülərdi,
Zülfün töküb başın asta əyərdi,

Qış gecəsi bayatılar söylərdi,
Ruha oxşar incə səsi var idi
Könlündə şer həvəsi var idi.

Anadır ki, yardım edər şairə,
Naxış vurar soyuq, qara bir yerə,
İlham verən bəlkə odur Sahirə
Anaların qucaqları cənnətdir
Bu dünyada doğma ana nemətdir.

Bizim evin abirusu var idi,
Əlvan camlı urususu var idi,
Qızıl rəngli gözəl sosu var idi
Keçən günlər, keçən günlər, xoş günlər
Ömrümüzdən qopub düşən boş günlər.

Payız günü qirizantım açmışdı
Sarı günəş solğun işıq saçmışdı
Getmiş idi, atam, yoxsa qaçmışdı?
Getdi əfsus bir də geri dönmədi,
Ocağının odu lakin sönmədi.

Qurumadı baxçamızın ağacı,
Dörd qardaşlar qaldıq, təkcə bir bacı!
Gah güzəran şirin oldu, gah acı
Hər bir gunu gunlər üstə qaladıq,
Yetimliklə böyüyərək yaşadıq.

Mən özümdən dastan demək istəməm
Qəza-qədər, çərxi-fələk istəməm!
Düşmənlərdən yardım, dilək istəməm..
Bir şairəm gecələri yatmayan
Öz şerini qızıl pula satmayan.

Uşaqlıqda qara yerdə süründüm,
Cavanlıqda dərdə-qəmə büründüm
Üfüqlərdə sınıq ay tək göründüm

Kürdüstanda "gah mirzə"lik elədim,
İstambulda bəxtiyarlıq dilədim.

Mən yurdumu özgələrə satmadım,
Xələt olub öz elimi atmadım ,
Məxmər, ipək yataq içrə yatmadım,
Qadir mənə acı şərab içirdi
Düşmən məni yad ellərə köçürdü.

Bəxtiyarlıq tək başına olarmı?
Xalqın könlü sevinc ilə dolarmı?
Cəhənnəmdə açan güllər solarmı?
Yalnız əkən, yalnız biçən məhv olar
Özü töküb, özü biçən məhv olar.

Gəlin dostlar biz yaxından danışaq!
Doğma şerin rəvacında çalışaq,
Elmimzin atəşiylə alışaq...
Karvan keçər yol üzərə kol qalar,
Baxçabandan çiçək qalar, gül qalar.

Zaman atdı pərdələri aradan,
Su kəsildi, işdən düşdü dəyirman
El bildi ki, kim dost imiş, kim düşman?
Bir üzləri qaranlığa əyilmiş,
Onlar günəbaxan gülü deyilmiş

Hüriyyətdən zahirdə dəm vuranlar,
"Hay-küy salıb el-oymağı yoranlar"
Xalq yolunda duzaq kələk quranlar
Bu günədək durur şirin ordusi!
Gəlir zülmət tanrısınm gur səsi!

Günüm keçdi, oldu qızıl gülüm xar!
Şam sönməkdə, gecə soyuq, mənzil dar!
Bu bağlanan qapıları kim açar?
Şerin görüb səni andım, şairim!
Vətəndaşı demə dandım, şairim!

## Yurd mahnısı

Dilərəm bir payız günü,
Səhər doğsun qızıl günün.
Al bayrağın qanad açsın,
El-obalar tutsun bu gün.

Dilərəm, ey gözəl yurdum
Muradına xalqım yetsin.
Toz qonubdur saçlarına,
Silkin-silkin tozun getsin.

Çayların var dərya-dərya,
Nədən susuz qalsın ellər.
Sən nəsimin qaynağıykən,
Nədən əssin qara yellər?

Artıq sənə yaraşmaz ki,
Palçıq evlər, torpaq cadda,
Nədəndir ki, bir saxsıya,
Cəvahirin satdın yada?

Əsarətdə yaşadığın,
Keçmişlərin qəflətidir,
Yetər zindan, yetər zəncir,
Zindanı yıx, zənciri qır!

## Mahnı

Əkinçi əlilə dağ ətəyində,
Payızda əkilən cavan gilənar
Baharda bəslər bar ağ çiçəyin də,
Yayda meyvə verər qırmızı gilənar

Çəkilən əməklə açılar güllər,
Dalğalanar çölldə sarı sünbüllər,
Bağlarda göyərən ətirli güllər,
Aydınladıb gözü, könülü oxşar.

Palçıq daxmalarda böyüyən qızlar
Yabanı çiçəklər, sarı ulduzlar,
Yağışlı, payızlar, günəşli yazlar
Bu qara torpağı edərlər gülzar.

Onlar ki, dünyadan çox tez köçərlər
Xırmanları döyüb, buğda biçərlər
Qara çörək yeyib, şor su içərlər,
Bir gün kor yuxydan olarlar bidar.

Səhər nəsimiylə güllənən otlaq,
Çəməndə açılan süsənli zanbaq,
Dünyanı bəzəyən əməkdir anğaq,
Olmazsa qara qış, güllənməz bahar!

## Arazın suyu

Arazın suyu qızıl,
Parıldayır pırıl-pırıl.
Muğanlar güllənibdir,
Gəl gözəl tamaşa qıl.

Göy atım, polad nalım
Buraxma yolda qalım
Dan yeri işıqlanır,
Yel əsir salxım-salxım.

Gül gəlir, reyhan gəlir,
Yar gəlir, canan gəlir,
Uzaqdan toz ucaldı
Şimaldan karvan gəlir.

Ağaran dağ sisdir
Qar yerin pərdəsidir.
Duyduğun o nəğmələr
Şairin öz səsidir.

Hicranlı gundən bəri,
Getmədi eşq əsəri,
Sevgi bir zəncırdir ki,
Qırılmaz həlqələri.

Şirvandan quhlar qaçar,
Savalan üstə uçar,
O tayda həm bu tayda,
Bir gundə güllər açar.

**Kənd mahnıları**

Çıx dağ ardından qızıl gün,
Yurdsuz qalanı bir düşün,
Dünyam qızdır,ərit qar
Qoyma körpələr üşüsün.

Daşma çay! Daşma bir çəkin,
Yol üstündə var bağ, əkin.
Daşma kəndləri yıxma sən!
Xalq itirməsin əməyin.

Ey böyük tanrı, ey pədər!
Qoy yurddan çıxsın tüstülər..
Söndürmə şamı, ocağı,
Ellər olmasın dərbədər…

Yolunu kəs düşmənin,
Burax günəşi et aydın.
Bu yerləri gülləndirən,
Min kişidir, min qadın.

# İRƏC MİRZƏNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

İrəc Mirzə Qulam Hüseyn Mirzə oğlu 1874-cü ildə Təbrizdə anadan olmuşdur. O, ibtidai təhsilini dövrün görkəmli adamlarından olan Ağa Məhəmməd Tağı və Mirzə Nəsirullah Bahar Şirvanidən almışdır. İrəc Mirzə bu aqil şəxslərdən ümumi təhsillə yanaşı Fransız dilini də öyrənmişdir. O, təhsilini tamamladıqdan sonra bir sıra dövlət vəzifələrində işləmiş və ədəbi yaradıcılıqla məşğul olmuşdur. Onun "Ana qəlbi", "Balaca siçanla pişiyin hekayəti", "Ayını öldürməmiş dərisini soyma", "Dərs oxumaq həvəsi" və s. kimi şerləri göstərir ki, o, təkcə ədəbi məsələlərlə deyil, həm də pedaqoji məsələlərlə məşğul olmuşdur. İrəc Mirzənin şer və təmsillərini oxuduqca onun uşaq qəlbini, uşaq psixologiyasını bilən bir pedaqoq olduğunu müəyyənləşdirirsən. Onun şer və təmsillərində yoldaşlıq, dostluq, vəfa, qayğı, müəllimə və valideynlərə hörmət, sadəlövh olmamaq, havayı həvəsə uymamaq, boş vaxt keçirməmək, zəhmət çəkmək kimi təlim və tərbiyə ilə bağlı çoxlu pedaqoji məsələlər irəli sürüldüyü aydın olur. Hələ vaxtı ilə məhşur İsveçrə pedaqoqu Pestalossi yazırdı ki, tərbiyənin ilk əlifbası uşağın anaya məhəbbətidir. Anasını sevməyən bir kəs nə özünü, nə də vətənini sevə bilər. İrəc Mirzə "Ana kimdir" şerində yazırdı:

Söyləyərlər anam məni doğarkən
Əvvəl məmə tutmaq öyrədibdir.

Ta sübhə kimi ayıq qalıb o
Nazla mənə yatmaq öyrədibdir.

Salmış, yanına, tutub əlimdən
Yolda ayaq atmaq öyrədibdi.

Gül qönçəsinə dodaqlarımda
Gülməklə boy atmaq öyrədibdir.

Bir, bir, iki - bir şirin dili ilə,
Hey kəlmə yaratmaq öyrədibdi.

Xəlq oldu mənim vücudum onda
Baş əyməliyəm önündə hər an[1].

İnsan həyatını mənalandıran ananı vəsf edərkən İrəc Mirzə "Ana qəlbi" şerində qaynanası ilə yol getməyən bir qadının ərində anasına qarşı kin, nifrət hissi oyatdığım, və müxtəlif iftiralarla günü-gündən ərini daha ağır cinayətə hazırladığını yazır. Nəhayət oğul ananı öldürür. Oğul anasınm meydini yerdən götürmək istərkən yıxılır. Ölmüş ananın qəlbi birdən dilə gəlib deyir:

Əllərin ağrıdı dəydin yerə ey vay balacan
Ayağın incidi oğlum anan olsun qurban[2].

Ömrünün sonuna kimi sönməyən ana məhəbbətini göstərən İrəc Mirzə ananı sevməyi, onu mənəvi və fiziki əzablardan qorumağı, ananı övladına süd verib böyütdüyü üçün şərəfləndirməyi lazım bilirdi.

İrəc Mirzənin əsərlərini oxuyarkən mütləq belə bir fikir yaranır ki, İrəc Mirzə Seyid Əzimin xalq folkloruna, xalq ədəbiyyatına müraciət edib yazmış olduğu, tərbiyə nöqteyi nəzərindən yüksək səviyyəli şerləri ilə tanış olmuşdur. İrəc məktəbli şagirdlərin oxusu üçün yazdığı "Balaca siçanla pişiyin hekayəti" şerində deyirdi: Böyüklərin məsləhətinə qulaq asarkən nadan olmayasan.

Qulaq as ay oğul bir az mənə sən,
Bu nağıldan nə isə öyrənəsən[3].

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, c. II, səh. 197.
2 Yenə orada, 198.
3. Yenə orada, səh. 199.

Şerdə iki siçanın surəti verilir. Onlardan biri cavan o birisi yaşlıdır. Bu siçanlar evin tavanında yuva salmışlar. Tavanın sakinlərindən biri də pişikdir. Bir gün pişik şirin dilini işə salıb balaca siçanla dost olmaq və onu yemək istəyir. Başlayır siçanı mədh etməyə ki, nə gözəlsən. Sən qeyri adi bir sevimli siçansan. Bunları eşidən yaşlı siçan balacaya deyir ki, pişik heç vaxt siçanla dost ola bilməz. Biz bir-birimizə düşmənik. Balaca siçan düşünür ki, yəqin yaşlı siçan qocalıb, başı işləmədiyi üçün axmaq-axmaq danışır. Sözünə məhəl qoymayıb pişiklə dostluq edir. Pişik şirin dillə onu aldadıb yeyir. İrəc sonda yazır:

Doğru sandı belə yekə yalanı,
Başı çəkdi belə böyük bəlanı[1].

İrəc Mirzə tərbiyə prosesində böyüklərin sözünü, nəsihətini dinləməyənlərin aqibətinin pis olacağını göstərərkən, yaşlı nəslin həyat təcrübəsinə arxalanmağı, ata-ananın, müəllimin nəsihətlərinə qulaq asmağı uşaqlara məsləhət görürdü. İrəc Mirzə başqa bir "Ayını öldürməmiş dərisini satma" alloqorik şerində də həqiqi dostluğu mədh edir. Pis, xəyanətkar dostdan uzaq olmaq fikrini vurğulayırdı. Şerdə göstərilir ki, iki yoldaş meşəyə gedib ovçuların öldürə bilmədikləri böyük bir ayını öldürüb onun dərsini satıb çoxlu pul əldə etmək istəyirlər. Meşəyə daxil olduqda, ayı bağıra-bağıra uşaqların üstünə yuyurur. Dostlar birləşib ayıya müqavimət göstərmək əvəzinə qaçırlar. Yoldaşlardan biri dostunu tənha buraxıb ağaca dırmaşır. Yerdə qalan yoldaş uzanıb özünü ölülüyə vurur. Ayı gəlib oğlanı iyləyir və ölmüş bilib çıxıb gedir. Ağacdakı, yoldaş ayı gedəndən sonra yerə enib dostundan soruşur: "Ayı sənə nə dedi?" Dostu cavab verir: "Ayı dedi ki, heç vaxt dərisini soymadığınız ayının dərisini satmayın". İrəc Mirzə, eləcə də yoldaşı darda qoyub qaçan adamlarla dostluq etməməyi məsləhət görürdü.

İrəc Mirzə "Dərs oxumaq həvəsi" adlı şerində də tərbiyənin bir çox mühüm cəhətlərinə diqqət yetirərək, uşağın dili ilə

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, c. II, səh. 280.

deyir: "Allaha şükr edirəm ki, mənim gözümə nur verib, oxumaq verib. Mənə kitabdakı suallara cavab tapmaq fərasəti bəxş edi. Şükr edirəm ki, tanrı mənə ürəyimdə müəllimə hörmət hissi yaradıb". Bunlarla bərabər həmin şerdə İrəc Mirzə valideynlərin uşaqlarının təhsilindəki rolunu yüksək qiymətləndirərək yazırdı:

Atama saqlıq eyləyibdir əta
Sağ qala ta həyanım ola
Anamı mehriban edib yaradan
Ki mənə pərviş verə hər an[1].

İrəc göstərirdi ki, hər bir valideyn çalışır ki, uşağı təhsil alıb yüksəlsin, mövqe tutsun, ailə, cəmiyyət üçün namuslu adam olsun. Yazırdı:

Çalışır valideynlərin hər gün
Məni dünyada bəxtəvər görsün[2].

İrəc Mirzə göstərirdi ki, dünyada ən böyük xoşbəxtlik, oxumaq, təhsil almaqdır. Təhsil almaq üçün isə arası kəsilmədən mütəmadi oxumaq, mütaliə etmək, dərslərə gündəlik hazırlaşmaq tələb olunur. O yazırdı ki, dərsləri hazırlamadan oynamağa getmək böyük qəbahətdir.

Dərslərim ta ki, natamam oldu
Oynamaq da mənə haram oldu[3].

İrəc Mirzə "Məktəb uşaqları" şerində gənc nəsli vətənpərvərlik duyğuları üzərində böyütməyi, anamız olan vətən kimi gülüstana baş əyməyi vacib hesab edirdi. O, yazırdı ki, vətəni sevməyi ata - analar bizə lap kiçik yaşlarından öyrədiblər. Onlar öyrədiblər ki, vətəni sevmək imandır. Və biz o imana tabe olmalıyıq. Əgər kimsə vətənimizə hücum edərsə, düşmənin

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, c. II, səh. 203.
2 Yenə orada, 203.
3. Yenə orada, səh. 203.

qarşısında vüqarla dayanıb vətənin bəxtiyar olması üçün onu qorumalı və vətən üçün şəhid olmağı bacarmalıyıq.

## **İrəc Mirzənin əsərlərindən nümunələr**[1]

Balaca siçanla pişiyin hekayəti
Qulaq as, ay oğul, bir az mənə sən,
Bu nağıldan nə isə öyrənəsən,
Vardır bir cüt yazıq, zavallı siçan,
Birisi pir idi, birisi cavan.
Var idi bir evin tavanmda
Yuvası o qoca, cavanın da.
Burada bir pişik də sakin idi,
Bu siçan nəslinə o, xain idi.
Gözü düşdü siçanlara bir gün,
Hiyləgərliklə o, dəyişdi üzün.
Dedi: bəh-bəh, sən ey, sevimli siçan,
Necə də sən gözəl yaranmışsan.
Nə dilər bu könül, o var səndə,
Gəl ki, xidmət edim, sənə mən də.
Qocası dinləyib düşündü bir az,
Kiçiyə söylədi, oğul, olmaz,
O yalandan deyir bu sözləri bil,
Pişik əsla siçanla dost deyil.
Balaca söylədi, nə qorxum var?
Nə olubdur axı, arada nə var?
O pişik də bizim qəbildəndir,
Nə üçün biz deyək ki, düşməndir?
Bax onun da qulağı, quyruğu var.
Dodağında bizim kimi buğu var.
Necə gör bir ki, gözləri aladır,
Qulaq as bircə, gör nə xoşsədadır.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1983, cild II, səh. 194-204.

Yenə də söylədi bu dəmdə qoca.
Anla bil ki, yazıqsan, ay balaca,
O qoca qurda sən qulaq asma,
Yanına, ay aman, ayaq basma.
O qulaq - quyruğu keçir gözdən,
Nə olar, oxşayır, deyil bizdən,
Yox, dedi, qorxmuram pişikdən mən,
Deyil əsla bizimlə o, düşmən,
Eşidib bu sözü pişik güldü.
Bir qədər də durub yaxın gəldi,
Hiylə ilə dedi ki, yox qorxma,
Qoca hər nə deyərsə sən baxma.
Pişiyin fikrini bildirdi qoca.
Anlamırdı fəqət bunu balaca,
Anlayırdı bunu o yaşlı siçan,
Yeyəcək onları pişik, ay aman,
Balaca söylədi, yeməz bilirəm,
Qoy gedim ki, bu an dönüb gəlirəm.
Yenə də söylədi qoca ki, dayan,
Tutsa verməz sənə pişik bir aman
Anla, bil ki, pişik bizə yaddır.
Tanımırsan yamanca cəlladdır.
Dost ola bilməyib pişiklə siçan,
Nə deyərsə yalan deyir, balacan.
Yenə də dinlədi onun sözünü,
Tutdu məzlum kimi pişik özünü
Dedi en gəl, ki, səni aldadır o,
Tanımır and içim ki, heç məni o.
Qocalıb işləmir yəqin ki, başı
Onun ilə dayanma sən yanaşı,
Noğulum, kişmişim, badamım var,
Gəl, ye, doy, sən gedəndə də al apar.
Aldanıb hiyləyə o, düşdü yerə,
Düşdüyü dəmdə də o düşdü girə.

Doğru sandı belə yekə yalanı,
Başı çəkdi böyük, ağır bəlanı,
Qışqırırdı:
-Kömək, kömək ölürəm!
Kim var idi deyə: "Dayan, gəlirəm?"

## Dərs oxumaq həvəsi

Şükür olsun o tanrı xidmətinə
Oxumaq şövqü bəxş edib o, mənə.
Gözümə nur verib baxam kitaba,
Ordakı hər cürə sual - cavaba,
Var başımda bu şövqilə rəğbət,
Ürəyimdə müəllimə hörmət.
Atama sağlıq eləyibdir əta,
Sağ qala, ta mənim həyanım ola.
Anamı mehriban edib yaradan.
Ki mənə pərvəriş verə hər an.
Çalışır validenlərim hər gün,
Məni dünyada bəxtəvər görsün.
Vurğunam mən bu dərsilə məşqə.
Düşmüşəm bir belə gözəl eşqə.
Dərslərim ta ki, natəmam oldu,
Oynamaq da mənə haram oldu.
Boş işi saymaram həyatda şərəf
Vaxtımı etmərəm inam ki, tələf.

## Məktəb uşaqları

Biz uşaqlar bu gün bu məktəbdə,
Hamımız övladıq bu İrana.
Hamı qardaş doğulmuşuq burda,
Bənzərik biz o cismilə cana,
Varlı, yoxsul bütün bu millətlər,
Bağlıyıq biz əzəlki dövrana,
Anadır bu vətən bizim xalqa,

Baş əyək hammı bu gülüstana,
Vətəni sevməyi uşaqlıqdan,
Öyrədib bizlərə ata və ana.
Vətəni istəmək imandandır,
Biz də ki, tabeyik o imana,
Bir nəfər qarşı çıxsa bu vətənə,
Girərik ilki, anda meydana,
Vətəni bəxtiyar qılmaq üçün,
Durşumuq biz vüqarla mərdanə.

## Ayını öldürməmiş dərisini satma

Bir meşədə vardı yekə bir ayı,
Yoxdu onun heyvərəlikdə tayı,
Vardı iki ovçu: Ekost, Alferə,
Gəldi meşə səmtə yaxın bir yerə,
Söz ayıdan düşdü bu yerdə yenə.
Başladılar vəsfinə, tərifinə.
Söylədilər ki, tayı yoxdur onun
Düşsə ələ qiyməti yoxdur onun.
Çoxlu gedibdir buraya ovçular
Heç birinə olmadı ancaq şikar.
Keçdi Ekost söylədi ki, biz onu,
Bəndə salıb sındırarıq boynunu.
Biz ikimiz qorxmarıq ondan bilin.
Öylə ki, siz qorxmusuz ondan yəqin.
Getdilər onlar ikisi cəngələ,
Ta quralar o ayıya bir tələ.
Çox tərəfə etdilər orda güzər,
Görmədilər o ayıdan bir əsər.
Döndülər axşam çağı ordan evə
Tapmadıq o heyvanı əfsus, deyə.
Yeddi gün orda bu cürə qaldılar,
Hər nə gərəkdi danışıb aldılar.
Verdi çörək ev sahibi onlara,

Eylədi hörmət belə mehmanlara.
Bağladılar vədilə böylə qərar.
Eyləyərik bir gün onu biz şikar
Pul alarıq biz dərisindən onun,
Onda çatar bil ki, sənin də pulun.
Bir dəfə də o meşəyə getdilər.
Axtarıb o heyvanı seyr etdilər.
Çıxdı bu yandan ayı saldı haray,
Ovçuların qəlbinə çökdürdü vay.
Tutmadan, al-ver eləyən ovçular,
Gördü gedibdir daha əldən qərar.
Görcəyin o fil kimi bəd heyvanı.
Əsdi canı, dondu damarda qanı.
Alferənin düşdü əlindən tüfəng,
Bir cinara söylədi, çıxmaq gərək,
Birdən Ekost dəydi bu dəmdə yerə,
Tez özünü vurdu ölümcülüyə.
Gəldi ayı baxdı ona, iylədi.
Gördü danışmır, ölü fərz eylədi.
Durmadı artıq, burdan getdi o,
Nərə çəkib onları tərk etdi o;
Durdu Ekost, tutmuş onu dərd - qəm,
Alferə də düşdü ağacdan bu dəm.
Məsxərə ilə dedi, söylə mənə,
Gəldi ayı bir nə danışdı sənə?
Verdi Ekost böylə cavab durmadan:
-Satmayın heç vaxt dərini soymadan.

## SEYİD RZA SABİR TƏLİM VƏ TƏRBİYƏ HAQQINDA

Hacı Seyid Rza Əlirzadə 1849-cu ildə Cənubi Azərbaycanın Xoy şəhərində anadan olmuşdur. O, şair kimi Sabir təxəllüsünü qəbul etmişdir. Seyid Rza ilk təhsilini mədrəsədə almış və 27 yaşında olarkən İrəvanə gəlib ömrünün sonuna kimi orada yaşamışdır. Məlum olduğu kimi Sovet hakimiyyəti yaranana kimi Cənubi Azərbaycanla Şimali Azərbaycan arasında elə bir ciddi sərhəd olmadığından bu iki yerə bölünmüş xalqın bir-birinə gediş-gəlişi sahəsində də elə bir maneələr olmamışdır. Bu səbəbdən də Cənub və Şimalı Azərbaycanın ədəbi, fəlsəfi, psixoloji və pedaqoji fikirləri bir-birinə təsir göstərməklə eyni istiqamətdə formalaşmışdır. Şimali Azərbaycan Cənubdan Şərq mədəniyyət ünsürlərini gətirdikləri kimi Şimali Azərbaycan nümayəndələri də Rus və Avropa mədəniyyətinin mütərəqqi meyilləri ilə cənub qardaşlarına təsir göstərmişlər. Biz bu təsirin bariz nümunəsini Rüşdiyyə, Şəhriyar, İrəc Mirzə və onlarla başqa cənubi Azərbaycan mütəfəkkirlərinin əsərlərində və dünyagörüşünün formalaşmasında görürük. Seyid Rzanın da Şimali Azərbaycana gəlməsi təsadüf olmamasıdır. O, zaman Şimali Azərbaycanda gedən milli dirçəliş maarifpərvərlik hərəkatı Seyid Rzanı cəlb etdiyindən o, Şimalda bu hərəkatda daha fəal iştirak etmək üçün əsas obyekt Azərbaycan ziyalılarının toplaşdığı İrəvanı seçmişdi.

Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə tanış olan Seyid Rza bu qəzetin səhifəsində çap olunmaq üçün "Həsən bəyə məktub" şerinin göndərmişdir[1]. O, zaman "Əkinçi" qəzeti xalq arasmda böyük rəğbətlə qarşılanırdı. Bu qəzetdə Azərbaycan maarifpərvərləri "Köhnə həyat tərzini, mövhumatı, cəhaləti, geriliyi tənqid etdiyi üçün Azərbaycan maarifpərvərlərini öz ətrafına toplaya bilib, onların hüsnü - rəğbətini qazana

1 F.Köçərli. "Ədəbiyyat tarixi" materialları.

bilmişdir. Həsən bəy Zərdabi köhnəliyi tənqid edərkən xalqı elmə maarifə çağırıb yazırdı: "Cəmi eyiblər elimsizlikdən çıxar, cəmi mühəssəni - ümuratın başı elmə bağlıdır. Heç əməl yoxdur ki, elmə möhtac olmasın[1]. Həsən bəy Zərdabi daha sonra yazırdı: "Bizim dövrdə elmsiz yaşamaq olmaz, xüsusilə bizim qonşular elmə yiyələnərək günü - gündən irəliyə gedir və mali - mülkümüzün sahibi olurlar. Belə olduqda nə etmək lazımdır? Heç kəs mənim çağırışımla getmir. Göstərirəm, görmürlər; deyirəm, anlamırlar; nəhayət mən belə bir qərara gəldim ki, daha bərkdən çığırmaq lazımdır[2]. Firudin bəy Köçərli, Seyid Rza Sabirin çox aqil və zərif bir şair olduğunu söyləyərkən onun Həsən bəy Zərdabiyə həsr etdiyi şerdən başqa bir sıra pedaqoji istiqamətli məktublarının da olduğunu yazırdı[3].

Hacı Seyid Rza Əlirzadə 1904-cü ildə İrəvan şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur. Seyid Rza Sabir "Əkinçi" qəzetinin fəaliyyətə başlaması münasibətlə yazdığı "Həsənbəyə məktub" şerində o Seyid Əzim Şirvaninin oğlunun Şamaxıda yeni tipli məktəbdə oxutduğu üçün dindarlar tərəfindən tənqid olunmasının əlyehinə çıxırdı. Seyid Rza Sabir "Həsən bəyə məktub" şerində Həsən bəyin elmdə aqıl, kamil bir şəxs olduğunu, onun Azərbaycan xalqının namuslu, qeyrətli vətəndaşı kimi fəaliyyəti və əməli ilə Qafqazda şöhrət tapdığını yazırdı. R.Sabir yazırdı ki, siz xalqı təhsilə, savada səslədiyiniz bir vaxtda, Şirvanda cəhalət hökm sürür, orada təhsilə can atan, oxumağa gedən adamlar, təqib edilir. Ancaq, biz sevindik ki, Şirvanda məktəb açıldı, ora sünni və şiyə məshəbli bütün uşaqlar daxil ola bildi. Belə məktəbləri açanlara eşq olsun. Bir də ona görə eşq olsun ki, onlar islamı nurlandırırlar. Seyid Rzanın bu şeri böyük elmi - pedaqoji bir sənətdir. O, bu şerdə elmin zəruriliyini, millətin elmlə irəli gedəcəyini, ondan məhrum olanları millətin geriliyini istəyən düşmənlər kimi

1 "Əkinçi" qəzeti, 1876-cı il N:7.
2 Yenə orada.
3 F.Köçərli. "Ədəbiyyat tarixi" materialları.

qələmə vermişdir. Seyid Rza Sabir bir vətənpərvər şair kimi bütün həyatı boyu Həsən bəy Zərdabi yolunu tutaraq xalqın savadlanması və maariflənməsi uğrunda dönmədən mübarizə aparmışdır.

## Seyid Rza Sabirin əsərlərindən bir nümunə[1]

### Həsən bəyə məktub

Mərhəba ey Həsən bəyi - aqil,
Elmi - hikmətdə qabilü kamil.
Bafəhim olmağında söz yoxdur,
Oldu məlum, qeyrətin çoxdur.
Əhli - Qafqazı etmisən xoşnud,
Sən özün... (oldun) əhli - naməsud.
Sənə hər kimsə tutsa bir irad,
Kordu batində, bulmayıb irşad.
Bizə hər növi söz desən, haqdır,
Kimsə təkzib qılsa, nahaqdır.
Həddən artıq çəkib əziyyətlər,
Xalqa artırmısan həmiyyətlər.
Biz eşitdik: Əhaliyi - Şirvan,
Uşqola eyləyibdilər saman.
Şükr qıldıq xudayi - mənnanə,
Verdi tövfiq Əhli - Şirvanə.
Şiiyü, sünni cəm olubla tamam,
Eyləyiblər bu xeyr işə iqdam.
Afərinlər bu qövmi - əllamə,
Yaxşı rövnəq verirlər islamə.
Gərçi bizlər o şəhrdən duruq,
Leyk, müslüm deyirlə, məsruruq,
Var bizim iftixarımız şəbü ruz,

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 202-204.

Qeyrət islamdan edibdi büruz.
Əhli - islam bakəmal olsun,
Hamı işlərdə əhli - hal olsun.
İmrpaturi - əfxəmi ə'zəm,
Xalqa təklif edib zi rahi - kərəm;
Ol zamandan ki, mülki - Qafqazı,
Qıldı təsxir zati - mümtazı
Ədlini xalqa aşikar qılıb,
Əhli - irfanı tacdar qılıb.
Fəlihaza əhaliyi - Şirvan,
Uşqol açmağa eyləyib bünyan
Var xəbər etməyirlər indi əməl,
Başlanıb xalq içində cəngi cədəl.
Gər bu qısm ola, heç deyil insaf,
Kimsə öz və'dəsində etsə xilaf.
Nə səbəbdir bu şurü qovqayə,
Əhl düşmüşlə fikri - bicayə.
Bu məsəldir ki: "Bid bar verməz,
Şürəzar olsa yer, səmər verməz"
Qalacaqdır cahanda avarə,
Hər kəsi gəlsə böylə koftarə:
"Nədir elmi - zəbani - Rüsiyyə,
Ya ki, elmi - əruzi - fərziyyə?"
Mali dünya verib o şəxsə fərib
Aparıb ondan ixtiyari - şəkib
Düşdü başə nəsihətin şüru,
Pənd eşit, ey iki gözüm nüru!
Qıymayıb, dövlətini saxlarsan,
Ehtiyacın olanda anlarsan -
Qədrini elmin, ey xücəstə xisal,
Nə imiş aləm içrə fəhmi - kəmal!
Bir - birə şövq ilə qılın imdad,
Götürülsün bu vərtədən əfsad.
Eylə kim, ol diliri - fərzanə,

Nisbəti vardı radi mərdanə
Şüəramn əmirü sultanı,
Mərifət taxtınm Süleymanı
Hacı Seyyid Əzim, arifi - həq,
Elmi zöhdündə yoxdu söz, mütləq
Cümlə elmi fünunə mahirdir,
Özü fazil, qəribə şairdir.
Tutiyi - təbi eyləmiş ahəng
Əhli - əfsadə ərzi eyləyə təng.
Haqqı var, haqqı var, ki mövladır
Yaxşıya bəd buyursa, övladır.
İstəməz ol cənabi - barütbət,
Dala düşsün bu qovmi - xoştinət.
Sizlərin miknətü vüqarız var,
Vəli minbəd ixtiyarımız var.
Ey Həsən bəy, ədibi - mərdanə,
Olma məşğul qövmi - nadanə,
Alladıb çoxlarn həvavü həvəs,
Gülün ətrini anlamaz gərkəs.
Var bizim şəhrimizdə də neçəsi,
Dövləti öz yanında, dəbdəbəsi.
Hal, məfluqə eyb, bədcudur,
Görsə suyu, deyər, "bu da sudur?"!
Gəzzəti - üklü şürbü - dünyanı,
Nə bilir vəhşiyi - biyabani?!
Danışıb babi - elmi - hikmətdən,
Müxbir et onları təriqətdən.
Mərifətli cahanda ələmdir.
Mərifət bulmayan nə adəmdir.
Şikvə qılsam, yetişməz itmamə,
İrəvanda yazıldı bu namə
Xalqdan mən də gəlmişəm dadə,
Yəni Seyyid Rza Əmirzadə.

# MƏHƏMMƏD HİDƏCİNİN PEDAQOJİ FİKİRLƏRİ

Məhəmməd Mövsüməli oğlu Hidəc 1853-cü ildə Zəncanın Hidəc kəndində kəndli ailəsində anadan olmuşdur. İlk təhsilini kənd məktəbində alan Hidəc 1879-1887-ci illərdə Qəzvində və Tehranda oxumuş və daha sonra yüksək müştəhid adını almaq üçün Nəcəfdə təhsilini davam etdirmişdir. O, karvanla Nəcəfə gedərkən, yolda qaçaqlar hücum edib karvanı talan edirlər. Bu zaman Hidəcin uzun illər ərzində işlədiyi tərbiyə nöqteyi nəzərindən çox qiymətli olan divanı da məhv olur. Hidəc çox çətinliklə Divanın hissələrini bərpa edə bilir. 1892-ci ildə təhsilini tamaladıqdan sonra Tehrana köçür və ömrünün sonunua kimi müəllimlik fəaliyyəti ilə məşğul olur.

Azərbaycan SSR-nin Elmi Akadekmiyasının vaxtilə apardığı araşdırmalar nəticəsində Hidəcin bir sıra "Külliyatı-Divan-Hidəc", "Risaleyi-güxaniyə", "Şərhi-mənzum" kimi əsərləri olduğu aşkara çıxmışdır. Hidəcin şerlər külliyatı üç dəfə nəşr olunmuşdur və 1958-ci ildə isə Təbrizdə nəşr edilmişdir. Bu külliyata Hidəcin lirik, fəlsəfi qəzəlləri, tərbiyə ilə bağlı hikmətli nəzm və nəsr əsərləri daxil edilmişdir. Hidəc əsərlərini 3 dildə-ərəb, fars, azərbaycan dillərində yazmışdır. O, 1928-ci ildə Tehranda vəfat etmişdir.

Cənubi Azərbaycan maarifpərvər ziyalıları əsərlərində yaşadıqları dövrün ətalətini, geriliyini, köhnəpərəstliyini qamçılayarkən xalqı cəhalət pərdəsindən, çürük, möhvumlu əqidələrdən, köhnə təsəvvürlərdən azad etməyə çalışmışlar. Bu mübarizə zamanı onlar tərbiyə məsələlərinə xüsusi diqqət yetirmişlər. Onlar şerlərində, qəzəllərində, nəsr əsərlərində məhəbbət, dostluq, vətənpərvərlik, düzlük, alicənablıq kimi nəcib hisslərin fəlsəfı ifadəsini tapmağa çalışmışlar. Onlar gənc nəsli kiçik yaşlarından başlamış ailədə, məktəbdə, daha sonra isə cəmiyyətdə yüksək əxlaqi dəyərlər əsasında tərbiyə

etməyi lazım bilmişlər. Bu nöqteyi-nəzərdən Hidəcin təmsilləri diqqətə layiqdir. O, xalq ədəbiyyatından istifadə edərək, "Hacıleylək və tülkü" təmsilini nəzmə çəkib, tərbiyənin bir çox vacib məsələlərinə toxunmuşdur. Təmsildə "Nə əkərsən, onu biçərsən", "Nə tökərsən aşına, o da çıxar qarşına" atalar sözlərini əks etdirən belə bir hadisə verilir:

"Bir gün hacıleylək tülkünü qonaq çağırıb, ona əriştə aşı bişirir. Hidəc "kişi varından qısmaz, ürəyi açıq olar", - deyərək əvvəlcə hacıleyləyin qonağını mədh edir. Hacıleylək aşı bir bardağa töküb, qonağı tülküyə deyir ki, çanağı uşaq sındırıdığı üçün aşı bardaqda verirəm, hacıleylək özü isə dimdiyini uzadıb aşı tamam yeyir. Tülkü bərk əsəbləşib hirslənsə də bu naqisliyi üzə vurmur. "Əsl kişi gərək belə işlərdə dözə" tülkü özünün təmkinini pozmadan deyir:" Bu gün nədənsə halım pisdir, bədənim gizildəyir. Yəqin soyuq dəydiyi üçün iştaham yoxdur. Ancaq xahiş edirəm sabah mənə qonaq gələsiniz". Hacıleylək həvəslə "sizə qonaq gələrəm, təəsüf ki, sən aş yeməyib məni məyus etdin", - dedi. Tülkü cavabında "Narahat olma, elə sənin çəkdiyin zəhmət mənim üçün böyük hörmət idi", - dedi. Tülkü tələsik çıxıb evinə yollandı. O, sabahısı günü bulamac bişirdi. Bir daşı təmizləyib, bulamacı onun üstünə tökdü və hacıleyləyə dedi:" Sən allah ye, heyifdir, aş soyuyub zay olur. Hacıleylək aşa baxıb anladı ki, tülkünü ələ salarkən doğru iş görməmişdir. Öz-özünü danlayıb dedi ki, türk məsəlidir:" Gəlir başına hər ol kəs edər nə yoldaşına". Haçıleylək gördü ki, daşın üstünə tökülmüş aşdan heç nə yeyə bilməyəcək, özünü sındırmayıb: "Bu gün mən oruc tutmuşam, çox sağ ol, yeyə bilməyəcəyəm, orucluğu sındırıb cəhənnəm oduna yanmaq istəmirəm". Tülkü aşı bolluca yedi.

Məhəmməd Hidəc bu təmsildə eləcə də uşaqların mədəni vərdişlərə malik olmasını vacib şərt hesab edərkən süfrə arxasında necə oturmağı, qonaqdan qabaq yeməyə əl uzatmamağı, yemək azdırsa, ev sahibinin nəfsini gözləməyi vacib tərbiyə üsulları kimi vurğulayarkən qeyd edirdi ki, əgər uşaqlar qonaq

yanında qabiliyyətsiz hərəkət göstərsə, qonaq onu üzdə tərifləsə də, ürəyində atasını söyər.

Hidəc uşaqların hərəkətinə diqqətli olmaq, onlara aludə olmamaq, məhəbbətlə tələbi birləşdirməyi bacarmağı lazım bilərək qeyd edirdi ki, əgər sevimli uşağın nalayiq, doğru olmayan hərəkətləri ataya xoş gələrsə, bu hərəkət başqalarında ikrah hissi doğurur. Hidəc tərbiyədə uşağı tərifləmək, nə də həddən artıq cəzalandırmağı yersiz hesab edirdi. O, yazırdı ki, uşağını həddən artıq mədh edən atalar ağılsızdır. Ata uşağı təriflməyib, ona ədəb öyrətməlidir. Hidəc yazırdı:

Hər ol kəs ki, oğlunu öydürür,
Atasın, öləndən sonra, söydürür[1].

Hidəcə görə atanın əsas vəzifəsi uşaqlarına əmək vərdişləri verməkdir. Oğulu bu məqsədlə danlamalı, hətta tənbəllik üstündə döyməyi də lazım bilirdi. Hidəcə görə, əgər uşagın qarşısına gücünə müvafiq tələb qoysan, vəzifəsini yerinə yetirməmək üstündə danlasan daş da olsa o, bişməlidir.

Balam, buğda istər ki, olsun çörək,
Dəyirmanda əvvəl çəkilsin gərək[1].

Hidəcə görə şərəfli, yüksək mənalı, məzmünlu insan olmaq üçün o, mütləq əzab-əziyyətlə, min bir cəfaya, ağır zəhmətə dözməlidir. Özündən razı olanlar hər zaman müvəffəqiyyətsizliyə uğrayırlar. Hidəc uşaqlara başa salırdı ki, hər gələn səsə tərəf qaçmaq olmaz, hər səni çağıranın dalınca getmək müqabil deyil. Getməmişdən əvvəl dayan fikirləş, iti gözünü yumma, kim ağılsız hərəkət etmiş olsa, cəhənnəmin ağuşuna atılmış olur. Hər deyilən sözə inanma, axmaq deyilmiş fikirləri ölçüb-biçmək, bu fikrin hansı dəlilə əsaslandığını öyrənmək lazımdır. Kim nə deyirsə desin, özünü itirmə. Səbr et, əqlə güvən.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 141.

Hidəc bir yerdə dayanmamaq, irəliyə getməyi məsləhət görərək yazırdı ki, kim yatmayıb axtarırsa, o muradını tapmalıdır. Hidəc yersiz danışmağı ağılsız hesab edərdi. Ağıllı adamların təmiz olduğunu yazırdı.

Hidəc "Atanın oğluna nəsihəti" şerində yenə də əmək mövzusuna toxunaraq valideynlərin uşaqlarına əmək vərdişləri aşılamasını, uşaqların isə atanın sözünə qulaq asmalarını tərbiyədə vacib hesab edirdi. O, yazırdı: "Mən təcrübədə şahid oldum ki, bir oğul atasının sözlərinə məhəl qoymadığı, ona ağ olduğu üçün həyatda çörək tapa bilmədi"[1].

Hidəc uşaqlara müraciət edərək, yazırdı ki, sənə ədəb öyrədən və əmək vərdişi verən hər kəsə qul olmalısan.

Danaya ol qulam, sənə öyrədib ədəb,
Ustada qulluq eylə veribdi sənə əmək[2].

Hidəc uşaqlara, qocalara hörmət etməyi, qonağı əziz tutmağı, darda olanlara, aciz adamlara kömək etməyi öyrətməyi məsləhət bilirdi. O, eləcə də düz, yerində danışmağı, ağzını boş qoyub cəfəng danışmamağı məsləhət görürdu. Hidəcə görə insan tam insanlığını göstərmək üçün, özünü qəza və qədərdən qorumaq üçün üç şeyi yerinə yetirməlidir: yolu tək getməmək, yeməyi tək yeməmək, evdə tək yatmamaq. Hidəc eləcə də qənaətcil olmağı, insanın maddi imkanı çatdığı qədər yeməyi və geyinməyi məsləhət görürdü. O, yazırdı ki, əgər bahalı parçadan paltarın yoxdursa, adi çit geyin.

Ayrana qıl qənaət, əgər yox sikəncəbin,
Gey əyninə palaz, əgər olmadı ipək[3].

Hidəc eləcə də tərbiyə məsələlərindən danışarkən, qabağa gələn yeməyi axıra qədər yeməyi, nəfsini güdməyi, başqalarına buynuz göstərməməyi, hər görəni özünün acı sözləri ilə

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 153.
2 Yenə orada, səh. 153.
3 Yenə orada, səh. 153.

zəhərləməməyi məsləhət görərək, məkirdən, hiylədən, fəsad kimi bu rəzalətləri uşaqların qəlbindən qoparmağı, uşaqlarda ən ali sifətləri - mərhəmət toxumunu, ədəb nümunəsini tərbiyə etməyi lazım bilirdi. Bunlarla yanaşı Hidəc öz sözünə əməl etməməyi, işi ilə sözü arasında bağlılıq gözləməməyi insan üçün ən ağır bəla hesab edirdi. Hidəc eləcə də," Ocağı odla" şerində yazırdı ki, odlamasan aş öz özünə bişməz, el məsəli var: "Adam ki girdi dəyirmana, toz qonar üzünə". Bununla Hidəc demək istəyirdi ki, insan zəhmətə qatlaşmasa, həyatı qura bilməz və həyatın gözəlliklərinə də sahib ola bilməz. Bu yolda o, ağır məşəqqətlərlə, çətinliklərlə üzləşər.

Babəm, sitəm eləmə xalqa, rəhm qıl özünə,
O kəs ki, zülmü edər özgəyə, edər özünə[1].

Hidəc tərbiyə məsələlərindən danışarkən yalan danışmamağı, cığal olmamağı, adamlar ilə, yoldaşlar ilə dil tapmağı, eləcə də xoşbəxtlik qapısını açmaq üçün düz yol ilə getməyi məsləhət bilirdi. O, vəfalı adamlarla dost olmağı və vəfalı adamların dostluğunu qazanmağı vacib hesab edirdi.

Yalan danışma, dəğəl olma, xəlq ilən yol get.
Yetər muradına ol kəs gedər yolun düzünə,
Əgər tapılsa bir nəfərdə qədrini bil
Bu bir nəfər, o vəfasızların dəyər yüzünə[2].

Hidəc tərbiyə məsələlərindən danışarkən dostluğa da yüksək qiymət verirdi. O, yaxşı dostu qorumağı, onun yolunda fəda olmağı şərəf, şan-şöhrət hesab edərək yazırdı:

Mən ol bəlayə dözən, can üzən cəfa çəkənəm,
Həmişə dust yolunda qədayü qalxanəm[3].

Hidəcin bu pedaqoji fikirləri bu gün də özünün əhəmiyyətini itirməyən maraqlı fikirlərdir.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 155.
2 Yenə orada, səh. 155.
3 Yenə orada, səh. 156.

## Məhəmməd Hidəcin əsərlərindən nümunələr[1]

### Təmsil

Eşitdim ki, ləklək gedib bir günü,
Nahara qonaq istədi tülkünü
Onunçün bişirdi əriştə aşı,
Məsəldir:" Qıyınmaz varından kişi",
Lüleynə töküb aşı qoydu öyə,
Dedi:" Özgə qab yoxdur aş tökməyə.
Çənnağı uşaq sındırıbdır bu gün".
Qabaqca uzatdı özü dimdiyin-
Lüleynə, dedi tülküyə: Meyl edüz!
Bu halı görüb tülkü oldu quduz.
Vəli, istəməzdi gətirsin üzə,
Kişi beylə dəmlərdə, xoşdur dözə
Dedi ləkləkə: "Ey mübarəkliqa,
Bu gün mən, qəzaya yoxum iştəha.
Dəyibdir soyuq, xoş deyil həlatım,
Canım çimçəşir, giz-giz eylər ətim.
Vəleykən budur, bəndə ərzim sizə,
Gəlin sübh çağı nahara bizə.
Mənim halətim də səhər çağı çağ-
Olur, bir-biriylən bir az qovlaşaq".
Dedi tülküyə ləklək: " Ey mehriban,
Sizə gəlməyə hazıram hər zaman.
Vəleykən bu oldu mənimçün düyün
Ürəkdə ki, sən içmədin aş bu gün".
Dedi ləkləkə tülkü: " Olma məlul,
Bu zəhmət ki, çəkdin mənə var qəbul.
Mürəxxəs olum mən, gedim mənzilə,
Səhər tez gəlin, sürtməyin əl-ələ"
Nahara bişirdi bulmac aşı.
Süpürdü, təmiz eylədi bir daşı.

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 40-160.

Caladı onun üstə aşı, o çağ,
Dedi ləkləkə: "Meyl ediz dağ-dağ!
Heyifdir bu cür aş olsun sovuq,
Buyur ta sovuq olmayıb ol yavuq".
Baxıb aşu daşə işi anladı,
Peşiman olub öz-özünü danladı.
Ki, "Vurdum mən əvvəldə yoldaşıma-
Bu rəngi, bu gün gəldi öz başıma
Bu türkə məsəldir: gəlir başına,
Hər ol kəs edər öz yoldaşına".
Dedi: "Neccə gün bundan ön gəldi, zağ,
Bizim mənzilə, biz çəkişdik çinağ.
Kömək etdi tarı, onu udmuşam,
Bu gün nəzər edib mən, oruc tutumuşam.
Mən öz nəzərimi sındıra bilməzəm.
Cəhənnəm oduna basarmam dözəm".
Dilini saldı tülkü sıyırdı aşı,
Yaladı yerin, pak qıldı daşı.
Dedi: " Ey qadan özgələr canınıa,
Bu aş olmadı heç quvara mənə
Dedi ləklək: "Ey dusti-pakizəhal,
Bu mətləb deyil olginən bixiyal.
Əzizim, gətirdim səninçün məsəl,
Birin gər qonaq etdin, olma dəğəl,
Ərənlər deyiblər ki," Ev sahibi,
Qonağın qabağına qoysun qabı.
Yeməkdə qonağı gərək gözləyə.
Yeyim gər az oldu, özü az yeyə.
Uşağın qonaq yanınıa qoymasın.
Qonaq gər deyər " qoy gələ" uyması
Əgər üzdə hər qədr oxşar, öyər,
Ürəkdə üşağın atasın söyər.
Özü gər uşağın çox istər kişi,
Gərəkməz gələ özgələrdən xoşi".

Biri mən, uşaqdan gəlir xoş bədim,
Uşaq sahibi anlamaz mən nedim?
Uşağı pis öyrətmə, öydürmə çox,
Hər ol kim, uşağın öyər, ağlı yox.
Bu sözdən darılma, gərək, ey dədə,
Uşağa atası ədəb öyrədə
Hər ol kəs ki, öz oğlunu öydürür,
Atasın, öləndən sora söydürür.
Atadan, o xoşdur əgər anlaya,
Uşaq boş duranda döyə, danlaya.
Uşağa ol ustad verdi əmək,
Ki: Söydü, acıqlandı, vurdu kötək,
Daş istər gəc olsun, gərəkdir pişə
Gəci doyməsən, bilmə gəlsin işə
Balam buğda istər ki, olsun çörək,
Dəyirmanda əvvəl çəkilsin gərək.
Su töksün,yoğursun onu Gülpəri,
Səməndər bacı yandıra təndiri.
Xanımqız sala kündə, Qızbəs yapa,
Bulardan Sona adama yol tapa.
Qoparda qoya ağzına çeynəyə,
Boğazdan gedib mədəyə geynəyə,
Qana həzm qarında qiylus ola,
Ciyərdə keçib orda kiymus ola
O çağ, burda qismət olur dörd yerə
Biri qan olur, hər damara girə.
Xülasə, yetər bu məqamə çörək,
Dönər qana, qandan tapar can ürək
Vurublar məsəl: "Aş içində noxud,
Dedi aşipazlən : "Nədən ey ənud,
Məni qaynadırsan qazanda bu cür
Əzab eylərəm, de günahım nədir?
Çox incitmə, az çömçə vur başımə
Xilafım nə olsun, xəyalım nəmə? "

Dedi aşipəz: " Etmə fəryadü dad,
Yoxun əql bilmən nə olsun murad
Nedim, verməzəm fərq yaxşı-yaman,
Sənə yoxsa mən dustam mehriban.
Hər ol estəyə cüzi-ensan ola,
Kamala yetə, rəfi-nöqsan ola,
Gərək carəsi yox-cəfaya dözə,
Özündən fəraqət ümidin üzə,
Əgər, aş içində noxud qaldı xam,
Yeyilməz, qalar zayeü natamam
Sevirsən ki, adam yoluna düşən,
Budur macara, səbr qıl, ta pisəm".
Əcəbdir o kəsdən ki, istər səfa
Qaçar tab gətirməz görəndə cəfa,
Səni gər döyər dostdur hidəci,
Ki, gəlməz işə döyməsinlər gəci.

## Atanın oğluna nəsihəti

Oğlum, ata uşağına versin gərək əmək,
Hər söz ata dəyər, ona vermək qulaq gərək.
Mən imtahanü təcrübə etdim, hər ol oğul,
Oldu ata-anasına ağ, tapmadı çörək.
Danayə ol qulam, sənə öyrədib ədəb,
Ustadə qulluq eylə, veribdir sənə əmək
Hörmət elə qocayə, qonağı əziz tut,
Əl tut balam, yıxılmışa, ol acizə kömək
Anla sözü danış, demə hər yerdə hər sözü,
Əndazə qoy danışmağa, tut ağzına cəhək.
Üç zad yetib xəbərdə, unutma bu üç zadı
Yol getmə tək, qəza yemə tək, evdə yatma tək…
Ayrana qıl qənaət, əgər yox sikəncəbin,
Gey əyninə palaz, əgər olmadı ipək.
Ye hər nəmə qabağa gələr, aş ya pilov,
Gey hər nəmə müyəssər olar, şal ya bərək.

Nəfsi-şərir noxtasını salma boynuna,
İstər şəriarət eyləyə, vur başına kəcək.
Hər kimsəyə öküz kimi göstərmə buynuzun
İt tək yüyürmə, hər görəni qapma, ey köpək.
Məkrü fəsad rişəsini qəlbidən qopar,
Mehrü vidad toxumunu can mərzrəində ək!
Dünyayə uyma, zahirinə baxma, bu qarı-
Allatmağa səni üzünə eyləyib bəzək.
Bu süstəhd kimsəyə hər giz vəfası yox,
Bu bivəfaya gər kişisən bağlamağa ürək.
Vay halına o kəs ki, deyər, eyləməz özü-
Öz qövlünə əməl, yeri qətən olur dirək…

## Ocağı odla

Ocağı odla, balam, aş pişməz öz-özünə
Hər ol sevər ürəyi aş, tütün gedər gözünə.
Cahan məsəldə-dəyirman, fələk onun daşı,
Adam ki, girdi dəyirmanə, toz qonar üzünə.
Bəbəm, sitəm eləmə xalqa, rəhm qıl özünə,
O kəs ki, zülmü edər özgəyə, edər özünə.
Hər ol keçi ki vurardı qoyunları, gördüm,
Çoban ağacın atıb gəldi dəydi buynuzuna.
Yalan danışma, dəğəl olma, xalq ilən yol get,
Yetər muradına ol kəs, gedər yolun düzünə.
Əgər tapılsa vəfa bir nəfərdə, qədrini bil,
Bu bir nəfər o vəfasızların dəyər yüzünə.
Müzayiqə eləməz Hidəci nəsihətdə,
Vəli, nə fayidə, yoxdur qulaq verən sözünə.

# MİRZƏ KAZIM QAZİ ƏSGƏRZADƏ
# MƏTLƏNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Mirzə Kazım Qazi 1832-ci ildə Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığında Pəraquş qəsəbəsində anadan olmuşdur. Mirzə Kazım ilk təhsilini Təbrizdə almışdır. O, öz üzərində ciddi işləməklə geniş dünyagörüşünə və elmi biliklərə sahib olan aqil bir adam olmuşdur. Onun yüksək savadı və təmkini gənclik illərindən hökumət dairələrinin diqqətini cəlb etdiyi üçün, onu İranın İrəvandakı konsulluğuna katib vəzifəsində işləməyə göndərmişlər. Konsulluqda olan formal kağız işləri və müdirlərinin formalizmi Mirzə Kazımı qane etmədiyindən vəzifəsindən istefa verir. Mirzə Kazım İrəvanda qalaraq ədəbiyyata, xüsusən də maarif məsələlərinə böyük həvəs göstərir. O zaman İrəvanda Azərbaycan ziyalı marifpərvərlərinin çox hissəsi mütərəqqi fəaliyyət göstərirdi. Onun Azərbaycan maarifpərvərlərinin içərisinə düşməsi Mirzə Kazımda pedaqoji problemlərə, məktəb işlərinə böyük maraq doğurur və onun bir pedaqoq kimi dünyagörüşünün formalaşmasına böyük təsir göstərir. Mirzə Kazım İrəvandakı pedaqoji mühitin təsiri altında yeni üsullu məktəb açır və bu məktəb xalq arasında böyük şöhrət qazanır. Mirzə Kazım açdığı məktəbdə özü müəllimlik etməklə bərabər, şagirdlər üçün "Elmi hesab", "Şərf və nəhf", "Elmi rəqabət" və s. kimi dərsliklərini tərtib edir. O, eləcə də uşaqların sinifdənxaric oxusu üçün şerlər yazır. Mirzə Kazım 1892-ci ildə İrəvanda vəfat etmişdir.

Təəssüf ki, Mirzə Kazımın dərslik və əsərplərini tapmadıq, ancaq onun Cənubi Azərbaycan ədəbiyyatı antologiyasından "Düzgü" şerini tapdıq. Bu şeri oxuduqda Mirzə Kazımın dilinin sadəliyinə, şerin tərbiyəvi qüvvəsinə, müəllifin pedaqoji məharətinə və psixoloji tələbləri necə yüksək dərəcədə yerinə yetirdiyinə təəccüb edirsən. Şerdə ibtidai sinif uşaqlarının gücünə və marağına uyğun çoxlu maraqlı lövhələr var. Şerin

ikinci bölməsində "Oğluna nəsihət" adı altında verilən parçada dərsdən qalmamaq, bülbül kimi oxumaq, qələmi ələ alıb yazı yazmaq məsləhət verilir və deyilir ki, məktəb səni, yəni uşaqları mətləbə çatdıracaqdır. Mirzə Kazım yazırdı ki, dərsi oxuyanlar rəvan danışır, daş üstə çiçək əkmiş olur. O, "Düzgü" şerində eləcə də uşaqları səliqəli, saxlanclı olmağa dəvət edir və yazırdı.

## Düzgü

Ay afətin gül oğlum,
Gül oğlum, bülbül oğlum!
Dərsin ox, rəvanla,
Sonra danış, gül oğlum!

***

Gedirdim harda gördüm,
Guya divarda gördüm.
Evdə siçan çox idi,
Pişik evdə yox idi.
Siçan çıxdı divara,
Əynində xaki xara.
Birdən pişiyi gördü.
Döndü, baxdı, qurudu.
Siçanlar at çapırdı.
Pişik dürüb baxırdı.
Tülkü giribdir bağa,
Hanı bəs bağban ağa?
Tülkü yedi üzümü,
Eşitmədi sözümü.
Pıspısa sürmə çəkdi,
Carqatın əyri bükdü.
Tısbağanın yoldaşı
Bişirdi yarma aşı
Yarmanı danə-dənə

Çıxartdılar meydanə
Quzular mələşdilər,
Torpağa bələşdilər,
Quzu məni görəndə,
Yerdən çiçək dərəndə…
İnək bala doğardı,
Pəri inək sağardı.
İnəyin balası var,
Başında alası var.

***

Oğlum, oğlum, naz oğlum,
Dərsindən qalmaz oğlum,
Bülbül kimi dərs oxu.
İstər çox ya az, oğlum.
Qələmin al əlinə,
Bir yaxşı zad yaz, oğlum.
Oğlum gedir məktəbə,
Dərsin oxur mətləbə,
Oxur rəvanlar,
Nə oxuyubdur anlar.
Daş üstə çiçək qazar,
Məşqini göyçək yazar.
Mənim oğlum candı, can,
Dərslərin oxur, rəvan,
Gümüşdəndi davatı,
Qələmi var beş-altı.
Qələmdanı şəkilli,
Qələmi xallı, mull,
Dəftəri var tər-təmiz,
Kitabı ondan əziz.
Kağızları rəngbərəng,
Oğlum, gətir yaz görək…[1]

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 220-221.

# MİR MEHTİ ÇAVUŞİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Mir Mehti Çavuşi 1909-cu ildə Təbrizdə anadan olmuşdur. İbtidai təhsilini köhnə üsullu məktəbdə alan Çavuşi orta təhsillini "Şəms" mədrəsəsində tamamlamışdır. Ailənin ağır vəziyyəti təhsilini davam etdirməyə imkan vermir. O, atasının yanında dəmirçixanada işləməklə ailəsinə maddi yardım göstərmişdir. 17 yaşında Çavuşinin atası vəfat edir və o, 6 nəfər ailə üzvünü saxlamağa məcbur olur. Çavuşi öz üzərində qətiyyətlə işləməsi nəticəsində yüksək savada malik olmuş və böyük şairlik istedadı göstərmişdir. O, Şimali Azərbaycana hüsnü rəğbət bəsləmiş və əsərlərində onu məhəbbətlə vəsf etmişdir. Mir Mehti Çavuşi Mirzə Ələkbər Sabiri, Hüseyn Cavid və digər şimali Azərbaycan şairlərini mütaliə edib, oxumuş və bu əsərlər onun dünyagörüşünün formalaşmasma ciddi təsir göstərmişdir.

Çavuşinin yaradıcılığının ən parlaq səhifələri 1941-ci ildən sonra başlamışdır. O, "vətən yolunda", "Azərbaycan" qəzetlərində və bir sıra başqa məcmuələrdə İran iqtidarını tənqid edən, xalqın ağır vəziyyətini, ana dilimizin qüdrətini göstərən məqalələrlə çıxış etmişdir. Çavuşi İran istibdadından uzaqlaşmaq arzusu ilə şimali Azərbaycana köçmüş və ömrünün sonuna kimi Quba rayonunda yaşayıb və orada da vəfat etmişdir. Çavuşi dövrünün hakimlərini tənqid edərək onların xalqı ağır zillətə, aclığa, zülmə, dilənçiliyə saldığını belə ifadə edirdi:

Neyləyim, gözlərinin yaşı donub qana,kasıb!
Ac qalıb, əhli - əyalın, yetişib cana, kasıb!
Ycuq ev, qış gecəsi, şaxta, boran, köhnə həsir,
Sübhədək körpələrin buzlu soyuqdan mələşir[1].

Çavuşi yazırdı ki, bir baxın, görün bu xalq nə sədaqətli, həqiqətli, mürvətli, dəyanətli, kəramətli, səxavətli, ədalətlidir.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1988, c. III, səh. 136.

Nə olsun ki, ən ağır zülm də bu xalqa edilir. Bu yüksək mənəviyyatlı insanlarm günahı nədir ki, belə zillətdə yaşayırlar. Çavuşi deyirdi ki,"gec - tez zülm eyləyənlər, ədalətsizliyə yol verənlər cəzalanmalıdırlar. O, "Mənzum hekayə" şerində yazırdı:

Böylə nəqi eyləyirlər, bir zaman
Zülm eyləyərdi növünə daim
Çəkinib kimsədən utanmazdı.
Nədir əxlaq, elm, o, qammazdı.
Harda varsa, cəfalar işlərdi.
Qara əfi kimi dişlərdi[1].

Bu mənzum hekayədə göstərilir ki, bir gün bir əfi ilanın evi yanır. O, gəlib evinin külə döndüyünü görüb ağlayır. Qışqırır: "Kim mənim evimə od vurmuşdur?!" Bir aqil alim ona yaxınlaşıb deyir:

Dedi: "Bica yerə özün yorma,
Əməlindir, nəticəsin sorma"!
... Nə qədər zülm edərsə zalimlər
Onların gözlərini həqq dələr[2].

Çavuşi daha sonra yazırdı:

Məs istərəm, abad etsin xalqım yurdu, vətəni,
Ac yatmasın, lakin onun ailəsi gecəni
Mən istərəm, insanlardan götürülsün bu xislət
Biri yesin, biri geysin, biri qalsın xəcalət[3].

Çavuşi vətənpərvər şairdir. O, İran istabdadını qamçılayaraq, Azərbaycanı, doğma vətəni, onun çayını, meşəsini, dağını, bulaqlarını ən şirin, ən mənalı və məzmunlu lövhələrlə belə təsvir edirdi:

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1988, c. III, səh. 142.
2 Yenə orada, səh. 143.
3 Yenə orada, səh. 146

Əziz vətən gözəl diyar
Ürəyində nə sirr var?
Açıb sinəndə lalələr
Verir mərizi eşqə - can.
Səninlə ey Azərbaycan!

Ey alovlu böyük diyar
Qalmış Zərdüştdən yadigar
Əziz vətən, əziz ana
Əyilmədin heç düşmənə.

Çavuşi şerlərində yüksək tərbiyəvi təsirə malik olan insanları zəhmətə, əməyə, doğruluğa, düzlüyə, qadınları ağır zillətdən qurtarmağa səsləyən məsələlərdən də bəhs etmişdir. O, "Tənbəl oğula atanın nəsihəti" şerində yazırdı.

Xoş səmər verməz, oğul, insana yatmaq bu qədər
Bil ki, ömrün bu gözəl saətinin qiyməti var[1].

Yenə həmin şerdə ata oğluna müraciət edərək deyirdi: "Gözlərini aç, gör tənbəllərə əsrin necə böyük töhməti var. İndi qəflətdə yatanlar oyanır, vaxtdan, zamandan doğru istifadə et. Qəflətdən oyan ki, ziyalanasan, xalqa, millətə ziya gətirəsən. Kim ki, xalqa xidmət edir, onun böyük hünəri, hörməti var. Bir loxma çörəyi də müftə verməzlər, gərək insan özü-özünə həyat qura. Kişidən tələb olunan qeyrətdir. Kimdə qeyrət varsa, onda hünər də var"[2].

Çavuşi yazırdı ki, indi dünya dəyişib, insanlara diqqət var. İnsan ölməli, ya da zəfər çalmalıdır. Sən çalış ki, zinətli, ziyalı adamları tapıb, onlardan bəhrələnəsən. O, "Tənbələ atasının nəsihəti" şerinin sonunda yazırdı:

Bil ki, zinət deyilən elm və ədəbdir bəşərə
Hər kəsin varsa, onun xalqa böyük minnəti var.

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1988, c. III, səh. 137.
2 Yenə orada, səh. 137-138.

Talib olmaz, pula dünyada olan əhli - kamal
Çünki, dünyadə onun elm kimi sərvəti var[1].

Əmək tərbiyəsinə yüksək qiymət verən Çavuşi yazırdı:

Mən istərəm, hər kəs gərək layiqincə işləsin,
Öz əlinin əməyiylə, halal çörək dişləsin[2].

Vətənpərvər şair Çavuşi yazırdı ki, vətənimizin gözəl, bərəkətli torpağı, qabiliyyətli xalqımızın Nizami, Füzuli, Nəsimi, Qövsi, Xaqani, Xətai kimi fəxr ediləcək oğulları var. Bu ölkənin xalqını cəhalət yuxusundan oyada biləcək Sabir kimi şairləri, Qaçaq Nəbi, Koroğlu kimi qəhrəmanları olan bu şanlı ölkənin ərazi btüövlüyünü, dilini qorumağı hər bir azərbaycanlının müqəddəs borcu hesab ediblər. O, yazırdı:

Səpt edib, səfheyi - tarixinə dövran dilimi
Saxlayıbdır bilin hər əsrdə taban dilimi[3].

Çavuşi yazırdı ki, zaman, dövran, ilahi qüvvə, təbiət mənə elə əzəmətli, qüdrətli dil verib ki, onu heç bir maneə təcavüz və heç bir tufan məhv edə bilməz. O yazırdı:

Bir çıraqdır ki, onu yandırıb əvvəldə zaman,
Söndürənməz ola gər min kərə tufan, dilimi[4].

O, yazırdı ki, tarix mənim vətənimi yaradarkən dilim kimi, məşəli qoymaram kimsə təhqir etsin. Çünki bu dildə anam mənə layla çalıb. O, Cənubi Azərbaycanda İran şahlarına işarə edərək, onların dilimizi necə təhqir və məhv etməyə cəhd etmələrini əbəs iş sayaraq, Şimali Azərbaycanda ana dilimizə hörmət olduğunu yazırdı:

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1988, c. III, səh. 138.
2 Yenə orada, səh. 146.
3 Yenə orada, səh. 145.
4 Yenə orada, səh. 145.

Daha yox zərrəcə qorxum, edə gər qəm tuğyan,
Çün doğub, ilk baharım, güldürə nalan dilimi[1].

Çavuşi bütün dünyada sülhün bərqərar olmasını, bütün ölkələrin çiçəklənməsini arzu edərək yazırdı:

Mən istərəm bahar olsun, gülsün bütün ölkələr
Dağlar açsın qızıl güllər, yarpaqlansın meşələr[2].

Çavuşi fəaliyyətində qadın təhsili və azadlığından da danışaraq ana və bacılarımızın acı talehindən təsüflənir və onları elmli, savadlı, qüdrətli olmağa çağırırdı.

Ana, misalı günəşdir, doğur həyat ondan
Bütün bəşər alır, ilham o şanlı qüdrətdən.
...Gərək bütün bəşəriyyət qadınla fəxr eləsin
Kamali - elmi - ədəb yoğrulub, bu qüvvətdən...[3]

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1988, c. III, səh. 146.
2 Yenə orada, səh. 146.
3 Yenə orada, səh. 145.

# MİRZƏ ƏBDÜRRƏHİM TALIBOVUN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Mirzə Əbdürrəhim Talıbov Həccarzadə 1834-cü ildə Təbrizdə dülgər ailəsində anadan olmuşdur. O ilk təhsilini anadan olduğu şəhərdə almışdır. O ilk əvvəl Tiflisə köçür və orada ali təhsil alır. Bu illərdə əzmlə çalışaraq, dillərə böyük istedad göstərib rus və Fransız dillərini də mükəmməl öyrənir. Ancaq o İranda baş vermiş siyasi münaqişələrdən, mütərəqqi görüşlü adamların təqib olunmasından uzaqlaşmaq üçün Rusiyaya köçür. Bir qədər vəsait topladıqdan sonra özü müstəqil olaraq çar hökümətindən yol icarəyə götürür və onun adı ilə bağlı olan məhşur Qafqaz Stavropol şosse yolunu çəkdirir. Xeyli müddətdən sonra Dağıstana gəlir və Xasovyurt şəhərində məskunlaşır. Ancaq burada da çox qalmır. Teymurxanşura (Buynaksk) şəhərinə köçür və ömrünün sonuna qədər orada yaşayır. O, burada da bir sıra elmi-publisistik, bədii elmi əsərlərini yazır.

Talıbovun yaxın və orta Şərqdə məhşur olan "Kitab yüklü eşşək" (1888), 1894-cü ildə 3 clddən ibarət "Əhmədin kitabı" romanları tərbiyə baxımından olduqca qiymətlidir. Bu əsərlərdə ailə tərbiyəsi, müəllim mərifəti, müəllim hazırlığı əlifba islahatı, əyani təlim, əmək tərbiyəsi, heyvanlara məhəbbət hissi, mədəni vərdişlər və s. kimi rəngarəng pedaqoji problemlər qaldırılıb. M.Ə.Talıbovun bir çox başqa "Səma elçisi", "Məhəmməd peyğəmbərin tarixi", "Tarixi-Nəbavi", "Kitabi fizik və ya hikməti tərbiyə", "Yeni fəzaşünaslıq haqqında kitab" əsərləri də ictimai-siyasi, bədii baxımdan qiymtəli əsərlərdir. O bir ictimai xadim kimi rus, fars dilindən Azərbaycan dilinə bir sıra tərcümələr etmiş, əsərlərə müqəddəmə və şərhlər yazmış eləcədə S.M.Şəbüstərinin iştirakı ilə 1888-ci ildə İstambulda "Şahsevən" adlı gizli satirik qəzet çap etmişdir. Bu qəzetdə siyasi məsələlərlə yanaşı xalq maarifi məsələlərinə də toxunmuşdur. M.Ə.Talıbovun İranda mədəni-maarif işlərinin

yayılması ilə bərabər məşrutə inqilabının hazırlanmasında da böyük xidməti olmuşdur.

Onu Fransa Burjua inqilabının görkəmli nümayəndəsi Volterə oxşatmışlar. Onun apardığı işlər xalq tərəfindən yüksək qiymətləndirildiyinə görə 1906-cü ildə Təbriz əhalisi Talıbovu qiyabi Birinci İran Milli məclisinə nümayəndə seçmişdir. İran dindarları M.Ə.Talıbovu kafir adlandırırlar və əsərlərini yandırırlar. Bu təqibdən ruhdan düşməyən Talıbov mətbuatda dindarları daha kəskin məqalələrlə ifşa edir. Vətəni Təbrizi heç vaxt yaddan çıxarmayan onun azadlığı uğrunda mübarizəyə bilavasitə və qiyabi başçılıq edən Talıbov fevralın 26-da Teymurxanşurada vəfat edir.

O "Əhmədin kitabı" əsərinin "Əhməd məktəbə getmək istəyir" bölməsində İran məktəblərinin yaramazlığından bəhs edərək uşaqların necə məktəbə böyük həvəs göstərdiklərini yazır. Həqiqətəndə Azərbaycan xalqı həmişə elmə həvəs göstərən qabiliyyətli xalq olmuşdur. Hələ vaxtilə F.Köçərli yazırdı ki, köhnə məktəb və mədrəsələrin bir sıra qüsurlarının olmasına baxmayaraq gör xalqımız nə qədər qabiliyyətlidir ki, oradan Nizami, Füzuli, Məhsəti, Xaqani kimi istedadlı adamlar çıxıb. Mirzə Abdurrahim "Əhməd məktəbə getmək istəyir" əsərində balaca Əhmədin hələ məktəbdən çox-çox qabaq, yazmaq, oxumaq, rəsm çəkmək, hesablamanı bildiyini yazırdı. Oğlu daha çox məlumat almaq üçün atasına yalvarır ki, onu məktəbə qoysun ki, müəllim ona əlifba yazsın. Məlum olduğu kimi köhnə məktəblərdə uşaq təkcə əlifba öyrənməyə illərlə vaxt sərf edirdi. Bu isə savadlanmaq yolunda, mütərəqqi Azərbaycan ziyalılarım narahat edən ən ümdə məsələlərdən biri idi. O, Güney Azərbaycanda müəllim hazırlığının yarıtmaz olduğunu yazarkən, Əhmədin atası oğlunun əlifba öyrənmək təkidinə belə cavab verir: "Mənim gözümün işığı, əgər (qardaşın) Mahmuda dərs verən Axund yer üzündəki başqa mədəni ölkələrin məktəblərində ki, müəllimlər kimi pedaqoji təhsil alıb, müəlimlik hüququ qazanmaq üçün imtahan vermiş olsaydı, bizim təlim

ocaqlarımız mədəni millətlərin təlim ocaqları kimi olsaydı, bizim əlifbamız başqalarının əlifbasının onda biri qədər asan olsaydı sənin məktəbə gedib dərs oxumağına razılıq verərdim. Lakin əlifbamız o qədər çətin, təlim vəziyyətimiz o qədər yaramazdır ki, mən üç il bundan sonra belə, sənin məktəbə getməyinə icazə verməərəm"[1].

Hələ vaxtilə M.F.Axundov Həsənbəy Zərdabiyə yazırdı: "Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmaratını zikr edib, bizə hey təklif edirsən ki, elm öyrənin... İndi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək və hansı dildə öyrənək?!" Eyni vəziyyət Azərbaycanın Şimalında M.F.Axundovları narahat etdiyi kimi cənubda da M.Ə.Talıbovları narahat edirdi.

Dövrünün məktəblərini tənqid edən M.Ə.Talıbov əyaniliyin və həyatiliyin ibtidai savad təlimində böyük rolunu görərək yazırdı: "Yer üzünün başqa millətlərinin uşaqları öz ana dillərinin hərflərini oyuncaqlar vasitəsi ilə öyrənirlər. Məktəbə gedənə qədər yazıb oxumağı asanlıqla başarırlar. Bizim Vətənimizin uşaqları isə onların əksinə olaraq əlifbanın çətinliyi üzündən beş il təhsildən sonra bir kəlməsini belə düz oxumağı bacarmırlar"[2].

M.Ə.Talıbov təhsilin belə yarımçıq, məzmunsuz və yarıtmaz olmasının səbəbini Dövlət adamlarmm maarifə laqeyd münasibətində görürdü. O, yazırdı: "Əfsus ki, bizim böyük dövlət qulluqçularımız milli tərəqqimizin əsas vasitəsi olan bu mühüm məsələyə zərrə qədər də fikir vermir və bu haqda danışmağı özlərinə layiq bilmirlər"[3].

M.Ə.Talıbov uşaqların həyatında ailə tərbiyəsinə də xüsusi diqqət yetirərək valideynləri hövsələli, uşaqlara qarşı məhəbbətli, tələblə məhəbbəti birləşdirməyi bacarmağı, uşaqların bütün arzularım həyata keçirməməyi vacib hesab edirdi. O

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 236.
2 Yenə orada, səh. 236.
3 Yenə orada, səh. 237.

yazırdı ki, mehriban atalığın vəzifəsi uşaqlarının yaxşı xahişlərini qəbul etməkdir. Nə edim ki, müəyyən üzürlü səbəblər onun xahişini yerinə yetirməməyimə məcbur edir.

M.Ə.Talıbov ləyaqətli, mehriban, qayğıkeşli ata kimi həm uşağın tərbiyəsi, həm də elmi ilə məşğul olmağı lazım bilərək deyirdi ki, mən bilirəm uşağımın fövqalədə istedadı var. Hər cür çətin mətləbi ona danışsan başa düşər. Mən çalışacağam ki, onu elmin bəzi məsələləri ilə tanış edim.

M.Ə.Talıbov xalqın maariflənməsi işində xaricilərin necə millətə xidmət etdiklərini nümunə göstərirdi. Hələ vaxtilə Üzeyir Hacıbəyov Fransızların zəlzələ zamanı necə fədakarlıq göstərdiyini belə ifadə edirdi: "Mən olan evin yanında San Fransisko kilsəsinin keşiş müsibətzadəganə ianə yığmaq üçün kilsəyə gələnlərdən pul toplayırdı. 10 franklı, 5 franklı sikkələr və pullar yağış kimi keşişin kisəsinə tökülürdü. Keşiş isə öz həmcinslərinin bu hümmətini görüb şadlığından əbrü-leysan kimi yaş tökürdü"[1].

Xaricilərin xəlqinə etdiyi fədakarlığı misal gətirən Üzeyir Hacıbəyov kimi Talıbov da oğlunun fransızların göstərdiyi tamaşadan vəcdə gəldiyini danışarkən uşağına başa salırdı ki, ona görə tamaşa maraqlı idi ki, onlar uşaqlıqdan ciddi təlim alır. Elmin səmərəsini başa düşürlər və bu elmin sayəsində varı-dövlət sahibi olurlar. Hələ vaxtilə Yusif Xas Hacib yazırdı ki, "Sənə pul və kitab təklif etsələr kitabı götür. Pulu xərcləyib qurtaracaqsan, kitab isə sənə həmişə pul gətirəcək". Əhmədin atası deyirdi ki, "Elmin, maarifin böyük əhəmiyyətini duyan xaricilər nəinki, maarifpərvər işlər həyata keçirir, hətta onlar öz hesablarına məktəb açır, mədəni mərkəzlər yaradır. Sənin gördüklərin firəngli idilər... Bu xalqın maarifçilərindən bəzisi hər il üç tamaşa göstərir və onun bütün gəlirini kasıblara xərcləyirlər... Çox vaxt bu xanəndələrin bəzisi bir saatlıq çıxışları üçün 3 min tümən pul alır ki, bu pulların hamısını birdən kasıblara bağışlayırlar"[2].

1 Ü.Hacıbəyov. Seçilmiş əsərləri. c. IV, səh. 210.
2 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 238.

M.Ə.Talıbov ailədə uşaqların əmək tərbiyəsinə də xüsusi diqqət yetirərək ev heyvanlarına qulluq etmək, həyəti sulamaq, güllərə baxmaq kimi işləri uşaqlara kiçik yaşlarından öyrətməyi vacib hesab edirdi. Uşaqların heyvanlara doğru münasibət bəsləməsini lazım bilərkən Talıbov oğluna deyirdi: "Ev heyvanlarının heç birisindən qorxmaq lazım deyil. Çünki, onlar xətakar deyillər və onların qanacaqları var. Əgər vaxtım olsa çox kiçik heyvanların şüuru haqqında da sənə danışaram. Onda şüurun yaradıcısmı öyrənər və görərsən ki, onun yaranmasında necə heyranedici aləm yerləşir. Qarışqadan tutmuş filə qədər hər birinin bir-birindən necə fərqli - "şüurlu", "kütbeyin"liyi və təbii istedadlarını xərcə vermək keşiyindədir"[1]. Əhmədin atası fikirlərini əsaslandırmaq və mütaliəyə həvəs yaratmaq üçün oğluna heyvanların həyatından bir neçə maraqlı hadisə danışdı. Dedi ki, bir gün bir zabit keflənib, gəlib fillərin arasında yatır. Dostları onu axtarıb tapırlar. Dostları onu aparmaq istədikdə, fillər onu aparmağa qoymurlar. Kişi ayılanda özünü fillərin arasında görüb qorxur. Ancaq fillər xortumları ilə onun başını, üzünü sığallayaraq başa salırlar ki, qorxmayıb çıxıb getsin. Bir gün Madaqaskar adasında filin sahibi özünü göstərmək üçün əlindəki hind qozunu filin başında sındırmaq istəyirdi. Ertəsi gün fil bazarda baqqal dükanının qabağından keçərkən o qozlardan birini götürüb sahibinin başına elə vurur ki, o, yerindəcə can verir.

M.Ə.Talıbov "Əhmədin kitabı" əsərinin Əhmədin sınağı bölməsində bir azda irəli gedərək valideynlərə hörmət, valideyn və müəllimlərin uşaqların suallarına doğru, dürüst, əhatəli, elmi cavab verməleri üçün hərtərəfli dərin elmi biliklərlə silahlanmasını, valideyin və müəllimlərin pedaqoji mərifətə malik olması barədə çox qiymətli tərbiyəvi məqamlara toxunur. Bu bölmədə Əhməd anasının sözünə baxmadığı üçün çayı töküb əlini yandırır və ağlayır. Atası deyir: "Sən nə üçün ananın sözündən çıxdın? Hər kəs öz böyüyünün sözündən

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 238.

çıxsa, sənin kimi başı daşa dəyər". Bu bölmədə eləcədə uşaqlara səhər-səhər valideyin işə gedəndə və işdən gələndə əlindən öpmək, görüşmək tərbiyə edildiyindən Əhməd atasına deyir: "Gündəki kimi əlindən öpmək istəyirdim". Əhmədin bacısı isə atasına deyir: "Ağa, mənə icazə verərsiniz ki, hüzurunuza gəlim? Mən ağlamaram, sizin icazəniz olmadan heç nəyə əl vurmaram. Əlinizi öpən kimi qayıdaram". Uşaqların hər ikisi Mahruq və Əhməd atalarının iş otağına girdikdən sonra, ata karandaş necə düzəlir? Bəs rəngli karandaşlar necə düzəlir? Ata bəs kağız nədən düzəlir? Kağız olmayanda insanlar necə yazırdılar? Uşaqlar, xüsusəndə, Əhməd qələmdən tutmuş, çap maşınlarına, kitab sənətinə, tarixi ixtiralara qədər çoxlu suallar verir. Uşaqlarını və ailəsini dərin məhəbbətlə sevən ata işini bir kənara qoyub uşaqlara geniş dolğun cavablar verib hər bir hadisənin tarixini, onun əmələ gəlmə üsullarını hövsələ ilə izah edir. Mürəkkəbin əmələ gəlmə tarixini öyrədərkən Əhməd qeyri adi diqqətlə qulaq asarkən atası heç bilmirdi ki, Əhməd ondan eşitdiklərini həyatda təcrübədən keçirəcək. Nümunə, yersiz bir söz və yaxud əqilli bir hərəkət uşağın şüurunda kök salır və uşaq görüb eşitdiklərini öz həyatına tətbiq etməyə çalışır. Uşaqlar belədir. Mən bir ailədə gördüm ki, babası hirslənəndə uşaq çarpayının altına girirdi ki, babasının əli çatmasın. Babası sakitləşəndən sonra soruşur: "Oğul məni nə üçün incidirsən?". Uşaq başlayır. "Anam danışırdın ki, sənində oğlun (mənim atam) babası ilə zarafat edəndə o hirslənərmiş və atam yer tapmayıb çarpayınm altma girərmiş. Mən də atama oxşamaq istəyirəm". Bax, elə burada Əhməddə atasını dinlədikdən sonra mürəkkəb düzəltmək üçün külü bir neçə başqa şeylərlə qarışdırıb ixtiraçılığım göstərmək istəyir. Ancaq ev başdan-başa külün, palçığın içərisində idi. Evdəkilər atanın bu mərəkədən narazı qalacağını zənn edib, evi səhmana salmağa başlayırlar. Külə soğan suyu qatmaq istəyən Əhməd isə ağlayırdı. Soğan onun gözünü yandırmışdı. Astanada dayanan ata işin nə yerdə olduğunu bilib öz-özünə

deyir: "Yersiz bir söz nə qədər mənim və başqalarının zəhmətinə səbəb oldu. Bundan sonra körpə uşağın sınaqdan çıxara biləcəyi işi heç vaxt ona öyrətmərəm".

M.Ə.Talıbov "Kitab yüklü eşşək" romanında yenidən pedaqoji məsələlərə qayıdır. O bu romanda elmin əhəmiyyətini, kitabın oynadığı tarixi rolundan bəhs etmişdir. O yazırdı: "Bizim mütəfəkkirlərimiz, böyük şəxsiyyətlərimiz elmin və təcrübənin buluq həddinə çatdıqda öz biliklərindən zəkat verməyi vacib saymış, xaliq tərəfindən hər bir adama bəxş edilməyən elmin ilahi xəzinəsinə sədəqələr təyin etmişlər. Bununla da onlar, insanların ağır zəhmət çəkmədən, uzun müddət çalışmadan, hər sətri bir ömrün hasili və hər fəsli zamanın bir dövrünün xülasəsi olan mənalar və iftixarlı ənənələrə mənimsəmələrinə zəmin yaratmışlar. Beləliklə, gələcək nəsil üçün təkrar ömür və uzun həyat ucuz başa gəlmişdir"[1].

Elmi kəşflərin əhəmiyyətini göstərərkən M.Ə.Talıbov yazırdı ki, təcrübəsi olmayan və elmin zirvəsinə qalxa bilməyən adamlar üçün yüksəlməyin yolu dahilərimizin fikir xırmanından sünbül toplamaq və elmi fikirlərin sayəsində düzgün yol seçmək olar. Açılmış cığırla getmək. Cığır açmaqdan daha asandır. Kitaba böyük qiymət verən Mrzə Talıbov yazırdı: "Qədim zamanlardan və əsrlərdən bəri hikmət irsini, bilik xəzinələrini dünyada yadigar saxlayan bu əbədi səadətin əlaqə vasitəsi kitabdır. İnsanlığın bəxş etdiyi kitab kimi qiymətli hədiyyə dünyanın tərəqqi və təkamülünə səbəb olmuşdur"[2]. Talıbova görə kitab heç kəsə minnət qoymadan insanlığın təcrübəsini, imtahan və təfəkkürlərini topladığı ehtiyatı hamıya bəxş edir. Mirzə Talıbov belə bir pedaqoji nəticəyə gəlirdi ki, qabaqcıl adamlar, dahi mütəffəkirlər hadisələri və xarakterləri ümumiləşdirmək nəticəsində insan həyatım tənzimləmək üçün maraqlı üsullar tapmışlar. Bu üsullardan istifadə edən insanlar rəvan, maraqlı danışar və mütaliə onların ədəbli, mərifətli

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 247.
2 Yenə orada, səh. 248.

olması üçün vasitə olar. O uşaqlar üçün yazılmış əsərlərin dilinin sadə, xalqın məişətinə yaxın, uşaq zövqünə müvafiq olmasını göstərərkən uşaq ədəbiyyatından ideyallıq, real məzmun, əyanilik, sadə, anlaşılan, aydın, obrazlı dil, əyləncəlik, səmimilik və həyatilik tələb edərək yazırdı: "Hansı əsər sadə adamların zövqünə yaxın, uşaq hekayələrinə daha uyğun yazılmışsa, əlbəttə xalqın zövqü ona daha mail və belə əsər əksəriyyətin zövqünə daha münasibdir"[1].

M.Ə.Talıbov belə hesab edirdi ki, oxumaq və hər şeyi oxumaq lazımdır "Belə ki, hər bir əhəmiyyətsiz yazım da bir dəfə oxumağa dəyər".

M.Ə.Talıbov romanınm "Özümün mehriban ağam Mirzəcəfərin hüzuruna" bölməsində yazırdı ki, "Möhtəşəm ağam bu sizin mərhəmətinizdən, qayğınızdan razıyam. Lakin siz bizi şüursuz heyvan və tərbiyə təhsildən xəbərsiz təsəvvür edirsiniz. Lakin, bu əsəri yazmaqla, sizi eşşəklərin yaşayış aləmindən düzgün nəticə çıxarmanızı istəyirəm. Bu məktubu oxuyandan sonra biləcəksiniz ki, eşşək dediyiniz tayfalarda nə qədər bəhrə, zövq və idrak vardır. Onda siz cənablar daha bizlərə "Axmaq eşşək", "Qanmaz eşşək", "Nadinc eşşək", "Tənbəl eşşək" kimi sözlərlə müraciət etməyəcəksiniz. Əksinə bizim mahiyyətimizlə dərindən tanış olduqdan sonra bizə "Mütəfəkkir eşşək", "Alim eşşək", "Sözə baxan eşşək", "İş görən eşşək" kimi mahnılar qoşacaqsınız. Əsərin sonunda Talıbov adamlarına müraciət edərək yazdığı bu əxlaqi nəsihətləri yadigar saxlamağı və ondan nəticə çıxarmağı xahiş edir.

M.Ə.Talıbov var-dövlət içərisində yaşayanları, evdə xüsusi dayələrin köməyi ilə tərbiyə və təhsil alan uşaqların həyatını özünün təcrübə və həyat vasitəsi ilə aldığı tərbiyəyə qarşı qoyarkən göstərirdi ki, biz ikimizdə uşaqlıqda gözəl və zərif idik. Ancaq mən öz təcrübəm nəticəsində indi həyatı və elmləri dərindən dərk edən yüksək bir insan olduğum halda, sənin şüurlu olduğuna şübhə edirəm, çünki sən insanlara ikrahla baxırsan. O

---

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 248.

ağalarına müraciət edərək deyirdi: "indi görrüsünüzmü ki, yüksək ağıl, kəmal, elm sahibi olan insanları aşağı təbəqəyə salıb onları eşşək adlandıranların özləri eşşəkdirlər"[1]. M.Ə.Talıbov eşşək adlandırılan aşağı təbəqənin yuxarı təbəqədən üstünlüyünü göstərərək yazırdı ki, biz, dediyiniz eşşək tayfasının sizlərdən fərqi budur ki, biz iştahamız qədər yeyirik, sabah üçün varı dövlət yığmırıq. Siz isə ilahi nemətlərdən faydalandığınız zaman, ləzzət aparmaq, şükr etmək əvəzinə varı dövlət yığıb o ali hisslərinizi pərişan edirsiniz. İctimai ziddiyyətləri belə şərh edən M.Ə.Talıbov ömrünün sonuna kimi bərabərsizlik, zülm, istismara qarşı mübarizə aparmış və Cənubi Azərbaycan xalqının azadlığı maarif və mədəniyyəti uğrunda çalışmışdır.

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 250.

# MƏHƏMMƏD BAĞIR XALXALİNİN TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Məhəmməd Bağır Xalxali Azərbaycanın Xalxal mahalının Qarabulaq kəndində anadan olmuşdur. O təxəllüsünü də doğma mahalından götürmüşdür. Xalxalinin ruhani ailəsində doğulmağına baxmayaraq gərgin ədəbi və elmi ədəbiyyata nüfuz etdiyindən dünyəvi adam kimi böyümüşdür. Cənubi Azərbaycan ədəbiyyatı antalogiyasının verdiyi məlumata görə Xalxalinin doğum və ölüm günü təxmini olduğundan onun 70 yaşında vəfat etdiyi güman edilir. Xalxali güney Azərbaycan şairləri içərisində özünə layiq yer tutan bir şairdir. Onun "Tülkünamə" və "Sələbiyyə" adlı əsəri xalq həyatına, xalq məişətinə yaxın olduğundan bu əsərlər güney Azərbaycanda böyük şöhrət qazanmışdır. Xalxalinin əsərləri bədii ifadə vasitələri ilə zəngin olduğu kimi, mütərəqqi pedaqoji fikirlərlə də zəngindir. Adətən Cənubi Azərbaycan şairləri İran istibdadına qarşı mübarizə apararkən şah rejiminin ağır zərbələrinə məruz qalmamaq üçün əsərlərinin əksəriyyətini alloqorik formada ifadə edərək demək istədikləri fikri əsas qəhrəmanları olan tülkü, xoruz, fil, canavar vasitəsi ilə ifadə etmişlər. Onlar bu heyvanların dili ilə həm ictimai siyasi hadisələri ifşa etmiş, həm də tərbiyə, maarif, məktəb məsələlərini inkişaf etdirməyin yollarını göstərməyə çalışmışlar. Məhəmməd Bağır Xalxali də bu yoldan istifadə edərək "Tülkünamə" əsərini "Dünya təzadları", "Tülkünün qeybdən səs eşitməsi", "Tülkünün anası ilə vidalaşması", "Tülkünün arvadı ilə vidalaşması", "Tülkünün arvadına cavabı" kimi sırf pedaqoji məsələlərə həsr etmiş, vətənpərvərlik, qadın tərbiyyəsi, anaya məhəbbət, uşaqların tərbiyəsində humanizm, ailə səadəti kimi çoxlu maraqlı motivlər vermişdir. Xalxali əsərinin "Dünya təzadları" bölməsində yaşadığı mənfur dövrün insanları varlı və kasıb, ali və alçaq, pullu və pulsuz, dərdli və dərdsiz, kök və arıq, əzilən və

söyülənlərə böldüyünü yazırdı. O, bu təzadları belə ifadə edirdi.

Birisinə müyəssər, nazu nemət,
Birisi ac, çəkər yüz min məzəmmət.
...Birisinin yağar dövlət başından
Birisi görməyib bir pul yaşından
...Biri nökər olub, birisi xan olubdur.
Biri tapın, biri sultan olubdur.
...Birisi ətlas tuman geymiş damaqlı,
Birinin bir tumanı var damaxlı.
...Birisi kök, deyirsən pərvərdir.
Birisi bir sümükdür bir dəridir[1].

Xalxali bu şerdə dünyanın doğru qurulmadığını yazarkən İranda insanların daha ağır məşəqqətlərə aclığa, ölümə məhkum olduqlarını vurğulayırdı. Belə bir təzadların içərisində yaşayan, çabalayan tülküyə geybdən bir səs gəlir. Xalxali yazırdı:

...Xülasə tülkü gördü yoxdu çarə.,
Tərəlzül düşdü ərkani - qərara.
Xəyal eylərdi öz dərdinə dərman,
Bu fikrə culğanıb qalmışdı heyran.
Ki, nagah qeybdən qovzandı bir səs,
Ki, "ey sərgəştəvü" məğmumu bir kəs,
Gərək ağıl olan qılsın təlaşın
Gərəkdir anlasın rahi maaşın.
Deyil, əlbəttə, babi-rizq məsdud
Oturmaqdan dəxi yox çarədi sud.
Gərəkdir səy edən ta vardı canın,
Yetişməz bir yerə ahu fəqanın[2]

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 90-91.
2 Yenə orada, səh. 91-92.

Xalxali insani mübariz olmağa çağırarkən həyatın təzadları qarşısında acizlik göstərməməyi, əllərini yanına salıb rahat günün gələcəyini gözləməməyi, çalışmağı, zəhmətə qatlaşmağı, səy göstərməyi lazım bilirdi. İnsan əmək zəhmət və səylə yaxşı məqbul güzərana çata bilər. Tülkü xoşbəxt həyata çatmaq üçün səfərə hazırlaşır. Səfərdən əvvəl anası ilə vidalaşmağa gedir. Xalxali əsərin tülkünün anası ilə vidalaşması bölməsində ananın necə müqəddəs varlıq olduğunu gənc nəslə başa salmaq üçün onun müqəddəsliyini göstərən aşağıdakı misralarda deyirdi:

Anasının düşüb öpdü ayağın,
Öpüb məmnun edib xidmət səyağın[1].

Xalxali Məhəmməd peyğəmbərin kəlamını misal gətirərək yazırdı ki, bizim istədiyimiz behişt bilin ki, anaların ayağı altındadır. Və o anaya olan məhəbbəti tülkünün dili ilə belə ifadə edirdi.

Ey ana, ey mehribanım,
Bükülmüş qamətin, qurbanı canım.
Halal eylə məni allah rizası,
Bu ağ birçəklərə canım fədası[2].

Ananı yüksək qiymətləndirən Xalxali yazırdı ki, bu analar gecə səhərə qədər körpəsindən ötəri əzab çəkib yuxusuz qalır, ağlayanda gözlərindən öpür, gecələr isti yatağından oyanıb onu yedizdirib. Danlamaq deyinmək əvəzinə körpəsinin gözlərindən öpdüyünü söyləyərək tülkünün anasını qiymətləndirdiyini belə ifadə edirdi:

Sənə xidmət edim vallah min il,
Əvəz bir gecəyə olmaz yəgin bil[3].

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 92.
2 Yenə orada, səh. 92.
3 Yenə orada, səh. 92.

Bu sözlərdən mütəəssir olan tülkünün anası oğlunun başını sinəsinə basaraq lənət bu çirkin dünyaya ki, səni məndən ayırdı. Əllərimi qoynumda qoydu. Tülkünün anası oğlunu yola salarkən ona belə nəsihət edir. Oğul səfərə gedirsən, evini, ailəni, ananı yaddan çıxartma. Gedib boş-boş gəzib dolanma. Səy göstər. Əlinə var dövlət gəlsə ona güvənib qürbətdə qalma. Səni xırda həclər şirnikdirməsin, yeyib-içib Vətənin İsfahanı unutma. Qürbətdə qalıb vətəndən əl çəkmə. Əgər sən Vətənin çayını, bulağını, meşəsini, onun əsrarəngiz gözəlliyini yad etsən və həmişə bu fikirlə yatsan heç vaxt qürbətdə qala bilməzsən. Ana deyir:

Qalıb qürbətdə əl çəkmə vətəndən,
Biyaban içrə yad eylə çəməndən.
Əgər olsan oğul, əhli-təfətdün,
Gecə gündüz Vətəndən yad edərsən[1].

Bu nəsihətləri eşidən tülkü daha sonra arvadı ilə vidalaşmağa gedir. Arvadı bilir ki, əri uzaq səfərə yollanır. O qüssələnir, ərinin başına dolanıb sən mənə çox yaxşı yoldaş olmusan. Sənin gedişindən qorxuram. Bizi unutma. Sən gələnə qədər gecə-gündüz qan yaş tökərəm deyir:

Mənə çün eyləyibsən yaxşı ərlik,
Dayan, altında yandırım üzərlik.
...Üzərlik yan üzərliksən həvasan,
Hezarın dərdə dərmansan, davasan,
Üzərlik yan, tütün ver, qan qovuşsun
Qada ondan bəla bundan sovuşsun[2].

Tülkü bu sözlərdən mütəəssir olub, arvadının gözlərindən öpüb ey dildarım inan mən səni heç bir kəsə dəyişə bilmərəm, deyir. Bir söylə görüm, o sərv boy, sünbülə bənzər ləçəklər, nərgizə oxşar gözlər kimdə var. Kim bu hüsnü camalla yarışa

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 92.
2 Yenə orada, səh. 93.

bilər. Mən səndən yerlə göy qədər razıyam. Xeyli müddət evdən aralı olsam da məni biganə salma, uşaqlara qayğı göstər. Əgər uşaqlar şıltaqlıq etsə deyinmə, açıqlanma, qurbamn olum. Onlara qarşı mərhəmətli ol deyərək Xalxalı yazırdı:

Məni, beş gün keçib biganə tutma,
Duadan mən pərişanı unutma.
Uşaqlar şıltaqlıq etsə çox deyinmə,
Acıqlanma, gözün qurbanı, dinmə!
Həmişə mərhəmət qıl ol pərəstar.
Yaman günlərdə yar ol yarü qəmxar[1].

Uşaqların tərbiyəsində humanizmi mehriban münasibəti yüksək qiymətləndirən Xalxali uşaqların vaxtı-vaxtında qidalanmasını da onların inkişafında əsas məsələ hesab edərək yazırdı:

...Odur, çün malü mülküm, ev eşiyim,
Gərək düşmüyə dürmək əlindən,
Gərəkdir çıxmaya, "acam" dilindən[2].

Xalxali gənclərə, xüsusəndə bukünkü gənclər üçün çox vacib olan ailə həyatını tənzim etməkdə evin bütün çətinliklərinə dözmək, qaynana, qaynata ilə yola getmək, evin sirlərini çöldə danışmamaq, valideynlərinin öz həyatına, ailə həyatma müdaxilə etməyə imkan verməmək, ac da olanda dərdini başqaları ilə bölüşməməyi lazım bilərək yazırdı:

Edəndə şamın azlıq, heç yeməzdin,
Qalıb ac, bir kəsə, dərdin deməzdin.
Soruşurdu anan ki, halətindən,
Deyərdin sən "Damağım çağ, keyfim saz",
Bihəmdullah yerim xoşdur günüm xoş.
Yedik yağlı plov indi, yerin boş"[3].

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 94.
2 Yenə orada, səh. 95.
3 Yenə orada, səh. 95.

Xalxali əsərin sonunda ailə məhəbbətini daha təsirli təsvir edərək göstərirdi ki, tülkü həyat yoldaşına vəd edirdi ki, əgər əlimə xaricdə pul düşsə inan ki, evi, ailəni, vətəni unutmayacağam. Uşaqlara sənə paltar, boyunbağı alacağam.

Alleqorik formada yazılmış Xalxalinin bu nəsihətənamiz parçaları bu günkü gənclərimizin ailə səadəti, ailə tərbiyyəsi üçün çox vacib olan məsələlərdir. Bu nəsihətənamiz parçaları oxuculara təqdim etmək və gənc nəslin tərbiyəsində istifadə etmək tərbiyyə işimizə olduqca böyük xeyir verə bilərdi.

## Məhəmməd Bağır Xalxalinin "Tülkünamə" əsərindən parçalar[1]

### Dünya təzadları

Bəli, heyrətdi bu çərxin qərarı,
Bilinməz işdi aləm kar-barı.
Birisinə müyəssər nazü nemət,
Birisi ac, çəkər yüz min məzəmmət.
Birisi çiyriyib yağlı pilovdan,
Birisi doymayıbdır nani-covdan.
Birisinin yağar dövlət başından,
Birisi görməyib bir pul yaşından.
Birisi başə qoymuş tacı şahi,
Birisi baş açıq, yoxdur külayı.
Biri nökər, birisi xan olubdur,
Biri tabın, biri sultan, olubdur.
Biri bir ləşkəri yalquzca qatlar,
Birinə "pıx" deyibsən, bağrı çatlar.
Biri daim çalar çəngü çəqanə.
Birisi ney kimi gəlmiş fəqanə.
Birinin ağzı gülməkdən yığışmaz,
Birisi dərdü möhnətdən göz açmaz.
Biri ətləs tuman geymiş, damaxlı,

1 Cənubi Azərbaycan ədəbiyyatının antalogiyası. Bakı, 1981, c. I, səh. 90-95.

Birinin bir tumanı var, yamaxlı.
Birinin mənzili qəsrükkəramə,
Biri həsrət qalıb bir hisli damə.
Birisi, bir tikə qəndə tamarzı,
Çay içməkdə biri qoymubdur arzı.
Birinin gözləri qarə, qələmqaş,
Yazıb, guya, qələmlə dəsti-nəqqaş.
Biri boynu qısıq, göy göz, əlavə,
Dodağı vərdənə, ağzı kəlavə.
Birinin ağzı püstə, zülfü dəstə,
Birinə vur təpik, sal abdəstə.
Biri salmış üzünə dəstə birçək,
Birinin kəlləsinə sal tüpürcək.
Biri dildarını çəkmiş qucağə,
Birisi odlanıb nari-fərağə.
Birisi kök, deyirsən pərvəridir.
Birisi bir sümükdür, bir dəridir.
Birisinin sözü mat etmiş əqli,
Biri yazmış mənim tək Tülkü nəqli.

## Tülkünün qeybidən səs eşitməsi

...Xülasə tülkü gördü yoxdu çarə,
Təzəlzül düşdü ərkani-qərara.
Baxıb gördü ürək durmaz pırıllar,
Bağırsaqlar acından hey qırılır.
Qoyb başın diz üstə, oldu xamuş,
Nigari-fikrilən oldu həmağuş.
Qüyudi-nəfsə çəkdi xətti-bütlan,
Təcərrüd ərsəsində qıldı cövlan.
Kəmiti-fikrə çaldı taziyanə,
Gəzib dövri-cahanı xanə-xanə.
Xəyal eylərdi öz dərdinə dərman,
Bu fikrə culqanıb qalmışdı heyran.
Ki, nagah qeybdən qovzandı bir səs,

Ki, "ey sərgəştəvü məğmumü bikəs,
Gərək aqil olan qılsın təlaşın,
Gərəkdir anlasın rahi-maaşın.
Deyil, əlbəttə, babi-ruzq məsdud,
Oturmaqdan dəxi yox çarəvü sud.
Gərəkdir səy edən ta vardı canın,
Yetişməz bir yerə ahü fəqağanın.
Fəramuş etmə "illa masəanı",
Vəgəmə ağlına yazdır duanı.
Təlaş eylə dolansın kar-barın
Olub kasib həbibi kirdigarın".

## Tülkünün anası ilə vidalaşması

Anasının düşüb öpdü ayağın,
Öpüb, məmul edib xidmət səyağın.
Buyurmuş Mustafa fəxri-əazim,
Bu məzmunu ki, nəzm eylibdi nazim:
"Behişti ku rizaye-ma dər anəst,
Yəqin dan zire-paye-madəranəst".
Deyərdi: "Ey ana, ey mehribanım,
Bükülmüş qaimətin qurbanı canım.
Halal eylə məni allah rizası,
Bu ağ birçəklərə canım fədası.
Gecələr sübhədək çəkdin ayazı,
Haram etdin gözünə xabi-nazı.
Nə zəhmətlər məni çəkdin, böyütdün,
Çəkib xunabələr bu həddə gətdin.
Gözümdən, ağlayan vaxtda öpərdin,
Durardın atzıma əmcək təpərdin.
Deyərdin: "Ey gözüm nuru acıxdın?"
Deməzdin "Boynu sınmış, indi tıxdın".
Baxanlar surətimdən iyrənirdi,
Bu kirli əllərimdən çiyrənirdi.
Bu cür, boynuma qolların salardın,

Tutub başdan-başa duz tək yalardın.
Sənə xidmət edim vallahı min il,
Əvəz bir gecəyə olmaz, yəgin bil.
Bədəndə hər nə tük var, gər dil olsun,
Deyil mümkün ki, şükrün hasil olsun",
Anası basdı başın sinəsinə,
Dedi: "Lənət bu çərxin kinəsinə.
Səni mən binəvadan ayrı saldı,
Oğul get, əllərim qoynumda qaldı.
Südüm, haqqım, oğul, olsun həlalın,
Mənə görsətməsin allah, məlalın,
Fərağın çox yıxar bikəs ananı,
Məsəldi: "Qorğanın çatdar yananı".
Bəbəm, get bizləri yaddan çıxartma,
Gedib bica yerə çöllərdə yatma.
Əlinə hər nə düşsə, tez qayıt gəl,
Əyalın acdır, olma çox məəttəl.
Gedib qürbətdə qalma, cani-madər,
Yeyib kütlər, əzizim, salmaləngər.
Gedib kəndə, unutma İsfahanı,
Tapıb bir dehgədə, atma cahanı.
Qalıb qürbətdə əl çəkmə vətəndən,
Biyaban icrə yad eylə çəməndən.
Əgər olsan, oğul, əhli-təfəttün,
Gedib qürbətdə qılmazsan təvəttün,
Gecə-gündüz vətəndən yad edərsən,
Həmişə ney kimi fəryad edərsən".

## Tülkünün arvadı ilə vidalaşması

Xülasə, tülkünün bikəs əyalı,
Bu qəmli qissələrdən oldu hali,
Müsibət atəşinə düşdü yandı,
Yetişdi, başına bircə dolandı,

Əlindən, gah əyağından öpərdi,
Dalınca gözlərindən su səpərdi.
Deyərdi: "Ey mənim avarə yarım,
Amandı, ey mənim biçarə yarım,
Vüsal əyyamı tək qaçma amandır,
Şəbi-hicran kimi bircə dayan, dur!
Fərağın dərdinə billah dözməm,
Özümdən əl üzüb, səndən əl üzməm.
Gözüm nuru, məni salma fərağə,
Amandır getmə sən gözdən qırağə!
Cahanda bir-birindən doymadıq biz,
Doyunca yastığa baş qoymadıq biz.
Kaman tək, qamətim qəmdən xəm etmə,
Nəsibimi mənim dərdü qəm etmə!
Sürünnəm, tifil gələm dalınca,
Əl üzməm lamənindən ta ölüncə,
İki göz yaşı azdır, istərəm kaş,
Bulud kimi hamı yerdən tökəm yaş.
Tükəndi taqətim, gəl tut əlimdən,
Xəbərdar olgilən dərdi-dilimdən.
Ürək od tutdu, ey ümmidigahım,
İnanmırsan, nədir? Bu dudi-ahım.
Güzarın çün düşər hər rəhgüzərdən,
Sənə çox qorxaram mən, bədnəzərdən.
Mənə çün eyləyibsən yaxşı ərlik,
Dayan, altında yandırım üzərlik."...
Üzərlik yandırıb, göz-göz edərdi,
Töküb göz yaşını hərdəm deyərdi:
"Üzərlik yan, üzərliksən həvasən,
Hezaran dərdə dərmansan, dəvasən,
Üzərlik yan, tütün ver, qan qovuşsun
Qada ondan, bəla bundan sovuşsun".

**Tülkünün arvadına cavabı**

Yanıb tülkü əyalının sözündən,
Salıb qol boynuna öpdü gözündən.
Dedi: "Ağlar gözün qurbanı gəlmə,
O didarın bəla gərdam gəlmə!
Sənə, billah, yaraşır olsam aşıq,
Bu növ ilə ki, var səndə yaraşıq.
Deyil qəddin misalı-sərvü şümşad,
Görən zülfünü, sünbül eyləməz yad.
Hanı şümşadda bu hüsni-rəftar?
Hanı sünbüldə yüz min dil-giriftar?
Üzün tək, gər desəm, gül dərdi gülçin,
O çin-çin zülfə and olsun, deyil çin.
Edən ol qəddi-mövzuna tamaşa,
Dəxi sərvə baxar? Kəllə və haşa.
GÖzün oxşatmaram nərgiz gözünə,
Ki, nərgiz beylə göz görmüb özünə.
Bu sözdə şahidimdir həyyi-zülmən,
Pərişan zülflərini al əl üstə,
Dua eylə məni ey pərşikəstə.
Məni, beş gün keçib biganə tutma,
Duadan mən pərişanı unutma.
Uşaqlar şıltaq etsə çox deyinmə,
Açıqlanma, gözün qurbanı, dinmə!
Həmişə mərhəmət qıl, ol pərəstar,
Yaman günlərdə yar ol, yari-qəmxar.
Xüsusən burnu fırtıqlı babəmdən,
Ki, artıq istərəm onu dədəmdən.
Bu oğlan çün mənimdir son beşiyim,
Odur, çün malü mülküm, ev-eşiyim,
Gərəkdir düşməyə dürmək əlimdən,
Gərəkdir çıxmaya, "acam" dilindən.
Dədəm qurban xüdük çəkmə amandır,
Qalıb yalqız, xüdük çəkmək yamandır.

Səni allaha and verrəm qayıt, get,
Mənə bu getməyi ölmək xəyal et!
Mənim dövrümdə heç gün görmədin sən,
Evimdə bircə dövran sürmədin sən.
Qalırdın ac, gətirməzdin üzümə,
Söyərdim hər nə; qalmazdın sözümə.
Nə möhnət çəkmisən baldız əlindən?
Dözərdin, bircə çıxmazdı dilindən,
Atamdan, həm anamdan çox söyüldün,
Söyülmək səhldir, artıq, döyüldün.
Qara günlər görüb, heç qaçmadın sən,
Eşikdə eyibimizi açmadın sən.
Qolun kossov edib, saçın-süpürgə,
Yığardın burdan-ordan dərgə-dürgə.
Qalırdın neçə gün çılpaq, bürəhnə,
Ələ düşməzdi nə tazə, nə köhnə.
Edəndə şamın azlıq heç yeməzdin,
Qalıb ac bir kəsə, dərdin deməzdin.
Soruşurdu anan ki, halətindən,
Deyərdi? "Ver xəbər keyfiyyətindən.
Qızım, gizlətmə dərdin, eylə ibraz".
Deyərdin sən: "Damağım çağ, kefim saz,
Bihəmdullah yerim xoşdur, günüm xoş,
Yedik yağlı plov indi, yerin boş".
Bağışlansın nənən məhşər günündə,
Dədən cənnətdə yatsın süd gölündə.
Əlimə pul əgər qürbətdə sallam,
Sənə bir yolbayol çit dizlik allam.
Gətirrəm, ölməsəm gəlsəm əyər sağ,
Sənə göz müncüğündan bir boyunba…

# MƏHƏMMƏD HÜSEYN ŞƏHRİYARIN PEDAQOJİ GÖRÜŞLƏRİ

## Məhəmməd Hüseyn Şəhriyarın həyatı



Məhəmməd Hüseyn Şəhriyar 1905-ci ildə Təbrizdə anadan olmuşdur. Özünün yazdığına görə atası ağır təbiətli, ancaq xoşxasiyətli, qonaqpərvər bir şəxs olmuşdur. O, şer deməyi, musiqi dinləməyi çox sevərmiş. Şəhriyar yazırdı: "Atam həmişə kasıblar tərəfində olar və haqq işini müdafiə etməkdən heç vaxt çəkinməzdi. Ona görədə o, xalq içərisində böyük hörmət və ehtirama layiq olmuşdur.

Mənim atam süfrəli bir kişiydi,<br>El əlindən tutmaq onun işiydi[1].

Şəhriyar yazıb oxumağı savadlı olan atasından almış və daha sonra təhsilini onun həyatında böyük iz buraxmış müəllimi Molla İbrahimlə davam etdirmişdir. Şəhriyarın atası oğluna ancaq "Quranı Kərimi" və "Gülüstanı" oxumağı öyrədə bilmişdi. Molla İbrahim isə Şəhriyarı elmin müxtəlif tərəfləri ilə tanış etməkdən əlavə onda mütaliyə, şerə, ümumiyyətlə ədəbiyyata böyük həvəs oyada bilmişdir. Şəhriyar Nəbati, Şükuhi, Ləli, Nizami, Rumi, Xəyyam, Hafiz, Sədi, Şəms Təbrizi, Saib Təbrizinin əsərlərini ciddi mütaliə edir və sonralar M.Ə.Sabirin əsərləri, Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalı ilə yaxından tanış olur. Molla İbrahim

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 40.

Şəhriyardan ötəri təkcə müəllim deyil, həm də ona xüsusi atalıq qayğısı göstərən tərbiyəçi olmuşdur. Ona görə də Şəhriyar bu gözəl, humanist, qaygıkeş, səmimi, mütərəqqi müəllimi ömrünün sonuna kimi yaddan çıxara bilməmişdir. Müəllimini minnətdarlıq hissi ilə yad edən Şəhriyar "Heydərbabaya salam" poemasında yazırdı:

Məktəb qalır, uşaqlar dərs alırlar,
Hey yazırlar, hey pozurlar, yapırlar
Molla İbrahim özü, evi qalırlar....

Bir vaxtında bu məktəb pərvar idi,
Bir Müseyib bir Məmmədhəsən var idı,
Biri xəlifə, bir vərzimkar (idmançı) idi,
Axund bizlə oynamağa gedərdi,
Özü bizə oynamaq öyrədərdi.

Şəhriyar müəllimlərinin dərin biliyə sahib olduğunu yazarkən, onların uşaqlarla ünsiyyət bağlaya bilmələrini, uşaqların əqli və fiziki tərbiyəsi ilə məşğul olduqlarını yazaraq oxuduğu məktəbin necə Şəhriyar və onun kimi uşaqlara azadlıq, mənəvi həzz, əzmlə oxumaq meyli yaratdığını və uşaqların uşaqlığınm dolğun, mənalı keçməsinə şərait yaratdığını yazırdı:

Bu məktəbdə şerin şəhdin dadmışam,
Axundun ağzından qapıb udmuşam.
Gahda bir axundu aldatmışam,
Başım ağrır, - deyib, qaçıb getmişəm.

Şəhriyarın uşaqlığı təmiz bulaqlar, al yaşıl meşələr, tərlan və turacların qaqqıllaşdığı Qaraçəmən, Xoşginab mahalında keçib. Yaşamış olduğu bu əsrarəngiz təbiət, bu ilahi gözəllik Şəhriyarın uşaqlıq yaddaşında ömürlük həkk olunmuş və sonralar bu həyat "Heydərbabaya salam" poemasında şerə çevrilmişdir.

Şəhriyar orta təhsilini Təbrizdə "Fyüzat" mədrəsəsində aldıqdan sonra 1924-cü ildə Tehrana gedir və orada tibb

fakültəsinə daxil olur. Tehran mühiti şairin həyatında böyk rol oynayır. O 20 yaşında özünün ilk "Şəhriyarın qəzəli"ni yazır. Bu qəzəllə Şəhriyar qeyri adi istedada malik şair olduğunu biruzə verir. Bu qəzəli oxuyan şair Mirzə İrəc yazır ki "Sən bizlərdən deyilsən, sən Hafiz cərgəsindənsən". Bir şair kimi formalaşmağa başlayan Məhəmməd Hüseyn Şəhriyar Şəhyar adlı bir şairlə dostluq edir. Bu şairdən Məmməd Hüseyn çalğı aləti olan setarda çalmağı və şer sənətinin sirlərini öyrənir. Dostuna böyük hörmət və ehtiram əlaməti kimi Məmməd Hüseyn onun şərəfinə Şəhriyar ləqəbini götürür. Şəhriyarın ləyaqətli tədqiqatçısı Esmira Şükürova bu ləqəbi qəbul etməsinin ikinci ehtimalını Hafizin divanındakı misralardan götürdüyünü güman etmək olar deyir[1].

Çərxi fələk sikkəni Şəhriyarın adına döydürdü
Məndə öz şəhərimə gedib, öz Şəhriyarım olmalıyam[2].

Şəhriyar tibb fakültəsini qurtardıqdan sonra diplomunu almadan institutu tərk edir. Bu həssas, incə qəlbə malik olan Şəhriyar tezliklə başa düşür ki, insan əzablarına dözə bilmir, xəstələnmiş, cərrahiyə əməliyyatı keçirmiş ağır xəstələr gördükdə onun halı pozulur. Həkimlikdən əl çəkib Xorasanda və sonralar Tehranda kənd təsərrüfatı bankında hesabdar işləyir. Lakin bu iş ona mənəvi zövq vermədiyi üçün o başqa yol tutur. İctimai siyasi həyata atılır. O sadə xalqla daha yaxından təmasda olduqca mövcud quruluşa qarşı nifrəti artırdı, özünün, eləcə də xalqın, düşmüş olduğu bəlalardan çıxması üçün fəaliyyətini İran istibdadına qarşı yönəltməyə başlayır. O, bu qarışıq dövrü sonralar "Heydərbabaya salam" poemasında belə ifadə edirdi.

Mən sənintək dağa saldım nəfəsi,
Sən də qeytər, göylərə sal bu səsi,

---

1 Esmira Şükürova. Məhəmmədhüseyn Şəhriyar. Bakı, 1998.
2 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 22.

Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır
Mürivətsiz insanları çağırır.

Şəhriyar hələ institutda oxuyarkən ictimai bərabərsizliklə qarşılaşır. Deyilənə görə onun aşıq olduğu Sürəyya adlı bir qızı şahın qohumlarından biri sevdiyi üçün Şəhriyarı həbs edib öldürmək istəyirlər. Sonradan ölüm cəzasım Tehrandan çıxıb getməsi ilə əvəz edirlər. O sürgündə olarkən atası vəfat edir. Ancaq ona dəfn mərasimində iştirak etməyə icazə vermirlər. Kənd təsərrüfatı bankından çıxdıqdan sonra ictimai siyasi məsələlərlə yanaşı "Ədəb", "Ərməğan" kimi jurnallarda şerlər çap etdirir. O bir şair kimi artıq formalaşır və ədəbi mühit içərisində özünə layiq yer tutur.

Əsrin əvvəlində Cənubi Azərbaycanda gedən məşrutə, 1917-20-ci il inqilabları və Təbriz üsyanları İranda yaşayan azərbaycanlıların milli şüurunun oyanmasında, azərbaycanlıların mütəşəkkil mübarizə aparan bir xalq kimi formalaşmasında böyük rol oynadı. Bu inqilablar yatmış xalqı oyatdı. Onlarda vətənpərvərlik hissinin baş qaldırmasına kömək etdi. Bu dövrdə yaranan ədəbiyyat daha çox tərbiyə məsələlərinə həsr edildi. Azərbaycan ziyalılarının əsas mövzusu əxlaq, mənəvi saflıq, doğruçul, əqidəsində möhkəmlik, xalq işi üçün fəda olmağı bacarmaq oldu. Elə bu dövrdə Şəhriyar odlu qələmini istibdada, zülmə, haqsızlığa qarşı yönəldərək yazdı:

Kəndli yazıq çıraq tapmır yandıra
Görüm sizin vərgüz qalsın andıra

Şəhriyarın istibdada, zülmə, mövcud quruluşun yaramazlıqlarına qarşı olan bu kin və nifrəti onda mübarizə əzmini daha da qüvvətli formalaşdırdı və o, bu mübarizəni ömrünün sonuna kimi apararaq, sonralar özünün "Heydərbabaya salam" şerində belə ifadə etmişdir:

Heydər baba şeytan bizi azdırıb,
Məhəbbəti ürəklərdən qazdırıb,
Qara günün serpavitin (tale) yazdırıb,
Salıb xalqı bir-birinin canına
Barışığı birləşdirib qanına[1].

Qeyd etmək lazımdır ki, Şəhriyarın 1930-1943-cü illər arasında həyatı ağır, təlatümlü, böhranlı keçmişdir. O, bu illəri "Necə keçdi ömrün" şerində belə ifadə edirdi:

Bir üşaqlıqda xoş oldum, o da yer göy qaçaraq,
Quş kimi dağlar uçub, yol kimi bağlar keçdi.

Sonra birdən qatar altında qalıb, üstümdən
Deyə bilməm nə qədər sel kimi dağlar keçdi.

Ürəyimdən xəbər alsan necə keçdi ömrüm,
Göz yaşımla yazacaq: mən günüm ağlar keçdi.

Şəhriyarın belə ağır həyatı, dostlarını itirməsi, atasının vəfatı, Vətəndən ayrı düşməsi, ilk uğursuz məhəbbəti onu ruhi xəstəliyə düçar edib, böhranlı həyata atır. Bu zaman o, dostlarından, musiqi və şerdən uzaqlaşaraq mistikaya qapılır, ruh axtaranlar, dərvişlər cəmiyyətinə, zəhəbiyyə təriqətinə daxil olaraq tərkidünyalığa gedir. Ruhi xəstəlik içərisində çırpınan Şəhriyara məlhəm anası Kövkəm xanım olur. Onun laylası, uşaqlıqdan başlamış Şəhriyarın yaşlılığına qədər onu əhatə edən mühitdəki adamlar haqqında körpə uşaga nağıl danışan kimi Şəhriyarın yadına salması, oğluna yüksək nəvaziş və məhəbbət göstərməsi Şəhriyarı yavaş-yavaş ayıldır və onu həyata-şerə qaytarır. Sonralar Şəhriyar anasının ölümünə həsr etdiyi "Ey vay anam" şerində anasının əzablarını və ona olan məhəbbətini belə ifadə edirdi.

Oxuduğu o gözəl, həzin, doğma nəğmələr,
Qəlb oxşayan nağıllar,

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 9.

Ürək açan kəlamlar
Bəlkə də olan zaman hopub ruhuma mənim
Laylalarla köklənib, əsəblərim, bədənim,
Bəzən də göz yaşıyla qəlbimə su səpərdi,
Qayğıyla, nəvazişlə verib mənə bu dərdi
Varlığımda elə bil ildırım çaxıb mənim.
O ilhamla yoğrulub mənim sevgi aləmim
... Beş il dinclik bilmədən
Xəstəsinin başına dolandı pərvanə tək
Şəfqət bacısı oldu göz yaşları tökərək[1].

Xəstəlikdən qalxdıqdan sonra Şəhriyarda yenidən vətənpərvərlik duyğuları baş qaldırır. Onda vahid Azərbaycan ideyası formalaşır. O, azərbaycanlıların iran dövləti üçün əvəzsiz xidmət göstərdiyini və onun əvəzində ondan, təhqir, zülm, əzab aldıqlarını yazırdı.

İgidlərin İran üçün şəhid olub əvəzində
Dərd almısan, qəm almısan sən irandan Azərbaycan[2].

Şəhriyar "Əziz Azərbaycanıma xitab" şerində bir az da irəli gedərək xalqı mübarizə aparmağa, inqilab edib bağlanmış qandallardan azad olmağa, çağıraraq, Azərbaycanın məziyyətlərini, onun gözəlliyini vəsf edib onun qiymətli, ləkəsiz, saf, billur, inci olduğunu, meşələrinin, çöllərinin gəlin otağına oxşadığını, Kür, araz kimi qiymətli çayları olduğunu, dünya tacirlərinin alış-veriş etdiyi gözəl bazarlarını, çiçəkli, güllü, saysız çöllərini, meşələri dolu olan turaclarını, tarixə zəhmət dayağı ilə yaraşıq olduğunu yazırdı. Şəhriyar azərbaycanın bu məziyyətlərini göstərərkən yazırdı ki, belə ölkə kölə ola bilməz. O, qollarına bağlanmış zəncirləri qırıb azad olmahdır. Şəhriyar yazırdı:

Fədakarlıq günüdür qalx, anam Azərbaycan!
Əbədiyyat beşiyi, ölümsüz bir cahansan,

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 384.
2 Yenə orada, səh. 145.

Ey min-min bəlalara sinə gərib, mərd duran,
Ey düşmənlər önündə qaya kimi sərt duran.
Ömrünü, taleyini bəxş edən tufanlara,
Ey məhəbbət, ey ülfət məskəni məğrur Vətən!
Gözü yolda, yaralı, həsrət anam da sənsən.
Qolumun zəncirləri nə vaxt paraçalanacaq.
Həsrətinlə çırpınan körpə uşağam, uşaq!
Yuvası yetim qalan bir qanadsız quşam mən,
İsti ana köksünü arzularam ürəkdən[1].

Şəhriyar yazırdıki, Azərbaycan o qədər başı bəlalı olub ki, hər yerdə azadlıq meyilləri yayıldığı bir vaxtda, bir sıra ölkələr azad olduğu halda İran yenə də Azərbaycanı kölə halına salmışdır.

Azadlıq müəndəsini alır hər yer, hər məkan,
Qorudun bir ər kimi iran istiqlalını,
Səninlə düşmən kimi dolandı dostlar belə[2].

1945-ci ildə ikinci dünya müharibəsinin başlanması ilə əlaqədar bir çox avropa və şərq ölkələri hərəkətə gəldi. Totalitar rejimlər zəiflədi və xalq arasında azadlıq meyilləri geniş vüsət aldı. İranda da bu proses baş verdi. İran şahı 25 milyonluq Azərbaycanın azadlıq meyillərinin qarşısını ala bilmədi, xalq küçələrə çıxdı. Azərbaycan ziyalıları və şairlərindən M.Ə.Möcüz, H.Sahir, Mehti Çavuş, Y.Şeyda, M.Biriya, F.Məhzun və digərləri ictimai fikrin inkişafına ciddi təsir göstərdilər. Onlar özlərinin məqalə və şerləri ilə azadlıq uğrunda təbliğatını daha da gücləndirdilər. Adamlar Səttarxan hərəkatını əllərində bayraq etdilər, xalqda soy kökünə qayıtmaq, milli və bəşəri dəyərlərə, mənəvi sərvətlərə sahib olmaq arzusu gücləndi. Belə bir faktı demək kifayətdir ki, bu təlatümlü günlərdə Səttarxan haqqında yüksək səviyyəli əsər yazmaq üçün elan verildi. Müsabiqəyə 60 yaxın əsər göndərildi. Nəhayət Cənubi Azərbay-

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 389.
2 Yenə orada, səh. 389.

candakı üsyan qələbə ilə qurtardı. 1945-ci ildə S.C.Pişəvarinin yaratdığı milli hökumətin qərarı ilə Təbrizdə azərbaycan hökuməti yarandı. İctimai həyatdan, xalq azadlıq hərəkatından geridə qalmayan Şəhriyar İnqilabın Mərkəzi Təbrizi onun qəhrəman oğulları Səttərxan və Xiyabani mübarizəsini belə vəsf etdi:

Bu həmən Təbrizdi ki, inqilablar zamanı
Dünyaya bəxş eyləmiş ölməz, mərd Səttərxanı,
Bu həmən Təbrizdi ki, içmiş ürək qanını,
Tarixə bəxş eyləmiş igid Xiyabanini
Vətən eşqi yolunda imtahan vermişdir o,
Bu cahanın özünə bir cahan vermişdir o.

Belə bir milli dirçəliş zamanı fars dilində çoxlu əsərlər yazan Şəhriyar, İranda azərbaycan dilinin təqib olunduğuna qarşı çıxaraq, Azərbaycan dilinin məlahətini, əsil gözəlliyini göstərən "Heydərbabaya salam" poemasını yazdı. Cənubi Azərbaycanın fars dilində yazan digər Azərbaycanlı şairləri də Şəhriyarın bu poemasından ruhlanaraq ana dilində yazmağa başladılar. Şəhriyarın bu poeması haqqında türk şairi Əhməd Ataş yazırdı: "İkinci dünya müharibəsindən sonra ümumitürk aləmində belə bir əsər yazılmamışdır"[2]. Şəhriyar "Türk dili" şerində yazırdı:

Türkün dili tək sevkili ehsası dil olmaz.
Ayrı dilə qatsan bu əsl dil əsil olmaz.

1945-ci ildə ikinci dünya müharibəsinin insanlığa gətirdiyi bəlaları, insanlığı məhv etmək üçün yaradılan atom bombasının dəhşətini duyan Şəhriyar "Eynşteynə peyğəm", "Stalinqrad qəhrəmanları" kimi samballı poemalarını yazıb insanları dünyam, onun gözəlliyi qorumağa çağırır.

Şəhriyar uzun sürən ayrılıqdan sonra Əzizə adlı gənc bir qızla ailə həyatı qurur, övladları Şəhrizad, Məryam, Hadinin həyata gəlməsindən sevinir. Lakin bu sevinc, xoşbəxtlik uzun sürmür. O, üç uşaqla tənha qalır və Əzizəyə həsr etdiyi şerində yazır:

Əzizim doymadım səndən,
Nə tez doyub məndən getdin.
Əcəl gələcək bu qürbətdə,
Məni yalqız qoyub getdin.

Bu kədər, bu niskinlik Şəhriyara son dərəcə ağır təsir etsə də, onda həyat eşqi, xalq məhəbbəti sönmür. Şəhriyar 1979-cu ildə "Zaman səsi" şerində yeni dövrün başlanacağına, yeni inqilabın baş verəcəyinə böyük inam bəsləyir.

Bunun ardınca cənubi azərbaycanlılarda milli mənlik şüuru oyadan "Dərya elədim", "İnsu can", "Oyun olduq", "Hara qaçsın insan", "Məlul yazıq neyləsin" kimi şerlərini yazır. Nəhayət onun arzuladığı yeni islam inqilabı baş verir. O, bu inqilabdan çox şey - demokratiya, milli muxtariyyat, yeni həyat tərzi, çadranın aradan qaldırılması kimi məsələlərin baş verəcəyini gözləyirdi. Lakin, bu hadisələrin baş vermədiyini görüb, ümudlərinin puça çıxdığını göstərən "Qəm basdı qəlyanımı", "Alnımın yazısı", "Rütəb verib təzək aldıq" kimi şerlərini yazdı.

Ömrünün sonuna kimi milli mənliyini itirməyən, ağır, məşəqqətli həyat keçirmiş, polad iradəli bu dağ Qartalı müstəqilliyin əldə olunmamasından, Azərbaycanm fars pəncəsindən qopacağı ideyasının puç olmasından mənəvi əzab və iztirab keçirdiyindən 1988-ci il 18 sentyabrda ürək xəstəliyindən vəfat edir. Öz arzusuna görə "Şairlər qəbristanlığında" dəfn olunur.

## Məhəmməd Hüseyn Şəhriyarın dünyagörüşü

Filoloji elmlər doktour Şükürova Esmira Şəhriyarın zəngin yaradıcılığım 4 dövrə bölür. Bu dövrlərin hər biri Şəhriyarın dünyagörüşünün formalaşmasında müstəsna rol oynamışdır. Onun birinci dövrü 1905-ci ildən 1930-cu illər arasında olmuşdur. Şəhriyar formalaşdığı bir dövrdə, yaşının 25 sayında bir sıra İran hökümətinin mürtəce siyasətinə qarşı xalq üsyanı, şəhər və kəndlərin hədsiz yoxsullaşması, fəhlə sinfinin

yaranması, xırda sənətkarlar, tacirlər, ziyalılar və milli burjuaziyanın baş qaldırması kimi siyasi hadisələrlə qarşılaşdı. 1920-ci il aprelin 6-da Təbrizdə üsyan oldu. Bu ysyana Şeyx Məhəmməd Xiyabani başçılıq etdi. Üsyançılar dövlət idarələrini tutdular. Şəhərlərdə hakimiyyət üsyançıların əlinə keçdi. 1920-ci il iyunun 22-də yaranan milli hökumət maarif, iqtisadiyyat, səhiyyə və s. kimi bir çox sahələrdə islahat aparmağa başladı. Bu inqilabın əsas vəzifəsi ölkədə ingilislərin ağalığına son qoymaq və şah hökümətini devirməkdən ibarət idi. Xiyabani hərəkatı İran daxilində cənubi Azərbaycana, muxtariyyət vermək tələbi ilə çıxış etmişdi. Lakin, şah hökümətı inlgilislərin köməyi ilə üsyanı yatırdı və üsyançılara divan tutdu. İngilislərin milli hərəkata qarşı xəyanətini Şəhriyar belə vəsf edirdi:

Qanlı dırnaqlarilən ingilis əl qatdı bizə
Baxısan rus da Arazdan keçir İran apara.

Bu üsyanın yatırılmasına, məğlubiyyətinə baxmayaraq İranda şah silahından da güclü olan xalqın milli şüuru, azadlıq uğrunda mübarizə əzmi yarandı. Xalq içərisində, ziyalı və şairlərin əsər və şerlərində Xiyabani milli qəhrəman kimi vəsf olunmağa başladı. Siyasi hadisələrin bu məcrası Şəhşriyarın milli azadlıq carçısı, vətənpərvər kimi dünya görüşünün formalaşmasında müəyyən iz buraxdı. O, şair, yazıçı və ziyalıları azadlıq hərəkatında fəal iştirak etməyə çağırdı:

Vətən məhəbbətinə hər fəda olan yazıçı,
O vaxt qoşulmalıdır ölkə pəhlivanlarına.

Şəhriyar xalqa azadlıq gətirəcək inqilabı böyük ruh yüksəkliyi ilə qarşıladı. O, belə düşündü ki, bu inqilab xalqı rəzalət, aclıq, yoxsulluqdan qurtaracaq, xalqa işıq gətirəcək, xalq arasında maarifi yayacaq Şəhriyar yazırdı:

Qoy bu inqilab sel kimi axsın,
Göy guruldasın, ildırım çaxsın,

Məzlumun ahı qoy alov çəkib,
Zülmü rişədən yandırıb yaxsın,
Allah süfrəsi açıq olarmı?
Bir iddə yesin, bir iddə baxsın[1].

Şəhriyarın yaradıcılığının 2-ci dövrü çox mürəkkəb, təlatümlü bir vaxta rast gəldiyi üçün onun dünyagörüşü də ziddiyyətli olmuşdur. Bu dövrün ilk illərində onun şerlər kitabı olan "Divan"ı çap olunmuş və o, İran ictimaiyyəti içərisində mütərəqqi bir şair kimi tanınmağa başlamışdır. Onun şerləri içərisində Vətənpərvərliklə yanaşı sevgi, məhəbbət mövzuları da əsas yer tutmuşdur. Lakin bu məhəbbət aşiq-məşuq münasibətləri olmayıb, yüksək mənəvi aləm, təmiz, saf, səmimi insani münasibətlər, nümunəvi ünsiyyət vasitəsidir. Bu dövrdə o müəyyən dərəcədə mistikaya qapılsa da yazdığı şerlərindəki, şəxsi uğursuzluğu ilə ictimai məhrumiyyətlər arasında uyğunluq axtarıb tapmağa çalışır.

O, yaşadığı, fəaliyyət göstərdiyi cəmiyyətdə, mühitdə gənc nəslin dözülməz həyatını ürək ağrısı ilə sezir və ümumxalq faciəsinin müqəssirlərini axtarıb tapır və onları şerləri ilə kəskin tənqid edirdi. Şəhriyar sürgün illərindən sonra 1938-ci ildə Təbrizə qayıdır. Vətənə gec qayıtdığından da təssüflənirdi. O, Təbrizi, doğma yerlərini insana can verən ilahi cənnət adlandırır. Vətəninin havasını udmaqdan həzz aldığını və quş kimi qanadlandığını yazırdı.

Yenə qanadlanıram mən vətən havası ilə,
Necə qanadlanar hər quş bahar yuvası ilə

Vətən sarı yeriyən dağı oyadır
O şad xəbər gətirən zənglərin sədası ilə,

O doğma yurda yetişsəm, ürək də hiss edəcək
Ax xütən qoxuyur yurdumun havası ilə[2].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 101.
2 Yenə orada, səh. 158.

Şəhriyar farsların onu qiymətləndirə bilmədiyini, onu bir şair, mütəfəkkir kimi saxlaya bilmədiyindən təəssüflənib yazırıdı:

Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa
Qaçmışam Təbrizə, qoy yaxşı yaman bəllənsin.

Şəhriyarın həyatının ikinci dövrünün sonrakı illərində onun dünya görüşündə təkamül müşahidə olunur. O, artıq təkcə Vətəni Azərbaycanın və bütövlükdə İranın ictimai-siyasi, iqtisadi vəziyyətini deyil, Ümumbəşəri problemləri, dünyanın taleyini düşünməyə başlayır. Bu dövrdə Şəhriyarın dünyagörüşünü səciyyələndirən xüsusiyyətlər humanizm və beynəlmiləlçilik olur. Şəhriyar dünyada gedən proseslərə müdaxilə edərkən, əmələ gəlmiş olan zülm və zülmkarlığa qarşı özünün haqq səsinin qaldırır. O, "Stalinqrad", "Eynşteynə peyğəm" poemalarında yazırdı ki, 2-ci dünya ınüharibəsi Rusiya ilə Almaniyanın vuruşması deyil, bu işıqla qaranlığın "Ahiraməzad" ilə "Əhrimanın" vuruşmasıdır.

Kişnəyib bir ləhzə göylər, verdi fərman cəhad
Rus ilə German deyil, ey qəhrəmanlar, hərb edən,
Çarpışır burda işıqlarla qaranlıq ordusu
Bir tərəf ahiramzad, bir tərəfdən əhriman[1].

Şəhriyar işıqla qaranlığın bu ınübarizəsində xalqın qəhrəmanlıq nümunəsini bütün gənclərə nümunə göstərərək Stalinqradda uşaqdan böyüyə qədər hamının azadlıq uğrunda mübarizəyə qoşulduğunu yazırdı.

Əldə süngü, balta, bel durmuş hamı: erkək qadın
Son hücumun əmrini gözlər qulaqlar hər an[2].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 409.
2 Yenə orada, səh. 410.

Şəhriyar şərlə mübarizədə ata, oğul, gəlin, arvad, ana və hər bir vətəndaşın gənc nəsli vətənpərvərlik göstərməyə təhrik etməsini söyləyirdi.

... Bir cavan söylər, atam daim deyərdi: "Ey oğul
Mən vətənçin bəslədim qorxmaz, igid əsgər səni,
Bir ana söylər: Bu torpaqdan daim yeyib çörək,
Ta becərdim, ay qızım, rəna gözəl dilbər səni.
Öz ərinə bir qadın söylər: - Vətən mülkündən çün,
Həm qabaqcıl, həm igid gördükdə seçdim ər səni
Görməsin hərgiz vətənsiz köhnə dünya bir əri[1].

Şəhriyar şahların, canilərin, əhrimanların aqibətinin sonsuz olduğunu deyərək yazırıdı:

İndi sarsaq kefçilikdən german açmışdır gözün
Öz evin yıxmışdır, amma bərbad olmuşdur cahan,
Anlayır indi nə od vurmuşdur əhriman ona,
Hitlerin sərsəm qüruru ilə ona verdikcə can
Çarə yox, dünya cəzalandırmış hər qarətkarı[2].

Şəhriyarın yaradıcılığının 3-c dövrü əvvəlkilərə nisbətən daha uğurlu olmuşdur. 1945-ci ildə Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkatın təsiri altında Şəhriyarın dünyagörüşündə güclü milli vətənpərvərlik, milli maarifpərvərlik əlamətləri özünü büruzə verir.

O, bu illərdə "Maarifimiz", "Yetim uşaq", "Bilik", "Ev qadını" şerlərini yazır. Məlum olduğu kimi 1944-45-ci illərdə İranda kəndlilərin, sənətkar, tacir, ziyalıların iqtisadi vəziyyəti və ölkədə olan irtica elə həddə çatmışdı ki, inqilabi partlayış, kəndli üsyanının baş verəcəyi aydın görsənirdi. Nəhayət 1945-ci ildə Cənubi Azərbaycanda siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrini əhatə edən, tamamlanmış inqilab baş verdi. 1945-ci il dekabrın 12-də Azərbaycan xalq hakimiyyəti

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 411.
2 Yenə orada, səh. 411.

yarandı. Bu hakimiyyət maarif, səhiyyə, ordu, ədliyyə, poçt, teleqraf sahələrində köklü dəyişikliklər əmələ gətirdi. Tezliklə ölkənin həyatında, iqtisadiyyatında dirçəliş əmələ gəldi. Azərbaycan dilində dərsləri aparmaq üçün yeni dərsliklər yarandı, icbari təhsil həyata keçirildi. Qısa müddətdə pedaqoji hərəkatın fəaliyyəti nəticəsində 325 ibtidai, 82 orta məktəb, Təbrizdə Azərbaycan Dövlət Universiteti, muzey, filarmoniya, musiqi məktəbləri açıldı. Hətta Səttərxan və Bağırxana heykəllər ucaldı. Belə bir böyük yüksəlişə baxmayaraq 1946-cı ildə bu hökümət xəyanətin qurbanı olub devrilsə də, o insanların şüurunda silinməz iz buraxdı. Bu məğlubiyyət Şəhriyarda irticaya qarşı daha dönməz mübarizə əzmi yaratdı və onun dünya görüşünün yeni tərzdə formalaşmasına səbəb oldu. Yeni tarixi-sosial şəraitdə o, insanları bir-birinə dost olmağa, yolların, təriqətlərin, məsləklərin birləşməsi problemini irəli sürür. O, belə hesab edirdi ki, bəşəriyyət dedikdə vahid bir ailə nəzərdə tutulmalıdır. Təriqətlər, məsləklər aradan qalxmalı və insanlar bir-birinə dost, qardaş olmalıdırlar.

Bəşər dediklərin vahid bir bədən,
Bəs nədən düşübdür ürəklər ayrı?
İnsan cəmiyyəti yaranan gündən
Yollar, təriqətlər, məsləklər ayrı[1].

… Bir kiçik budağı qıranda rüzugar,
Budaq qan yaş tökər, ağac, qan ağlar.
Bir durna ayrılsa öz qatarından,
Qatar mənzilətək gedər pərişan[2].

Vaxtilə böyük Ukrayna pedaqoqu Suxomlinski yazırdı ki, əgər yol ilə gedərkən bir uşağın ağladığını görüb laqeyd yanından keçsən, heyvansan, elə ki, nə üçün ağladığını soruşdun bil ki insansan. Şəhriyar da Suxomlinski kimi yazırdı ki, təbiət insanları yaradanda onlara şüur verdi ki, onlar həyatını

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 336.
2 Yenə orada, səh. 337.

tənzimləsin, bəşəriyyətin, insanlığın dərdlərini dərk etsin. O, nədənsə "Buza döndü, qaynar qəlbimiz" deyib yazırdı:

Bizə ağıl verdi - vicdanlı mətin
Dərk edək dərdini bəşəriyyətin

Şəhriyara görə insan dərdlərini, görmək, ondan ötəri mübarizə aparıb alovlanmaq, hər kəsin könlünə işıq salmaq insanın dönməz vəzifəsidir.

Kor olsun o göz ki, alovlanmaya,
Bir insan könlünə işıq salmaya.

Şəhriyar bəzən də cəmiyyətdə qanun, qanunauyğunluq tapa bilmədiyindən təbiətə müraciət edir. İnsanlara təbiətdən öyrənməyi, cəmiyyətin qanunlarını təbiətin qanunlarına müvafiq qurmağı lazım bilirdi:

Necə mehribandır çöldə çiçəklər
Eyni səmtə əsir əsən güləklər
Çöllərdə ceyranlar dəstəylə gedir,
Dənizdə ləpələr qol-qola verir
Yeddi qardaş ulduz-işıqlı, iri
Hələ bircə dəfə küsməyib biri[1].

Şəhriyar insanları sülhə, əmin-amanlığa, birgə oxuyub yaşamağa, həyatı birgə yaradıb qurmaqda çağırarkən, hələ də yer üzərində şərin xeyirdən layiqli yerdə olmasını, insanın şər qüvvələrin qulu olduğunu yazırdı:

Hansı mərtəbədə kor qalıb insan
Silahlanıb fitnə, yaraqlanıb şər[2].

Maarifə, elmə yüksək qiymət verən Şəhriyar belə hesab edirdi ki, elm, onun nəticələri, biliyin mənbələri dar bir

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 338.
2 Yenə orada, səh. 339.

millətin məhsulu olub qala bilməz, o bütün insanlığa, bütün dünyaya mənsub olmalıdır. Öz dərsinə bürünb bir millətə mənsub olan elm Şəhriyara görə dövləti geri sala bilər, onun bəşəriyyətdən təcrid olunmasına və dünya mədəniyyətinin inteqrasiyyasına mane ola bilər. Şəhriyar belə hesab edirdi ki, bir yerdə yaranan elmi bilikləri tərcümə etmək, millətlər arasında əlaqə yaratmaq yolu ilə yaymaq olar və lazımdır.

Şəhriyar şerlərində regional, məhəlli hadisələrdən bəhs etsə də onları yaxın Şərq, Asiya eləcə də dünya mədəniyyətinin ayrılmaz parçası kimi təqdim edir.

Birliyin məhsulları,
Tərcümə olunub yayılsın gərək,
Daima əlaqə yaransın gərək,
Bütün dünya vəziyyətilə həmahəng
Biz öz mədəniyyət idarəmizə tapşırmışıq.

Şəhriyarın dünyagörüşünün geniş, hərtərəfli, olmasmın haradan yarandığını bilmək üçün onun hansı dünya alim, ədib, ixtiraçı, tənqidçilərin əsərləri ilə tamş olduğuna diqqət yetirmək lazımdır. Şəhriyarın əsərlərində Tolstoy, Eynşteyn, Hafiz, Firdovsi, Nizami, Volter, Didro, Sədi, Sabir, C.Məmmədquluzadə və bir çox başqa dünya korifeylərinin adı çəkilir.

Şəhriyarın dünyagörüşünü xarakterizə edən bir detal da var. O da dialektik düşüncə tərzidir. O, hərəkəti, inkişafı qəbul edərək, durğunluğu inkar edir. Düzdür, Şəhriyarın həyatında, yaradıcılığımda qısa bir müddət ərzində pessimizm, ruhi düşgünlük olsa da, o yaşayıb yaratmağı, insanın fəal olmasını, insanın özünü və ətraf mühiti dərk etməsini, insanın özünü idarə etməsini, bu dünya üçün yaşamasım təbliğ etmişdir.

Bu ölmək ilə dirilmək əcəb hekayətdir,
Qələt deyilsə əgər, daima cahanda qalım
Mən eşq çeşməsinin içmişəm həyat suyunu
Qalım həmişə baharda, nə ki, xəzanda qalım[1].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 174.

Şəhriyar həyatının 3-cü dövrünün ən böyük uğurlarından biri də onun "Heydərbabaya salam" əsərini yazmasıdır. Şəhriyar "Heydərbabaya salam" poemasında Vətəni, xalqı, əmək adamlarını, onların adət və ənənələrini, maarifi, məktəbi, bərəkətli Azərbaycan torpağını vəsf etməklə yanaşı, Vətənimizin bu gözəlliyini, əvəzsiz adət və ənənələrini qorumağı hər kəsin müqəddəs borcu hesab edirdi. Bizcə Vətənimizi gənc nəslə sevdirmək üçün Şəhriyarın "Heydərbabaya salam" poemasından üstün, dəyərli təbliğat vasitəsini ağıla gətirmək mümkün deyil. Şəhriyarın Təbrizə Azərbaycan bölgəsinə gəlməsi onun şüurunda, dünyagörüşündə yüksək vətəndaşlıq hissi oyatdı. O yazdığı kimi "Təbrizə gəlmişəm ki, yaxşı yaman bəllənsin" yəni farsların başa düşə bilmədiyi, mənim kim olduğum bəllənsin. Digər tərəfdən o özünün "Heydərbabaya salam" əsəri ilə şimali və cənubi Azərbaycan arasında körpü yaratdı. Onun Süleyman Rüstəm, Məmməd Rahim, Osman Sərvəlli, Vahabzadə və digərləri ilə şerlə məktublaşması, Azərbaycan dilində "El bülbülü", "Yalan dünya", "Alnımın yazısı", "Qaranlıq gecələr", "İns və cin" və s. kimi şerlərini yazması onun yeni milli təfəkkür tərzinə malik olmasının bariz nümunəsi idi. Şəhriyarın elə bir şerini tapmaq olmaz ki, o orada təlim, tərbiyə, elm, bilik, oxumaq, zəhmət, maarif məsələləri olmasın. Şəhriyar xüsusən də Təbrizə gəldikdən sonra haqsızlığa, Azərbaycanm əqəliyyətdə qalmasına, istismar və zülmə, dünyanın silahlanmasına, irqi ayrıseçkiliyə qarşı ciddi mübarizə aparır. O, 1945-ci il Azərbaycan inqilabının uğursuzluğundan ruhdan düşməyərək yazırdı:

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birinizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar.

Bir soruşun bu qarğınmış fələkdən,
Nə istəyir bu qurduğu kələkdən?

Deynə, keçirt ulduzları ələkdən
Qoy tökülsün, bu yer üzü dağılsın,
Bu şeytanlıq qurğusu bir yığılsın[1].

Məlum olduğu kimi 1945-ci ildə Böyük Vətən müharibəsi qurtardı, ancaq ölüm kabusu insanlığın üzərindən götürülmədi. Soyuq müharibə başladı. Sosialist və kapitalist sistemləri arasında silahlanma sahəsində rəqabət genişləndi. Hər kəs biri-digərini məhv etmək üçün elə silah növü tapmağa çalışırdı ki, ona müqabil olmasın. Ancaq güclü silahlanma nəticəsində, elmin nəticələri insanlığa xey-bərəkət gətirmək əvəzinə ona ölüm gətirəsi oldu. Dünyada gedən bu mürəkkəb proseslər, xüsusən də Xerosimo və Naqasakidə atılan bombalar Şəhriyarın dünyagörüşündə dönüş yaradır. O, artıq mübarizəsini dar məhəlli, müəyyən ərazi çərçivəsində düşünməyib, dünyanı qorumaq, insanlığı məhv olmaqdan xilas etmək uğrunda mübarizə aparır və insanları, qurmağa, tikməyə, sülhə, əmin-amanlığa səsləyirdi. Şəhriyar insanlığı məhvə aparan silahların işlədilməsinə dair qanun çıxarmağı, qadağa qoymaq üçün həyacan təbili çalaraq yazırdı.

Bu təqsimat bundan artıq olanmaz,
Atom əsri ixtilaflar qalanmaz,
Bir qanun olmasa, dünya dolanmaz,
İndi dünya yüzdə desən sağ-soldu,
Müşək (raket) üçün iki saatlıq yoldu[2].

Şəhriyarın həyatının 4-cü mərhələsi İran islam inqilabı dövrünə təsadüf etmişdir. Bu dövrdə İran-İraq müharibəsi başlayır. Şəhriyar şerlərində bu inqilabın da heç nə vermədiyini dolayı yolla yazırdı. Vətəninə azadlığın verilməməsindən təssüflənən Şəhriyar yazırdı: "Qocalıqda izzəti tapmağın, bir çavanlıq qədər ləzzəti var. Bu zaman "Hara qaçsın insan" şerində yazırdı:

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 18.
2 Yenə orada, səh. 45.

Nə tufana rast gəlmişik biz, məgər Nuh,
Gələ qurtara xəlqi tufan əlindən.

Və yaxud "Qütəb verib, təzək aldıq" şerində cəmiyyətin pozulduğunu, hər şeyin baş-ayaq olduğunu, müəyyən bir qanunun olmadığını, pis nəslin yaxşı nəslə qarışdığını, odun əvəzinə təzək aldığımızı, kimin nə alıb, nə satdığı bilmədiyini deyərkən yazırd kı, "həyat gözümdə günəş olsa da o batır, işıq saça bilmir".

Bütün bu ağrılara, həyatın ağır, acı zərbələrinə baxmayaraq yaşlaşmış, ancaq vüqarını itirməmiş bu böyük şer, maarif, mədəniyyət carcısı ruhdan düşməyərək yazırdı:

Məni qorxutmayır acından ölmək,
Qorxuram: faydasız yanam bir şam tək.

Tənha bir guşədə yanım, məhv olum,
Bir ovuc quş kimi yelə sovrulum.

Yox! Mənim od qəlbim bir bulaq istər,
Yaratmaq naminə yaşamaq istər.

Mən atdan düşsəm də, şahiddir aləm,
Yenə də atlanıb çapa bilərəm.

M.Şəhriyarın dünyagörüşündə müxtəlif ziddiyyətli müddəalara və mistik motivlərə də rast gəlirik. Bu motivlər mütəfəkkirin dünyagörüşünün təşəkkül tapdığı ictimai-iqtisadi və pedaqoji şəraitdən doğmuşdur.

## Məhəmməd Hüseyn Şəhriyar insan şəxsiyyətinin təşəkkülü haqqında

İnsan şəxsiyyətinin təşəkkülü məsələsi əsrlər boyu filosof, psixoloq və pedaqoqların müzakirə obyekti olmuşdur. Bu məsələ bü günə kimi də tədqiq olunan və tədqiq olunmaqda davam edən bir problemdir. Bu sahədə dünya praktikasında müxtəlif fikirlər olsa da, əsrlər boyu üstünlük irsiyyət məsələsinə verilmişdir. Belə nəticə çıxarılmışdır ki, validyenlərdə hər nə müsbət və mənfi varsa genlər vasitəsi ilə övladlarına keçir. Tarixin inkişaf prosesində bu nəzəriyyəni müdafiə edənlər, onu tam inkar edənlər, onun insan şəxsiyyətinin təşəkkülündə müəyyən rolu olduğunu söyləyənlər də olmuşdur. Qədim zamanlarda sadə xalq da irsiyyət məsələsinə öz münasibətini bildirərək nağıl, tapmaca, dastan, atalar sözləri və s. kimi şifahi və yazılı xalq ədəbiyyatında müxtəlif fikir söyləmişdir "Anasına bax, qızını al", "alma, alma ağacından uzağa düşmür", "Qızılı örtsədə qara toppaqlar, o öz qiymətini özündə saxlar", "Quyuya su tökməklə su olmaz", "Ot kökü üstə bitər" və s.

İnsan şəxsiyyətinin təşəkkülündə irsiyyəti danmaq olmaz. Otən əsrin 60-cı illərinə qədər Sovet hakimiyyəti illərində bu problemə sovet ideologiyası zəminindən yanaşıldığı üçün irsiyyət danıldı və bunun nəticəsi olaraq elm, təbabət, sahəsində biz bir sıra inkişaf etmiş ölkələrdən çox-çox geridə qaldıq. Halbuki insan şəxsiyyətinin inkişafında irsiyyətin rolu mühit və tərbiyə ilə bərabər danılmazdır. İrsiyyətə böyük əhəmiyyət verən və onun danılmaz bir həqiqət olduğunu deyən Şəhriyar yazırdı:

Şair ola bilməzsən, anan doğmasa şair,
Missən a balam, hər sarıköynək qızıl olmaz,
Çoxda ki, Sarabin suyu var, yağ balı vardır
Başı göyədə çatsa Sarab Ərdəbil olmaz[1].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 70.

Şəhriyar irsiyyətdə olan hər hansı bir keyfiyyətin özünü mütləq biruzə verəcəyini göstərərək yazırdı:

Yandırıb-qol qanadım, sonra salıblar qəfəsə
Quşa bax ki, uçmaq onun niskilidir.

Şəhriyar insan və onun qüvvəsinə böyük inam bəsləyərək həyatda qabiliyyətsiz adamların olmadığını yazırdı. Onun bu fikri XVI əsrdə yaşayıb yaratmış pedaqoji elmin korifeyi Kamenskinin fikri ilə səsləşir. Komenski uşaqları 6 qrupa bölürdü. 5 qrupa qabiliyyətliləri, 6-cı qrupa isə qabiliyyətsiz uşaqları daxil edir və yazırdı ki, əgər hamıya bərabər tərbiyə verilsə, bu qabiliyyətsizlər də cəmiyyət üçün yararlı adamlar ola bilər. Şəhriyar da deyirdi ki, həyatda şüuru, əqli, iradə və qüvvəsi olan adamlar heç vaxt həyatın ağır məşəqqətləri, mövcud quruluşun, şəraitin qurbanı olub, itib bata bilməz. Tərbiyə insanı ucaltmalıdır.

Məni endirsə küləklər, yenə də yüksələrəm,
Həm səfər olmasada mənlə o karvan gedərəm.

Şəhriyar insan şəxsiyyətinin təşəkklündə mühitə və tərbiyəyə yüksək qiymət verərk yazırdı ki, lazımi mühit olmadan şəxsiyyətin tam inkişafından danışmaq olmaz. Məlum məsələdir ki, ağac toxumunu basdırarkən ona lazımi mühit yaratmasan o heç vaxt cücərməz. Onu torpağa basdırarkən vaxtında bellməsən, şumlamasan o böyüyüb bar verməz. Şəhriyar yazardı:

Bağcamız fasid olub, hər gül əkərsək bitməz,
Yeri daşlıqdı, gərək torpağı qərbillənsin[1].

İnsan şəxsiyyətinin təşəkkülündə tərbiyəyə böyük qiymət verən Şəhriyar yazırdı ki, əgər insan özü ilə bərabər yaxşı toxum gətirmişsə bu toxuma mühit və tərbiyə lazımdır. O toxumu vaxtında, tədricən yaş dövrlərinə müvafiq inkişaf etdirmək, qida vermək lazımdır.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 59.

Ürəyində əkilib yaxş təvəkkül toxumu,
Yaxşı bitdikdə sən yaxşı alaq eyləməlisən[1].

Şəhriyar şəxsiyyətin formalaşmasında insanın fitri qabiliyyətlərini tərbiyə etdirməklə onun fiziki imkanlarını da inkişaf etdirməyi lazım bilirdi. Hələ vaxtilə məhşur fransız filosof, ədib və pedaqoqu J.J.Russo yazırdı ki, təbiət bizə əl, qol, ayaq kimi təbii imkanlar verib. Bizim vəzifəmiz onları inkişaf etdirmək, onu yararlı fəaliyyət növünə çevirməkdir. Şəhriyara görə də təbiət bizə əl qol, ayaq verib ki, biz tərbiyə yolu ilə onu inkişaf etdirək. O, yazırdı:

Əl qolum var ki, təkəlli bu dağın böyründə
Bu sayaq bir avadanlıq əl ayaq eyləyəsən[2].

Şəhriyar insana fəal qüvvə kimi baxmışdır. O doğru olaraq vəziyyətin pisləşməsini də, yaxşılaşmasını da insanın özündə görürdü. Hələ vaxtilə böyük rus ədibi Radişev "Peterburqdan Moskvaya Səyahət" əsərində belə bir qənaətə gəlmişdi ki, insan fəlakətlərinin kökü insanın özündədir. Həyat insanı pozduğu kimi özü də onu düzəldir. Şəhriyar ətrafa baxdıqda insan fəlakətlərini görür və deyirdi ki, əgər bağban mehrini alaq otlarına salmışsa, yəni, diqqət tərbiyəyə deyil, naqis cəhətlərə yönəlmişsə, o zaman güldə, çiçəkdə, badi səba da solmalıdır. Şəhriyar eyni zamanda qeyd edirdi ki, insanda olan fitri istedadları inkişaf etdirmək üçün zaman, dövr imkanın qarşısına elə pərdə çəkib ki, insanla bərabər sənət, zövq, işvə-ədada ölür. O, yazırdı:

Ölməz insan olanın ölməsi bir dərd deyil,
Ölməyə qalsa əgər, şahı gədamız da ölür.
Lakin hər yerdə ki, çəkmiş hünərə pərdə qərəz,
Zövq ölür, sənət ölür, işvə-ədamız da ölür.

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 59.
2 Yenə orada, səh. 62.

Bagıban mehrini salmışsa alaq otlarına,
Gül solur, qönçə yanır, badi səbamızda ölür[1].

İnsan şəxsiyyətini boğan, onun inkişafına mane olan mənfur mühiti Şəhriyar tənqid edərkən dünyanın tərsləşdiyini, belə bir dünyada qarğanın ali, bülbülün dəyərsiz olduğunu yazır və tərbiyə vasitəsi ilə fikir yaratmağı və bu fikirlə irəliyə hərəkət etməyi vacib sayırdı.

Fikir inadı ilə doğulmuş hərəkət,
Çarpınır durmadan aləmdə həyat.

Şəhriyar belə hesab edirdi ki, əgər tərbiyə üçün lazımi şərait olmayıbsa, narahat olmaq lazım deyil, həyat yel kimidir. Bu gün şərait olmasa da sabah o gələcək.

Hədər getmiş isə gənclik əzizim, qəlbini sıxma,
Həyat yeldir, qəmə batma, şirin cana qıyan bülbül.

## Məhəmməd Hüseyn Şəhriyar tərbiyə və elm haqqında

Şəhriyar Azərbaycan ictimai mühitinə təkcə şair kimi deyil, həm də filosof, psixoloq və pedaqoq kimi də daxil olmuşdur. Onun əsərlərini mütaliə etdikdə, aydın olur ki, orada irəli sürülən pedaqoji məsələlər bir sistem təşkil edir. Bu əsərlərdə vətənpərvərlik, ana dili və onun təmizliyi, qadın təhsili və azadlığı uğrunda mübarizə, ailə tərbiyəsi və onun yolları, məktəb, maarif, əqli, fiziki, estetik, ekoloji tərbiyəyə və əxlaq tərbiyəsində dostluq, yoldaşlıq, humanizm və s. kimi çoxlu pedaqoji problemlər verilmişdir. Şəhriyar doğru olaraq tərbiyə prosesində uşaqlarda müşahidə edilmiş bütün nöqsanların günahının tərbiyəçidə olduğunu deyərək yazırdı:

Ey nigarım nə qədər qüsur varsa səbəbkarı bizik[2].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 394.
2 Yenə orada, səh. 47.

O belə hesab edirdi ki, şagirdlərdə əmələ gəlmiş bu və digər qüsurların olması müəllimin, tərbiyəçinin mərifətsizliyi, səriştəlisizliyi və savadsızlığından əmələ gəlir. Heç vaxt öz işini dərindən bilən, elmli müəllimlərin əlindən nöqsanlı şagird çıxa bilməz və belə müəllimlərin dərsləri yüksək səviyyədə keçər. Əlifba kitabınm müəllifi dünya şöhrətli yazıçı Tolstoy vaxtilə Yasnaya Polyanada məktəb açmışdı. Bu məktəb haqqında xatirələrdə deyilir ki, Tolstoy o qədər maraqlı dərs keçərmiş, o qədər yüksək mərifət göstərib uşaqların yaradıcı qabiliyyətlərini inkişaf etdirərmiş ki, bir nəfər də olsun şagird dərsdən qalmazmış. Eynən bu fikri İranda olan Rüşdiyyə məktəbinə və onun müəllimlərinə, həmçinin Azərbaycan pedaqoqları F.Köçərli, İsabəy Akbarov, Ə.Mustafayev, Ə.Seyidov, H.Sanlı və bir çox başqaları haqqında da demək olar. Şəhriyar yazırdı ki, tərbiyə zamanı hamının başını bir ülgüclə qırxmaq olmaz, tərbiyədə müxtəlif üsullar axtarıb tapmaq və doğru yoldan istifadə etmək lazımdır.

Hər açarla açmaq olmaz mərifətin qapısını
Dırnaqla yol açıb gərək çıxasan Qafa tapasan[1].

Şəhriyar müəllimliyin zövqünü mənalı dərsdə, məzmunlu təlimdə tapmağı lazım bilərək yazırdı.

Sənət zövqü kamalına mənada axtar Şəhriyar
Nə istəsən bu eşq ilə çıxasan safa tapasan[2].

Şəhriyar tərbiyəçilərin qarşısında tələb qoyduğu kimi şagirdlərin də yüksək mərtəbəyə çatması, elmli, bilikli olması üçün onların qarşısında ağır zəhmətə qatlaşmaq tələbini irəli sürüb yazırdı.

Sən də bir qayna, cuşə gəl, misin dönsün saf qızıla
Zənn eyləmə tər tökmədən belə bir kimya tapasan[3].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 204.
2 Yenə orada, səh. 204.
3 Yenə orada, səh.204.

Şəhriyar gənc nəslə müraciət edərkən öyrənmək, dərindən öyrənmək, elmlərə sahib olarkən quru əzbərçilikdən qaçmağı, öyrəndiyinin həyatı əhəmiyyətini dərk etməyə xüsusi əhəmiyyət verirdi.

Nə bilikdir əxz etdiyin, onda bir tufan qüdrəti yox,
Dostum elə qapı döyki, dərdinə dəva tapasan[1].

Şəhriyar belə hesab edirdi ki, elmi xəyal ilə tapmaq, yüngül yol ilə qazanmaq olmaz. Yatsan hikmət xəzinəsinə sahib ola bilməzsən, onu ancaq yuxuda görə bilərsən. Şəhriyar elmləri, biliyi ədəblə, mərifətlə qoşa mənimsəməyi, təlimin tərbiyəvi əhəmiyyətini qeyd edərək yazırdı:

Sinəndə gizlənən başım, dünyada səfa tapasan
Tamahına xilaf çək ki, Allahdan şəfa tapasan.

Qıfıllansın əllərində haq və ədəb xəzinəsi,
Qapısım o vaxt aç ki, ağıllı qafa tapasan.

Oyaq ol ki, məhdud ağıl və hikmətlə keçməz işin,
Yatsan, dünya hikmətini gərək röyada tapasan[2].

Şəhriyar müəllimin qarşısmda əsas tələblərdən birinidə məhəbbəti qoyurdu. Hələ 1909-cu ildə F.Köçərli "Müəllimlərimiz və onların halı" məqaləsində yazırdı: "Hər şey məhəbbətlə bağlıdır. Hər bir şeyə həyat verən, hər bir şeyi tər və tazə qılan, hər bir şeyi gözəl, məqbul və nurani edən məhəbbətdir"[3]. Şəhriyar isə yazırdı:

Ölərmi heç o kəs ki, qəlbi eşq ilə nəfəs alsın
Xeyr ölməz, ölər düşmən, qalan eşqi-səməndərdi[4].

Şəhriyarda F.Köçərli kimi, istər məktəbdə, istər ailədə uşağa quru məhəbbət göstərməyi kifayət hesab etmirdi.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 204.
2 Yenə orada, səh. 203.
3 Yenə orada, səh.200.
4 Yenə orada, səh.203.

Məhəbbəti əql ilə, tələbkarlıqla birləşdirməyi lazım bilərkən yazırdı ki, tərbiyə o zaman məqsədə nail olur ki, o əql ilə idarə olunsun.

Eşq ilə əql getmədilər hər zaman yola
Aşiq olarsa kimsə, daha əqldən nə qəm[1].

Şəhriyar gənc nəsli dərin biliklərə sahib olmağa öyrətmək üçün müəllimin müstəsna rolunu göstərir və deyirdi ki, insanları gözəl, təmiz, pak, ülvi edən bilikdir. Belə bir zinəti öyrənməkdən utanmaq lazım deyil. Şəhriyara görə insan cahilliyi biliksizlikdən yaranır. O yazırdı ki, heç kəs alim doğulmayb, əgər hər kəs özünü elmi biliklərlə silahlandırmasa, başı boş, kasıb bir məxluqa dönər. O yazırdı:

İnsanlar biliklə hörmət qazanar,
Bunu heç zaman unutma zinhar.

El misalı var deyərlər insanı paltara görə qəbul edib, ağıla görə yola salırlar. Şəhriyar da biliksiz adamların söhbət zamanı mənəviyyatının meydana çıxdığını yazardı: "Bilməmək ayıb deyil, öyrənməmək ayıbdır", - deyirdi.

Ancaq avam ikən bəhs etsən, inan,
Dərhal bilinər ki, əsil avamsan.
Biliklə ucasan, bunu anla qan!
Alim doğulmamış hər kəs anadan
Bilməmək qədrini azaltmaz şəxsin,
Lakin öyrənməmək eyibdir, yəqin.

Şəhriyar belə hesab edirdi ki, bilik insanı zəkalandırdığı kimi, onu həm də mənəviyyatça zənginləşdirir. Onda haqq, ədalət, doğru, düzlük kimi əxlaqi sifətlər yaradır. Elmli bilikli adamlar heç vaxt həqiqəti, ədaləti danmaz, yalan danışmaz.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 204.

Cəhli iqrar etmək səmimiyətdir,
Haqqı danmaq isə alçaq sifətdir.
Düzlüyü özünə bir hünər bilsən,
Çəkinmə bilməyib üzrə istəməkdən[1].

Elmi bilikləri yüksək qiymətləndirən Şəhriyar həyatın özünün elm olduğunu söyləyir və göstərirdi ki, insan ziyalandıqca daha çox öyrənməyə, daha çox mütaliə etməyə, daha çox elmin dərinliyinə getməyə çalışır. O, həyatın elmi əsaslar üzərində qurulduğunu yazırdı:

"İnsan zəkalısa, baxıb görər ki,
Həyat başdan-başa elmdir, ürfan[2].

Şəhriyara görə nadan adam, həyatı dərk edə bilməz, öz hüquqlarını qoruya bilməz, gedən ictimai siyasi hadisələrdən baş çıxara bilməz, belə adamlar azadlıq uğrunda mübarizəyəyə də hazır ola bilməz.

Nadan adam hikmətin sirrini bilə
Bilməz, soruşa öyrənə, hikmət oduna yana,
Hikmətin sirrini nadan nə bilir ki, nə desin
Biz kimi hey soruşa, hey yana hikmət oduna.

Elmi yüksək qiymətləndirən Şəhriyar elmləri lazımsız və lazımlı deyə müxtəlif hissələrə bölməyin əleyhinə idi. Şəhriyara görə insan elmin bütün sahələrinə nüfuz etməlidir. Hətta zərərli hesab edilən elmləri də oxumağı və ondan doğru nəticə çıxarmağı vacib hiss edirdi. O, cəhalət içərisində də mərifət çırağı tapmağı lazım bilərək yazırdı.

Sən cəhalət röyasında mərifətin hüsnünü gör
Fənada bəqa (daimilik) görəsən, bəqada fəna tapasan[3].

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 444.
2 Yenə orada, səh. 388.
3 Yenə orada, səh.204.

Şəhriyar insanın ziyalanmasına, bilik əldə etməsinə böyük əhəmiyyət verərkən bilikdən ətrafına nur yayan bir vasitə kimi istifadə etməyi lazım bilirdi. Şəhriyara görə insan üçün ən böyük bəla bilik alıb, insanlığını itirməkdir. Bilik insanda ali hisslər oyatmalı, cəmiyyət, xalq üçün faydalı olmağa aparmalıdır. O yazırdı:

Biliksiz olmağın bəlası birdir,
Bilikli canilik daha betərdir[1].

Şəhriyar biliksiz adamları ölü cəsədə bənzədir. Belə adamların başsız, sükansız külək kimi məqsədsiz əsdiyini və bu adamlara nadanlığın harada, hansı bəlanı gətirəcəyini belə ifadə edirdi:

Nadan diridirsə də, canlı ölüdür,
Onun vücududa məzara bənzər.
Bilikdən güc alıb yaşamayanlar
Başsız külək kimi avara gəzər.

Şəhriyar biliyin mənbəni məktəb təhsilində görürdü. Şəhriyara görə cahillik və nadanlıqda qaçmağın yeganə yolu varsa o da məktəb təhsilidir. O, məktəbdə və orada verilən bilikləri aclıqdan, ölümdən rəzalətdən qurtarmaq, düşdüyü mənfur quruluşun bəlalarından xilas olmağın əsas yolu hesab edirdi. O, yazırdı ki, ac, yetim, tüfeyli uşaqlara pul, mal kimi sədəqə vermək yox, təlim vermək, məktəbə göndərmək lazımdır. Hələ vaxtilə C.Məmmədquluzadə özünün "lal" adlı hekayəsində yazırdı ki, meyxananın qarşısında soyuqdan buza dönmüş, aramsız yağan qarın altında bir uşaq ağlayır. Uşağı görən tacir, milyonçu, inteleqent və s. ona pul verirlərsə də uşaq ağlamağı kəsmir. Bu acı səhnəni müşahidə edən bir lal uşağa yaxınlaşır, onu ağuşuna alır. Uşaq bu məhəbbətli nəfəsdən yavaş-yavaş səsini kəsir. Şəhriyar da eynən bu fikirdə olaraq isti ağuş məktəbi, hesab edirdi. O, "yetim uşaq" adlı şerində yazırdı:

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 335.

Ötdü bahar, ötdü yaz, açılmadı bir gülün
Niyə başa çatmadı sənin təkamülün,
Məktəb sənin dərdinə eylər əlac, ey yetim,
Ayaq yalın, baş açıq, ac, yalavac ay yetim[1].

Şəhriyar İran Azərbaycamnda yüzlərlə qabiliyyətli, talantlı uşaqların məhv olduğunu, maarif və məktəbin onların üzünə bağlı olduğunu yazırdı. Dövlətin uşaqlara belə münasibətindən qəlbən kədərlənən şair gözünün qabağında yüzlərlə bataqlıqda boğulan uşaqları görür. Ölən, məhv olanların böyük duhalar olduğunu başa düşür, ancaq onların hansını birinci, hansını ikinci çıxarmağın yolunu görmür, yenə də ümudunu məktəbə bağlayırdı. Şəhriyar yazırdı ki, xalq içərisindən çıxmış yüzlərlə qabiliyyətli, elmə can atan millətin gələcəyi olacaq uşaqlar var. Ancaq dövlət onların qayğısına qalmır və qalmaq da istəmir. Şəhriyar yazırdı:

Ölkən düşünsə idi sənin səadətini,
Dünya bilsəydi elmə tükənməz rəğbətini,
Əl açıb dilənməzdin bu böyük hümmətinlə,
Sənə pul yox tərbiyə, təlim, təhsil gərəkdir
Səni isə düşündürən bircə günlük çörəkdir[2].

Şəhriyar nəinki İranda, eləcə də bütün dünyada acından ölən, mənəviyyatını itirən, məktəbə getməyən uşaqların günahını zülmkar hökmdarların əməllərində olduğunu yazırdı. Şəhriyar uşaq hüquqlarının müdafiəçisi kimi çıxış edirdi:

Azadlıq deyirdin azadlıq hələ,
Həyatda bizimçin birinci pillə
Hələ göy üzündə neçə sərhəd var
Açsın əsrarım aylar, ulduzlar
Bizə yer kürrəsi dar bir qəfəsdir
Yetər, bu qəfəsdə yaşamaq bəsdir.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 454.
2 Yenə orada, səh. 454.

Hələ gör nə qədər yetim-yesirlər
Şaxtada titrəşir, qarda əsirlər
Gəmirir daşını dar məhbəslərin[1];
...Ölümlə əlbəyaxa vuruşmaqdır bu həyat
Bu fəlakət içində necə tab eyləyər can?
İkinci cəhənnəmə nə ehtiyac varmış,
Bu həyat başdan başa cəhənnəm imiş[2].

Uşaqlar üçün cəhənnəm olan bu dünyanı bir ingilis şairi "Balaca Dorri" şerində belə təsvir edirdi:

Cəmi yeddi il Dorri,
Ömür sürdü çirkabda
O zindanda doğuldu
Qaranlıqda boğuldu
Cəmi yeddi il Dorri
Ömür sürdü zindanda
İndi cənnət görsənir
Şəhər qəbristanlığı ona.

Şəhriyar da ictimai ziddiyyətləri qamçılayaraq uşaqların acı taleini İngilis şairi kimi özünün "Meşənin xortdanı" şerində təhsildən və insanların zülmündən qaçıb o biri dünyaya anası ilə qovuşmağı cənnət hesab edən uşağın həyəcanmı belə ifadə edir:

... Anacan, mənəm
Qucağın, qılığın, gülüşün hanı
Vallah küsməmişəm anacan səndən
Yanında yatıram, quc öz balanı!
... Ağıllı balanam vermə xortdana
... Rəhm elə, ay ana, gəl al əlindən.

Ananın ruhu körpəsinin naləsini eşidib, üfüqləri yarıb çıxır. Oğlunu bu dünyanın cəhənnəmindən çıxarıb o biri əbədi

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 340.
2 Yenə orada, səh. 387.

dünyaya aparır. Uşağını canı, minlərlə təhsildən, elmdən, maarif və məktəbdən kənarda qalan uşaqlar kimi, yaramaz cəmiyyətin əzablarından qurtarır. Şəhriyarın elm, bilik, maarif haqqında olan mülahizələri məhəlli xarakter daşımır. O, bütün insanlığın elmlənməsi və maariflənməsinə çalışarkən, elmin bəd əməllərə deyil insanlara, onların rifahının yüksəlməsinə, insanların mənəviyyatının zənginləşməsinə xidmət etməsini lazım bilərək, atom bombasını hazırlayan məhşur riyaziyyatçı Eynşteynə müraciət edərək, "Eynşteynə peyğəm" poemasında yazırdı:

Enerjidir maddə əzəldən
Sənə min əhsən
Fəqət min əfsus

Şəhriyar Naqasaki və Xirosimoda atılan bombalardan insan qırğının vahiməsindən təəssüflənərək yazırdı:

Bir an Herosimo, ölüm sükutu,
İyirminci əsrin nəhəng tabutu!
Hələ dəryalarca insan cəmləri
Dakay, Buhenvald cəhənnəmləri[1].

Şəhriyar deyirdi ki, əfsus Eynşteyn kimi dahi bir ixtiraçının elminin nəticələri insanlığın rifahına deyil, ölümünə səbəb olmuşdur. Şəhriyar yazırdı ki, xeyirxah bir iş, böyük bir ixtira bəd əməlli adamların əlində insanlığı məhvə apara bilər. İnsanlar arasında vəhşilik baş verər, ortadan rəhm, dəyanət, sədaqət, məhəbbət qalxa bilər. O yazırdı:

Fəqət min əfsus
Hərif ilhamından, kəşfindən sənin
Bombalar düzəldir
Dünya qopacaq öz məhvərindən
Müharibələr başlayacaq

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 41.

Qalxacaq göylərə ana fəryadı
Tutacaq dünyanı "balam vay" səsi
Köçəcək dünyadan rəhm, dəyanət
Öləcək sədaqət, vəfa, məhəbbət,
Dumana dönəcək bütün kainat
Yetər sona bu varlıq, həyat[1].

Bu fəlakətlərin qarşısını almaq üçün Şəhriyar Eynşteynə yalvarır ki, sən etdiyin kəşfləri insanlığın rifahına, səadətinə yönəlt ki, insanlar əksin, biçsin, oxusun, sevib-sevilsin. O yazırdı:

Qarşında diz çöküb yalvarıram mən
Döndər sən behiştə, dəndər dünyanı,
Qoy elmiylə fərqlənsin insan!
Qardaşlıq, Sədaqət,
Bir də məhəbbət"
Bayrağı altında birləşsin cahan!
...Nə milli fərq olsun,
Nə də irqi fərq
Məhəbbət yaşatsın ulu bəşəri![2]

Şəhriyar insanlara müraciət edərək deyirdi ki, əxlaqın süqutu ilə insan vəhşiliyin dərinliyinə düşür. Əxlaqın insanın formalaşmasında böyük rolunu görən Məhəmməd peyğəmbər nahaq deyildi ki, elm və əxlaqı dövləti səviyyəyə qaldırmış və insanların təmizliyində əxlaqın böyük rol oynadığını göstərirdi. Quranı tam oxuyub başa düşmüş və onun mütərəqqi cəhətlərini qabarıq şəkildə açıqlayan Şəhriyar yazırdı:

Ey özünü "İnsan" adlandıran iki ayaqlı növ,
Adam da, div də, adamyeyən vəhşi heyvan da
Sənətin yüksəlişində, mədəniyyətin zirvəsində
Əxlaqın süqutu ilə vəhşiliyin dibindədir.

---
1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 426.
2 Yenə orada, səh. 427.

Şəhriyarın əsərlərini mütaliə etdikdə görürsən ki, o böyük filosof olmaqla bərabər, uşaq psixologiyasını dərindən bilən bir pedaqoqdur. O "Heydərbabaya salam" əsərində uşaqların psixologiyasını elə məharətlə vermişdir ki, onu oxuyan hər kəs uşaqlığına qayıdır, səmimi deyilən uşaqlıq xatirələri məktəblilərdə yüksək insani duyğular, təmiz hiss və həyacan oyadır, təlimə müsbət münasibət yaradır. Onun "Heydərbabaya salam" poemasındakı parçalarda uşaqların müstəqilliyi, yaradıcı qabiliyyətləri, zəhmətkeş olmaları və bir çox yüksək əxlaqi sifətlər verilmişdir. O yazırdı:

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qapı-bacanı döyəndə,
Qurd keçinin şəngülüsünü yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gün açıb ondan sora solaydım.

Şəhriyar poemada uşaqların tərbiyəsini təbiət, məişət, gündəlik həyatla bağlayarkən, böyüklərin uşaqlara olan mehriban, səmimi münasibətini bir pedaqoq kimi göstərərək, valideynlərin uşaqları necə əmək fəaliyyətinə qoşduğunu, ana məhəbbətini, ata tələbkarlığını, böyüklərin zəhmət nümunəsinin tərbiyə işində müstəsna əhəmiyyətini belə təsvir edir:

Bu tövlədə sarı inək doğardı
Xanım nənəm inəkləri sağardı
Ana iyisi dam-divardan yağardı
Mən buzovu qucaqlardım qaçmasın
Deyərdi: - Bax, bayda dolsun daşmasın
Bu xırmanda "aradanxır" oynardıq,
Comalaşıb qarışqatək qaynardıq,
Yavaş-yavaş baxçalarda ağnardıq,
Ağaclardan çilik ağac kəsərdik,
Qoruqçunun qorxusundan əsərdik[1].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 22.

Şəhriyar "Heydərbabaya salam" poemasında rəngarəng təbiət hadisələrini böyük ustalıqla tərbiyəçi, müəllim, sənətkar kimi təsvir etmişdir. Onun bir pedaqoq kimi müvəffəqiyyəti onda idi ki, o, xalq həyatını, ictimai-siyasi hadisələri, məktəb, təlim-tərbiyə, maarif məsələlərini, xalq yaradıcılığı ilə elə bağlayırdı ki, onu oxuyan hər kəs-məktəb şagirdi, evdar ana, adi cütcü, yer şumlayan kəndli, nalbənd, xırda sənətkar, alim də onu dərindən dərk edə bilirdi. Məhz ona görə də Şəhriyarın səsi hər yerdə eşidilir və nümunə götürülürdü. Şəhriyar azərbaycan gözəlliyini, qəhrəmanlığım, tarixi abidələrini, xalqın zəhmətkeşliyi, qonaqpərvərliyini tərənnüm edərkən çoxlu atalar sözləri, el bayatıları, hikmətli kəlamlarından istifadə etmişdir. O yazırdı:

Deyirəm içən yaxşı
Qövüd kimi bitən yaxşı
Dünyanı dolanmışam
Hər yerdən Vətən yaxşı

Şəhriyar uşaqların tərbiyəsində böyük rol oynayan birgə əmək vərdişləri aşılayan, təmizlik yaradan onların əqli, əxlaqi, fiziki, estetik tərbiyəsinə böyük təsir göstərən və uşaqları soy kökümüzə qaytaran el bayramları haqqında olduqca maraqlı və zəngin fikirləri, şerləri vardır. O "Bayram axşamı" şerində yazırdı:

Gəldi bayram axşamı ay üzünün nurunda,
Öz novruz süfrəmizi bu il açaq sevgilim!
Köhnə il köhnə qəmlə köçüb getdi dünyadan,
Yeni ildə qəlblərə fərəh saçaq, sevgilim!

Adətən bayramlar dini inamdan, təbiət hadisələrilə münasibətdən, insanların xatirələrindən yaranmışdır. Yazın gəlişini qarşılamaq, məhsul yığımında şənləmək, toy mərasimləri müsəlman aləmində gənc nəslin tərbiyə vasitələrindən biri olmuşdur. Məsələn, Novruz bayramında tonqal qalanar, adamlar

bu tonqalın üstündən hoppanmaqla pisliklərdən təmizlənər, uşaq və böyüklər şənlik edər, bir-birinin üzərinə aydınlıq rəmzi kimi su səpər, bir-birinə hədiyyə verər, xata etmiş adamlar əff olunardı. Novruz bayramının ən böyük tərbiyəvi əhəmiyyəti bir də onda idi ki, novruza 15 gün qalmış evlər təmizlənər, sahələr yığışdırılar, həyət-baca qaydaya salınar, xalçalar, paltarlar yuyular, uşaqlar səliqəli təzə paltarlarını geyərdilər. Pedaqoji, tərbiyəvi əhəmiyyəti olan bu bayramı Şəhriyar belə təsvir edirdi:

Budur bahar gəlir, çatmışdır bayram,
Yol-güllə bəzənmiş süfrələr tamam
Bayram süfrəsidir elin zinəti
Başqa dəzgahı bayramın bizdə.
Yuz nemət düzülür hər süfrəmizdə,
Bəzəkli evlərdə çıl-çıraq yanır[1].

Bayram olub, qızıl palçıq yaparlar,
Naxış vurub otaqlar bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız gəlinin fındıqçası, hənası
Həvəslənər anası, qaynənəsi[2].

Bayramlıq verməkçün, oğul, uşağa
Xırda pul qoydular cibə, qurşağa
Cavanlar bacadan sallayacaq şal
Açır bu adətlə bizim ellər fal.

Şəhriyar uşaqların el adətləri üzərində necə tərbiyə olunduqlarını realist bir pedaqoq müəllim, psixoloq, tərbiyəçi kimi təsvir edərək uşaqların qapı-qapı gəzib şənliklə baharın gəlişini təsvir edən mahnılar söyləməsini, şirniyyat hədiyyələri almaq və verməyi, damların bacalarından şal sallamağı, uşaqların fiziki inkişafına kömək edən oyunları belə təsvir edirdi.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 236.
2 Yenə orada, səh. 12.

Şəbcərə əllərdə gəzir dambadam,
Sinidə qoz, iydə, kişmişlə badam,
Uşaqlar küçədə verib səs səsə,
Bütün kənd əhlini salmış həvəsə,
Bayram axşamından, təzə paltardan,
Danışır hər yanda qoca, hər cavan,
Rəngləri bir-birə alıb çatırlar
Bayram gecəsində şal sallayırlar[1].

Şəhriyar "Heydərbabaya salam" poemasında xalq həyatını və məişətini açıqlayan lövhələri silsilə şəklində elə vermişdir ki, oradan Azərbaycan etnoqrafiyasını şagirdlərə tam mənimsəmək mümkündür.

Yumurtam göyçək güllü boyardıq,
Qıqqıldaşıb smanları soyardıq.
Oynamaqdan bircə məgər doyardıq?
Əli mənə yaşıl aşıq verərdi.
İrza mənə novruzgülü dərərdi.

Novruzəli xərməndə vəl sürərdi
Günahdan enib küləşləri kürərdi.
Dağdan da bir çoban iti hürərdi
Onda gördün ulaq ayaq saxlardı
Dağa baxıb qulaqların şaxlardı.

Şəhriyar el şənlikləri bayram günlərini və onun təravətini təsvir edərkən, siyasi-ictimai motivlərə də toxunmuşdur. O, bu bayramlarda kasıblarla varlıların arasında necə böyük fərqlərin olduğunu, kəndxudaların kəndlilərdən fərqli bəzəkli evlərdə dəbdəbəli bayram keçirdiklərini belə təsvir edirdi:

Burda iki-üç abad daxma var,
Qutuya oxşayır yerdə qalanlar,

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 236.

Birinin damıdır birinə həyət,
Evlər bir-birinə toxunmuş əlbət.

Kəndxuda bəzənmiş odur eyvanı
Geyinib isti kürk, önündə fanus (fanar)
Elə bil oturmuş taxta Keykavus.

## Məhəmməd Hüseyn Şəhriyar əxlaq tərbiyəsi haqqında

Şəhriyar elmi biliklərin verilməsi ilə yanaşı əxlaq tərbiyəsinin komponentləri olan vətənpərvərlik, əməksevərlik, halallıq, dostluq, yoldaşlıq, düzlük, təvazökarlıq, səxavət, həmrəylik kimi keyfiyyətlərin də aşılanmasını tərbiyənin, təlimin ayrılmaz hissəsi hesab edirdi.

Şəhriyar mövcud quruluşun rəzalətlərindən yaxa qurmaqda vətənpərvərliyi əxlaqın ən birinci əlifbası hesab edərək yazırdı ki, irtica elə möhkəm yer tutub ki, onu yerdən oynatmaq olmur. Buz parçası kimi bu naqis quruluşa, şah rejiminə balta da batmır. Çox təssüf ki, inanmışıq ki, bu quruluş, bu rejim bizi azadlığa çıxaracaq.

Çox təssüf tikana səhv eləyib gül demişəm,
Olmuşam indi, nə etmək, əməlimdən peşiman.
… Gül göyərtməz günəşin nuru şoranlıq varda,
Tərbiyədə nə cürə əhv olacaq bir nazan.

Lakin bu rəzalətdən pessimizmə qapılmayan Şəhriyar xalqı mübarizəyə səsləyir, gənc nəsldə vətənpərvərlik ruhu yaratmağı lazım bilərək yazırdı.

Fəqət yandırsa da şimşəklər məni
Döysədə tufanlar, küləklər məni,
Yenə bar verməli, gül açmalıyam,
Yenə şer üstə dil açmalıyam.

Şəhriyar "Fədakarlıq günüdür qalx, Azərbaycan!" deyərkən inanırdı ki, Azadlıq Azərbaycana gələcək:

İnan ki, şəhriyarın qəlbdən qəmi silinər
Fəqət bu doğma, əzih torpağın davası ilə.

Şəhriyar əxlaq tərbiyəsində dostluğa yoldaşlığa böyük əhəmiyyət verirdi, hər adamı dost kimi qəbul etməməyi, ancaq dostu da tez, hər xırdan şey üçün atmamağı məsləhət görürdü. Şəhriyar dostluğun çox böyük hiss, zərif, incə bir şey olduğunu deyərkən qızıl gülün də tikanı olduğu və bununla yanaşı onun gözəl qoxusu, insanı riqqətə gətirəcək iyisi, məlahəti olduğunu yazırdı. Dostun nöqsanlarını başqaları yanında faş etməyin zərərli, dostluğa xələl gətirən bir iş olduğunu belə şərh edirdi.

Təklikdə bir dosta öyüd, nəsihət,
Onun xatirini əzizləməkdir.
Lakin yad yanında edilən töhmət,
Dostunu hörmətdən salmaq deməkdir.

Şəhriyar belə hesab edirdi ki, insan elə tərbiyə olunmalıdır ki, o cavanlığı üçün hyefslənməsin, ona görə də həyatda iki şeyi - cavanlığı və dostluğu qorumağı lazım bilirdi. Şəhriyara görə, bunlar itirildikdə insanlıqda itmiş olur. O yazırdı:

Təccüb deyildir iki şey üçün
Bütün ömrü boyu dərd çəkər insan.
İtən cavanlıqdır biri, əzizim
O biri dost üçün çəkilən hicran.

Şəhriyar yalanı insan əxlaqının ən naqis cəhətlərindən birini hesab edirdi. O belə hesab edirdi ki, yalan insan mənəviyyatını zəhərləyir, insanı qorxaq edir, insanı hörmətdən salır.

Yalan zərər verər daim insana
Yalançı bənzəyir məlun şeytana.
Günaha batarsan yalan deyərək
Hörmətdən düşərsən el içində sən.

Yalan söyləmək islam dininin ən böyük günahlarından biri sayılır. Quranda deyilir: "Ey insanlar, nə üçün etdiyiniz bir şey haqqında danışmırsınız, etmədiyiniz bir iş haqqında yalan danışmaq allahın böyük qəzəbinə səbəb olar". Şəhriyar da belə hesab edirdi ki, yalan hər cür pisliyin başlanğıcıdır, yalan ev yıxar, insanları bir-birinə düşmən edər, düzü əyri yazar, insanın rahatlığını pozar. Yalançı mənəviyyatmı itirmiş adamdır. O, insanlığın zəif bir məxluqudur. Şəhriyar yazırdı:

Düzlüyü özünə bir hünər bilsən.
Çəkinmə bilməyib üzr istəməkdən.

Şəhriyar belə hesab edirdi ki, yalançı adamlar qısqanc və xəsis olurlar. Xəsislik isə insan üçün böyük faciədir. Bizim xalq nağıllarında, dastan, atalar sözündə, tapmaca, yanıltmaclarda comərdlik mədh olunduğu kimi xəsislik də ən mənfur əxlaqi sifət kimi qələmə verilir. Ü.Hacıbəyov, S.S.Axundov, M.F.Axundov və s. mütəffəkirlərimizin yaratdıqları xəsis obrazını minlərlə adamlar görüb yenidən tərbiyə olunmuşlar. Şəhriyar da insan mənəviyyatını pozan xəsisliyin zərərini belə ifadə edirdi.

Ey xəsis, ömrünü hədərə vermə
İnləmə, dövlət çıxsa əlindən
Ömür olsa taparsan itən malını
Ömür itsə, tapmazsan onu malla sən.

Şəhriyar gənc nəslin mədəni vərdişlərinə xüsusi diqqət yetirərkən, onlara yeməkdə, içməkdə, süfrə arxasında özünü aparmasını və bu etik normalara riayət etməsini lazım bilərək, həyatın mənasını yeməkdə görən qarınqulu adamların məsləksiz olduğunu yazırdı:

Bir sıra adamlar heyvan kimidir,
Zahirdə qulağı, gözü olsada
Xəyalı bolluca yemək-içməkdir,
Məsləki, inamı olmaz dünyada.

Şəhriyara görə, hər kəs öz ləyaqətini qorumağı bacarmalıdır. Aldığı biliklə bir balaca vəzifə tutan adamlar bəzən özünü itirir, dostu, yoldaşı unudur, ətrafdakı adamlara yuxarıdan aşağı baxır, təvazökarlığım itirir və bununla da insanlığını itirmiş olur. Şəhriyar yazırdı:

Nədir bu naz ilə alver gətirmiş elmə gəda,
Kasıbdan öyrənib elmin, fəqət dönüb harına[1].

Şəhriyar gənc nəslə insan mənəviyyatını, əxlaqını pozan işlərdən kənar olmağı, belə naqis işlərdən qaçmağı tövsiyyə edirdi. O, tiryəkin xalq arasında yayılmasının əleyhinə çıxaraq gənc nəsli bu ölüm kabusundan qorumağı lazım bilirdi. Məlum olduğu kimi, bu bəlaya düçar olanların həyatı puç olur, onlar insanlığını itirir. Məhəmməd Biriya bir şerində tiryəkə qurşanmış mənəviyyatsız adamın dili ilə "ey dinim imanım tiriyək, canım tiriyək" deyərək onu mədh edir və sonra "eylə yanar köhnə tumanım tiriyək, onda deyərəm, ey südü ziyanım tiriyək", - deyərək onun zərərini insan hər şeyi itirdikdən sonra başa düşdüyünü yazırdı. İranın qabaqcıl ziyalıları, düşüncəli adamları, o cümlədən Şəhriyar, tiryəkin ictimai zərərini görür, onu millətin bəlası hesab edərək yazırdı:

Tiryəki tərk eyləmək həbini hazırlayıb
Zəhərlə qarışdırıb, verdilər xalqa,
… Bu həbləri atanlar can tapşırdı ordaca,
Xalqa qəsd eyləyənlər, görüm gəlsin lənətə[2].

Şəhriyar İranda geniş yayılmış qumardan da gəncliyi qorumağı vacib hesab edirdi. Qumar da tiryək kimi insanı mənəviyyatsızlaşdırır, onu insanlıqdan çıxarır. Belə adamlar evini, ailəsini belə of demədən qumara qoyur. Qumara qurşanan adamların iradəsi qırılır və ora özündən asılı olmayaraq gedir. Şəhriyar yazırdı:

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 398.
2 Yenə orada, səh. 455.

Qumara qurşanma, ey cavan oğlan,
Qumar bir bəladır, başdan-binadan
Öz cavan ömrünü eyləmə hədər,
Ora ixtiyarsız gedir gedənlər.

Şəhriyar yazırdı ki, qumar ən ləyaqətli, ən mehriban, ən sevimli, tərbiyəli, ailə canlı insanı da poza bilər.

Tikandan gül bitər, görmüsən ancaq
Qumardan gül bitə bir gün, bir sayaq
Qənilər görmüşəm qəni necə də,
Gədaya dönmüşlər bircə gecə də.
Həyalı cavanlar tökər həyasın,
Səpər ayaqlara könül ziyasın.
Gecə gövhər sayan səhərə qədər
Səhər gövhər kimi göz yaşı tökər
... O qurddur, içindən yeyər ağacı
Polad iradədir onun əlacı[1].

Şerdən görsəndiyi kimi, Şəhriyar qumarbazı "nabələd oğruya" bənzədirdi. Bunun əlacınm uşaqlarda iradə tərbiyə etməyi vacib hesab edirdi.

Şəhriyar gəncliyi böyük zinət, sərvət adlandırırdı. Bu həqiqətən belədir. İnsan bütün həyatı boyu özü ilə aparacaq elmi, mərifəti, şöhrəti, mənsəbi gəncliyində almalıdır. Kim gəncliyində zəhmətli əməyə qatlanıb gələcəyin barını dərə bilmirsə, onun əli boşda qalmalıdır. Belə adamlar ömrü boyu özünü zəif hiss edər, yoxsul görsənər. Belə adamların qocaldıqda da həyata rəğbəti az olur. Halbuki yaşlı adamlara qayğısız görsənmək, həyatın sonuna əli boş gəlmək, yaraşmır. Şəhriyar cavanlığı var-dövlət, böyük sərvət hesab edib yazırdı:

Şikayət zəiflərə yaraşır ancaq,
İnsan yoxsul görünür zəif olduğu zaman.

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 456.

Varlı-karlı qocanın həyata rəğbəti az
Gənclik qayğısızlığı ixtiyara yaraşmaz
Cavansansa deməli, sən də varlısan əlbət
Varmı gənclikdən böyuk, gənclikdən ulu sərvət?

## Məhəmməd Hüseyn Şəhriyar əmək tərbiyəsi haqqında

Hələ vaxtilə K.D.Uşinski yazırdı ki, əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, bəlkə də onu xoşbəxtlik həyatına deyil, əmək həyatına hazırlasın. Zəhmətə qatlaşmağı bacaranlar xoşbəxtdir. Var-dövlət gəldi-gedərdir. Zəhmət isə insana malı-dövlət gətirən, insanı ucaldan, onun azadlığının mühafizə edən, insanı iqtisadi cəhətdən təmin edən, insan heysiyyatını, məğrurluğunu, kişilik əzmini qoruyan ən başlıca vasitədir. Məhz bu səbəbdən də Məhəmməd peyğəmbər insanları zəhmətə dəvət etmişdir. Belə bir rəvayət var ki, günlərin birində bir nəfər əlini uzadaraq heç bir şeyim yoxdur mənə kömək göstərin deyir. Məhəmməd peyğəmbər cavabında: "Ola bilməz ki, heç bir şeyin olmasın". Kişi yenidən, "Vallah bir qazandan başqa heç bir şeyim yoxdur", - Məhəmməd peyğəmbər deyir: "Get qazanı sat, balta al, odun doğra, sat və dolan". Peyğəmbərimizin bu kəlamı əsrlərlə şair və ədiblərimizi əmək tərbiyəsinə xüsusi diqqət yetirməyə yönəltmişdir. Əməklə əlaqədar qeyd etmək lazımdır ki, türk xalqları çox əlverişli, məhsuldar təbii-coğrafi şəraitdə yaşamışlar. Onların ilk əmək işləri heyvan ovlamaq, balıq tutmaq, mədəni bitkilər yetişdirmək, əmək alətləri hazırlamaq olmuşdur. Uşaqlar da valideynləri ilə bərabər əmək işlərində çalışmaqla əmək vərdişləri qazanmışlar. Türklər ümumiyyətlə zəhmətkeş xalq olduğundan uşaqlarına "Zəhmət çəkməyənin dünyada yaşayışı yoxdur" - demişlər. Qədim türklər dünya xalqları içərisində zəhmətkeş xalq kimi qiymətləndirilmişdir. Zəhmətə böyük qiymət verən Türk şairi Şəhriyar da yazırdı:

Qeyrət beşiyindən halal torpağınla sən,
Tarixə yaraşıqsan zəhmət dayağınla sən.

Türk gəncləri zəhməti valideynlərinin nümunəsindən öyrəndiyini Şəhriyar "Heydərbabaya salam" poemasında təbii lövhələrlə belə təsvir edirdi:

Səhər tezdən Naxırçılar gələrdi,
Qoyun quzu dam-bağçada mələrdi.
Əmmənənim körpələri bələrdi,
Təndirlərin qovzanardı tüstüsü,
Çörəklərin gözəl iyi, istisi.
Biçin üstü sünbül biçən oraqlar,
Elə bil ki, Zülfi darar, daraqlar.
Şikarçılar bildirçini soraqlar,
Biçinçilər ayranların içərlər
Bir huşlanıb, sondan durub biçərlər.

Şəhriyarın əsrlərindən görsənir ki, uşaqlar həyatı, əməyi, işgüzarlığı həyatdan, valideynlərinin nümunəsindən əlavə özləri də ot biçimində, xalça toxumaqda, palçıq yapmaqda və yağurmaqda, vəl sürməkdə iştirak etməklə öyrənmişlər. Əmək uşaqların şəxsiyyətinin formalaşması və onlarda yüksək əxlaqi sifətlərin yaranmasına səbəb olmuşdur. Şəhriyara görə həyat imtahandır-Bu imtahandan ancaq zəhmət həyatına qatlaşanlar dirilik suyunu tapa bilir. O yazırdı:

Çətinlik kamala aparar səni,
Həyat imtahandır, böyük imtahan.
Xızır tək zəhmətə qatlaşsın əgər,
Dirilik suyunu taparsan[1].

Əməyə yüksək qiymət verən Şəhriyar belə hesab edirdi ki, insanlar ancaq halal zəhmət, əmək sayəsində xoşbəxt ola bilərlər Hələ vaxtı ilə fransız filosof pedaqoqu J.J.Russo

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 387.

yazırdı ki, çoxları başqalarının hesabına dolanır. Belə adamların bir qismi yeməkdən donuza dönür. Qalanları isə işləməkdən maşına çevrilir. Halal əməyi insanların müqəddəs borcu hesab edən Şəhriyar yazırdı.

Yalnız əmək gərək, halal bir əmək.
Zəhmət haləsi ilə əhatələnək.

Şəhriyar belə hesab edirdi ki, zəhmətin içərisinə daha çox daxil olduqca mənəviyyat işığı daha parlaq, daha aydın görsənir. Dərin quyunun içərisində ay-ulduz yaxşı görünür, - deyən Şəhriyar əmək tərbiyəsində bir vacib məsələyə də - öz sənətini sevmək ona dərindən yiyələnmək məsələsinə də toxunurdu. Hələ vaxtı ilə böyük Nizami yazırdı.

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Şəhriyar isə yazırdı.

Dünyada nə qədər iş var, sənət var.
Birindən yapışar aqil adamlar.
Hər kəs öz yerini tapsa həyatda,
Sanki xəzinə var başının altda.
Sevdiyin sənəti intihab etsən.
Yoruldum deməzsən nə qədər getsən
Könül verdiyin, iş ucaldar səni
Könül vermədiyin qocaldar səni

Şəhriyar öz sənəti ilə avler edənləri nifrətli adamlar kimi qələmə verərək belə adamların öz şöhrətini, qədr və qiymətini aşağı saldıqlarını, mənəviyyatsızlığa düçar olduqlarım yazırdı.

Əl və əmək alətləri, biçimdir təbinə
Sənətinlə bazar açsan qalacaqsan avarə

Şəhriyar belə hesab edirdi ki, insan əli, insan zəhməti susuz çölləri şoran torpaqları cənnətə döndərə bilər. O, yazırdı ki,

dünyada ağılsız adamlar, qurulmuş gözəl gülüstanı dağıdıb məhv edəcəklər. Zəhmətkeş adamlar onu qurub tikməklə daha da gözəlləşdirəcəklər. Ona görə işi iş bilənə, zəhməti zəhmətsevənə, müdrik adamlara tapşırmağı lazım bilərək, yazırdı.

Sən bağban, fikrində ol, torpaq qayğı çəkəndir.
Bağban şoranlıqda da, becərəndir, əkəndir
Dağıdandır, pozandır bu dünyada ağılsız
Müdrik dövlət başçısı kərpic-kərpic tikəndir
Nə gözəl söyləmişdir bu dünyada atalar:
"Çörəyi çörəkçiyə ver, dərdini çəkəndir"[1].

Şəhriyar mövcud quruluşu onun əzab və əziyyətlərini, zəhmətkeş adamların istismar olunduğunu deyərkən yazırdı ki, kənd uşaqları zəhmətkeşdir. Ancaq onların əməyi hesabına əmələ gələn ərzaq məhsulları uşaqların özlərinə baha qiymətə satılır. O yazırdı:

Hər nə alır baha verir qiyməti,
Ucuz fəqət əkinçinin zəhməti,
Bitənindən artıq biçək üqləti.
Kənd uşağı gedir yolda işləyə
Orda bəlkə qəndi tapa dişləyə.

## Məhəmməd Hüseyn Şəhriyar estetik tərbiyə haqqında

İnsanları yalnız əqli və əxlaqi cəhətdən tərbiyə etmək kifayət deyil. Onun hiss və emosiyalarını da tərbiyə etmək, incə, həsas, qəlb, nəcib, ali, ictimai hisslər yetişdirmək lazımdır. İnsanlar estetik tərbiyəni müxtəlif vasitələrdən-incəsənət əsərləri, ədəbiyyat, musiqi, rəsm, şer vastəsi ilə həyatda, fikir və davranışda olan gözəllikləri qavramaq, başa düşmək, sevib qiymətləndirmək yolu ilə alırlar. Estetik tərbiyə o vaxt yaxşı

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 456.

nəticə verir ki, aparılmış tədbirlər, oxunan şer və hekayələrdə yüksək ideallıq, ardıcıllıq, yaşa müvafiqlik olsun. Estetik tərbiyəni hərtərəfli həyata keçirmək üçün bədii əsərlərdə, ədəbi gecə və səhərciklərdə, xalq rəqsləri, musiqi nümunələri, memarlıq abidələri, təbiət və məişətdə olan gözəllikləri, ümumiyyətlə vətəndə hər nə yaxşı varsa onu uşaqlara sevdirmək yoluyla həyata keçirmək lazımdır. Bu cəhətdən Şəhriyarın özü incəsənət, musiqi, muğam, rəsm, xüsusən də vətənin dağları, çiçəkləri, bulaqlarını, adamlarının ülviliyini tərənnüm edən estetikanın canlı nümunəsidir. O, yazırdı:

Ürəklərdə sevir şerini ey Şəhriyar
Vüsal ərməğandır, uca tut divanını!

Şəhriyar ana təbiətin zənginliyini, gözəlliyini ifadə edərkən bu təbiəti qorumağı, onu sevməyi və bu təbiəti gələcək nəsillərə tam şəkildə estafet kimi ötürməyi lazım bilərək yazırdı:

Nə zəngin yaratmış ana təbiət,
Torpaqda səxavət, suda səxavət,
Almalı, armudlu bu bağlar sənin,
Səadət qaynaqlı bulaqlar sənin.
...Sənindir ağ saçlı şəlalələr də,
Gözləri al çanaq, tər lalələr də.

Şəhriyar poeziyasında obrazın daxili dünyasını açmaq məqsədilə onun gözəlliyini, incəliyini, boy-buxununu, nəvazişini ilin fəsillərinə və bu fəsillərdə olan flora, faunanın ayrı-ayrı növlərinə bənzətmiş və onlarla müqayisə etmişdir. Şəhriyar yaz və payız fəsillərində kəndin kövşənini ən əzəmətli filmə bənzədirdi və yaz fəslində torpağın oyandığı, təbiətin yeniləşdiyi, xeyirxahlığın baş qaldırdığı bu fəsli elə real lövhələrlə təsvir etmişdir ki, istər-istəməz insanda təbiətə qarşı məhəbbət, hörmət və nəcib duyğular yaranır. Şəhriyar "Dostun sifarişi" şerində baharın gözəlliyini təsvir edərkən onun çiçək gətirdiyini, güllərə müxtəlif rəngli naxış vurduğunu, bənövşə,

lalənin ləçəklərindən süzüldüyünü, gəlin kimi geyinən bu çiçəklərə quşların layla çaldığını, bütün bu əfsanəvi gözəlliyin insanlara istək, arzu, məhəbbət, çalışmaq, yazmaq, oxumaq həvəsi gətirdiyini belə təsvir edirdi:

Gəldi bahar, əlində çiçək gətirdi-gəldi,
Naxış vurdu onlara rəng-rəng gətirdi-gəldi,
Bənövşənin; lalənin şeh yandı tellərində
Güllərə zər naxışlı çələng gətirdi-gəldi.
Gül gəlini güllərin ətirləndi, bəzəndi,
Nəğməsini quşların külək gətirdi-gəldi.
...Dindirdi yaz yelləri, körpəcə sünbülləri
Sünbüllərə qızıldan köynək gətirdi gəldi.

Şəhriyar "Payız" şerində bu ayın məhsuldar fəsil olduğunu, xəzan başladığını, yaşıl yarpaqların qızıl don geyindiyini, havaların necə dəyişdiyini, duman, çənin gəlməsi. Payızın çayları doldurması kimi bir-birini əvəz edən, insanda nəcib hisslər doğuran lövhələr vermişdir. O yazırdı:

Qopdu yenə tufanları payızın,
Yol üstədir karvanları payızın.
Mələklər dərmiş güllü-çiçəyi,
Daşqaş tökür xırmanları payızın.

Nazlı bahar boşanmışdı ərindən
Yollar kəsir dumanları payızın.

Külək qovub, qara bulud gətirir,
Selə dönür leysanları payızın.

Şəhriyar yazırdı ki, belə bir təbiətdən biz zövq alırıq. Onun xalça kimi döşənmiş üzərindəki naxışlarını, rənglərini nə qədər misilsiz bir rəssam olsa da, onu yarada bilməz. O təbii gözəllik istər-istəməz insanlarda təmizlik duyğusu yaradır:

Cilveyi hüsnü-şahinlə bacarmaz rəssam
De ki, yığsın qələmi rəngi-rəngi ölüdür.

Şəhriyar fəsillər içərisində qışı bayırdan içəri gələn məhsulun az, içəridən çıxan məhsulun isə çox olduğunu verərkən qışı ağır, mənfi obraz kimi versə də, onun özünəməxsus gözəlliyini də vəsf edərək qış fəsilində dağlardan əsən sızaqların çıxardığı səsi saz səsinə bənzədirdi, musiqi kimi qələmə verirdi. Qışın başqa bir gözəlliyini də qış gecələrində, tövlələrdə, evlərdə yığılıb nağıl danışmağı, buxarı qırağında oturub, müxtəlif çərəzlər yeyib əsrarəniz alovları seyr etməkdə görürdü. Yəqin ki, belə bir romantik lövhə mütləq insanda gözəllik hissləri oyatmalıdır.

Qış gecəsini tövlələrin otağı,
Kəndlilərin oturağı, yatağı,
Buxarıda yanar odun yanağı,
Şəbəcərəsi, girdəkəni, iydəsi
Kəndi basar, gülüb-danışmaq səsi

Şəhriyar şerlərində, eləcə də yaz ayını, torpağın oyandığı, təbiətin yeniləşdiyi, xeyirxahlığın baş qaldırdığı, baharda bülbüllərin qəzəlxan olduğunu yazırdı. O, yazırdı ki, mən də gözəllik qarşısında qəzəlxanam. Şəhriyara görə gözəllik insanda işləmək, yaratmaq, sabah ilə yaşamaq həvəsi doğurur:

O camalın şövqünə ollam qəzəlxan mən yenə,
Çünki, bülbül də qəzəlxanlıq edir fəsli bahar.

Şəhriyar yazırdı ki, görün gözəllik necə böyük hikmətdir ki, ondan şer evində mənim də böyük sərvətim vardır:

Deyir ki, Şəhriyar, yarın camalı nurlu dünyadır,
O nurdan könlümün gör ki, evində sərvəti vardır.

Şəhriyar, yay ayını meyvələrin, kənd təssərüfatının bol məhsul yetişdirdiyi əkin, biçin, məhsul yığımı ayı adlandırırdı.

Şəhriyar təbiət lövhələrini təsvir edərkən, dağların gözəlliyini də vəsf edir, bu gözəllik qarşısında insanın aciz olduğunu yazırdı. O, təbiəti canlı bir əsər kimi təqdim edirdi:

Canlı şah əsəridir bütün təbiət,
Hüsnü qarşısında acizdir insan[1].

Şəhriyar təbiət, təsvirində dağların əsrarəngiz gözəlliyinin insanlarda xəyal, eşq, mənəviyyat doğurduğunu dağlara baxıb belə ifadə edirdi:

Təfəkkür beşiyi, xəyal yurdusan,
Bir dünya calalsan, bir dünya camal,
Neçə lalələrlə bəzənər dağlar,
Sənin bəzəyindir əzəmət, vüqar.

Şəhriyar yazırdı ki, dağlar nəinki, insanı ilhama gətirir, o həm də insanı güldürür, ağladır, "Görəndə laləi dağın döşündə kövrəlirəm" deyən şair yenə də gözəllik rəmzi olan, dağların döşündən göz yaşı kimi axan bulaqların insan fərdlərinə dəva, can şirəsi olduğunu və bu şirədən bal kimi əməllərin eşq, məhəbbət aləminə atıldığını yazırdı:

Seyr et dağdan axan o çeşmələri,
Şövq göz yaşıdır, yuyar kədəri,
Dağın sinəsindən daman qətrələr,
Bir can şirəsidir, onu eşq əmər[2].

...Bu qarlı dağlarda başqa məna var
Dağ qədər səfalı olmaz ilk bahar[3].

Şəhriyar dağların gözəlliyini və insana təsiredici qüvvəsinin təkcə gündüzlər deyil, gecələr də insanda gözəllik, ilham, fikir gətirdiyini yazırdı:

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 247.
2 Yenə orada, səh. 230.
3 Yenə orada, səh. 234.

Dağın gecə vaxtı bir cəlalı var
Dağlı düzənliklər cənnətə bənzər
Gecə ay işığı qucaqlayır dağı
Yanar dağ döşündə eşqin çırağı
Tac qoyub başına aydan, öyünər
Əyninə qızıldan xələt geyinər.

Şəhriyar dağı mədh edərkən gənc nəslin dağ kimi mətin, uca, məğrur, əyilməz olmasını vurğulayırdı. O, insanları, dağ kimi, hiylədən, yalançılıq, ikiüzlülük, alçaqlıq kimi mənfi əxlaqi sifətlərdən xilas olan pak və təmiz olmağa çağırırdı. Şəhriyar dağı vəsf edərkən onun qoynunda xəzinələr, insanlığın böyük bir tarixinin gizləndiyini yazırdı. O, dağı sənət və hünər rəmzi hesab edirdi.

Estetik zövqün formalaşmasında Şəhriyarın "Gecənin əfsanəsi" əsərinin xüsusi əhəmiyyəti vardır. O, bu poemada rəssamını necə öz mahir fırçası ilə meşəni, çölü, çəməni, dağları, zirvələri rəngdən-rəngə saldığını, gözəl mənzərələr yaratdığı və bu lövhələrin insansız heç nə olduğunu yazırdı. Həqiqətən də insan olmayan yerdə bütün gözəlliklər yox olur. Səməd Vurğun bu ideyanı çox dəqiqliyi ilə ifadə edərək "Soyuq məzara da ziynətdir insan", - demişdir. İnsansız gözəllik yoxdur.

Şəhriyar "Gecənin əfsanəsi" əsərində xalq adət ənənələrinin, bayram mərasimlərinini, milli geyimlərimizin gözəlliyini, incəliyinin bədii təsvirini verir. Hələ vaxtilə rus pedaqoqu K.D.Uşinski yazırdı ki, rəssam, şair, musiqişünas, alim də ilhamı bizim kobud dediyimiz xalqdan alır. Şəhriyar da "Gecənin əfsanəsi" poemasında sadə kəndli həyatını, əmək və zəhmətin real inikasım, ata-babaların adət ənənələrini, bayram ərəfəsində ləziz xörək və şirniyyatıların hazırlanmasının real səhnələrlə belə təsvir etmişdir.

Nişanlı gözəllər, təzə gəlinlər,
Verib tovuz kimi otağa zivər,
Divara al-əlvan şəkillər vurub,
Taxçaya nar, alma, heyva doldurub.

...Bir şərtlə geymişdir dizdən yuxarı,
Yarır yaxasını bir cüt Nobarı...
Uzuntuman nənə, yaşmaqlı xala,
Tumam, yaşmağı atıb az qala.
Gecəni gündüzə qatıb işləyir,
Ağbirçəklik edir, məsləhət verir
Gözəl qaraçı qız düşüb meydana
Qızıl, gümüş pullar düzüb hər yana...
Gəzir küçələri dəf çala-çala.
Söz atır, ocəşir o, əhli-hala.
Hamını gətirir şövqə, həvəsə
Toy-düyün arzusu edir hər kəsə.

Şəhriyarm şerlərində estetik zövqün müxtəlif çalarları novruzgülü, qaraçiçək, gül qönçəsi, bulaq otu, yarpız, sünbül bağ-bağça, çəmən, buğda, kol, ağac, alça, alma, heyva, armud, girdəkan, iydə, gülbəsər kimi təbiət lövhələri və insana gözəllik bəxş edən kəklik, qaz, bildirçin, qırğı, gecəquşu, göyərçin, bayquş, qaraquş, durna, canavar, dovşan kimi müxtəlif quş və heyvanlar da yüksək hiss və həyəcanla təsvir edilmişdir. Şəhriyar təkcə təbiəti, onun gözəlliyini tərənnüm etməklə kifayətlənməyərək belə hesab edirdi ki, şer də təbiət, musiqi və muğam kimi gözəldir. Onu ürəklə oxuyanlar mənəvi zövq alır, nəcibləşir, onda yüksək insani hisslər baş qaldırır. O, insanların kədər və xoş günlərini daha dərindən duyub, ona kömək əlini uzadır. Şəhriyar bu nöqteyi nəzərdən Sədi Şirazinin şerlərini misal gətirərək yazırdı:

Bağına, bostanına baxmağa gəldim mən
Bu gözəl güllərin ətrini alam ay Şiraz.
Bilmirəm bağa baxım, ya çiçəyə, ya çəmənə
Bu gözəllikdə çaşıb, qalmış adam ay Şiraz[1].

...O güldən də gözəl hüsnə nəzər salma nə müşküldür
Tamam nazdır, tamam qəmzə, baxan insan olur heyran[2].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 167.
2 Yenə orada, səh. 160.

Estetik tərbiyə ilə bağlı Şəhriyarın əsərlərində musiqi, müğamla əlaqədar tar, kamança, saz, ney və sitar çalğı alətlərindən də bəhs olunur və bu musiqi alətlərinin insan mənəviyyatına, hiss və həyəcanına, hərəkət və davranışına necə müsbət təsir göstərdiyindən bəhs edilir. Musiqi insanı ağladıb güldürür, qəmləndirib şadlandırır və insanda mənalı fikirlərin oyanmasına səbəb olur. Musiqi ən dəhşətli, yaramaz, əzazil adamlarda da insani hisslər oyadır. C.Məmmədquluzadənin "Kamança" hekayəsi musiqinin insana göstərdiyi təsirin bariz nümunəsidir. Hekayədə musiqinin kinə, ədavətə və intiqama necə qalib gəlməsi göstərilir. Hekayədə göstərilir ki, ermənilərin vəhşicəsinə öldürdüyü dörd azərbaycanlının intiqamını almaq üçün yüzbaşı Qəhrəman dəstəsi ilə 2 ermənini tutub edam etmək istəyirlər. Onlardan biri Azərbaycan toylarında kamança qalan ermənidir. Yüzbaşı əvvəlcə kamança çalan ermənini öldürmək istəyir, sonra deyir: "Bir şikəsteyi-farsı çal!" Erməni çaldıqxa yavaş-yavaş yüzbaşıda mərhəmət hiss oyanır. O, öldürmək fikrindən vaz keçib "Haramzadə elə çalır ki, keçən günləri gətirib qoyur adamın qabağına", - deyib Yüzbaşı xəncəri qınına qoyub "İtil, get buradan!", - deyərək ermənini buraxır. Belə cazibə qüvvəsinə malik olan musiqi haqqmda Şəhriyar yazırdı:

Sən verdin aləmə ibrət, musiqi
Yarardı insanı qəflət, musiqi,
Dinlərkən bu yorğun ürəklər səni,
Verirsən onlara cənnət, musiqi[1].

Şəhriyar şerlərində müsiqinin müxtəlif növlərinin insan həyatına necə gümrahlıq, təravət, ali hisslər gətirdiyini söyləyərkən saz haqqında yazırdı:

Ələ al, şövq ilə çal, qəlbi yaxan saz bu gecə,
Göz yaşım axsın, olum saz ilə dəmsaz bu gecə,

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 442.

...Sazın hər pərdəsi min raz eləyibdir pünhan,
Qorxuram qalmaya heç pərdədə bir raz bu gecə.

və yaxud, Şəhriyar başqa bir "Saz və yanğı" şerində yazırdı:

Çalğınan, qəlbinə od salsın o sazın bu gecə,
Dinləyim ağlayaraq sazım, avazım bu gecə.
Çaldığın sazda ötən mən yazığın naləsidir,
Həm mənim var gileyim, həm də o sazın bu gecə,
Ürəyim quş kimi köksümdə yenə nalə edər,
Saz ilə eylə bəyan, razi-niyazım bu gecə.
Sazının pərdələrində nə qədər sirr yatır,
Açasan sirlərin bəlkə bir azın bu gecə[1].

Şəhriyar sazı bülbülün oxuması ilə müqayisə edərək "Unudulmuş saz" şerində sazın gözəlliyini, məlahətini təsvir edərkən onun susmağını bağların, çəmənlərin susması ilə muqayisə edirdi. Şəhriyara görə bülbülün mahnısı insanları necə riqqətə gətirirsə, saz da onun kimi insanları alovlandırır, onlarda zövq, mənəviyyat, fikir yaradır:

Boşalmış bağlar olmuş lal, sükunətdən oyan, bülbül,
Nədir bunca susub durmaq, bizi yalqız qoyan bülbül,
...Kəsilmişdir daha bağdan bağırtı, küy-kələk tez-gəl,
Uçub getmiş qara qarğa-səni düşmən sayan bülbül[2].

Şəhriyar yazırdı ki, çal, saz, çal ki, gözlərdən yaşlar tökülüb bulaqları doldursun və dünyaya dirilik, həyat gətirsin:

Sovulmuş arx, gəl ay bülbül, tökək neysan yaşı gözdən,
O neysandan doğan çeşmə ola dirlik yayan, bülbül
...Barı aşiqlərə yan, can bağışla nəğmən ilə sən
Şükür qıl, nəğməkarsan, yox səsindən heç doyan bülbül[3].

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 173.
2 Yenə orada, səh. 215.
3 Yenə orada, səh. 215.

Şəhriyar eləcə də kamançanın da insan hisslərini oyatmaqda, insanlarda nəciblik yaratmaqda böyük əhəmiyyət kəsb etdiyini vəsf etmişdir. Kamançanın necə insan dərdlərinə dava olduğunu göstərən bir misala diqqət yetirək. Vaxtilə Müslüm Moqomayev Qori seminariyasını qurtardıqdan sonra Çeçenistanın həyatdan tamam kənarda qalmış, ətraf aləmlə əlaqəsi olmayan Ataqa kəndinə müəllim təyin olunur. Belə bir tənhalıqda M.Moqamayev ona musiqi təhsili verən müəllimi Pekkerə məktub yazaraq deyir: "Sağ ol, əziz müəllimim, sən mənə bir odun parçası verdin və onunla bu tənhalıqda dərdlərimi dağıda bilim". Həqiqətən "Kamança" Şəhriyara görə eşq şahına tac qoyan, ürəklərə yol tapan, qəlbləri şad edən bir vasitədir. O yazırdı ki, çal, kamança, sən çaldıqca din evim dağılır, qaranlıq qaçır, sən mənim imanımı əlimdən alırsan, mənim sənə böyük ehtiyacım vardır. Sən musiqini şöhrətləndirməklə mənə şerə ucalıq gətirməyə imkan yaratdın.

Eşitmişəm ki, verirsən hər eşq şahına tac:
...Kamanı köklə, kədər ləşgəri hücum eləyir,
Xəyali, qəsdi budur, ömrümü edə tarac,
...Kamanın teli imanımı apardı mənim.
Edibdir din evimi sənətin tamam hərrac
...Kamala çatdı, sənin sənətinlə musiqimiz,
Necə ki, şerə verib Şəhriyar təbi rəvac[1].

Şəhriyar "Qəmli ney" şerində də neyi insan qəmlərini dağıdan, bəlkə də Fərhadı dağları çapmağa sövq edən və onu məhəbbət çölünün pərişanlığına atan, ürəklərdə həsrəti dindirən ilahi bir vasitə olduğunu yazırdı:

Torpağından göyərir Fərhadın
Qəmli ney bəlkə dinən Şirindir.
...Gəz pərişan bu məhəbbət çölünü,
Ürəyimdə yenə həsrət dindi.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 124.

Şəhriyar Şərqin ən ali musiqi alətlərindən biri, olan tarı da mədh etmişdir. Tarın məlahətli səsini, insanı ağladıb güldürən pərdələrini unutmaq olmadığını Şəhriyar yazırdı. Hələ vaxtilə Azərbaycan şairi M.Müşfiq Tar haqqında belə deyirdi:

"Oxu tar, oxu tar. Söylə səni kim unudar?"

Şəhriyara görə də tar oxuyan bülbül, şer, eşq, məhəbbət, insanlığa xoş əhval ruhiyyə gətirən ən gözəl alətlərdən biridir.

Sızlayır əhvalına şübhə qədər tarım mənim,
Təkcə tarımdır qara günlərdə dildarım mənim.
Çox vəfalı dostlarım vardır, yaman gün gələcəyin,
Tardan özgə qalmayır yari vəfadarım mənim.
...Yer tutub qəmxanədən, qıldım fəramüş aləmi,
Mən tarın qəmxarı oldum, tar qəmxarım mənim[1].

Şəhriyar belə hesab edirdi ki, insanın dərdlərin, ən çətin dəqiqələrinin həmdəmi, ürək yaralarının çarəsi musiqidir. O, küsmüşləri həyata qaytaran, şairlərə ilham verən, gəncləri eşq havası ilə silahlandıran, uşaqlarda incə duyğular, həssas qəlb yaradan bir vasitədir. Şəhriyar yazırdı:

Gözəlim,, bir qulaq as, dərdimizin tərcüməsi,
Musiqi varsa, onun həm bəmidir, həm zilidir.

Şəhriyarın estetikasında rəsm əsərlərinin xüsusi rolu olduğu aydın görsənir. Şəhriyara görə insanlığı dirildən, keçmişi indiyə, indini də keçmişə qaytaran rəsm fırçasıdır. Rəssamın əsərlərinə insanlıq baş əyir, onu sevir. Hər kəs özünü, özünün dərslərini, xoş dəqiqələrini rəssamın rəsmlərində izləyir. Şəkilə vurulmuş rənglər həm kölgəli, həm nurlu, həm vahiməli, həm də şən olur. Rəssamın tablolarına vurulmuş rənglərdə ötən qərinələr, qəhrəmanlıq səhifələri, xarabaya dönmüş dünya özünün əksini tapır.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 173.

Şəhriyar rəssam fırçasının hər tükünün şair xəyalından toxunduğunu yazır. Çünki o, axan göz yaşını, qətlə yetişən bir qəhrəmanlıq obrazını, namuüs oğrularım, övladları yolunda çıraq olan valideynləri canlandırır. Şəhriyar yazırdı:

Əziz rəssam!
...Bir rəssam dəftəri yarat.
Faciəylə dolu hər varağı.
Taxtaya dönmüş bir sinə, Qırışmış dəri,
Xətləri qabırğa sümükləri
Bir sinə də çək.
Ancaq üstündə yaz.
Burada bir ciyər də varmış,
Bir vaxt.

## Məhəmməd Hüseyn Şəhriyar ana dili haqqında

Hələ vaxtilə ana dilini xəlqiliyin ən gözəl ifadəçisi hesab edən K.D.Uşinski yazırdı: "Xalqın dili onun mənəvi həyatınm heç bir vaxt solmayan və daim çiçəklənən, tarix sərhədlərindən çox uzaqlarda başlanmış boyasıdır. Dildə bütün xalq və onun bütün vətəni canlanmış olur. Xalq dilinin parlaq, aydın dərinliklərində, doğma ölkənin tək bir təbiəti deyil, həm də xalqın mənəvi həyatınm bütün tarixi əks olunur... dil, xalqın içərisində ölüb gedənləri, yaşamaqda olanları və gələcək nəsilləri, böyük tarixi şanlı bir şəkildə birləşdirən ən canlı, ən məhsuldar və ən möhkəm əlaqədir. Dil nəinki, xalqın həyatiliyini özündə ifadə edir. O, eyni zamanda məhz həyatın özüdür. Ana dili məhv olarkən, xalq artıq yox olur. Hər bir yeni nəsil ana dilinə sahib olarkən ondan qabaqkı nəsilllərin fikir və hisslərinin bəhrələrini mənimsəyir. Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, o, eyni zamanda, ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir"[1].

---

1 K.D.Uşinski "Seçilmiş pedaqoji əsərləri". Azəməşr 1953, səh.113.

Ana dilinin gözəlliyi və zərurəti barədə Uşinski tezisini əsas götürən Azərbaycan ziyalılarından: F.Köçərli ana dilini yüksək qiymətləndirərək yazırdı: "Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir"[1].

Fərhad Ağazadə isə bir az da irəli gedərək yazırdı: "İnsan övladının incə hisslərini oyandırmaq üçün ana dili birinci vasitədir". O taylı bu taylı müstəmləkə şəraitində yaşayan Azərbaycanın qabaqcıl nümayəndələri ağır təqib və təhqirlərə baxmayaraq ana dilini ruslaşdırmaq və farslaşdırmaq istəyən müstəmləkəçilərə qarşı dönmədən mübarizə apararaq, ana dilinin müstəqilliyini, təmizliyini saxlamağa çalışmışlar.

Məlum olduğu olduğu kimi Məhəmməd Rza Şahin hakimiyyəti dövründə irtica gücləndi. Fars şovinizmi daha geniş vüsət aldı. Azərbaycanın şəhər və kəndləri dağılırdı. Hər yerdə qeyri farslar, xüsusəndə Azərbaycanlılar, təqib olunmağa başladı. Belə bir şəraitdə fars məmurları Azərbaycan dili və azərbaycanlılarla ən alçaq irq kimi davranmağa başladılar. Hətda azərbaycanlıları fars dilində danışmağa məcbur etməyə başladılar. Bu dildə danışmayanlar tənbeh və cərimməyə məruz qalırdılar. Rza şahın hər yolla millətlər arasında münaqişə yaratdığını duyan farslar türk mənşəli adamları "Eşşək türk" deyə çağırırdılar. Azərbaycana, azərbaycan dilinə və xalqına belə təhqiramiz münasibətdən hiddətlənən Şəhriyar yazdı:

Məni Qafqazlı qardaşlar
Həmişə səslədi "qardaş"
Min hörmət görmüşəm turkdən
O olmuş qəlbimə sirdaş.
Fəqət Tehrana gəldim,
Gözlərim tökdü yenə qan, yaş.
Mənə düşmən kimi baxdın,
Nə yerdə olmuşam düşmən?
Ayə Tehranlı insaf et, de.

---

1 F.Köçərli "Seçilmiş əsərləri" səh.202.

Eşşək sənmisən, ya mən.
O vaxtacan ki, arxan
Od diyarı Azəristandı
Hənasan olmadın bir kimsədən
Düşmən hərasandı.
Niyə zor, kürd oldu yağı
Onlarla müşkül asandı.
Hanı o mərd Qaşqaylar,
Sənin zülmündən, artıq.
Bir haraylar qaldı, bir haylar.
Necəsən, "pəhləvan", indi?
Nə ox qalmış, nə də cövşən,
Ayə, tehranlı insaf et, de.
Eşşək sənmisən, ya mən?

Şəhriyar mövcud İran şah quruluşuna qarşı mübarizə apararkən Azərbaycan dilinin müstəqilliyini, təmizliyini saxlamaq uğrunda çalışaraq, Turk dilini "Çoban dili", "Rəiyyət dili" hesab edən farslara qarşı çıxaraq, qorxu bilmədən, yazdı:

Türkün dilitək sevgili ehsaslı dil olmaz,
Ayrı dilə qatsan bu əsl dil əsl olmaz.
Öz ləfzini farsa, ərəbə qatmasa şair,
Şerin oxuyanlar, eşidənlər kəsil olmaz.
Şerin gərək ehsas ilə, riqqətlə qarğışın
Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.

Şəhriyar ana dili uğrunda mübarizə apararkən, belə hesab edirdi ki, ədiblərin, şairlərin yazdıqları kitab, şer elə təmiz, saf, doğma türk dilində olmalıdır ki, ondan ancaq yüksək təbəqələr deyil, kəndli də oxuyanda həzz alsın. Şəhriyar xüsusən yazıda sözlərin yerində mənalı işlənməsinə xüsusi əhəmiyyət verərək onların mirvari dənələri kimi düzülməsini vacib hesab edirdi. O, belə hesab edirdi ki, bu mirvari dənələri arasında oxuyanlar artıq, lazımsız zir-zibil tapmasınlar. O yazırdı:

Sözlər də cəvahir kimidir, əsli-bədəldən,
Təşxis verən olsa, bu qədər zir-zibil olmaz.

Azərbaycan dilinin təmizliyini, gözəlliyini saxlamaq istəyən Şəhriyar, bu dili əsərləri ilə bir az da zənginləşdirdiyini yazırdı:

Türki bir çeşmə isə mən onu dərya elədim
Bir soyuq mərəkəni məşhəri-kubra elədim

Şəhriyar yazırdı ki, əgər ana dilimiz çətinliklə görünən bir ulduz idisə də, mən onu göz yaşlarımla yeddi qardaş ulduza çevirdim. Şəhriyar daha sonra yazırdı ki, balaca bir bulağı mən dəryaya çevirdim və ümid edirəm ki, bu dəryanı okeana çevirəcəyəm.

Bir işıltıydı, söha ulduz tək görünməz.
Göz yaşımla mən onu üqdi-sürəyya elədim.
Ümidim var ki, bu dərya hələ okeanus ola
Ona zamin bu zəminə ki, mühəyya elədim.

Şəhriyar yazırdı ki, Azərbaycan dilini fars şovinistləri nə qədər korlamağa çalışsalar da, mən onlara sinə gərə bildim, Azərbaycan dilinin saflığını saxlayaraq, ona yeni həyat verə bildim. O yazırdı:

Türkün canını almışdı həyasız taqut
Mən həyat aldım ona haqq üçün əhya elədim.

Şəhriyar "Heydər babaya salam" poemasını yazmaqla bütün dünyaya göstərdi ki, Azərbaycan dili gözəl, məlahətli, sadə, zəngin bir dildir. Şəhriyarın bu poeması İranda, Yaxın şərqdə, Türkiyədə, Qafqazda geniş yayıldı. Oxuyanlar gördülər ki, bu dil həqiqətən zəngindir. Şəhriyarın özü yazırdı ki, mən Azəri-türk dilini yüksəklərə qaldırmaqla Tehranda filosofları valeh etdim və Təbrizdə fars dilində yazan bir çox şairlərin Azərbaycan dilində yazmalarına səbəb oldum.

Acı dillərdə şirin türki olurdu hənzəl
Mən şirin dillərə qattım, onu həlva elədim.
Hər nə qalmışdı keçənlərdən ona bal pətəyi
Əridib mumlu başın, şəhti-müsaffa elədim.
Türki, vallah analar oxşağı, layla dilidir
Dərdimi mən bu dava ilə müdava elədim.

Şəhriyar ana dili uğrunda mübarizədə təqib və təhqirlərə baxmayaraq, onu vəhşilərin pəncəsindən çıxarıb, farsın türkün dilinə hörmət və ehtiram göstərməsinə nail oldu. Şəhriyarın bu poeması o qədər təsiredici qüvvəyə malik oldu ki, dünyanın müxtəlif ölklərində onun "Heydər baba" əsərinə nəzirə yazdılar. Biz burada professor Tahir Əhmədzadə Məhərrəmovun Şəhriyarın poemasına yazdığı "Qazança dağma salam" nəzirəsinqdən bir parça verməyi lazım bildik: Şəhriyar el adətləri, uşaqlıq illərini, müəllimlərinin humanist münasibətini, uşaqlıq şıltaqlığı, kənd həyatını təsvir etdiyi kimi, Tahir müəllim də yazır:

Pəyə kürüyərdik, mala gedərdik,
Evdə atamıza kömək edərdik
Dərsləri də yazardıq, öyrənərdik
Müəllimlər bizdən razı qalardı
Uşaqların çoxu əla alardı.

Molla Bağır bizə dərs öyrədərdi
Şagirdləri ata kimi sevərdi
Savadsızlar, sanki, kordur deyərdi
Yadımdadır onun nəsihətləri,
Hikmətli sözləri, məsləhətləri.

Şəhriyarın "Heydər baba" poeması elə bir sadə xalq adət və məişətini açıqlayan dildə yazılmışdır ki, inana bilmirsən ki, onu oxuyan hər bir kəs vətənin gözəlliyini, türkün böyüklüyünü sevib onu qorumasın.

Şəhriyar 1987-ci ildə Təbriz universitetində "Azərbaycan-Türk dili və ədəbiyyatı" seminarında "Türk övladı, qeyrət vaxtıdır" şerinin yazılma tarixi haqqında belə bir faktı açıqlamışdır: "Bakıda Həkimə xanım adlı bir şairə var ki, mənim həyatımdan öz doktorluq əsəri üçün mövzu seçmişdir. Bir nüsxə o kitabdan ki, rus əlifbasındadır mənə göndərmişdir. Mən gördükdə ki, bu yazını oxuya bilmirəm, çox mütəəssir oldum və başa düşdüm ki, əlifbamızı ayırmaqla bizim haqqımızda nə böyük xəyanətə yol vermişlər. Necə bizi bir-birindən ayırıb tikə-tikə ediblər. Onda bu şeri yazdım:

Ayırıb şeytan əlifbası sizi allahdan,
Öz əlifbamızı yazsaz, tapasız quranı
Dünya beş gündür, cəhənnəm də olursa, olsun,
Gəl cahad ilə tapaq cənnəti-cavidanı.
Akifin[1] şerin oxu gör nələr etmiş bizə küfr
Hər qədəm bir quyu qazmış, nə də salmış dərinə
Biz də islama qayıtdıqda gəlin əlbir olaq
Türklərin hər iki dünyası qayıtsın geriyə.

Şəhriyar əlifbamızı qaydaya salmaq, şərəf və ləyaqətimizi qorumaq, dilimizi saxlamaq və onu daha da inkişaf etdirmək üçün xalqı mübarizəyə səsləyərək yazırdı:

Türklərin qeyrəti Türkiyədə, Qafqazda gərək,
Qaynasın indi ki, İslamda cahad meydanıdır…
Kifr gördüz necə çiy-çiy yedi islam ciyərin
Sizdə küfrün ciyərin indi kabab etməlisiz
Şeytan aldı sizi, cənginə cavab etdi bizə
Siz də şeytani cavab ilə cahad etməlisiz

## Məhəmməd Hüseyn Şəhriyar ailə tərbiyəsi haqqında

Şəhriyar yaradıcılığında ailə tərbiyəsinə yüksək qiymət verərək belə hesab edirdi ki, ailə uşaqlara hədsiz dərəcədə diqqət və qayğı ilə yanaşmalıdır. Əgər ailədə zəhmət, səmimiyyət varsa, orada ata-ana sözünün qədri qiyməti var. Şəhriyara görə əgər valideynlər uşaqlarına səmimi, doğru, sağlam mühit yaradarsa, orada nəzakətsizlik, nadinclik, ərköyünlük, əxlaq normalarından kənara çıxmaq halları ola bilməz. Şəhriyara görə ailə uşaqların təqlid edəcəyi nümunə yeri olmalıdır. Ata-ana uşaqlarına diqqətli olmalıdır, çünki, uşaq gördüyünü götürür. Şəhriyarda məhşur İsveçrə pedaqoqu Pestalossi kimi ailə tərbiyəsinin ilk əlifbasını uşaqların analarına olan məhəbbəti hesab edirdi. O, yazırdı ki, ana məhəbbəti uşaqlarda hiss, həyəcan, doğruluq, düzlük, sədaqət, vəfa kimi yüksək insani duyğular yaradır. Ona görə də Şəhriyarın anasının ölümü münasibəti ilə yazdığı "Ey vay anam" şerində ən yüksək insani duyğuları belə təsvir edirdi. "Anamın ürəyi səksəkəli, qulağı səsdə keçdi, xəyalımda onun ürəyinin məhəbbətini qatıb bişirdiyi səbzəsi, aşı canlanır. O mənim gözümdə səhərdən axşama kimi zəhmət içərərisində dolanan, işləyən, paltar yuyan, odun daşıyan, səhər pilləkənlərdən bizi yuxudan oyatmamaq üçün ayağınm ucunda asta çıxan, özü haqqında düşünməyən, köhnə çarşab, köhnə başmaqda, yamaqlı corabda gəzən, ancaq bizi məhəbbətlə təmiz, qəşəng geyindirən bir ülvü qadın kimi qalıb. Anam ata qüdrətli, bacı şəfqətli, kişi qeyrətli bir arvad idi. O neft əvəzinə gözünün odunu töküb ocağı yandıran arvad idi. Mənim anam Təbrizin özü kimi əzəmətli idi. O, dərdli olanda gizli-gizli yaş tökər, ancaq dərdini heç kəsə açmazdı. Ondan ötəri qızılın, briliyant və cəvahirətin heç bir dəyəri yox idi. Evinin sərvəti xalqının sərvəti idi. Onun sərvəti açıq süfrəsində yoxsulları yedirmək, nəvazişə möhtac olanlara nəvaziş göstərmək, hamını gülüşlə qarşılamaq və bir kəsə də ağır söz deməmək idi. Alnındakı

qırışları günəşin şüasına oxşayırdı. Anam mənim o qədər qayğılı arvad idi ki, gecələr də durub, yorğanımı üstümə çəkər, gecə yarı stəkana, su töküb içirərdi. Mən xəstə olanda şəfqət bacısı kimi səhərə qədər yatağımın başında mürgüləyən, mənim sağalmağım üçün səhərə qədər sakitcə allaha dua edən arvad idi. Şəhriyar yenə də anasınm insani keyfiyyətlərini sayarkən deyirdi ki, bilirsinizmi o necə ana idi. O, necə məni şair etdi. O, mənə həqiqətləri dediyi, əfsanələr, nağıllar danışdığı, bayatılar, nəğmələr oxuduğu, beşiyimin başında gülüb ağladığı, bələyimi mahnılarla bağladığı üçün, mənim xəyallarım qanadlanıb, mənim eşqim, ilhamım, qəmli, kədərim, xoş günlərim, yazdığım ən yüksək misralarımda onundur. Şəhriyar yazırdı ki, anam məni yaratdı, mən də aləm yaratdım. O, anasının həyatım əxlaq dərsi olduğunu, anasının insani keyfiyyətlərini ailə tərbiyəsinin əsasını təşkil etdiyini yazarkən bütün varlığı ilə ona borclu olduğunu yazırdı:

Nə qədər ki, mən sağam, anam da sağdır mənim!
Səsimdə nəfəsimdə yaşayacaqdır mənim.
Yaşayacaq qəmimdə, pərişan gülüşümdə,
Bir sözünü yaz edib qırılan gülüşündə.
Onun südündən əmdim, mən şairlik təbimi,
Həyatımı, ömrümü, ilhamımı, qəlbimi.
Bir şairə döndərən, bir məşələ döndərən,
Anam oldu! Anamdır hər şeyi verən!
O mənim məbədimdir
Ölməzdir, əbədidir.
Heç ölərmi söyləyin, sual verin cahana,
Şəhriyarı yetirən şir ürəkli bir ana
O sevgidən yoğrulmuş yanar, qaynar bir ürək
Hara getsəm, köksümdə mənimlə bir gedəcək[1].

Şəhriyar ailə tərbiyəsində valideynlərin roluna yüksək qiymət verərkən, onların təmizliyi, mərdliyi, kişiliyi, halalhğı,

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 247.

uşaqlarına olan məhəbbətinin necə böyük əhəmiyyət kəsb etdiyini deyərkən, atasının da uşaqların tərbiyəsində müstəsna rolunu qeyd etmişdir. O, yazırdı ki, atam qüvvətli, qüdrətli, cürətli, namuslu adam olduğu üçün də mənim anam, yüz evin iftixarı olan belə atanın yadigarı idi. Şəhriyar atasının obrazında uşaqları şərq mentaletitinə uyğun necə tərbiyə etməyin yollarını göstərmişdir.

Mənim atam süfrəli, duz-çörəkli kişiydi,
Ər ürəkli kişiydi[1].

Şərq aləmində duz çörək vermək, qonaq qəbul etmək və onu ləyaqətlə yola salmaq ailə tərbiyəsinin ayrılmaz hissəsi hesab edilirdi. Şəhriyar belə hesab edirdi ki, uşaqlar ailədə halal yol ilə, zəhmətlə qazanılan pulu, malı gördükdə mənəvi cəhətdən daha təmiz olur və gələcək həyat yolunu zəhmət, halalıq üzərində qururlar. Şəhriyar, bu halalığın timsalı kimi atasını misal gətirirdi.

Halal gəliri vardı, heyhat dərdi də çox idi
Öləndə bircə illik xərcliyimiz yox idi.

Şəhriyar yazırdı ki, halal zəhməti ilə yaşayan atamın malı dövləti olmasa da, onun el arasında, xalq içərisində böyük hörməti var idi. Bu şərəfi ona gətirən onun düzlüyü, doğruluğu, zəhməti və halalığı idi. Şəhriyar yazırdı ki, atam bu keyfiyyətləri biz uşaqlara da aşılaya bilmişdi.

O öləndə gözlərdən nə qədər yaş süzüldü
Onun varı, dövləti,
Məhəbbəti hörməti,
Sonsuz mirvarilər tək kirpiklərdə süzüldü.
Arxasınca həm də ah çəkir el sinəsi
Bir rəhmət qafiləsi (dəvə karvanı) məhəbbət qafiləsi[2].

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 249.
Yenə orada, səh. 250

Şəhriyar ailə tərbiyəsində ana ilə atanın həmrəy yaşamasını zəruri şərt sayırdı. Ata ilə ananın münaqişəli yaşaması uşaqlarda ikiüzlülük, yalançılıq, yaltaqlıq kimi ən yaramaz əxlaqa zidd sifətlər tərbiyə edir. Şəhriyar yazırdı:

İndi bizim üç balamız vardı, gərək
Ata-ana savaşsa da bunları xatir barışa.

Şəhriyar ailə tərbiyəsinin doğru qurulması üçün ərlə arvadın bir-birinə müvafiq olmasını vacib sayırdı. Valideynlər görüşlərində, hərəkət və davranışlarında da bir-birinə uyğun olmalıdırlar O, yazırdı:

Bu dünya bir yol kimidir, biz axirət müsafiri,
Kərəvədə (dəvə üstə) hamaş (yol yoldaşı) gərək öz hamaşına yaraşa

Şəhriyar belə hesab edirdi ki, ailədə nə qədər böyük münaqişə olsa da onu su səpib sakitləşdirmək lazımdır. Hər iki tərəf tərsliyə varsa fəlakət böyük olar, küsülülük baş verər, uşaqların mənəviyyatına bu küsülülük pis təsir göstərər.

Seldi, gələr, axar, keçər, amma gərək aşıb daşa
Məsəldi "Yer ki, bərk olur, öküz-öküzdən inciyir.

Şəhriyarm əsərlərində ailə tərbiyəsinin çox vacib bir məsələsi, qızların tez ərə verilməsi məsələsinə də diqqət yetirilmişdir.

Şəhriyar yazırdı ki, hər kəs öz tayını tapmalıdır. Qoşquda öküzlə buzov bir gəlmədiyi kimi, bir yastığa baş qoyan adamlar da bir-birinə müvafiq olmalıdırlar. Özündən çox-çox yaşlılara, ərə gedən qızlar uşaqlarını gələcəkdə ata qayğısından məhrum etmiş olurlar. 50 yaşında kişiyə ərə gedən qız ərini vaxtsız itirdiyindən, uşaqlara baxmaq, onları iqtisadi cəhətdən təmin etmək və onların tərbiyəsi ilə məşğul olmaq imkanmdan məhrum olurdu. Şəhriyar yazırdı:

Cütçü görübsən öküzə, öküz qoyub buzov qoşa?
Söylə , görüm otuz yaşın nə nisbəti 50 yaşa?
Sən yerə qoydun başıvu, mən başıma nə daş salım.
Bir də bəlalı baş neçin süpürgə bağlasın?

Şəhriyar ailə tərbiyəsindən bəhs edərkən "Qardaşım oğlu düşəngə" şerində uşaqların ailədə düzgün tərbiyə olunması üçün ailənin roluna yüksək qiymət verərək, valideyinlərin uşaqlarının təhsil alması üçün də şərait yaratmasını da zəruri hesab edirdi.

Əgər elm aləmində hasilin var.
Bu xərməndə sənində sünbülün var
… Bu dürrün qədrini bilsən əgər sən,
Uçub şahin kimi hey yüksələrpsən[1].

Şəhriyar belə hesab edirdi ki, uşaqların gələcək səadəti xoşbəxtliyinin təməli ailədə qoyulmalıdır. Ailə uşaqlara yüksək əxlaqi sifətlər aşılamaqlı, pak və təmiz dostlarla əhatə olunmasına şərait yaratmalıdır.

Gərək insan olan ilk ibtidaidən
Səadət axtara dünyada hökmən[2].

Şəhriyar uşaqların küçə və meydanlarda fal açdırdığını, xoruz döyüşdürdüyünü, it boğuşdurduğunu, səhərdən axşama kimi divarların dibində müqəvva kimi oturub tiryək çəkən, qumar oynayan gənclərin bu bədbəxtliklərinin səbəbini ailə tərbiyəsinin pis olmasında və uşaqların məktəb təhsilindən kənarda qalmasında görürdü. Şəhriyar belə hesab edirdi ki, məktəb təlimi, məktəblə ailənin əlaqəsi hər bir gəncin həyatında gül bitirər, gözəllik gətirər:

Gül əkdi atan, anan doğub gül,
Bar verdi bu nəslin bağı gül,

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 348.
Yenə orada, səh. 350.

Əslin elə safdı - nadir-inci,
Sənsən çırağı gözü sevinci.
Gül dəsdəsi tək bəzəkli gülgün.
Məktəb yolunu gedirsən hər gün.

Şəhriyar özü ailədə vətənpərvərlik ruhunda tərbiyə olunduğu üçün o, bütün ailələrin uşaqlarını vətənə hədsiz məhəbbət ruhunda tərbiyə etməyi, vətən yolunda şəhid olmağı şərəf saymağı uşaqlara aşılamağı məsləhət bilirdi. Şəhriyar "Balaca əsgər" şerində vətən eşqilə yanan gəncləri tərbiyə edən valideynlərə hüsnü rəğbətini belə ifadə edirdi.

Səni bu cür böyüdənin dolanım başına gərək.
Gah-gah əllərindən öpəm, gah-gah ətəyindən tutam.

Şəhriyar eləcə də uşaq fəallığını, uşaq müstəqilliyinin qarşısını almamaq, onu inkişaf etdirməyi vacib hesab edirdi. O "Heydərbabaya salam" poemasında uşaqlıq illəri haqqındakı xatirələrində göstərirdi ki, onun valideynləri uşaqlarını zəhmətə alışdırmaqla yanaşı, onların müstəqil fikir söyləməsinə, oynamasına, "dəcəlliyinə", uşaqlarla "birlikdə şən, məsud həyat keçirmələrinə necə şərait yaratdıqlarını yazırdı.

Şəngilova yurdu aşıq alması,
Gah gedib orada qonaq qalması.
Daş atması, alma-heyva salması,
Qalıb şirin yuxu kimi yadımda.
Quşlar təki qanad çalıb uçardım[1].

Şəhriyar özünün yüksək əxlaqi sifətləri, səmimi halal zəhməti və şair kimi yetişməsi ilə valideynlərinə borclu olduğunu və onların xatirələrini ömrünün sonuna kimi saxladığını yazırdı.

Zaman keçir üfüqlərdə toz qalır,
Karvan kimi uzaqlarda toz salır.

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 9.

Duman gəlir ürəkləri çulğanır,
Ürək deyir zaman keçmə amandır.
Keçənlərdə gözüm var. bir dayan dur![1]

## Məhəmməd Hüseyn Şəhriyar xalq maarifi haqqında

Cənubi Azərbaycanda barmaqla sayıla biləcək qədər Azərbaycan məktəblərinin olması, olan məktəblərin isə yarıtmazlığı Şəhriyarı həddən artıq narahat edirdi. Elmə və gənc nəslin təhsilinə, maariflənməsinə böyük əhəmiyyət verən Şəhriyar maarifin belə acınacaqlı halda olmasını Dövlətin maarifə, təhsilə qarşı təhqiramiz münasibətində görərək öyünməyə heç bir şeyimiz yoxdur deyirdi. O, dövlətin iqtisadiyyatının bərbad, siyasi azadlığın olmamasını və maarifin acınacıqlı halını millətə xəyanət adlandırırdı. Şəhriyar "Maarifimiz" şerində məktəblərin balaca məscidlərə oxşadığını və proqramların yarıtmazlığını deyərkən, onların xaricilərin əli ilə yazıldığını, bu proqramların azərbaycan mentalitetinə, Azərbaycan dilinə uyğun olmayıb, fars şovinizmini təbliğ etdiyini və farslaşma niyyətini güddüyünü yazırdı. O yazırdı ki, uşaqlar dərslərdə tutuquşu kimi öz dili ilə özgələrin fikrini təkrar edirlər. Məktəblərdə əzbərçilik, formalizm baş alıb gedir. Uşaqların şüurlu mənimsəyəcəyi üçün heç bir şey yoxdur. Məktəblərdə uşaqlara Azərbaycan tarixi, ədəbiyyatı təhrif olunmuş, düzü əyri, əyrini düz şəklində öyrədilir. Şəhriyar yazırdı ki, təhsildə ona görə işlər əyri gedir ki, məktəblərin üzərində irticanın güclü nəzarəti var. Ölkədə izləmə, danos elə həddə çatıb ki, bir balaca maarif işığı gələn yeri yeddi yerdən bağlayırlar. Maarif qaranlıq, zülmət, cəhalət içərisində çabalayır. Şəhriyar xalqa müraciət edərək, "Bəsdir xaricilərin zurnası ilə oynadıq!" - deyirdi və xalqı maarifi öz əlinə almağa, uşaqlarına dünyəvi təhsil verməyə çağırırdı. Şəhriyar yazırdı ki, əgər bu cəhalət

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. 2000 il, səh. 21.

yuxusundan ayılmasaq yenə də maarif zülmətində yaşayacağıq. Şəhriyar təhsilin məzmununa da toxunaraq İran məktəblərinin uşaqları həyata hazırlamadığını, onlara elmi biliklər verilmədiyini, peşə hazırlığının zəif olduğunu, gənclərin məktəblərdən ideyasız, biliksiz, cürətsiz, həyata hazırlıqsız çıxmasının əsas səbəbini dövlətdə görərək yazardı ki, oğru dövlət uşaqlara düzlük, doğruluq, sədaqət və səmimiyyət, elmi biliklər verə bilməz. Şəhriyar yazırdı ki, məktəblərdə uşaqlara elmi biliklər əvəzinə nəsihət, quru sözçülük, dövlətə itaət aşılanır. Ona görə də bu məktəbdən ağalarına sözsüz itaət etməyi bacaran məzmunsuz, ideyasız satqın adamlar cücərib çıxır.

Şəhriyar maarifdə, təhsildə olan belə rüsvayçılığın, xəyanətin ali məktəblərdə də olduğunu yazırdı. O, yazırdı ki, Darülfünunlarda müdərrislər başa düşür ki, yalan danışır, onun dediyi dərs həyat yox, siyasətdir, əlacı olmadığından gənclərə yarımçıq, təhrif olunmuş biliklər verir. Şəhriyar xalqı mübarizəyə çağırarkən deyirdi ki, necəki, maarif, məktəb qeyrətsizlər, namussuzlar əlindədir o, xəyanətin içərisində boğulacaq, onu azad etmək lazımdır. Dediyimiz fikri daha qabarıq şəkildə açıqlamaq üçün Şəhriyarın maarifimiz şerini tam verməyi məsləhət bildik.

## Maarifimiz

Nəyimiz var öyünməli, cəhalətdir maarifimiz,
Maarifin özündə xəyanətdir maarifimiz.
Əcnəbilər qələmilə yazılmışdır proqramı,
Tutuquşu dərsi verir, o səfalətdir maarifimiz.
Ustalaşıb düzü əyri, əyrini düz tanımağa.
Yazıq millət, faciədir, müsibətdir maarifimiz.
Hardakı nur qapısı var, yeddi yerdən qırılmışdı.
Bir qaranlıq uçurumdur, bir zülmətdir maarifimiz.
Əcnəbinin tənəbüünə oynadığın yetər bəsdir
Oyan millət, öz gözünlə gör, qəflətdir maarifimiz.
Gözlərini aça bilsən bu ağır div yuxusundan

Nalən qatar fələklərə, fəlakətdir maarifimiz.
Cavanlara nə bir sənət, nə də həyat dərsi verir
Ağır zillət qapısım cəhalətdir maarifimiz.
Oğrulara şərik dövlət, doğruluqdan dərs öyrədir
Başdan-başa quru sözdür, nəsihətdir maarifimiz.
Bu dövlətə qulluq etmək, məmləkətə xəyanətdir.
Xainliyə, satqınlığa əlamətdir maarifimiz.
Ömrümüzün altı illik güc tacımı yerə verən.
Darülfünun nə öyrədir, səfalətdir maarifimiz.
Müdərrislər bilə-bilə təliminə yalan qatır.
Ona belə mənfəətdir, zəlalətdir maarifimiz.
O, "xəyanət baxçasından" gül dərsə də, susur yenə.
Nə eyləsən, əlacı yox, rəzalətdir maarifimiz.
Bilsək vətən, hünərsizlər, qeyrətsizlər əlindəsən
Başdan-başa xəyanətdir, cəhalətdir maarifimiz.

## Məhəmməd Hüseyn Şəhriyar müəllim haqqında

Hələ 1908-1909-cu illərdə F.Köçərli "Müəllimlərimiz və onların halı" məqaləsində yazırdı: "Müəllim məktəbin canı və içində olduğu camaatın çırağı məqamındadır. Müəllim öz işini sevsə, öz şagirdlərini övladı kimi istəsə, onların təlim və tərbiyəsinə can yandırsa, əhalinin gözünü açmağa və xeyir yetirici biliklər ilə cəhalət pərdəsini yırtmağa sərfi-hümmət etsə, bilaşübə, böyük kəramətlər göstərər və cümlənin rəğbətinə və məhəbbətinə məzhər olar... Hər bir şey məhəbbətlə bağlıdır". Elə bil bu sözlər Şəhriyarın təsvir etdiyi hörmətli və əziz müəllimi Hacıağa Əmir Xızı haqqında deyilmişdir.

Həyatda Əhmədağa Mustafayev, İsabəy Abakarov, Pestalossi, H.K.Sanllı, M.Qarayev və s. kimi elə müəllimlər olmuşdur ki, onların yüksək vəzifə, mənsəb sahibi əldə etmək imkanı olduğu halda, onlar bütün həyatını, malını, dövlətini

cəhalətdə qalan xalq balalarına həsr ediblər. Az maaş, yararsız ev şəraiti, dindarların mürtəce hissəsinin təqibanə, palçıqlı kənd yollarının ağırlığına baxmayaraq bu əzablı işlər onları qorxutmayıb. Onlar xalqı və xalq balalarını cəhalətdən çıxarmaq yolunda vətənpərvərlik nümunəsi göstəriblər. Çox təəssüf ki, cənubi Azərbaycanda Rüşdiyyə, Şəhriyarın şerlər həsr etdiyi Molla İbrahim, Müseyib, İsmayıl kimi yüzlərlə müəllimlər barədə bizim məlumatımız yoxdur və təssüf ki, indi müstəqil respublika olduğumuz bir dövrdə, onları axtarıb tapmaq həvəsimiz də yoxdur.

Şəhriyar müəllim obrazını, onun şəxsi keyfiyyətlərini, mərifətini, təlim tərbiyə işində nümunəsini, dediyi söz, atdığı addım, səbirli olması, lazım gələndə güzəştə getməsini, uşaqları sevməsini, onlara valideyn qayğısı göstərməsini, uşaqlara qayğı ilə tələbi necə birləşdirməsini, tələbkarlığı, Şəhriyarın həyatında böyük rol oynayan müəllimi İsmayıl ağa Əmirxizinin xatirəsinə həsr etdiyi "Ustadın surəti" şerində çox obrazlı şəkildə bədii lövhələrlə göstərmişdir. Şəhriyar belə hesab edirdi ki, müəllim uşaqların gözündə vüqarlı, təmkinli, möhtəşəm olmalıdır. O, müəllimin bu keyfiyyətləri ilə bərabər nüfuz edici baxışı, yerişi-duruşunun da çox vacib olduğunu yazıb müəllimini belə təsvir edirdi:

Görkəmli möhtəşəm, başı vüqarlı,
Bir azca qaraşın üzündə təmkin.
İri qara gözlər nüfuz edici,
Üst göz qapaqları bir azca şişkin.

Şəhriyar yazırdı ki, müəllim xalqını sevməlidir, kütlələrin önündə getməlidir, yaşadığı ərazinin adamları onu ağsaqqal, böyük kimi tanımalıdır. Şəhriyara görə müəllimin sözünün dərin məna və məzmunu olmalıdır. Fikirlərində tərəddüd etməməli və qəti olmalıdır. O, yazırdı:

Hər sözü samballı, hər fikri qəti,
Sevdiyi kütlədən bir azca öncə,

Böyüklərə məxsus hər şey vardı,
Heç nə kəm deyildi böyüklüyündə.

Şəhriyar müəllimin keyfiyyətlərindən danışarkən onun ata məhəbbəti, yüksək humanizmi, qayğıkeş münasibəti ilə bərabər tələbkar olmasını lazım bilirdi.

Təlim prosesində məhəbbəti tələblə birləşdirməyin olduqca böyük pedaqoji əhəmiyyəti vardır. Bu pedaqoji prinsipi yerinə yetirən müəllimlər ömürlük şagirdlərinin qəlbində və şüurunda həkk olunur.

Şəhriyar yazırdı ki, Allah mullimi İsmayıl ağaya elə görkəm vermişdi ki, bu görkəm onun şagirdlərini cadulayırdı. Ona nəinki şagirdəlri, adicə kəndlilər də qarşı-qarşıya gəldikdə böyük hörmət və ehtiram göstərirdilər. Şəhriyar yazırdı:

... Nəvazişi ipək, kini alovlu,
... Tanrı elə görkəm vermişdi ona,
Görənlər az qala cadulanardı
Onun baxışıyla rastlaşanların
Gözündə ehtiram nuru yanardı.

Şəhriyar müəllimin əxlaqi simasından bəhs edərkən papiros çəkməyi, içki içməyi müəllim üçün qəbahət sayırdı. Belə müəllimlər heç vaxt şagirdlərinə nümunə ola bilməzdi. Şəhriyara görə müəllim çəkişmədən, riyadan uzaq olmalı, o özünün sadəliyi, təmizliyi, insanların haqq işinə yardım etməsi, fiziki sağlamlığı ilə başqalarından fərqlənməlidir. Şəhriyar yazırdı:

Sadə insan idi, riyadan uzaq
Nə tütün çəkərdi, nə mey içərdi
Elə bil tunc idi, sağlam bədəni
Zərbəsi qurşundan, misdən keçərdi.

Şəhriyar bu keyfiyyətləri mədh edərkən müəllimlərə öz sənətinin ustası olmasını lazım bilirdi. O, yazırdı ki, təlim-tərbiyənin zövqü, ahəngi müəllimin canına hopmalıdır. Qərəzsiz,

riyasız, fitnə fəsaddan, şər işlərdən uzaq olan müəllim hörmətli olduğu qədər də ömrü uzun olur. Şəhriyar bu keyfiyyətlərə görə müəllimi İsmayıl ağanın uzun ömür sürdüyünü yazırdı.

Sənətkar xülqünə hopmuşdu onun,
Təlim-tərbiyənin zövqü, ahəngi,
İzzətlə, vüqarla, yaşadı 100 il,
Bir sərkərdə sayaq, bir xadim kimi

Şəhriyar müəllimin gözəl, səliqəli xətti olmasını, zəhməti, sevməsini, elmin bütün sahələrinə nüfuz etməsini lazım bilirdi. Şəhriyara görə bu keyfiyyətlər İsmayıl bəydə olduğu üçün, dövrün ən yüksək rütbəli adamları olan əmirlər və vəzirlər İsmayıl bəydən çox-çox aşağı görsənirdilər. Şəhriyara görə ciddi, əqidəli və cürətli müəllimlərin yolunun üstündən heç bir hiyləgər keçməyə cürət etməzdi. Şəhriyar müəllimin vicdanlı olmasını, yalan danışmamasını, rüşvət almamasını söyləyərkən belə müəllimlərin həmişə başının uca olduğunu və ölənə qədər mənliyini itirmədiyini deyirdi:

Vicdan hökm edərdi olduğu yerdə,
Yalandan, rüşvətdən qalmazdı əsər
Başı uca idi, mərd, alnı açıq
Mənliyi susmadı ölənə qədər.

Şəhriyar müəllimin ən şərəfli, ən müqəddəs vəzifələrindən birini də vətənpərvərlik olmasını, azadlıq uğrunda mübarizə aparmasını hesab edirdi. O, İsmayıl ağanın məhz belə ömür sürdüyünü deyirdi:

İki misgil qaldı qəlbində yalnız
Azadlıq nisgili, bir də vətən, el.

Şəhriyar yazırdı ki, İsmayıl ağa zamanın qorxunc döyüşlərindən qəhrəman kimi çıxdı. Zamanla ayaqlaşdı. O, təkcə döyüşdə deyil, həm də gündəlik vətəndaşlıq borcunu yerinə yetirərkən, savadsızlığa, elmisizliyə qarşı çıxdı və xalqı o ağır

xəstəlikdən xilas etmək üçün bir loğman kimi yaralara məlhəm qoymağa çalışdı. Şəhriyar yazırdı:

Əziz həyatını elmə, sənətə,
İnsana, dəftərə, qələmə verdi.
Tükənən ömrünün son çağlarını
Yenə kitab adlı aləmə verdi.

Şəhriyar müəlliminin ağır maddi vəziyyətdə yaşamasını yazarkən, müəlliminin aclıqdan qorxmadığını, aldığı az maaşdan qənaət edə-edə yığdığı pulları öləndən sonra qabiliyyətli, maddi imkanı olmayan tələbələrin təhsilinə verməyi vəsiyyət etdiyini yazır:

Az bir təqaüdlə məğrur dolandı,
Qənaət bağından bar dərə-dərə.
Ölüm ayağında azca varını,
Payladı mərd, yoxsul tələbələrinə.

Şəhriyar göstərirdi ki, İsmayıl ağa ömrün zəhmətli əməyi, xalq maarifinə namüusla xidmət etməsi, doğruluğu və inamı nəticəsində adi sinif müəllimliyindən məktəb direktoru və maarif müdürü vəzifəsinə qədər yüksələ bildi. O, ürəyinin bütün atəşini, odunu gənc nəslin təlim və tərbiyəsinə verdi.

...Sinif müəllimi, məktəb müdiri,
Yüksəldi, maarif başçısı oldu.
Bütün küləklərə açdı könlünü
Əl boyda ürəyə dəryalar doldu.

Hələ vaxtı ilə, Firudin bəy Köçərli Azərbaycan müəllimlərinin yay tətili zamanı Şuşa şəhərində xeyriyyəçilik göstərib dərs dediyini və tamaşalar göstərdiyini yazarkən belə müəllimlərin vicdan sahibi vətənpərvər olduqlarını, həqiqi müəllimlik nümunəsi göstərdiyini yazırdı. Şəhriyarın dediyinə görə İsmayıl bəy də belə müəllimlərdən idi.

Ayrılıq çağında, yay tətilində,
Aşıq könülləri sözlə yazardı.
Bəzən kövrələrdi vida dəmində
Kişi sifətinə yaşlar damardı.

Şəhriyar müəllimin ictimai şəxs olmasını, xalq maarifi, körpə uşaqlar, yaşlıların yolunda yorulmadan çalışmasını, dərnəklər yaratmasını, bu dərnəklərdə təhsillə yanaşı elm, ədəb, mərifət öyrətməsini lazım bilirdi. O, İsmayıl bəyi misal gətirərək yaratmış olduğu dərnəklərdə mərifət çırağını yandırdığını, ürəyinin odunu uşaqlara verdiyini belə təsvir edirdi:

Dərnəklər yaratdı o, gecə gündüz,
Mərifət dərnəyi, ədəb dərnəyi.

Şəhriyar İranda İsmayıl bəydən başqa neçə-neçə xalq balalarına ədəb, mərifət, təhsil verən, vicdan sahibi olan mühəndis Natiqi, mütərcim Püsyanı, yüksək namus, vicdan nümunəsi olan maarif müdiri Dehqan kimi müəllimlərin adını çəkir. Şəhriyar yazırdı ki, bu maarif fədailərinin idrakından bir çox yüksək sənət, peşə sahibləri çıxıb. Şəhriyar xalqa xidmət göstərən, onun yolunda hər cür əzab-əziyyətlərə dözən müəllimlərə eşq-olsun deyirdi.

Onun (Dehqanı nəzərdə tutur)-maarif müdiri
idrakından işıq alıbdır,
Gör neçə məktəbin zəka ocağı,
Görüm heç sönməsin onun çırağı.

...Onun məktəbini bitirənlərin
Hərəsi bir müdir, bir igid, bir zad,
Həyatda olsalar, xalqın, vətənin
Başını ucaldar yaxşı bir övlad.

Şəhriyar belə hesab edirdi ki, müəllim quru məmur olmamalı. O, təkcə dərs verməklə, ədəb qaydaları öyrətməklə kifayətlənməməli, müəllim həm də uşaqlara doğru istiqamət verə

biləcək ata məqamında olmalıdır. Şəhriyar özünün həyatını misal gətirərək yazırdı ki, İsmayıl ağa müəllimimiz olmaqla bərabər, o həm də bizim maddi xərcimizi çəkən, ehtiyaclarımızı ödəyən qayğıkeş ata idi. Şəhriyar yazırdı ki, müəllimim məndə elə məhəbbət sevgisinin təməlini qoyub ki, mənim bütün vücudum o sevgi ilə yaşayır.

Təkcə müəllimim deyildi, inan,
Xərcimi ödəyən atamdı mənim,
Cismimdə, canım da adına qruban!
Onun sevgisi ilə yaşar bədənim.

Şəhriyar müəllimin keyfiyyətlərini İsmayıl bəy obrazında cəmləşdirərkən, o bütün müəllimlərin bu keyfiyyətlərə malik olmasın vacib hesab edir və öz həyatını misal gətirirdi ki, İsmayıl ağa onu cəmiyyətin çox hörmətli, aqil şəxsləri ilə tanış etdi. Şəhriyar deyirdi ki, onun tanış etdiyi Şeydanı məni hamiliyə götürdü. Məndən bank işçisi etdi. Bu şəxs təkcə mənə deyil, bir çox adamların pərvazlanmasına şərait yaratdı. Mən yediyim çörək onun çörəyidir. Şeydanı məni öz hesabına İsfana apardı və orada mən bir çox şair və alimlərin mühitinə düşdüm. Ustadım qızıl kimi vaxtını mənə sərf etmişdi. Sonralar mən hər dəfə Təbrizə gələndə, o, özü hər dəfə məndən əvvəl görüşümə gələrdi. Qapıdan içəri girəndə sevincimdən gözlərim yaşarardı. Şəhriyar bu gözəl, nəcib, yüksək, alicənab müəllimi haqda yazırdı.

Ömrünü göz yaşı dirildə bilsə,
Mən qan-yaş tökərdim, əziz müəllim!
Əgər can verməklə, can geri dönsə,
Həyatımı sənə qurban verərdim.

Kaş geri dolana zamanın çərxi,
Sən yenə müəllim, ustad olasan,
Biz də o məktəbin, dəcəl balalar…
Onda biz qoymazdıq sən qocalasan.

Sən ayrı seçkilik qoyardınmı heç?
Hamıya bir gözlə baxardın ata.

Şəhriyar yazırdı ki, mövcud quruluş nə qədər çirkabın içərisində olsa da, müəllim öz müqəddəs vəzifəsini, tərbiyəçi rolunu namusla, şərəflə həyata keçirməlidir. O dərs dediyi uşaqlardan müqəddəs, namuslu adamlar tərbiyə etməlidir. Şəhriyar yazırdı:

Təmiz yaşamağı öyrətdin bizə,
Çirkli cəmiyyətə ögeydi bu dərs
Sənin qazanında qaynadı ancaq
Həyat kif içində, arzu müqəddəs.

Şəhriyar yazırdı ki, müqəddəs müəllimlik vəzifəsini şərəflə yerinə yetirənlər ölmür, çünki onların bütün həyatı dünyanı yaşadan eşqdir. O yazırdı:

Qaranlıq gecədə yadıma düşsən,
Xatirən nur olub yarar zülməti,
Adına, kölgənə səcdə qılaram
Mümkünmü unutmaq o pak xilqətdi.

Tələbə könlümdə yaşar müəllim
Bu yeri başqası tuta bilərmi?
Ürəyi yaşadan ustad eşqidir.
Eşqdir yaşadan bütün aləmi.

## Məhəmməd Hüseyn Şəhriyar qadın azadlığı və qadın təhsili haqqında

Türk qadınları heç bir zaman üzlərini bağlamamış, kişilərdən gizlənməmiş və cinsi pozğunluğa yol verməmişlər. Ancaq "Türkmənçay" və "Gülüstan" müqavilələsindən sonra Azərbaycanın 2 hissəyə bölünməsi bu xalqın siyasi azadlığını əlindən aldığı kimi, onun mübarizə əzmini də qırdı. Şimalda ruslar,

cənubda isə farslar özlərinin mentalitetinə uyğun adət-ənənələrini, güclə-zorla azərbaycan türklərinə aşılamağa başladılar. Bunlardan biri də çadra oldu. Hələ vaxtilə Qori seminariyasınm məzunu, jurnalist, yazıçı Hüseyn Minasazov yazırdı ki, qadının köləlik əlamətlərindən biri olan çadra, qara örtük aradan qalxmamış mədəni inkişafdan danışmaq olmaz. Çadra ilə mədəniyyət birgə inkişaf edə bilməz. O, yazırdı: "Çadra müsəlman qızlarınm əsrlərlə davam edən köləlik simvoludur və onların azadlığa və maarifə gedən yolun ən başlıca maneəsidir. Mən elə bir ölkə və xalq tanımıram ki, orada qadınların mütləq köləliyi və cəhaləti ilə yanaşı, mədəni inkişafı da mümkün olsun. Bu olan şey deyil. Əgər müsəlman həyatda öz mövqeini tutmaq əqidəsindədirsə, onda istər-istəməz qadınları çadradan xilas etməyin vacib olduğu fikrinə də gəlməlidir"[1]. Dünyanın bir çox qabaqcıl müsəlman ölkələrində çadradan əl çəkdilər. Ancaq İran çadranm açılmasından nəinki, imtina etdi, hətta Xomeyni inqilabından sonra daha da möhkəmlətdi və çadranı qadının həyasının əsas komponenti hesab etdi. Bir hadisəni demək istəyirəm. Həmkar professorlardan biri məruzə etmək üçün İrana getmişdi. Qayıdanda orada çox yaxşı məruzələr olduğunu söylədi və dedi ki, məruzələrdən sonra üzü bağlı çadraya bürünmüş bir qadın mənə yaxınlaşıb dedi ki: "Ağa atam və ərim sizi evimizə qonaq dəvət edirlər". Qadının qoca, cavan, çolaq, gözəl olduğunu bilmək mümkün deyildi. Onun qadınhğım bildirən tək səsi idi. Mən və yoldaşım dəvəti qəbul etdik. Aşağıda bizi maşında atası və əri gözləyirdi. Çox ləyaqətli adamlar idi. Evə daxil olduqda qadın çarşabı bir tərəfə tullayıb "ay görüm bu mollaları qırılsın, bizi nəfəs almağa qoymurlar. Qadın da, əri, atası da mütərəqqi görüşlü çox aqil azərbaycanlılar idi.

Mən Şəhriyarı tədqiq edərkən, gördüm ki, Cənubi Azərbaycanın da mütərəqqi adamları çadranm aradan götürülməsi uğrunda mübarizə aparırlar. Çadranın taxılmasından

---

1 Zaqafqaziya qəzeti, N:28, 1910-cu il 16 sentyabr.

hiddətlənən Şəhriyar "Hıqabın üzqaralığı" şerində yazırdı:

Ay tək üzündən at, gözəlim, o nicabı sən
Ta ki, xəcalət eyləyəsən ahu tabı sən.

Şəhriyar qadınları çadranı aradan qaldırmaq uğrunda mübarizəyə çağırırdı. Onları mədəni inqilaba səsləyirdi.

İnqilab bayrağı zülfündə gizlənir.
Tarix qandır, ey mələk, aləmi inqilabı sən.
Nöqsanı, eybə pərdə çəkər, gizlədər niqab,
Ey gül götür üzündən ayır o niqabı sən.
Ağlar bulud ki, gülşəni aləmdə gül-gülə.
Gülsən o gül kimi, dağıdarsan səhabı sən[1].

Şəhriyar qadınların öz, haqqları uğrunda mübarizə aparmalarını söyləyərkən yazırdı ki, sizin qara gününüz olan çadra Şeyxlərə ağ gün gətirmişdir. O, deyirdi sənin qara gününü çadra bir az da qara edib. Şəhriyar qadınları məhkumluqda saxlayan və bu məhkumluğu təbliğ edən, şeyxləri tənqid edərkən deyirdi ki, insan mey içəndə keflənir. Bizim şeyxlər isə insan qanını içməkdən kefli olurlar. Qadınlara müraciət edərək Şəhriyar onları cəhalətdən, xoş xəyallardan oyanmasını söyləyir və deyirdi ki, bu şər işlərdən yaxa qurtarmasanız aydınlıq yoluna çıxa bilməyəcəksiniz.

Öz həqqin istəyirsə qadın, söylə bir görək
Hardan, necə, nədən verəcəksən cavabı sən.
Ağ gün gətirdi şeyxə sənin qara paltarın,
Qara gününlə qara edibsən hicabı sən.
Neydən danışma şeyxə nə gərək?
Xalqın qanın içir, yerə əndər şərabı sən.
Düşdü, güzarımız yenə də qəm diyarına,
Bir yolluq eylə qafildən bu sərabı sən,

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. səh. 131.

Şərin çırağı olmasa aydındı yolların
Öz xeyir əməllərinlə qazandın savabı sən.

Şəhriyar başqa bir "Ey qadın" şerində də qadınların azadlıq uğrunda mübarizə aparmasını söyləyərkən onun bir qadın, bir ana kimi ülviliyini vurğulayaraq əynindən matəm paltarını çıxarmasını söyləyir və deyirdi ki, sən isa peyğəmbəri yaratmısan. Bəlkə də yeri göyü də yaradan sənsən. Matəm paltarını əynindən çıxart ki, günəşə bənzəyən yaraşıqlı sifətin görsənsin. Çıxart o matəm paltarını ki, yaxınlara şadlıq, yadlara ox olasan. Musiqi aləti kimi dillən, çal, çağır, oyna, gül ki, parçalanmış qəlbin ayılsın, şadlansın.

Yaxşı əməllər uğrunda mübarizə apar ki, şərəf-şöhrət bayrağını ucalda biləsən. Şəhriyar yazırdı ki, mən istəmirəm ki, sənin gözlərində qəm ləkəsi olsun. Sən bir aysan, sən ay camalını, əməlini, qeyrətini göstərmək üçün yumrula yumrugunu, vur şeyxin başına ki, səni zindanda saxlayan odur!

Sən ki, həyat nəfəsli, məsihə yaratmısan
Bəlkə yeri göyüdə elə sənsən yaradan.
Sən günəş timsalısan, yaraşıq,
Ox ol naməhrəmində, məhrəmində gözünə
Dinib-danışan saz ol, yan nəğmələr kimi,
Bu sonsuz kədərinlə parçalama qəlbimi
Şərəf-şan bayrağını ucalt öz əməlinlə
Səadət bayrağını sanc dünyaya əlinlə
İstərəm görünməsin bir də gözlərində nəm.
Mərd ol cəsarətini görsün bütün bu aləm.
Sən aysan öz başına yumruq niyə döyürsən?
Düyünlə yumruğunu, şeyxin başına döy sən[1].

Türk qızları tarixən mərd, qoçaq, at, minib ox atmağı bacaran, düşmən üstünə yeriyən, ərini dardan qurtaran Həcər, Tomris, Burla xatun kimi qəhrəmanlar olmuşlar. Bizim xalq ədəbiyyatında folklor nümunələrində qadınlar namuslu,

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. səh. 132.

şahlara məsləhət verən, zəhmət sevən, yüksək mənəviyyatlı qadınlar kimi səciyyələnmişlər. Şəhriyar da Azərbaycan qadınlarının qəhrəmanlığını vəsf edərkən "Əziz Azərbaycanıma xitab" şerində yazırdı:

Qadınları şəhsuvar, cəngavər qəhrəmandır.
Döyüşlərdə onlar döyüşən yıxandır[1].

Şəhriyar qadınları ancaq qəhrəman kimi deyil həm də ləyaqətli ana kimi də təsvir edərək onları mehriban, nəvə və nəticələrinə həyatını verən, kinsiz, riyasız, təsvir edərək göstərirdi ki, analarımızın laylası dərdlərimizi dağıdan, yaralarımızı sağaldan və heç nə ilə müqayisə edilməyəcək ilahi bir qüvvədir. Şəhriyar yazırdı:

İsti qucağındır cənnətim ana
Ülfətin şəfqətim, həsrətim ana
Əlimdən alsa da rüzigar səni,
Gözlərim daima axtarar səni[2].

Bizim analar həqiqətən müqəddəs analardır. Onlar uşaqlarından ötəri bütün həyatını gəncliyinin ən gözəl günlərini övlad, nəvə və nəticə tərbiyəsinə həsr edən analardır. Heç nahaq deyil ki, Şəhriyar xəstələnərkən anası 5 il başının üstünü kəsdirib onu yenidən həyata qaytarmışdı. Ona görə də Şəhriyar şerləri içərisində anasına, ümumiyyətlə analara, onların zəhmətli, ağır həyatına "behişt və cəhənnəm", "Əzizə", "Anama", "Əzizəcan", "Ey qadın", "Pəri", "Ey vay anam" və s. kimi şerlər yazmışdır:

Balalar yolunda keçdin canından,
Sən getdin dağıldı, sanki xaniman!

və yaxud:

Gözünlə baxsalar əgər dünyay
Heç kəsin qəlbində qalmaz kin, riya

Şəhriyar anaları mədh edərkən Məhəmməd Peyğəmbərin onlara qarşı yüksək münasibətini belə şərh edirdi.

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. səh. 392.
2 Yenə orada, səh. 445.

Bəşərdə anaya ehtiram olsa,
Tökməz bir-birinin qanını əsla
Dünyanı fəth etsə ana hörməti
Yaradar dünyada əsl cənnəti.
Belə söyləmişdir böyük Məhəmməd
"Ana ayağının altıdır cənnət".

## Məhəmməd Hüseyn Şəhriyar ekoloji tərbiyə haqqında

Şəhriyar vətənpərvər şairdir. Onun şerlərini, poemalarını oxuduqda heyrətə gəlirsən ki, insan nə qədər Vətənə dərin məhəbbət bəsləyə bilər. O, Vətənin dağını, bulağını, meşəsini, bağını elə təsvir edir ki, onu sevməmək olmaz. Şəhriyar Vətənin gözəlliyi, fauna-florasını qorumağı, onu gələcək nəsillərə ləyaqətli şəkildə verməyi tövsiyyə edir. Şəhriyarı təkcə Azərbaycanın deyil bütün dünyanın gözəlliyi və ekologiyası düşündürür. O dünyanın alimlərinə, mütərəqqi ziyalılarına, bütün insanlara müraciət edir ki, XX əsrin atom bombalarına qarşı çıxın, şəhərləri, ölkələri, meşə və ormanları, dağ və bulaqları məhv olmağa qoymayın. Bu cəhətdən onun məhşur fizik, atom bombasımn yaradıcısı Eynşteynə müraciəti olduqca maraqlıdır. O, deyir ki, insanlığı fəlakətə aparmayın, çalışın ixtira etdikləriniz dünyanın gözəlləşməsinə, insanların rifahına xidmət etsin. O, yazırdı ki, sizin bombalardan ağaclar quruyar, bulaqların suyu kəsilər, dağlar uçar, gül-çiçəklər solar, bülbüllər ötməz. Şəhriyar insanların təbiəti korladığını və ekologiyanın pisləşdiyini belə ifadə edirdi:

Hava insanı boğur baş-başa
"qaz-qarbonik" olmuş
El də əsmir, elə bil, yeldə səliman ilə getdi.

Şəhriyar insanlara müraciət edərək deyirdi ki, təbiət də insanlar kimi canlıdır. Ağacdan bir budaq da qırdıqda, o, qan yaş tökür, ağac ağlayır. Nə üçün biz şüurlu adamların ürəyi buza dönüb təbiəti qırıb dağıdır, ona ikrahla baxır. Təbiət meşəni, bulağı, dağı, gülləri ona görə verib ki, insanların ömrü uzansın, təmiz hava udsunlar, şən əhvali-ruhiyyə ilə yaşasınlar.

Şəhriyar yazırdı ki, əgər uçan durnaların biri geri qalanda, dəstə son mənzilə pərişan gedib çıxırsa, biz nə üçün bizə həyat verən təbiəti korlayıb, qırıb dağıdarıq. O, yazırdı:

Təbiət o böyük ağ saçlı ata,
Bizi bəxş edəndə bu kainata
Can verdi, qan verdi, qeyrət verdi ki,
Onu qoruyaq ona qayğı göstərək
Bizə əl verdi ki, imdada çataq
Yıxılan bir kəsin qolundan tutaq
Bizə ağıl verdi, vicdanlı, mətin,
Dərk edək dərdini bəşəriyyətin
Sussun o ürək ki, buzdan soyuqdur
Üzülsün o qol ki, yardımı yoxdur[1].

Şəhriyar təbiətə can verən, flora və faunanı yaşadan bulaqları, arx, kəhrizləri qorumağı lazım biləərək yazırdı:

Su axan yerdə çinarlar ucalar, kölgə salar.

Şəhriyar yazırdı ki, bir gülün də sındığını görəndə ürəyim ağrıyır.

Nə vəslini görəydim, ey gül nə hicranını.

Məlum olduğu kimi çaylara, göllərə axan bulaqlar yer altı sulardan qidalanır. Quraqlıq aylarında onun suları azalır, bağları, çəmən və zəmiləri sulamaq üçün su çatmır. Şəhriyar uşaqlığında müşahidə etdiyi bu mənzərəni sonralar şerlərində ürək ağrısı ilə yenidən xatırlayaraq, su mənbəələrini təmiz saxlamağı, bulaqların gözünü tutulmağa qoymamağı yazırdı:

Bulaq gəlib yenə gölü doldurur?
Ya quruyub bağçaları soldurur?
... Heydərbaba, sulu yerin düzündə,
Bulaq qaynar çay-çəmənin gözündə.

Şəhriyar "Dörd bir yanın bulaq olsun, bağ olsun" deyə dağları çılpaq, bulaqları qurumuş, ağacları ağlayan, quşları qəmli görmək istəmir. O, insanları təmiz havada, təmiz əhatədə yaşamağa çağırardı.

---

1 Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. səh. 338.

# SUMMARY

*"From Dede Korkud up to Shahriyar".*

*In the book "On the Pedagogical Thoughts in the Southern Azerbaijan". Alongside with Dede Korkud the pedagogical ideas of about 10 representatives of the Southern Azerbaijan, including Mahammad Shahriyar, Mirza Hasan Rushdiya and others are investigated. In this book the precious for the present - day youths qualities, such as moral, eashetic, education labour, physical training, ecologic and family upbringing, issues of folk education, pedagogical ethics, teachers behaviour and conduct, issues of women freedom, the education of women and other valuables thoughts have been deeply investigated and discovered. We hope that future investigators shall carry out still wider research works associated with Southern Azerbaijan. Apart from the investigation of pedagogical thoughts of Southern Azerbaijan, the pedagogical thoughts in Azerbaijan can hardly be imagined.*

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Mahmud Kaşkari "Divani-Lüğəti-it-Türk" çevrəni Besim Alatay. Türk Tarih Kurumu - Basımevi, Ankara, Atalay, cild 1- 1985.
2. Mahmud Kaşkari "Divani-Lüğəti-it-Türk" çevrəni Besim Alatay. Türk Tarih Kurumu - Basımevi, Ankara, Atalay, cild 2- 1985.
3. Mahmud Kaşkari "Divani-Lüğəti-it-Türk" çevrəni Besim Alatay. Türk Tarih Kurumu - Basımevi, Ankara, Atalay, cild 3- 1985.
4. Mahmud Kaşkari "Divani-Lüğəti-it-Türk" çevrəni Besim Alatay. Türk Tarih Kurumu - Basımevi, Ankara, Atalay, cild 4- 1985.
5. Mahmud Kaşkari "Divani-Lüğəti-it-Türk" çevrəni Besim Alatay. Türk Tarih Kurumu - Basımevi, Ankara, Atalay, cild -
6. Dr. Bahaddin Ögel. Türk kültür Tarihine giriş. 2-ci baskı, Aralık 1985, cild 1.
7. Dr. Bahaddin Ögel. Türk kültür Tarihine giriş. 2-ci baskı, Aralık 1985, cild 2.
8. Dr. Bahaddin Ögel. Türk kültür Tarihine giriş. 2-ci baskı, Aralık 1985, cild 3.
9. Dr. Bahaddin Ögel. Türk kültür Tarihine giriş. 2-ci baskı, Aralık 1985, cild 4.
10. Dr. Bahaddin Ögel. Türk kültür Tarihine giriş. 2-ci baskı, Aralık 1985, cild 5.
11. Dr. Bahaddin Ögel. Türk kültür Tarihine giriş. 2-ci baskı, Aralık 1985, cild 6.
12. Nəsrəddin Tusi "Əxlaqi-Nasiri". Bakı, 1980.
13. "Kitabi-Dədə Qorqud" dastanları. Bakı, 1980.
14. "Kitabi-Dədə Qorqud" dastanları. Bakı, 1962.
15. Kamal Abdullayev. "Gizli Dədə Qorqud". Bakı, 1991.
16. Azərbaycan məktəbi jurnalı. Bakı, 1967, N:9, səh. 59.
17. Azərbaycan məktəbi jurnalı. Bakı, 1976, N:11, səh. 69.
18. Cənubi Azərbaycan ədəbiyyatı antalogiyası. Bakı, 1981, cild 1.
19. Cənubi Azərbaycan ədəbiyyatı antalogiyası. Bakı, 1983, cild 2.
20. Cənubi Azərbaycan ədəbiyyatı antalogiyası. Bakı, 1988, cild 3.
21. Cənub ulduzları. Bakı, 1984.
22. A.Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966.
23. Əvəz Həbibov. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı, 1988.
24. Esmira Şükürova. Məhəmməd Hüseyn Şəhriyarın həyatı, mühiti, yaradıcılığı. Bakı, 1998.
25. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989.
26. Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı, Elm 2000.